# MÜQƏDDƏS KİTABIN İNCİLƏRİ

## Müqəddəs Kitabdan Şəkilli hekayələr



Müqəddəs Kitab tərcümə İnstitutu

KİTAB
BAKI
2017

# Müqəddəs Kitabın İnciləri

## Müqəddəs Kitabdan Şəkilli hekayələr

Tərtib edən
Borislav Arapoviç
Rəssam
Evelina Əliyeva
Tərcüməçi
Nahidə Rzayeva

Qeydlər üçün
ibt_inform@ibt.org.ru

ISBN 978-5-93943-234-4

© Институт перевода Библии, 2017

# Giriş sözü

## Əziz oxucular!

Sizin qarşınızda «Müqəddəs Kitabın inciləri» kitabıdır.

Müqəddəs Kitab hekayələrinə keçməzdən əvvəl Müqəddəs Kitab haqqında bir neçə söz demək istərdik. Bu Kitab çox vaxt Kitablar Kitabı adlanır. Nə üçün?

Birincisi və ən mühümü odur ki, Müqəddəs Kitab yalnız kitab deyil. Bu, insanlara ünvanlanan Allahın Kəlamıdır, buna görə də o, Müqəddəs Yazılar adlanır. Amma Müqəddəs Kitabın yaradılmasında insan da iştirak edib. Bunu Müqəddəs Ruhdan ilham alan peyğəmbərlər, məzmurçular, həvarilər yazmışdılar. İndi də Kitabın səhifələrində yalnız Allahdan nazil olan açıqlamalar deyil, həmçinin bu açıqlamaları qəbul edən, qoruyan və bizə çatdıran insanların səsini eşidirik. Müqəddəs Kitabda bütün suallara hazır cavab yoxdur. Amma orada Allahla insanın münasibətlərindən danışılır. Bu Kitabda Allahdan dönmüş insanın Allahla itirilmiş münasibətlərinin bərpasından yazılıb.

İkincisi, Müqəddəs Kitab dünyada ən çox oxunan və tərcümə olunan kitabdır.

Çap maşını icad olanda, çap olunan ilk kitab Müqəddəs Kitab idi. Bu gün Müqəddəs Kitab haqqında eşitməyənləri yalnız dünyanın ən ucqar yerlərində tapmaq olar. Bütöv Müqəddəs Kitab və ya onun ayrı-ayrı hissələri bir sıra dillərə tərcümə olunub. Məsihçilər Müqəddəs Kitabda öz imanının qaynağını və ruhani həyatın idarə olunmasını tapırlar. Hətta dindən uzaq olan adamlar daim Müqəddəs Kitab

mövzularına və təsvirlərinə müraciət edirlər. Hər muzeydə İbrahimi, Davudu, Bakirə Məryəmi, İsa Məsihi təsvir edən şəkillərə və heykəllərə rast gəlinir. Müqəddəs Kitabın səhifələrindən «Nuhun gəmisi», «Allah qorxusu müdrikliyin başlanğıcıdır», «Quyu qazan özü quyuya düşər», «Firon kimi qəzəblənir», «İnsan nə əkərsə, onu da biçər» və s. ifadələr dilimizə həmişəlik daxil olub.

Üçüncüsü, kitablar Kitabı olan Müqəddəs Kitab əslində müxtəlif vaxt dövrlərində yazılmış onlarca kitablardan ibarətdir. Müqəddəs Kitab həcmcə iki qeyri-bərabər hissəyə bölünür: Əhdi-Ətiq və Əhdi-Cədid.

Əhdi-Ətiq kitabları Miladdan çox-çox əvvəl qədim İbrani və qismən Arami dilində yazılmışdı. Əhdi-Ətiq Allahın dünyanı necə yaratdığından başlayır. Sonra insanın Allahdan dönməsi və həyatını Onsuz qurması barədə yazılır. Lakin Allah insanı Öz məhəbbət və qayğısından məhrum etmədi. Allah Onu çağıranlara həmişə cavab verib. O, yer üzündəki bütün xalqların arasından bir xalqı – İsrail xalqını seçdi və onunla əhd (yəni saziş) bağladı. Allahın seçilmiş xalqının tarixi Əhdi-Ətiqin əsas mövzusudur.

Əhdi-Ətiqə müxtəlif kitablar daxildir. Bəziləri İsrail tarixindən, onun başçılarından və peyğəmbərlərdən, başqa xalqlardan və qədim dövrün böyük hadisələrindən danışır. Belə kitablar tarixi kitablar adlanır. Digər kitablar peyğəmbərlik kitabları adlanır. Oraya peyğəmbərlərin alovlu ifşaları və peyğəmbərlikləri daxildir. Onlar xalqı öz Allahına sadiq olmağa çağırır və gələcək dövrlərin əsrarəngiz hadisələri barəsində xəbərdarlıq edirdilər. Əhdi-Ətiqdə poetik kitablar da var. Məsələn, Zəbur Kitabı ilahilər və dualar kitabıdır; elə kitablar da var ki, qədim müdriklərin hikmətli kəlmələrini bizə çatdırır. Belə kitabların biri «Süleymanın Məsəlləri»dir. Əhdi-Ətiq yüzilliklər ərzində yazılmışdır,



buna görə də onun kitabları bir-birinə bənzəmir. Amma əsas mühüm anlayışda yekdillik var: əgər insan özü Allahdan dönmürsə, Allah əsla onu tərk etmir.

Əhdi-Cədid 1-ci əsrin ikinci yarısında qədim Yunan dilində yazılmışdır. O, nə əvvəl, nə də sonra baş vermiş hadisələrdən – ancaq Allahın Oğlu İsa Məsihin anadan olması, xidməti, ölümü və dirilməsi, Onun təməlini qoyduğu ilk İmanlılar Cəmiyyətindən danışır. Bu hadisələrin əsas mənasını müjdəçi Yəhya bir neçə sözlə ifadə etmişdi: «Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun» *(Yəhya 3:16)*.

Bu xəbər, həqiqətən, Xoş Xəbər idi. Yunan dilində bu «Evangelye» kimi səslənir. Azərbaycan dilində Xoş Xəbər, yaxud Müjdə adlanır. Əhdi-Cədidin ilk dörd kitabı məhz belə adlanır. Bu kitablar bütün dünya məsihçiləri üçün çox mühümdür, çünki orada İsa Məsihin yer üzündəki həyatından danışılır və Onun təlimi çatdırılır. Onları müjdəçilər Matta, Mark, Luka və Yəhya yazmışdı. Sonra gələn kitab «Həvarilərin İşləri»dir. Onun müəllifi ilk həvarilərdən biri olan Lukadır. Bu kitabda ilk məsihçilərdən, onların müxtəlif şəhərlərdə Məsihə iman toxumlarını səpmələrindən və Ümumdünya İmanlı Cəmiyyətindən danışılır.

Əhdi-Cədidə həmçinin həvari Paulun və bir neçə digər həvarilərin, yəni İsa Məsihin Müjdəsini yayan şagirdlərin məktubları daxildir. Bu məktublar ilk məsihçilərə ünvanlanıb. Onlarda imanda nəsihətlər və məsihçinin həyat tərzindən yazılıb. Bu gün də, iki min il keçdikdən sonra Müqəddəs Yazılar köhnəlməyib və bizim çağdaşlarımıza çox şey öyrədə bilər.

Əhdi-Cədidin sonuncu kitabı «Vəhy» (yunan dilində «Apokalipsis») adlanır. Onun müəllifi İsa Məsihin şagirdi

Yəhyadır. Bu kitab məzmununa görə peyğəmbərlik kitabıdır. Orada axır zamandan, tarixin sonundan danışılır. Bu kitab həm də ümidlə doludur: insanların başlarına nə fəlakətlər gəlsə də, bir gün hamısı sona yetəcək. Bu dünya məhv olacaq, onun əvəzinə ən yaxşı və əbədi dünya gələcək. Müqəddəs Kitab onu «Yeni göy və yeni yer» adlandırır. *(Vəhy 21:1)*.

«Müqəddəs Kitabın inciləri» kitabında hekayələr və Müqəddəs Kitabın seçilmiş mətnlərindən birbaşa sitatlar var. Müqəddəs Yazıların sitatları və yaxud nəql olunan mətnlərə istinadlar hər hissənin sonunda göstərilib. Bəzi çətin sözlərin izahı kitabın axırında verilib.

Əvvəlcə bu kitab gənc oxucular üçün nəzərdə tutulmuşdu, lakin böyüklərin də ona maraq göstərdikləri aşkar oldu. 1990-cı ildən böyükləri də nəzərə alaraq əlavələr etməyə başladıq. Bu nəşrdə bir çox mətnlər yenidən redaktə edildi.

Bu kitabı hazırlamaq heç də asan məsələ deyildi. Müqəddəs Kitabdan hansı hissələr seçilməlidir? Nəyi ixtisara salmalı, nəyi oxucuya tam şəkildə təqdim etməli? Seçimimizin nə qədər uğurlu olması haqda biz rəy verə bilmərik. Lakin hər halda, bu nəşr bütün Müqəddəs Kitabda olan xəzinələrin hətta bir kiçik qismini belə, daxil etmir. Ümid edirik ki, «Müqəddəs Kitabın inciləri» kitabı sizi Allahın Kəlamına aparan yolun ilk addımı olacaq və bu yolla ömür boyu yerimək olar.

Mətndə ulduzla * işarələnən sözlər Lüğətdə izah olunub.

*Müqəddəs Kitab tərcümə İnstitutunun həmkarları*

# ƏHDİ-ƏTİQ

## Dünyanın yaranması

Başlanğıcda heç nə yox idi, hər yer qaranlıq zülmət idi. O zaman göy, işıq, bitkilər, heyvanlar və bu zülməti görə biləcək insanlar da mövcud deyildi. Amma Allah hər şeyin əbədi olaraq belə qalmasını istəmədiyi üçün O, bu dünyanı yaratdı. Heç nə öz-özünə yaranmır: gözəlliklə dolu olan dünya öz uca və müdrik Yaradanı haqqında şəhadət edir. Müqəddəs Kitab Allahın Öz Sözü ilə dünyanı yaratmasını təsvir edir.

Başlanğıcda Allah göyləri və yeri yaratdı.

Yer quruluşsuz və boş idi. Dərin sular üzərində qaranlıq var idi. Allahın Ruhu suların üzərində dolaşırdı.

Allah dedi: «Qoy işıq olsun». İşıq oldu.

Allah gördü ki, işıq yaxşıdır. Sonra O, işığı qaranlıqdan ayırdı.

Allah işığı «gündüz», qaranlığı isə «gecə» adlandırdı. Axşam oldu, səhər açıldı; bu, birinci gün idi.

Sonra Allah dedi: «Qoy suların arasında bir qübbə olsun və suları bir-birindən ayırsın».

Allah qübbəni yaratdı və qübbənin altındakı suları onun üstündəki sulardan ayırdı. Belə də oldu.

Allah qübbəni «göy» adlandırdı. Axşam oldu, səhər açıldı; bu, ikinci gün idi.

Sonra Allah dedi: «Qoy göyün altındakı sular bir yerə yığılsın ki, quru görünsün». Belə də oldu.

Allah qurunu «yer», su yığınlarını isə «dənizlər» adlandırdı. Allah gördü ki, bu, yaxşıdır.

Sonra Allah dedi: «Qoy yer üzü bitkilər yetirsin: toxumlar bitirən ot-ələf və torpaqda hər növ bəhərli ağaclar yetişsin. Ağaclar meyvə gətirsin və toxumları meyvələrinin içində olsun». Belə də oldu.



Yer üzü bitkilər yetirdi: hər növ toxum bitirən ot-ələf və hər növ ağac yetişdi. Ağaclar meyvə gətirirdi və toxumları meyvələrinin içində idi. Allah gördü ki, bu, yaxşıdır.

Axşam oldu, səhər açıldı; bu, üçüncü gün idi.

*YARADILIŞ 1:1–13*



## Dünyanın yaranması
### (davamı)

Sonra Allah dedi: «Qoy göy qübbəsində gecəni gündüzdən ayıran çıraqlar olsun. Onlar işarələri, fəsilləri və günlərlə illəri göstərsin.

Qoy onlar göy qübbəsində çıraq olub, yer üzünə işıq saçsın». Belə də oldu.

Allah iki böyük çıraq yaratdı: gündüzü idarə etmək üçün böyük çıraq, gecəni idarə etmək üçün kiçik çıraq. O həmçinin ulduzları yaratdı.

Allah onları göy qübbəsinə qoydu ki, yer üzünə işıq saçsın, gündüzü və gecəni idarə etsin, işığı qaranlıqdan ayırsın. Allah gördü ki, bu, yaxşıdır.

Axşam oldu, səhər açıldı; bu, dördüncü gün idi.

Sonra Allah dedi: «Qoy sular çoxlu canlı məxluqlarla qaynaşsın, yer üstündəki göy qübbəsində quşlar uçsun».

Allah nəhəng su əjdahalarını və suda qaynaşan hər növ bütün sürünən canlı məxluqları, həmçinin hər növ bütün qanadlı quşları yaratdı. Allah gördü ki, bu, yaxşıdır.

Allah onlara bərəkət verərək dedi: «Törəyib çoxalın və dənizlərdəki suları doldurun, quşlar da yer üzündə çoxalsın».

Axşam oldu, səhər açıldı; bu, beşinci gün idi.

Sonra Allah dedi: «Qoy yer üzü hər növ canlı məxluqlar – hər növ ev heyvanları, sürünən canlılar və çöl heyvanları əmələ gətirsin». Belə də oldu.

Allah hər növ çöl heyvanlarını, hər növ ev heyvanlarını və yerdə sürünən bütün canlıları yaratdı. Allah gördü ki, bu, yaxşıdır.

Qüdrətli Yaradanın sözü ilə yaradılmış torpaq rahatlıq və ecazkar gözəlliklə nəfəs alırdı. Amma yaradılış hələ



tamamlanmamışdı. Allah insanları yaratmaq qərarına gəldi ki, onlar bu gözəl dünyada yaşayıb öz Yaradanı ilə ünsiyyətdə olsunlar.

*YARADILIŞ 1:14–25*



## İlk insanların yaradılması

Sonra Allah dedi: «Öz surətimizə və bənzərimizə görə insanı yaradaq. Qoy o, dənizdəki heyvanlara, göydəki quşlara, yerdəki heyvanlara, bütün yer üzünə və yerdə sürünən canlıların hamısına hökmranlıq etsin».

Allah insanı Öz surətində yaratdı, Allahın surətində yaratdı, onları kişi və qadın olaraq yaratdı.

Allah onlara xeyir-dua verərək dedi: «Törəyib çoxalın və yer üzünü bürüyüb ona sahib olun: dənizdəki heyvanlar, göydəki quşlar, yerdə sürünən bütün canlılar üzərində hökmranlıq edin». Allah dedi: «Budur, yer üzündə toxum verən bütün ot-ələfi və meyvələrində toxumu olan bütün ağacların bəhərini sizə verirəm ki, qidalanasınız. Yerdəki heyvanların, göydəki quşların və yerdə sürünən canlıların hamısına – nəfəsi olan bütün canlılara isə yem olmaq üçün bütün yaşıl otları verirəm». Belə də oldu.

Allah gördü ki, yaratdığı hər şey çox yaxşıdır. Axşam oldu, səhər açıldı; bu, altıncı gün idi. Göylər və yer, oradakı hər şey beləcə tamamlandı. Allah yeddinci günə qədər gördüyü işləri qurtardı və yeddinci gün gördüyü işlərdən ayrılıb istirahət etdi.

Allah yeddinci günə bərəkət verdi və onu təqdis* etdi, çünki gördüyü bütün yaratma işini qurtarıb həmin gün istirahət etdi.

Allah insanları gözəl və xoşbəxt yaratdı. Onlar öz Yaradanını və bir-birlərini sevirdilər. Kişinin adı Adəm, qadının isə adı Həvva idi.

Allah yaratdığı torpağı Adəm və Həvvaya verdi ki, onlar onun qayğısına qalsınlar. Rəbb Adəm və Həvvaya xeyir-dua verib, Edendə, şərqdə cənnət bağı əkib onları orada



yerləşdirdi. Allah Adəm və Həvvaya bu bağı qorumağı və becərməyi tapşırdı.

*YARADILIŞ 1:26–31; 2:7–22*



## Adəmlə Həvvanın cənnətdən qovulması

Amma Adəm və Həvva Allahın sözünə qulaq asmadılar və O, onları cənnətdən qovdu. Bu, belə baş verdi.

Rəbb onlara bağdakı bütün ağacların meyvələrindən yeməyə icazə vermişdi. Yalnız xeyirlə şəri bilmə ağacının meyvəsindən yeməyə icazə vermədi. Allah dedi ki, onlar bu əmri pozsalar, öləcəklər.

Allaha qarşı çıxan şeytan Adəmlə Həvvanı məhv etmək istəyirdi. Bir dəfə o, ilan görkəmində Həvvanın yanına gəlib dedi: «Doğrudanmı, Allah sizə "bağda olan heç bir ağacın bəhrələrindən yeməyin" deyib?» Həvva cavab verdi: «Bağdakı ağacların bəhrələrindən yeyə bilərik. Amma bağın ortasındakı ağacın meyvələri barədə Allah deyib: "Ondan yeməyin və ona toxunmayın, yoxsa öləcəksiniz!"» İlan dedi: «Yox, əsla ölməzsiniz. Əksinə, Allah bilir ki, o meyvələrdən yediyiniz gün gözləriniz açılacaq və xeyirlə şəri bilərək Allah kimi olacaqsınız».

Həvva gördü ki, ağacın meyvələri yemək üçün yaxşıdır, gözə xoş görünür və bilik vəd etdiyi üçün cəzb edir. O, ağacdan meyvə dərdi və yedi və əri Adəmə də verdi. Adəm də meyvəni yedi. Allah Adəmə dedi: «Arvadının sözünə qulaq asdığın üçün, qadağan etdiyim, "meyvəsini yemə" dediyim ağacdan yediyin üçün sənə görə torpaq lənətlənir. Ömrün boyu zəhmətlə torpaqdan yemək əldə edəcəksən. O, sənə tikan və qanqal bitirəcək, sən də çöldəki ot-ələfi yeyəcəksən. Alın tərinlə çörək yeyəcəksən. Axırda torpağa qayıdacaqsan, çünki oradan götürülmüsən, ona görə ki yerin torpağısan, torpağa da qayıdacaqsan». Rəbb Adəmlə Həvvanı cənnət bağından qovdu və onlar bir daha ora qayıda bilmədilər.

İlk insanların günaha batması belə baş verdi.

*YARADILIŞ 3:1–23*





## Qabil və Habil

Adəmlə Həvvanın iki oğlu var idi. Onlardan biri, Habil qoyun otarırdı, Qabil isə əkinçi idi.

Bir gün Qabil məhsulunun bir hissəsini Rəbbə təqdim etdi. Habil də Rəbbə təqdim gətirdi. Bu, sürüsünün ilk doğulan quzuları idi. Rəbb Habili və onun təqdimini qəbul etdi, amma Qabili və onun təqdimini qəbul etmədi. Qabil qəzəbləndi və üzü kədərləndi. O zaman Rəbb Qabilə dedi: «Niyə qəzəblənmisən? Niyə qaşqabağını sallamısan? Əgər yaxşı iş görürsənsə, Mən qəbul etmərəmmi? Əgər yaxşı iş görmürsənsə, günah qapının ağzında durub. Onun meyli sənədir, ancaq sən ona üstün gəlməlisən». Amma Qabil qardaşı Habilə qarşı ürəyində kin saxladı. Bir gün qardaşlar çöldə olanda Qabil Habilə hücum edib onu öldürdü. Torpaq Qabilin qanına boyandı.

Rəbb Qabili günahına görə cəzalandırdı və onu yer üzündə qaçaq və sərgərdan etdi.

*YARADILIŞ 4:2–12*





## Daşqın. Nuhun gəmisi

Yüzilliklər keçdi, yer üzündə Adəm və Həvvanın övladları sakin oldular. Əvvəllər onlardan çoxu Allahdan qorxur və Ona xidmət edirdilər, amma tədricən Allahın iradəsinə qarşı çıxmağa başladılar. Yalnız bir nəfər, Nuh adlı bir insan öz Yaradanına sadiq qalaraq Onun iradəsini yerinə yetirirdi. Həvari Peter onu «salehliyi bəyan edən» adlandırdı *(2 Peter 2:5)*. Allahın Ruhu Nuhun ürəyində yaşayırdı.

Rəbb gördü ki, insanların yer üzündə pis işləri çoxalır, onların niyyəti və ürəkləri şərə doğru yönəlmişdir. Heç kim saleh həyat tərzi sürmürdü. Onda Allah dedi: «Yaratdığım insanları yer üzündən siləcəyəm, çünki onları yaratmağıma peşman olmuşam».

Rəbb yalnız Nuhdan razı idi. Allah Nuha dedi: «Önümdə olan bütün bəşərin sonu çatıb, çünki yer üzü onların zorakılığı ilə dolub. Buna görə də Mən onları yer üzü ilə birgə məhv edəcəyəm. Özünə qofer ağacından bir gəmi düzəlt, onun içində otaqlar düzəlt, üstünə içəridən və bayırdan qatran vur. Bax Mən yer üzünü suya qərq edəcəyəm ki, göylər altında həyat nəfəsi olan bütün canlılar məhv olsun və yer üzündə olanların hamısı öləcək. Ancaq əhdimi səninlə bağlayıram. Sən oğulların, arvadın və gəlinlərinlə birgə gəmiyə minərsən».

*YARADILIŞ 6:5–18*





## Daşqının başlanğıcı

Nuh hər şeyi etdi: Allah ona necə əmr etmişdisə, o da hər şeyi eləcə yerinə yetirdi. Gəmi hazır olanda Rəbb Nuha dedi: «Sən bütün ailənlə birgə gəmiyə gir, çünki bu bəşər nəsli içində yalnız səni önümdə saleh gördüm. Hər pak heyvanın erkək və dişisindən yeddi cüt, hər murdar heyvanın erkək və dişisindən bir cüt götür, həmçinin göydəki hər quşun erkək və dişisindən yeddi cüt götür; qoy bütün yer üzündə onların nəsli kəsilməsin. Çünki yeddi gün sonra yer üzünə qırx gün-qırx gecə yağış yağdıracağam və yaratdığım bütün canlıları yer üzündə məhv edəcəyəm».

Rəbb Nuha necə əmr etmişdisə, o da hər şeyi eləcə yerinə yetirdi. O, gəmiyə arvadı, oğulları və gəlinləri ilə birgə daxil olub, özü ilə yeddi cüt pak və bir cüt murdar heyvanları götürdü. Hamı gəmiyə girəndən sonra onların dalınca Rəbb gəminin qapısını örtdü. Yeddi gündən sonra leysan başlandı və qırx gün-qırx gecə davam etdi. Su artaraq gəmini yuxarı qaldırdı və o, suyun üzərində üzməyə başladı. Daşqın o qədər güclü idi ki, hətta ən uca dağlar suyun altında qaldı. Bütün canlı məxluqlar tələf oldu: adamlar, heyvanlar, quşlar – hər şey yer üzündən silindi. Sağ qalanlar isə yalnız Nuh və onunla gəmidə olanlar idi.

*YARADILIŞ 7:1–23*





## Daşqının sonu

Daşqın yüz əlli gün davam etdi. Allah Nuhu və onunla birgə gəmidə olan bütün heyvanları yada saldı. Allah yer üzünə külək göndərdi, göydən yağan yağış dayandı və su yavaş-yavaş çəkilməyə başladı. Nuhun gəmisi Ararat dağlarında dayandı. Qırx gündən sonra Nuh gəminin pəncərəsini açdı və suyun yer üzündən çəkildiyini öyrənmək üçün bir qarğa buraxdı. Qarğa uçub getdi və yer üzündə su quruyana qədər hər tərəfi dolaşdı. Sonra Nuh bir göyərçin buraxdı. Amma göyərçin gəmiyə, Nuhun yanına qayıtdı, çünki su hələ də yer üzünü örtürdü. Yeddi gün keçdikdən sonra Nuh yenə göyərçini gəmidən buraxdı. Axşam göyərçin ağzında zeytun ağacının budağı Nuhun yanına qayıtdı. Beləliklə, Nuh daşqının qurtarmasından xəbər tutdu. Nuh yeddi gün də gözlədi və yenidən göyərçini buraxdı, o isə bir daha qayıtmadı. Onda Nuh gəminin qapısını açdı və gördü ki, yer üzü qurudur. Allah Nuha dedi: «Sən öz arvadın, oğulların və gəlinlərinlə birgə gəmidən çıx. Səninlə birgə olan bütün canlıları – quşları, heyvanları və yerdə sürünənləri bayıra çıxart. Qoy yer üzünə yayılsınlar və yer üzündə törəyib çoxalsınlar».

*YARADILIŞ 7:24 – 8:17*





## Göy qurşağı və Allahla insanın əhdi

Nuh və onun ailəsi gəmidən çıxdılar, bütün heyvanları və quşları buraxdılar. Heyvanlar bütün yer üzünə yayıldı, quşlar isə uçub getdi.

Nuh daşlardan bir qurbangah* düzəltdi. Sonra bütün pak heyvanlardan və quşlardan götürüb, onları Allaha qurban* gətirdi. Nuhun qurbanı Allaha məqbul idi və O qərara gəldi: «Cavanlığından bəri insan ürəyinin fikirlərinin həmişə pis olmasına baxmayaraq, insanlara görə bir daha yer üzünü lənətləməyəcəyəm. İndi elədiyim kimi bütün canlıları bir daha məhv etməyəcəyəm. Dünya durduqca əkin-biçin, isti-soyuq, yay-qış və gecə-gündüz sona yetməyəcək».

Allah Nuha və onun oğullarına xeyir-dua verib dedi: «Mən sizinlə, sizdən sonrakı nəslinizlə Öz əhdimi bağlayıram, gəmidən çıxan yer üzündəki bütün canlı məxluqlarla – quşlar, ev heyvanları və bütün çöl heyvanları ilə əhdimi bağlayıram. Sizinlə Öz əhdimi qoyuram ki, bütün canlılar bir daha daşqınla məhv olmayacaq və heç vaxt yer üzünü viran edən daşqın baş verməyəcək».

Allah yenə dedi: «Mənim sizinlə və sizinlə olan bütün canlılarla nəsillər boyu əbədi olaraq bağladığım əhdin əlaməti budur: buludda Öz göy qurşağımı qoyuram ki, Mənimlə yer üzü arasında olan əhdin əlaməti olsun. Mən yer üzünə bulud gətirdiyim zaman buludda göy qurşağı görünəcək. Onda Mən sizinlə və bütün canlı məxluqlarla bağladığım əhdi yada salacağam. Sular bir daha daşqına çevrilib bütün canlıları məhv etməyəcək. Buludda göy qurşağı olacaq. Mən Allah onu görüb yer üzündə yaşayan bütün canlı məxluqlarla bağladığım əbədi əhdi yada salacağam». Allah yenə Nuha dedi: «Mənim yer üzündə yaşayan bütün canlılarla bağladığım əhdin əlaməti budur».

*YARADILIŞ 8:18–22; 9:8–17*





## Babil qülləsi

Nuhun oğullarının çoxlu övladları oldu. Daşqından sonra yer üzünün bütün xalqları onlardan əmələ gəldi. Amma elə oldu ki, daşqından sonra da insanlar yaxşı olmadı.

O zaman bütün dünyada bir dil var idi və hamı o dildə danışırdı. Bir gün insanlar bir yerə toplaşıb bir-birlərinə dedilər: «Gəlin özümüzə bir şəhər və başı göylərə çatan bir qüllə tikib ad çıxaraq, daha bütün yer üzünə yayılmayaq». Rəbb bəşər övladlarının tikdiyi şəhəri və qülləni görmək üçün aşağı endi və dedi: «Budur, onların hamısı bir xalqdır və bir dilləri var. Buna görə də bu işi görməyə başlamışlar və indi etmək istədikləri işə heç kəs mane olmayacaq. Gəlin aşağı enib orada onların dilini qarışdıraq ki, bir-birlərinin dilini başa düşməsinlər». Bu yer elə-belə də adlanır – Babil, yəni «qarışdırmaq».

Rəbb insanları bütün yer üzünə yaydı və onlar öz şəhərlərini tikib qurtara bilmədilər.

*YARADILIŞ 11:1–9*





## İbrahim

Bu şəkildə İbram təsvir olunub. Sonralar Allah ona İbrahim adını verdi. Bunun tərcüməsi «çox millətlərin atası» deməkdir. İbrahim Allaha çox etibar edirdi, Ona itaətkar və sadiq idi. Rəbb bizə də Müqəddəs Yazılarda* deyir: *Əgər sizə əmr etdiyim şeylərə əməl etsəniz, siz Mənim dostlarımsınız (Yəhya 15:14).*

Bir gün Rəbb İbrahimə dedi: «Öz torpağından, qohumlarının arasından, ata evindən çıx, sənə göstərəcəyim torpağa get. Səndən böyük bir millət törədəcəyəm, sənə xeyir-dua verəcəyəm, adını ucaldacağam və bərəkət qaynağı olacaqsan. Sənə xeyir-dua verənlərə xeyir-dua verəcəyəm, sənə lənət edənləri lənətləyəcəyəm. Yer üzünün bütün tayfaları sənin vasitənlə xeyir-dua alacaq».

İbrahim Rəbbin ona əmr etdiyi kimi etdi. İbrahim özü ilə arvadı Sarayı, qardaşı oğlu Lutu, bütün əmlakını, nökərlərini götürüb Rəbbin ona göstərdiyi Kənan torpağına tərəf yola düşdü.

Onlar Kənan torpağına gəldilər və orada More palıdının yanında Rəbb İbrahimə görünüb dedi: «Bu torpağı sənin nəslindən olana verəcəyəm».

*YARADILIŞ 12:1–7*





## İbrahim və Lut

İbrahim və onunla olanlar Rəbbin onlara göstərdiyi Kənan torpağını dolaşırdılar. Bet-Elin yaxınlığına çatdıqda orada qaldılar.

İbrahim çox varlı idi. Onun qızıl-gümüşü və çox sürüləri var idi. Onun qardaşı oğlu Lutun da öz çadırları, mal-qarası, qoyun-keçisi var idi. Onların əmlakı və malı o qədər çox idi ki, birgə qalmaq onlara darlıq edirdi. İbrahim və Lutun çobanlarının arasında mübahisələr başlandı. Onda İbrahim Luta dedi: «Qoy mənimlə sənin və çobanlarımla çobanların arasında mübahisə olmasın, çünki biz qohumuq. Bütün torpaqlar gözünün önündə deyilmi? Gəl ayrılaq. Əgər sən sola getsən, mən sağa gedəcəyəm, sən sağa getsən, mən sola gedəcəyəm».

Lut ətrafda olan torpağa nəzər saldı. O gördü ki, İordan çayının kənarındakı düzənlik çox münbitdir və yaxşı suvarılır. Lut özünə bu yeri seçdi və İbrahimdən ayrılaraq Sodom şəhərinədək öz çadırlarını qurdu. Bu yerlərin sakinləri çox pis adamlar idi və Rəbbə qarşı çoxlu günah edirdilər.

*YARADILIŞ 13:1–18*





## Allahın İbrahimə verdiyi vəd

Lut İbrahimdən ayrılandan sonra Rəbb ona dedi: «Başını qaldırıb dayandığın yerdən şimala, cənuba, şərqə və qərbə tərəf bax. Gördüyün bütün torpaqları əbədi olaraq sənə və nəslinə verəcəyəm. Nəslini yerin tozu qədər çoxaldacağam. Əgər bir nəfər yerin tozunu saya bilərsə, sənin nəslini də saya bilər».

İbrahim Mamre palıdının yanında məskunlaşdı və orada Rəbbə bir qurbangah düzəltdi.

Bir müddət keçəndən sonra Allah yenə də İbrahimə göründü və dedi: «Sənin qalxanın Mənəm. Mükafatın çox böyük olacaq». İbrahim isə Rəbbə cavab verdi: «Ey Xudavənd Rəbb, mənə nə verəcəksən? Sən mənə övlad vermədiyin üçün evimin nökəri mənim varisim olacaq». Rəbb bu sözlərə belə cavab verdi: «O, sənin varisin olmayacaq, sənin öz övladın varisin olacaq». Sonra O, İbrahimi çadırdan kənara çıxarıb dedi: «Göyə bax, oradakı ulduzları saya bilərsənsə, say. Nəslin o qədər olacaq».

İbrahim Rəbbə inandı və Rəbb bunu ona salehlik saydı.

Allah yenə İbrahimə dedi: «Arvadın Saraya isə artıq Saray demə. Bundan sonra onun adı Sara olacaq. Ona xeyir-dua verəcəyəm, ondan sənə bir oğul verəcəyəm. Saraya xeyir-dua verəcəyəm: o, millətlərin anası olacaq və xalqların padşahları ondan doğulacaq».

*YARADILIŞ 13:14–16; 15:1–6; 17:15–16*





## Allahın üç mələyi İbrahimin yanına gəlir

Bir dəfə günorta istisində İbrahim çadırının girəcəyində oturmuşdu. Birdən o, qarşısında duran üç nəfəri gördü. İbrahim başa düşdü ki, bunlar Rəbb tərəfindən göndərilmiş mələklərdir. İbrahim onları qəbul etdi və onlar üçün yemək-içmək hazırladı. Onlar yeyib qurtarandan sonra onlardan biri İbrahimə dedi: «Gələn il bu vaxt yenə də sənin yanına gələcəyəm. Onda arvadın Saranın bir oğlu olacaq». Sara bu sözləri eşidərək öz-özünə gülüb dedi: «Qocaldığım halda mənə belə şadlıq üz verə bilərmi?»

Amma Rəbb İbrahimə dedi: «Sara niyə güldü? Rəbb üçün çətin bir şey varmı? Gələn il bu vaxt Mən yenə sənin yanında olacağam və Saranın bir oğlu olacaq».

Təyin olunan vaxtda Rəbb Öz vədini yerinə yetirdi, çünki O, həmişə vədlərinə sadiqdir. Onun üçün mümkün olmayan şey yoxdur.

*YARADILIŞ 18:1–19; 21:1–3*





## Sodom və Homorra şəhərlərinin məhv olması

Dörd şəhər – Sodom, Homorra, Adma və Sevoim göydən gələn alovla məhv edildi. Bu şəhərin sakinlərinin pozğunluğu və bir çox digər ağır günahlarının üzündən Rəbbin qəzəbi alovlanmışdı. Allah İbrahimə bəyan edəndə ki, Sodom məhv olacaq, İbrahim Ona yalvardı ki, bu şəhərə rəhm etsin. Rəbb də İbrahimə vəd etdi ki, əgər orada heç olmasa on nəfər saleh tapılsa, onların xatirinə şəhər məhv edilməyəcək. Amma Sodomda hətta on nəfər saleh də tapılmadı. Hadisələr belə baş verdi. Sodomda Lut adlı saleh adam arvadı və qızları ilə yaşayırdı. Allah bu şəhərə insan simasında iki mələk göndərdi. Bu, axşam baş vermişdi. Qonaqpərvər Lut onları evində qəbul etdi və onların mələk olduğunu bilmirdi.

Onlar yatmazdan əvvəl şəhərin hər tərəfindən gələn sodomlular, cavandan tutmuş qocaya qədər bütün xalq Lutun evini mühasirəyə aldılar. Onlar Lutu çağırıb dedilər: «Bu gecə evində gecələməyə gələnlər haradadır? Onları bizim yanımıza gətir». Lut bayıra – onların yanına çıxıb arxasınca qapını örtdü və dedi: «Qardaşlarım, bu adamlara pislik etməyin, axı onlar mənim evimə gəliblər». Amma onlar dedilər: «Sən özün qəribsən və bizə ağalıq edəcəksən? İndi səninlə onlardan da pis rəftar edəcəyik». Sodomlular Lutun üstünə hücum etdilər və qapını sındırmaq istədilər. Onda mələklər Lutu evə saldılar və qapını bağladılar. Evin girişində duranların hamısını – böyükdən kiçiyə qədər kor etdilər. Mələklər Luta dedilər: «Biz bu yeri məhv edəcəyik, çünki Rəbb buranın sakinlərinin şər əməllərini görür». Mələklər özləri onun, arvadının və iki qızının əlindən tutub şəhərdən kənara çıxartdılar. Onlardan biri Luta dedi: «Geriyə baxma, dağlara qaç, yoxsa həlak olarsan».



Lut Soara gələndə günəş artıq doğmuşdu. Bu zaman Rəbb Sodom və Homorranın üzərinə odlu yağış yağdırıb bu şəhərləri, oranın ətrafını dağıtdı, bütün sakinlərini və torpaqda bitən hər şeyi məhv etdi. Lutun arxası ilə gələn arvadı geriyə baxdı və duz sütununa çevrildi.

*YARADILIŞ 19:1–26; QANUNUN TƏKRARI 29:23*



## İbrahim İshaqı qurban gətirir

Allahın üç mələyinin İbrahimin yanına gəldiyi vaxtdan bir il keçdi və Sara bir oğul doğdu. İbrahim onun adını İshaq qoydu. İshaq böyüyəndə Rəbb İbrahimin imanını və sədaqətini sınamaq istədi. Allah ona bu sözlərlə xitab etdi: «Sevdiyin yeganə oğlunu – İshaqı götürüb Moriya torpağına get. Orada sənə göstərəcəyim bir dağda oğlunu yandırma qurbanı olaraq təqdim et».

Allahın əmrinə əməl etmək İbrahim üçün çətin idi. Amma o, heç bir sözlə Rəbbə etiraz etmədi. Səhər erkən qalxıb yandırma qurbanı üçün odun yardı, eşşəyin üstünə yüklədi, özü ilə iki nökər və oğlu İshaqı götürüb Rəbbin dediyi yerə getdi.

Atasının hansı qurbanı gətirəcəyini bilməyən İshaq ondan soruşdu: «Ay ata! Od və odun var, bəs yandırma qurbanı olacaq quzu haradadır?» İbrahim cavab verdi: «Oğlum, yandırma qurbanı olacaq quzunu Allah Özü hazırlayacaq».

Allahın göstərdiyi yerə gələndə İbrahim nökərləri aşağıda qoyub İshaqla dağa qalxdı və orada qurbangah düzəltdi. İshaqın əl-qolunu bağlayıb qurbangaha, odunların üstünə qoydu. Amma bu an Allahın mələyi onu göydən çağırdı: «İbrahim, İbrahim! Uşağa əl qaldırma və ona bir şey etmə. İndi bildim ki, sən Allahdan qorxursan; öz yeganə oğlunu Məndən əsirgəmədin. Mən sənə böyük xeyir-dua verəcəyəm, nəslini göydəki ulduzlar və dəniz kənarındakı qum qədər artırıb çoxaldacağam. Sənin nəslin öz düşmənlərinin şəhərlərinə sahib olacaq. Dünyanın bütün millətləri sənin nəslinin vasitəsilə xeyir-dua alacaq, çünki sən Mənim sözümə qulaq asdın».

*YARADILIŞ 22:1–18*





## Rivqa

Vaxt keçdi. İbrahim qocaldı, onun oğlu İshaq isə böyüdü. Bir gün İbrahim öz sadiq nökərini çağırıb onu öz vətəni olan Mesopotamiyaya göndərdi ki, oradan oğlu İshaq üçün arvad gətirsin. Nökər qalxıb Mesopotamiyaya, İbrahimin qardaşı Naxorun yaşadığı şəhərə getdi.

Nökər o şəhərə gəlib çatanda dua etməyə başladı ki, Rəbb İshaq üçün təyin etdiyi qızla görüşməyində ona kömək etsin: «Ya Rəbb, ağam İbrahimin Allahı, yalvarıram, bu gün bu qızı qarşıma gətir və ağam İbrahimə xeyirxahlıq göstər. Mən bu bulağın yanında dururam; şəhər sakinlərinin qızları su çəkmək üçün buraya gəlirlər. Qoy elə olsun ki, mənim "xahiş edirəm, səhəngini endir, su içim" deyəcəyim və mənə "özün də iç və dəvələrinə də verim" söyləyəcək qız qulun İshaq üçün təyin etdiyin arvad olsun; bundan bilərəm ki, ağama xeyirxahlıq edirsən».

O, sözlərini söyləyib qurtarmamış Rivqa adlı gözəl bir qız bulaq başına gəldi. O, bulağa endi və səhəngini doldurub geri döndü. Nökər onun qabağına qaçıb dedi: «Xahiş edirəm, səhəngindən mənə bir az su ver, içim». Qız dedi: «Ağam, buyur iç». Qız ona su verib dedi: «Dəvələrin üçün də su çəkim, içib doysunlar». Nökər sakit duraraq diqqətlə qıza baxırdı ki, Rəbbin onun yoluna xeyir-dua verib-vermədiyini bilsin. Sonra nökər qızdan soruşdu: «Mənə de görüm, sən kimin qızısan? Atanın evində bizə gecə qalmaq üçün yer tapılarmı?» Rivqa cavab verdi ki, Naxor oğlu Betuelin qızıdır. Bunu eşidən nökər Rəbbə səcdə etdi və onu birbaşa İbrahimin qardaşının evinə gətirdiyinə görə şükürlər etdi.

Nökər Betuelin evinə gələndə o, orada olanlara İbrahimin onu vətəninə, öz qohumlarının yanına göndərdiyi və yeganə oğlu İshaq üçün arvad gətirməsini tapşırması barədə danışdı.



Qızın valideynləri Rivqanı çağırıb soruşdular: «Sən bu adamla getməyə razısanmı?» Rivqa razılıq verdi. Onun bütün ailəsi razılıq verdi və onlar Rivqaya xeyir-dua verib yola saldılar.

*YARADILIŞ 24:1–60*



## İshaq və Rivqa

Rivqa və İbrahimin nökəri dəvələrə minib uzun yol getdilər və nəhayət, İshaqın onları gözlədiyi ölkəyə gəldilər.

Axşam İshaq çöllüyə çıxdı və dəvə karvanı gördü. Nişanlısı orada idi. Rivqa da İshaqı gördü və dəvədən düşdü. Rivqa nökərdən soruşdu: «Bu, kimdir?» Nökər cavab verdi: «Bu, mənim ağamdır». Nökər İshaqa bütün baş verənləri nəql etdi. Rivqa İshaqın arvadı oldu. Rəbb onlara iki oğul bəxş etdi. Onların adlarını Esav və Yaqub qoydular. Onlar əkiz idilər, amma Esav Yaqubdan əvvəl doğulduğuna görə ilk övlad sayılırdı. Uşaqlar böyüdülər. Esav mahir ovçu və çöl adamı oldu. Yaqub isə evdə oturmağı xoşlayan, mülayim bir adam oldu. İshaq Esavı sevirdi, çünki onun ovladığı heyvanlar İshaqın xoşuna gəlirdi. Rivqa isə Yaqubu sevirdi.

*YARADILIŞ 24:63–67; 25:24–28*





## Yaqub atasının xeyir-duasını alır

İshaq qocalmışdı və gözləri görmürdü. Ölməmişdən əvvəl o, böyük oğlu Esava xeyir-dua vermək istədi. İshaq onu yanına çağırdı və tapşırdı ki, ovladığı heyvandan ona yemək bişirsin. Bundan sonra ata oğluna xeyir-dua verməyi vəd etdi. Rivqa bunu eşitdikdə Yaqubu çağırıb ona hər şeyi danışdı. O istəyirdi ki, Esav yox, Yaqub ata xeyir-duasını alsın. Buna görə də o, İshaqı aldatmaq qərarına gəldi. Esav çöllüyə, ova çıxanda Rivqa Yaqubu sürüdən iki oğlaq gətirməyə göndərdi və onlardan İshaq üçün dadlı xörək bişirdi. Sonra Rivqa Esavın ən gözəl paltarını gətirib Yaquba geyindirdi. Esavın bədəni çox tüklü idi və zəif görən atası onu əli ilə yoxlaya bilərdi. Bu səbəbdən Rivqa Yaqubun əllərinə və boynuna oğlaq dəriləri bağladı. Yaqub Rivqanın hazırladığı xörəyi götürüb atasının yanına gəldi və dedi: «Ata! Sənin dediyin kimi elədim. Gətirdiyim ov ətindən ye ki, mənə xeyir-dua verəsən». Atası ona dedi: «Yaxın gəl, oğlum, əlimi sənə sürtüb bilim ki, doğrudanmı, oğlum Esavsan, ya yox?»

Yaqub ona tərəf yaxınlaşanda İshaq əlini ona sürtdü və dedi: «Səs Yaqubun səsidir, ancaq əllər Esavın əlləridir». İshaq onu tanımadı, çünki onun oğlaq dərilərinə örtülmüş əlləri qardaşı Esavın əlləri kimi tüklü idi. Sonra atası ona xörəyi gətirməyi əmr etdi. Yeyib qurtarandan sonra o, oğluna xeyir-dua verdi.

Belə hiylə ilə Yaqub Esav üçün təyin olunan xeyir-duanı aldı. Buna görə Esav qardaşına nifrət etdi və onu öldürmək qərarına gəldi.

*YARADILIŞ 27:1—41*





## Yaqubun yuxusu

Rivqa öyrəndi ki, Esav onun sevimli oğlu Yaqubu öldürmək istəyir. Bunu oğlu Yaquba danışdı. Ona Rivqanın qardaşı Lavanın yanına Mesopotamiyaya qaçmağı və orada Esavın qəzəbi soyuyana qədər qalmağı tövsiyə etdi. Yaqub getməmişdən əvvəl İshaq onu yanına çağırdı. Yaşadıqları Kənan diyarından arvad almamağı və anası Rivqanın vətəni olan Mesopotamiyadan özünə nişanlı tapmağı tövsiyə etdi. Sonra o, oğluna xeyir-dua verib dedi: «Külli-İxtiyar Allah sənə xeyir-dua versin, səni bəhərli edib nəslini çoxaltsın, səndən çoxlu xalq törəsin; İbrahimin xeyir-duasını sənə və səninlə birgə nəslinə versin ki, Allahın İbrahimə verdiyi torpağı – qərib kimi yaşadığın torpağı irs olaraq alasan».

Yaqub uzun müddət yol getdi. Bir gün o, açıq səma altında gecələməli oldu və bir daş götürüb başının altına qoyub yatdı. Allah ona gözəl yuxu göndərdi. Yaqub yuxuda gördü ki, yerin üzərində bir nərdivan durmuş və onun başı göylərə çatmışdır. Allahın mələkləri onunla çıxıb-düşürdülər. Onun zirvəsində Rəbb dayanmışdı və Yaquba deyirdi: «Mən baban İbrahimin və İshaqın Allahı Rəbbəm. Üstündə yatdığın torpağı sənə və nəslinə verəcəyəm. Sənin nəslin yerin tozu kimi çox olacaq, qərbə, şərqə, şimala və cənuba yayılacaq. Yer üzünün bütün tayfaları sənin və nəslinin vasitəsilə xeyir-dua alacaq. Mən həmişə səninləyəm, gedəcəyin hər yerdə səni qoruyacağam və bu torpağa qaytaracağam».

Yaqub yuxudan oyanıb dedi: «Doğrudan da, Rəbb buradadır. Mən isə bunu bilmirdim. Bu, Allahın evidir, bura göylərin qapısıdır». O, başına gələn hadisələrin xatirəsi kimi başının altına qoyduğu daşı götürüb sütun kimi qoydu və Rəbbə əhd edib dedi: «Əgər Allah mənimlə olsa, getdiyim bu yolda məni qorusa, mənə yemək üçün çörək və geymək üçün paltar versə,



sağ-salamat atamın evinə dönsəm, o zaman Rəbb mənə Allah olacaq. Sütun kimi qoyduğum bu daş da Allahın evi olacaq. Ay Allah, mənə verəcəyin hər şeyin onda birini Sənə verəcəyəm».

*YARADILIŞ 27:41–46; 28:1–5, 10–22*



## Yaqubla Rəhilənin görüşü

Yaqub Mesopotamiyaya yolunu davam etdi və nəhayət, gözəl otlaqları olan yerə gəldi. O, ağzı böyük daşla örtülmüş quyunun yanında dayandı. Sürülər oraya su içməyə yığılanda çobanlar bu daşı quyunun ağzından kənara yuvarlayır, sonra quyunun ağzını yenidən bağlayırdılar.

Quyunun yanında üç qoyun sürüsü var idi. Yaqub çobanlardan soruşdu: «Naxorun nəvəsi Lavanı tanıyırsınızmı?» Onlar dedilər: «Tanıyırıq. Odur, qızı Rəhilə də qoyunlarla gəlir». Bu vaxt Rəhilə otardığı qoyun sürüsü ilə quyunun yanına gəlirdi. Qoyunlar onun atası, Yaqubun dayısı Lavana məxsus idi.

Yaqub Rəhiləni görəndə quyunun ağzındakı daşı yuvarladı və onun qoyunlarına su verdi. Sonra o, Rəhiləni öpdü, sevindiyindən ağladı və onun bibisi oğlu olduğunu bildirdi. Rəhilə bunu eşitdikdə evə qaçıb atasına hər şeyi xəbər verdi. Lavan bacısı oğlu Yaqubun gəldiyini eşidəndə onu qarşılamağa qaçdı. Onu qucaqlayıb öpdü və evinə gətirdi.

Yaqub dayısının evində qaldı və çoban işlədi. O, Lavana yeddi il xidmət etdi ki, qızı Rəhiləni ona arvad olaraq versin. Yaqub Rəhiləni o qədər sevirdi ki, bu yeddi il ona bir neçə gün kimi göründü. Lavan ona iki qızını – Leanı və Rəhiləni verdi. Burada, Mesopotamiyada Yaqubun on bir oğlu və bir qızı oldu. Sonra Kənanda onun bir oğlu da oldu.

Yaqub çox varlı adam oldu. O, çadırda arvadları və uşaqları ilə yaşayırdı. Onun çoxlu qulu və qarabaşları, eləcə də, çoxlu qoyun, dəvə və eşşək sürüləri var idi.

*YARADILIŞ 29:1–28*





## Yaqubun Allahla rastlaşması

Bir dəfə Rəbb Yaquba əmr etdi ki, o, Mesopotamiyadan çıxıb öz vətəninə, Kənan diyarına dönsün. Yaqub arvadını və uşaqlarını götürdü, bütün əmlakını topladı və yola düşdü. Yaqub, Esavın ona qarşı qəzəbinin soyuyub-soyumadığını bilmirdi. Buna görə o, Esavı rəhmə gətirmək üçün ona çoxlu hədiyyələr göndərmək qərarına gəldi.

Vətənə qayıdanda Yaqubun karvanı çaya yaxınlaşdı. Bütün ailə üzvlərini çayın o biri sahilinə keçirtdi, özü isə çayın bu tayında tək-tənha qaldı. Orada bir Şəxs onunla dan yeri sökülənə qədər güləşdi və budunun oynağını zədələdi. O dedi: «Burax, gedim, çünki səhər açılır». Yaqub dedi: «Mənə xeyir-dua verməsən, Səni buraxmaram». O Şəxs soruşdu: «Adın nədir?» O dedi: «Yaqub». O Şəxs dedi: «Artıq sənə Yaqub deyil, İsrail* deyiləcək, çünki sən Allahla və insanlarla güləşib üstün gəlmisən».

Yaqub Ondan soruşdu: «Adın nədir?» O dedi: «Adımı niyə soruşursan?» və adını söyləmədi. O Şəxs Yaquba xeyir-dua verdi.

*YARADILIŞ 32:9–31*





## Yaqubun Esavla barışması

Yaqub Kənan torpağına yaxınlaşanda gördü ki, Esav yanında dörd yüz adamla qarşısına gəlir. Onda Yaqub irəli çıxdı və yeddi dəfə yerə qədər əyilərək qardaşına baş əydi. Esav Yaqubu qarşılamaq üçün qaçıb onu qucaqladı və boynuna sarılıb öpdü. Onlar ağlaşdılar. Sonra Yaqubun arvadları, uşaqları, kənizləri gəlib Esavın qarşısında təzim etdilər.

Esav Yaqubdan soruşdu: «Sən nə üçün mənə bu qədər hədiyyələr göndərdin?» Yaqub cavab verdi: «Bunu etdim ki, sən bir daha mənə qəzəblənməyəsən». Esav dedi: «Mənim var-dövlətim çoxdur, qardaşım, səndə olan sənin olsun». Yaqub cavab verdi: «Yox, əgər sən daha mənə qəzəblənmirsənsə, onda sənə gətirdiyim hədiyyələrimi qəbul et, çünki Allah mənə çox mərhəmətli idi və bol-bol nemətlər verdi». O, Esavdan gətirdiyi hədiyyələrini qəbul etməsini xahiş etdi.

Sonra Esav evinə qayıtdı, Yaqub isə Kənan torpağında olan Şekem şəhərinə gəldi və şəhərin qarşısında məskən saldı. O, tarla sahəsini alıb orada çadır qurdu. Yaqub orada Rəbb Allahın adına bir qurbangah tikdi.

Yaqub öz qardaşından Mesopotamiyaya qaçanda yuxuda Allahın verdiyi xeyir-dua yerinə yetdi. Rəbb bütün vəd etdiklərini göndərdi və Yaqub Ona şükürlər etməyi unutmadı.

*YARADILIŞ 33:1–20*





## Yaqubun sevimli oğlu Yusif

Beləliklə, Yaqub yenə də Kənan torpağında məskunlaşdı. Burada Rəhilənin bir oğlu da oldu, onun adını Binyamin qoydular. Yaqubun artıq on üç övladı var idi: on iki oğlu (Ruven, Şimeon, Levi, Yəhuda, Dan, Naftali, Qad, Aşer, İssakar, Zevulun, Yusif və ən kiçiyi Binyamin) və Dina adlı bir qızı var idi. Yaqub Yusifi bütün oğullarından çox sevirdi, çünki Yusif onun qocalıq çağında doğulmuşdu.

Yusifin on yeddi yaşı olanda o, qardaşları ilə birlikdə sürü otarırdı. Yusif onların pis işləri barədə xəbərləri atasına çatdırırdı. Bir dəfə Yaqub Yusifə çox gözəl əlvan paltar tikdirdi. Qardaşları gördülər ki, ataları Yusifi onlardan çox sevir və buna görə də ona nifrət etdilər.

*YARADILIŞ 37:1–4*





## Yusifin yuxuları

Bir dəfə Yusif yuxu gördü və onu qardaşlarına danışdı. O dedi: «Gördüyüm bu yuxuya qulaq asın: biz zəminin ortasında dərz bağlayırdıq; mənim dərzim qalxıb dik durdu, sizin dərzləriniz isə mənim dərzimi əhatəyə alıb ona təzim etdilər».

Qardaşları ona dedilər: «Doğrudanmı, sən bizim üzərimizdə padşahlıq edəcəksən, bizə hökm edəcəksən?» Onlar Yusifə daha çox nifrət etməyə başladılar.

Yusif başqa bir yuxu da gördü və onu qardaşlarına danışıb dedi: «Yenə bir yuxu gördüm; gördüm ki, günəş, ay və on bir ulduz mənə təzim edir».

Yusif bu yuxunu nəinki qardaşlarına, həm də atasına danışdı. Atası onu danlayıb dedi: «Bu gördüyün yuxu nə deməkdir? Doğrudanmı, mən, anan və qardaşların baş əyib sənə təzim etmək üçün gələcəyik?»

Qardaşları ona qəzəbləndilər; amma ata Yusifin söylədiklərini yadında saxladı.

Bir dəfə Yusifin qardaşları evdən uzaqda sürünü otaranda Yaqub Yusifi onlara baş çəkməyə, vəziyyətlərini öyrənməyə və ona xəbər gətirməyə göndərdi. Yusif yola düşdü.

Yusif qardaşlarını tapana qədər çöllüyü çox gəzib-dolaşdı. Qardaşları onu uzaqdan gördülər. Yusif onların yanına çatmamış onu öldürmək qərarına gəldilər. «Budur, yuxu görənimiz gəlir, – bir-birlərinə qəzəblə dedilər, – gəlin onu öldürüb bir quyuya ataq, sonra da deyək ki, vəhşi heyvan onu parçaladı. Onda görərik, yuxuları necə çin çıxır».

*YARADILIŞ 37:5–20*





## Qardaşları Yusifi köləliyə satırlar

Qardaşların ən böyüyü Ruven Yusifə qarşı pis niyyət barəsində eşidəndə onu xilas edib atasının yanına göndərmək qərarına gəldi. Bu səbəbə görə Ruven qardaşlarını dilə tutdu ki, Yusifi öldürməsinlər, ancaq susuz quyuya atsınlar. Onlar Ruvenin sözünə qulaq asdılar və Yusif yanlarına gələndə onlar Yusifin əyninə geydiyi alabəzək paltarı dartıb çıxartdılar və onu dərin quyuya atdılar.

Birdən onlar Misirə mallar aparan karvan gördülər. Qardaşlardan biri, Yəhuda Yusifi tacirlərə satmağı təklif etdi. Hamı razılaşdı və karvan yanlarından keçəndə onlar qardaşlarını tacirlərə satdılar.

Tacirlər Yusifi Misirə apardılar. Qardaşları bir oğlaq kəsib Yusifin paltarını onun qanına batırdılar. Onlar paltarı atalarına gətirdilər və dedilər: «Biz bunu tapdıq: gör, oğlunun paltarıdır, ya yox?» Yaqub paltarı tanıdı və fəryad edib dedi: «Bu, Yusifin paltarıdır; onu vəhşi heyvan parçalayıb yeyib!» Yaqub oğullarının onu aldatdığını bilməyərək, öz sevimli oğlu üçün uzun müddət təsəlli tapmadan acı-acı ağladı.

*YARADILIŞ 37:21–35*





## Yusif fironun əyanının evində nəzarətçi olur

Tacirlər Misirə gəldilər və Yusifi fironun bir əyanı – mühafizəçilər rəisinə satdılar. Yusifin hər işində Rəbb ona kömək edirdi. Buna görə də Yusif hər bir gördüyü işdə uğur qazanırdı.

Onun Potifar adlı ağası fikir verdi ki, Rəbb Yusifin hər gördüyü işə uğur verir. Ağası Yusifi evinə nəzarətçi təyin etdi və özünə məxsus olan hər şeyi onun ixtiyarına verdi. Allah Yusifə görə Potifarın evinə bərəkət verdi. Yusif hikmətlə onun evinə nəzarət edirdi və ağasının heç bir qayğısı yox idi.

Yusif gözəl və yaraşıqlı idi. Potifarın arvadı ona vuruldu. Bu qadın Yusifi zinakarlığa çəkməyə cəhd etməyə başladı. Ancaq Yusif bundan imtina edib ağasının arvadına dedi: «Mən burada olarkən ağam evində nə olduğunu bilmir və özünə məxsus olan hər şeyi mənim ixtiyarıma verib. Bu evdə isə hətta o, məndən böyük deyil və səndən başqa heç bir şeyi məndən əsirgəmədi, çünki sən onun arvadısan. Bəs mən necə bu böyük pisliyi edib Allahın önündə günaha bata bilərəm?»

Potifarın arvadı Yusifdən intiqam almaq istədi. Qadın ona ərinin qarşısında böhtan atıb dedi: «Bizə gətirdiyin bu İbrani qul məni təhqir etmək üçün yanıma gəldi. Səsimi ucaldıb qışqırdığım zaman paltarını yanımda qoyub bayıra qaçdı». Yusifin ağası bu sözləri eşidəndə qəzəbləndi və onu padşahın məhbuslarının saxlanıldığı zindana atdı.

*YARADILIŞ 39:1–20*





# Yusif zindanda

Amma Rəbb zindanda da Yusiflə idi və ona kömək edirdi. Allah zindanın nəzarətçisinin ürəyini Yusifə yönəltdi və zindanda olan bütün məhbusları Yusifin ixtiyarına verdi.

Yusifin olduğu zindanda padşahın iki nökəri məhbus idi. Onlardan biri əvvəl padşaha yemək vaxtı qulluq edirdi, ona şərab süzürdü; o, padşahın baş saqisi idi. Digəri isə padşahın masasına xörəklər düzürdü, onu baş çörəkçi çağırırdılar. İkisi də padşaha qarşı günah etmişdilər və zindana atılmışdılar.

Bir gün Misir padşahının zindanda məhbus olan saqisi və çörəkçisi yuxu gördülər, amma onu yoza bilmədilər. Yusif onlara dedi: «Yuxu yozmaq Allahın işi deyilmi? Onu mənə danışın». Saqi öz yuxusunu birinci danışdı. O, yuxuda görmüşdü ki, önündə bir üzüm tənəyi və tənəkdə üç budaq var. Onlarda tumurcuqlar görünüb çiçək açdı və salxımlar yetişdi. O, üzümləri götürüb fironun piyaləsinə sıxdı və piyaləni firona verdi.

Yusif dərhal yuxunu yozdu: «Üç budaq üç gündür. Üç gün ərzində firon səni yüksəldəcək. Səni öz işinə qaytaracaq, sən də onun saqisi olduğun vaxtdakı kimi əvvəlki qaydaya görə fironun piyaləsini əlinə verəcəksən. Onda məni yadına sal və buradan çıxart».

Sonra baş çörəkçi öz yuxusunu ona danışdı. O, yuxuda görmüşdü ki, başının üstündə üç səbət var. Ən üstdəki səbət firon üçün bişirilən hər cür çörəklə doludur və quşlar onları yeyirdi.

Yusif onu dinləyib belə cavab verdi: «Onun yozması belədir: üç səbət üç gündür. Üç gün ərzində firon sənin başını bədənindən ayıracaq, özünü də ağacdan asacaq və quşlar sənin ətini didəcək».

Üç gündən sonra Rəbbin Yusifə açdığı hər şey dəqiqliklə yerinə yetdi. Amma saqi Yusifi yada salmadı.

*YARADILIŞ 39:21–23; 40:1–22*





## Yusif fironun yuxularını yozur

Firon belə bir yuxu gördü: o, çayın sahilində dayanmışdı. Çaydan yeddi kök inək çıxdı. Onlar qamışlıq içində otlamağa başladı. Sonra arıq olan yeddi inək çaydan çıxıb kök inəkləri yedi. Onda firon yuxudan oyandı. Sonra yenə yatıb ikinci dəfə bu yuxunu gördü: bir saplaqdan yeddi dolu və yaxşı sünbül çıxdı. Onlardan sonra isə cılız və şərq küləyindən yanmış yeddi sünbül bitdi. Cılız sünbüllər yeddi böyük və dolu sünbülü uddular.

Firon oyanıb təşvişə düşdü. O, Misirin bütün müdriklərini çağırtdırdı. Firon onlara öz yuxusunu danışdı, ancaq onların arasında fironun yuxusunu yozan bir adam tapılmadı.

O vaxt baş saqinin yadına düşdü ki, zindanda Yusif adlı gənc İbrani var idi və onun və çörəkçinin yuxularını yozmuşdu. Bütün yozmalar dəqiqliklə yerinə yetdi. Firon dərhal Yusifi çağırtdırdı. Onu zindandan gətirəndə firon ona dedi: «Mən sənin barəndə eşitmişəm ki, yuxuları yoza bilirsən». Yusif isə firona belə cavab verdi: «Bu, məndən deyil, Allah fironun xeyrinə cavab verəcək». Firon ona yuxularının ikisini də danışdı. Yusif dedi: «Allah etmək istədiyi işi firona bildirdi. Yeddi bəslənmiş inək və yeddi dolu sünbül Misirdə yaxşı məhsulun olacağı yeddi ildir; yuxuların mənası eynidir. Onlardan sonra çıxan yeddi arıq, cılız inək və şərq küləyindən yanmış boş yeddi sünbül də yeddi ildir; yeddi il aclıq olacaq. Firona demək istədiyim sözlər bunlardır. Allah etmək istədiyi işi firona göstərdi. Yuxu iki dəfə təkrar oldu, çünki bu, həqiqətən də, Allahın sözüdür və O, tezliklə bunu edəcək».

Sonra Yusif firona ağıllı və müdrik bir adam axtarmağı tövsiyə etdi ki, Misir ölkəsi üçün yeddi bolluq ilində taxıl tədarükü görsün.

*YARADILIŞ 41:1–36*





## Yusif bütün Misirin başçısıdır

Firon Yusifin yuxuları yozmasından çox razı qaldı. O, öz nökərlərinə dedi: «Bu adam kimi Allahın Ruhuna malik olan bir kəs tapa biləcəyikmi?» Sonra o, Yusifə dedi: «İndi ki, Allah sənə bütün bu şeyləri bildirdi, deməli, sənin kimi ağıllı və müdrik adam yoxdur. Sən mənim saray adamlarıma başçılıq edəcəksən və bütün xalqım sənin əmrinlə idarə olunacaq. Mən yalnız taxtda səndən böyük olacağam».

Firon öz üzüyünü barmağından çıxarıb Yusifin barmağına taxdı. Onun boynuna qızıl zəncir asdı və ona bahalı parçadan paltar geyindirdi. Firon əmr etdi ki, onu özünün ikinci arabasına mindirsinlər və qarşısında «Diz çökün!» deyib bağırsınlar. Beləcə o, Yusifi bütün Misir ölkəsinə başçı qoydu.

Yusif bu yüksək vəzifəni tutan kimi, onun üzərinə qoyulan öhdəlikləri icra etməyə başladı. O, yeddi bolluq ilində anbarlara taxıl ehtiyatlarını tədarük etdi ki, qıtlıq illərində xalq acından ölməsin.

*YARADILIŞ 41:37–48*





## Yeddi il aclıq

Yeddi ildən sonra bütün yer üzündə aclıq oldu. Bütün ölkələrin adamları çörək almaq üçün Misirə, Yusifin yanına gəlirdilər, çünki o, bütün Misir şəhərlərində böyük taxıl ehtiyatını tədarük etmişdi.

Yaqub öyrənəndə ki, Misirdə taxıl var, on oğlunu oraya göndərdi. Yanında yalnız Binyamini saxladı.

Yusif Misir ölkəsinin başçısı idi, buna görə də taxılı bütün camaata özü satırdı. Yusifin qardaşları gəlib onun önündə səcdə edərək, onlara da taxıl satmağı xahiş etdilər. Yusif qardaşlarını tanıdı, amma qardaşları onu tanımadılar. Axı Yusifi satdıqları vaxtdan bəri onlar onun barəsində heç nə eşitməmişdilər və Yusifin indi necə yüksək vəzifədə olduğunu da bilmirdilər.

Yusif isə özünü tanımazlığa vurdu və onlara dedi: «Siz casussunuz, ölkənin zəif yerlərini öyrənmək üçün gəlmisiniz». Qardaşları isə cavab verdilər ki, onlar düz adamdırlar, bir atanın övladlarıdırlar və onların evdə bir kiçik qardaşları da var. Yusif onları zindana atmağı əmr etdi. Üç gündən sonra Yusif qardaşlarına dedi: «Əgər siz, həqiqətən, düz adamsınızsa, aranızdan bir nəfər burada qalsın. Qalanlar isə aclıqdan korluq çəkən ailələrinizə taxıl aparsınlar. Sonra kiçik qardaşınızı yanıma gətirin ki, sözləriniz təsdiq olunsun, onda mən sizin buraya pis niyyətlə gəlmədiyinizə inanaram».

Qardaşlar bunu eşidib bir-birlərinə dedilər: «Başımıza gələn bu bəla qardaşımıza qarşı işlətdiyimiz günaha görədir. Biz onun necə iztirab çəkdiyini, yalvardığını gördük, amma ona yazığımız gəlmədi. Buna görə də biz belə bəlaya düşdük». Qardaşları bilmirdilər ki, Yusif onların dediklərini başa düşür, çünki onlar tərcüməçi vasitəsilə danışırdılar. Yusif onların sözlərini eşidib kənara çəkilərək ağladı. Yusif qayıdanda



onlardan birini, Şimonu Misirdə saxlayıb, qalanlarının çuvallarını taxılla dolduraraq evə yola salmağı əmr etdi.

*YARADILIŞ 41:54–57; 42:1–25*



## Yusif özünü qardaşlarına tanıdır

Qardaşlar Kənan torpağına, ataları Yaqubun yanına gəldilər və başlarına gələn bütün hadisələri ona danışdılar. Yaqub qoca yaşında təsəlli aldığı oğlunu – Binyamini Misirə buraxmaqdan imtina etdi. Amma bir müddətdən sonra ailədə qardaşların Misirdən gətirdiyi taxıl tükəndi. Yaqub oğullarını yenə də oraya göndərib dedi: «Yenə gedib bizə bir az ərzaq alın». Qardaşlar isə atalarına dedilər ki, Misir torpağının başçısı bizə ciddi xəbərdarlıq edib ki, qardaşınızı gətirmədən gözümə görünməyin. Yaqub uzun müddət Binyamini buraxmaq istəmirdi. Amma aclıq güclənəndə o, oğullarına xeyir-dua verib dedi: «Külli-İxtiyar Allah o adamda sizə qarşı mərhəmət oyandırsın, o da digər qardaşınızı və Binyamini sizə təhvil versin».

Beləliklə, qardaşlar Misirə Binyaminlə birgə gəldilər. Yusif Binyamini görəndə otağa keçib ağladı. Sonra üzünü yuyub nökərlərə böyük ziyafət hazırlamağı əmr etdi. Qardaşlar çaş-baş qaldılar, onlar belə hörmətin səbəbini bilmədilər. Yusif artıq hisslərini gizlədə bilmədi. O, ucadan hönkürüb ağladı və dedi: «Mən Yusifəm. Atam hələ sağdırmı?» Qardaşları çaşıb qalmışdılar və ona cavab vermədilər. O zaman Yusif qardaşlarına dedi: «Mənə yaxın gəlin». Onlar yaxın gəldilər. Yusif dedi: «Misirə satdığınız qardaşınız Yusif mənəm. İndi məni buraya satdığınız üçün kədərlənməyin və təəssüflənməyin, çünki Allah həyatınızı qorumaq üçün məni sizdən qabaq buraya göndərdi. Allah məni sizdən qabaq buraya göndərdi ki, sizi yer üzündə saxlasın və böyük bir qurtuluşla həyatınızı qorusun. Ona görə də məni buraya göndərən siz deyilsiniz, Allahdır. O, məni firona ata, onun bütün saray adamlarına ağa, bütün Misir ölkəsinə isə başçı etdi. Tez atamın yanına gedib ona söyləyin ki, oğlun Yusif belə deyir: „Allah məni bütün Misir ölkəsinə ağa etdi. Daha durma, yanıma gəl, hələ beş il də aclıq olacaq“». Yusif qardaşı Binyaminin boynuna



sarılıb ağladı, Binyamin də onun boynuna sarılıb ağladı. Yusif bütün qardaşlarını öpdü və onların boynuna sarılıb ağladı.

*YARADILIŞ 42:36–38; 43:1–34; 45:1–15*



# Yusif atası ilə görüşür

Firon eşidəndə ki, Yusifin qardaşları yanına gəlib, onlara yola azuqə ehtiyatı, paltar və atası ilə özləri üçün arabalar hazırlamağı əmr etdi. Firon onların hamısına Misirə köçməyi təklif etdi.

Yusifin qardaşları torpaqlarına, evə qayıdaraq Yaquba Yusif barəsində hər şeyi danışdılar. Yaqub sevimli oğlu Yusifin sağ olmasını eşidəndə çox sevindi. O, oğlunu görmək üçün Misirə getmək qərarına gəldi. Bundan sonra Allah Yaquba yuxuda dedi: «Yaqub, Mən Allaham, atanın Allahıyam. Misirə getməkdən qorxma, çünki orada səndən böyük bir millət törədəcəyəm. Mən də səninlə birgə Misirə gedəcəyəm. Səni yenə oradan çıxaracağam».

Yaqub bütün övladlarını, nəvələrini, heyvanlarını və Kənan torpağında əldə etdikləri hər şeyi götürüb Misirə gəldi. Yusif arabasını hazırlayıb onları qarşılamağa getdi. Atasını görəndə onun boynuna sarıldı və onu qucaqlayıb uzun müddət sevincindən ağladı.

Firon eşidəndə ki, Yusifin qohumları gəlib, onları çağırdı və ona dedi: «Atanla qardaşların yanına gəliblər. Misir torpağı sənin önündədir: atanla qardaşlarını bu torpağın ən yaxşı yerlərində yerləşdir».

Yusif öz qohumlarına Misir torpağının ən yaxşı hissəsini verdi və onları ərzaq və hər bir lazımi şeylərlə təmin etdi.

Yaqub Kənan torpağına qayıtmadı, Misirdə qaldı. Ölümündən əvvəl o, Yusifin oğulları – Menaşşe və Efrayimə, sonra isə digər oğullarına xeyir-dua verdi. Yaqubun ölümündən sonra oğulları atalarının vəsiyyətini yerinə yetirdilər, onun cəsədini Kənan torpağına gətirib Maxpela tarlasında – İbrahim, Sara, İshaq və Rivqa dəfn olunan mağarada basdırdılar.

*YARADILIŞ 45 – 50*





## İsraillilərin Misirdəki köləliyi

Bir neçə il keçdi. Yaqub və onun bütün oğulları öldülər. Yaqub Mesopotamiyadan Kənan torpağına gedərkən Allahla güləşmişdi; Rəbb ona xeyir-dua vermişdi və ona yeni ad – İsrail adını vermişdi. Buna görə də Yaqubun övladlarını – Yəhudi xalqını o vaxtdan bəri İsrail deyə çağırırlar.

O vaxtlar isə Misirdə başqa firon hökm sürürdü. O nə müdrik Yusifi tanıyırdı, nə də onun xeyirxah işlərindən xəbərdar idi. Yeni firon gördü ki, İsrail xalqı çoxsaylı və güclü olmuşdur. Onda o, öz xalqına dedi: «Gəlin onlarla ağılla rəftar edək, yoxsa çoxalar və müharibə vaxtı düşmənlərimizlə birləşib bizə qarşı vuruşar, sonra isə ölkəni tərk edərlər».

Firon İsraillilərə ağır işlər vermək üçün onların üzərinə iş nəzarətçilərini təyin etdi. Ancaq İsraillilərə əziyyət vermələrinə baxmayaraq, onlar çoxalıb artırdı. Buna görə misirlilər daha çox qəddarlıqla onları ağır işlər görməyə məcbur edib həyatlarını daha da acı edirdilər.

Amma Allah Öz xalqının fəryadını eşidib onlara xilaskar göndərdi.

*ÇIXIŞ 1:6–14*





## Səbətdə körpə

Firon öyrəndi ki, İsrail xalqı ağır işlərdən nəinki zəifləmir, əksinə, daha da çoxalır və möhkəmlənir. Onda o əmr etdi ki, hər yeni doğulan İsrailli oğlan uşağını çaya atsınlar.

Bir İsrailli qadının oğlu oldu. O, üç ay onu gizlətdi, amma bundan artıq onu gizlədə bilməyərək qamışdan bir səbət götürüb ona qatran sürtdü, körpəni səbətin içinə salıb Nil çayının kənarındakı qamışlığın arasına qoydu. Qadının qızı isə nə baş verəcəyini bilmək üçün uzaqda durub baxırdı.

*ÇIXIŞ 2:1–4*





## Musa və fironun qızı

Fironun qızı çimmək üçün qarabaşları ilə çay sahilinə gəldi. Birdən Fironun qızı qamışların arasında səbəti gördü və onu gətirmək üçün kənizini göndərdi.

Fironun qızı səbəti açıb bir ağlayan körpə gördü. O başa düşdü ki, bu, İsrail oğlanlarındandır. Fironun qızının ona rəhmi gəldi və onu övladlığa götürməyi qərara aldı. Körpənin bacısı fironun qızına yaxınlaşıb soruşdu ki, bəlkə, uşağı əmizdirmək üçün bir dayə lazımdır. Fironun qızı dedi ki, dayə lazımdır və qız öz anasını çağırdı. Fironun qızı körpənin anasına dedi: «Bu körpəni götürüb mənim üçün əmizdir, sənə bunun haqqını verərəm». Qadın körpəni götürüb əmizdirdi. Uşaq böyüdü və qadın onu fironun qızının yanına apardı. Fironun qızı uşağı oğulluğa götürdü. O, uşağın adını Musa* qoydu.

Musa fironun sarayında böyüdü və Misirli kimi tərbiyə aldı, amma İsrail xalqına mənsub olduğunu heç vaxt unutmurdu. Musa artıq böyük olanda İsraillilərin arasına düşdü və bir Misirlinin onun xalqından olanı döydüyünü gördü. Musa qəzəblənib Misirlini öldürüb qumda gizlətdi.

Ertəsi gün Musa gördü ki, iki İbrani bir-biri ilə dalaşır. Musa onların birindən soruşdu: «Niyə öz soydaşını döyürsən?» O adam dedi: «Səni bizim üstümüzə kim başçı və hakim qoyub? Yoxsa Misirlini öldürdüyün kimi məni də öldürmək fikrindəsən?» Musa qorxdu və fikirləşdi: «Deyəsən, bu iş barədə bilirlər». Firon bu işdən xəbərdar olanda Musanı öldürtmək istədi. Ancaq Musa fironun əlindən qaçıb Midyan torpağına getdi. Orada o, Yetro adlı kahinə* rast gəldi və onun ailəsində qaldı. Kahin qızı Sipporanı Musaya ərə verdi.

*ÇIXIŞ 2 – 3*





## Yanan kol

Uzun illər Musa qayınatası Midyan kahini Yetronun sürüsünü otarırdı. Bir gün o, sürünü səhranın o biri tərəfinə aparıb Allahın dağı Xorevə gəldi. Orada Rəbbin mələyi ona bir kol arasından od-alov içərisində göründü. Musa gördü ki, kol od-alov içindədir, amma yanıb qurtarmır. Musa öz-özünə dedi: «Gedim, bu qəribə mənzərəyə baxım, görüm nə üçün bu kol yanıb qurtarmır».

Musa yaxınlaşanda o, Rəbbin onu kolun ortasından çağırdığını eşitdi: «Musa, Musa! Buraya yaxınlaşma. Ayaqlarından çarıqlarını çıxart, çünki durduğun yer müqəddəs torpaqdır. Mən atanın Allahı, İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahıyam». Musa üzünü örtdü, çünki Allaha baxmağa qorxurdu.

Rəbb ona dedi: «Həqiqətən, Mən Misirdə olan xalqımın əziyyətini gördüm, nəzarətçilərin əlindən etdikləri fəryadlarını eşitdim və dərdlərinə nəzər saldım. Mən ona görə gəldim ki, onları Misirlilərin əlindən qurtarıb bu ölkədən çıxarım və geniş, nemətli bir diyara, süd və bal axan torpağa aparım. İndi isə İsrail övladlarının fəryadı Mənə çatdı, Misirlilərin onlara etdikləri zülmü görürəm. Buna görə də get. Səni fironun yanına göndərirəm ki, xalqım İsraili Misirdən çıxarasan».

Amma Musa tərəddüd etdi. O, özünü belə böyük iş üçün layiq bilmirdi. Musa Allaha dedi: «Axı mən kiməm ki, fironun yanına gedib İsrailliləri Misirdən çıxarım?» Allah dedi: «Mən səninlə olacağam».

*ÇIXIŞ 3:1–12*





## Musa və Harun fironun sarayında

Rəbb Musaya deyəndə ki, onu Allahın xalqını azad etmək üçün fironun yanına göndərir, Musa cavab verdi: «Ya Rəbb, mən dili ağır, səlis danışmayan bir adamam. Mənim əvəzimə başqa adamı göndər». O zaman Rəbb dedi: «Məgər sənin qardaşın Harun yoxdur? Bilirəm ki, o, yaxşı danışmağı bacarır. Mən isə sizə nə etməyi və nə danışmağı öyrədəcəyəm. Sənin əvəzinə xalqla Harun danışacaq. O, sənin üçün ağız kimi, sən isə onun üçün Allah kimi olacaqsan».

Bundan sonra Musa və Harun fironun yanına gəlib dedilər: «İsrailin Allahı Rəbb belə deyir: "Xalqımı burax ki, səhrada Mənim üçün bayram keçirsinlər!"» Firon dedi: «Rəbb kimdir ki, Onun səsinə qulaq asıb İsraillilәri buraxım? Rəbbi tanımıram, İsraillilәri da buraxmıram. Ey Musa və Harun, nə üçün xalqı işindən ayırırsınız? Gedin, işinizi görün». Firon İsraillilərlə daha qəddar rəftar etdi və nəzarətçilərə əmr etdi ki, onlara daha çox iş verilsin.

Rəbb fironun gözləri önündə çoxlu möcüzələr və əlamətlər etdi, amma firon sərtləşdi və Allahın xalqını buraxmaq istəmədi.

Misir xalqı doqquz dəhşətli cəzaya məruz qaldı: Nil çayında su qana döndü, qurbağalar bütün Misir torpağını doldurdu, toz mığmığalara döndü, ölkədə külli miqdarda mozalan peyda oldu, adamları və heyvanları dəhşətli xəstəliklər – irinli çibanlar basdı; dolu yağdı, çəyirtkələr Misir ölkəsinə hücum edərək bütün Misir torpağına yayıldı və torpağı viran etdi. Nəhayət, bütün Misirə zülmət çökdü. Amma firon daha da sərtləşdi və özü bu bəlalardan əziyyət çəkdiyinə baxmayaraq, İsrail xalqına getməyə izin vermədi. Onda Musa və Harun onu axırıncı, onuncu cəza ilə hədələdi.

*ÇIXIŞ 4 – 10*





# Pasxa quzusunun qanı

Allahın cəzasını və möcüzələrini görməyinə baxmayaraq, fironun ürəyi yumşalmadı. Onda Musa dedi: «Rəbb belə deyir: "Gecəyarısı Mən Misirin ortasından keçəcəyəm; Misir torpağında taxtda oturan fironun oğlundan tutmuş dəyirman arxasında olan kəniz oğluna qədər hamının ilk oğlu öləcək. Hətta bütün heyvanların da ilk balaları öləcək".

Bütün İsrail xalqına Rəbb əmr etdi ki, hər ailə sağlam, qüsursuz toğlu kəssin. İsraillilər odda qızardılmış quzunun ətini mayasız çörək və acı göyərti ilə yeməliydilər. Allah əmr etdi ki, qurbanın qanından götürüb onu yeyəcəkləri evin qapısının hər iki yan taxtasına və üst dirəyinə sürtsünlər. Rəbb dedi: «Sizin olduğunuz evlər üzərindəki qan sizin üçün əlamət olacaq. Qanı görəndə yan keçəcəyəm və Misir ölkəsini cəzalandırdığım zaman sizə məhvedici bəla gəlməyəcək».

İsraillilər Rəbbin buyruğuna əməl etdilər. Gecə Misirlilər həmişəki kimi yuxuya getdilər, gecəyarısı isə onların ilk övladları öldü. O gecə firon, onun əyanları və bütün Misirlilər qalxdılar. Misir torpağında böyük bir fəryad qopdu, çünki elə bir ev yox idi ki, orada ölən olmasın.

O vaxtdan Rəbb İsraillilər üçün Pasxa adlanan bayram təyin etdi. «Pasxa» sözü ibrani dilində «pesax», yəni «yan keçmək» deməkdir. Rəbb Misirlilərə cəza verib İsraillilərin qapılarından yan keçdi. Hər il bu bayram vaxtı İsraillilər mayasız çörəklə quzu yeyib öz qurtuluşlarını yada salmalı idilər.

*ÇIXIŞ 11; 12:1–17, 30*





## Rəbb İsrailliləri Misirdən çıxarır

Firon həmin gecə Musanı və Harunu çağırıb dedi: «Çıxın gedin! Həm özünüz, həm də bütün İsraillilər xalqımın arasından çıxın gedin, istədiyiniz kimi Rəbbə ibadət edin. Necə ki deyirdiniz, qoyun-keçinizi və mal-qaranızı da götürüb gedin, mənə də xeyir-dua verin».

Misirlilər İsraillilər tələsdirirdilər ki, onlar tez çıxsınlar və: «Yoxsa hamımız ölərik» deyirdilər.

İsraillilər Misirin sərhədinə tərəf yola düşdülər. Arvad-uşaqdan əlavə, altı yüz minə qədər piyada gedən kişi var idi. Qarışıq başqa xalqlardan bir izdiham, çoxlu qoyun-keçi, mal-qara sürüləri də onlarla birgə yollandı.

Misirdən çıxardıqları maya qatılmayan xəmirdən mayasız kökələr bişirdilər. Çünki Misirdən qovulmuşdular və orada qalıb özlərinə yol üçün azuqə hazırlaya bilməmişdilər.

İsrail xalqının Misirdə yaşadığı müddət dörd yüz otuz il idi.

Allah İsraillilər səhra ilə Qırmızı dənizə aparan yolla apardı. Yalnız Rəbb Öz xalqını hara apardığını bilirdi. Rəbb onların qabağı ilə, gündüz də, gecə də gedə bilsinlər deyə gündüz onlara yol göstərmək üçün bulud sütununda, gecə isə onlara işıq vermək üçün od sütununda gedirdi. Bulud sütunu dayananda İsraillilər öz çadırlarını açıb dincəlirdilər, sütun hərəkətə gələndə isə yolu davam etdirirdilər. Gündüzlər bulud sütunu, gecələr isə od sütunu xalqın önündən ayrılmadı.

*ÇIXIŞ 12:31–40; 13:20–22*





## İsraillilərin Qırmızı dənizdən keçməsi

Firon başa düşdü ki, İsraillilər Misirdən yalnız öz Allahlarına səcdə etmək üçün yox, həm də bir daha geri qayıtmamaq üçün çıxdılar. O vaxt firon atlılarla, döyüş arabaları və bütün ordusu ilə onları təqib etməyə başladı.

İsraillilər Qırmızı dənizin sahilinə yaxınlaşanda onların daha getməyə yerləri yox idi, Misirlilər isə onlara yaxınlaşmağa başladılar. Qarşılarında dənizi, arxalarında yaxınlaşan Misirliləri görəndə Allahın xalqı Musaya qarşı deyindi. Onlar dedilər ki, Musa onları səhrada ölmək üçün Misirdən çıxartdı. Musa isə onlara dedi: «Qorxmayın! Durun, Rəbbin bu gün sizi necə xilas edəcəyinə baxın. İndi gördüyünüz Misirliləri daha heç vaxt görməyəcəksiniz. Sakit olun, Rəbb sizin üçün döyüşəcək!»

Allah Musaya əmr etdi ki, əlini dənizə tərəf uzatsın. Musa əlini uzadanda Rəbb bütün gecə ərzində əsən qüvvətli şərq küləyi ilə dənizin suyunu elə qovdu ki, dənizin bir hissəsini İsraillilərin qarşısında quruya çevirdi. Sular sanki qarşılarında yarıldı. İsrail xalqı dənizin ortasında quru yerdən keçdilər. Sular onlar üçün sağ və sol tərəfdən divar oldu.

*ÇIXIŞ 14:5–22*





## Qırmızı dənizdə Misir ordusunun məhv edilməsi

Misirlilər İsrail xalqını təqib etməkdə davam edərək aralanmış dənizə girdilər. Səhər Rəbb bütün Misir ordugahını çaş-baş salmışdı, çünki döyüş arabalarının çarxlarını qırmışdı. Buna görə onlar zorla yol gedirdilər. Misirlilər bunu görüb bir-birlərinə dedilər: «Gəlin İsraillilərdən qaçaq, çünki Rəbb bizə qarşı onlar üçün döyüşür».

Allahın xalqı dənizin ortasından sanki quru yerdən keçdikdən sonra Rəbb Musaya dedi: «Əlini dənizin üzərinə uzat ki, sular Misirlilərin, döyüş arabalarının və süvarilərin üzərinə qayıtsın». Musa Rəbbin əmr etdiyi kimi etdi və sular dənizə qayıdıb bütün Misirliləri batırdı.

Beləliklə, Rəbb o gün Öz xalqını xilas etdi. İsraillilər Misirliləri məğlub edən Allahın böyük qüdrətini gördülər. İsrail xalqı Rəbbin Misirlilərə böyük qüvvətlə nə etdiyini görəndə Rəbdən qorxdu, Ona və qulu Musaya güvəndi.

O vaxt Musa ilə İsraillilər Rəbbə bu ilahini* oxudular:

«Rəbbə ilahi oxuyacağam,  
Çox böyük zəfər çaldı.  
Rəbb qüvvətim, məzmurumdur*, O, məni xilas etdi.  
Rəbb mənim Allahımdır, Ona həmd edəcəyəm.  
Rəbb döyüşçüdür, Rəbdir Onun adı.  
Ya Rəbb! Sənin sağ əlin qüdrətdən izzətləndi.  
Ya Rəbb! Sənin sağ əlin düşməni əzəndir.  
Sənə qarşı çıxanları möhtəşəm əzəmətin yıxar.  
Ya Rəbb, allahlar arasında Sənin kimisi varmı?  
Müqəddəslikdə əzəmətli, zəhmli və alqışlara layiq,  
Möcüzələr yaradan Sənin kimisi varmı?  
Ya Rəbb, xalqını gətirib salacaqsan mülkün olan dağına,  
Rəbb əbədi, daima padşahlıq edəcəkdir».

*ÇIXIŞ 14:23–31; 15:1–18*





## Göydən gələn manna

İsraillilərin Sin səhrasında uzun yolları başladı. Rəbb onları aparırdı. Amma bir müddət vaxt keçdikdən sonra xalq Musaya və Haruna qarşı giley-güzar etdi və dedilər ki, Misirdə Rəbbin əlindən ölmək bu səhrada aclıqdan ölməkdən daha yaxşı olardı.

Musa xalqa dedi: «Rəbb Onun əlindən giley-güzarınızı eşitdi. Axı biz kimik ki, siz əlimizdən giley-güzar edirsiniz? Sizin giley-güzarınız Rəbbə qarşıdır». Sonra Rəbb Musaya dedi: «Mən İsraillilərin deyinməklərini eşitdim. Onlara de: axşamçağı ət yeyəcək, səhər isə çörəklə doyacaqsınız. Onda biləcəksiniz ki, Allahınız Rəbb Mənəm».

İsrail düşərgəsinə axşam böyük bir bildirçin dəstəsi uçub gəldi. Onları tutmaq asan idi və xalq kifayət qədər onların dadlı əti ilə doya bildi. Səhər düşərgənin ətrafına şeh düşdü. Şeh buxarlananda səhrada, torpaq üzərində qırova bənzər nazik lopalar göründü. İsraillilər onun adını «manna»* qoydular. Onun dadı ballı yuxaya bənzəyirdi. Rəbb əmr etdi ki, manna bir gün ərzində yedikləri qədər yığılsın. Əgər kimsə mannanı iki günlük yığırdısa, sabaha saxladığı qalıq gecə korlanırdı. Cümə günü isə Allah mannanı iki günlük yığmağı əmr etdi, çünki Şənbə Rəbbin təsis etdiyi istirahət günü idi və o gün heç kim bir iş görmürdü. Yalnız cümə gün iki günlük yığılan manna xarab olmurdu.

*ÇIXIŞ 16:1–31*





## Musa qayadan su çıxarır

İsraillilər Refidim adlı yerə gələndə orada içməli suyun olmadığı məlum oldu. Ona görə də xalq Musa ilə münaqişə edib belə dedi: «Bizə içməyə su verin». Musa onlara dedi: «Niyə mənimlə münaqişə edirsiniz? Nə üçün Rəbbi sınayırsınız?» Musa Allahın ona kömək etməsi üçün dua etməyə başladı. O zaman Rəbb Musaya əmr etdi ki, o, öz əsasını qayaya vursun. Musa Allahın ona əmr etdiyi kimi edəndə qayadan su axdı. Bütün xalq susuzluğunu yatırtdı.

Musa o yeri «Massa və Meriva»* adlandırdı, çünki orada İsraillilər münaqişə etmişdilər və «görəsən Rəbb aramızdadır, ya yox» deyə Rəbbi sınamışdılar.

*ÇIXIŞ 17:1–7*





## On əmr

Musa Allahın seçilmişi, sadiq və Ona itaətli idi və buna görə də Rəbb Öz xalqı ilə onun vasitəsilə danışırdı.

İsrail xalqı Sina dağının yaxınlığında düşərgə salanda Musa dağa çıxdı. Orada Rəbb ona kiçik daş lövhələr verdi. Onların üstündə Allahın xalqının riayət edəcəyi On Əmr yazılmışdı.

«Səni Misir torpağından, köləlik diyarından çıxaran Allahın Rəbb Mənəm. Məndən başqa allahların olmasın.

Özün üçün heç bir oyma büt, nə yuxarıda – səmada və ya aşağıda – yerdə, nə də yerdən aşağıya yığılan sulardakı şeylərin heç birinin surətini düzəltmə.

Allahın Rəbbin adını boş yerə dilinə gətirmə, çünki Rəbb Öz adını boş yerə dilinə gətirəni cəzasız qoymaz.

Şənbə gününü* yadda saxlayıb təqdis et. Altı gün çalışıb bütün işlərini gör. Lakin yeddinci gün Allahın Rəbbin Şənbə günüdür.

Ata-anana hörmət et ki, Allahın Rəbbin sənə verdiyi torpaqda ömrün uzun olsun.

Qətl etmə.

Zina etmə.

Oğurluq etmə.

Heç kimə qarşı yalandan şahidlik etmə.

Heç kimin evinə tamah salma. Heç kimin arvadına, quluna, qarabaşına, öküzünə, eşşəyinə – heç bir şeyinə tamah salma».

*ÇIXIŞ 20*





## Qızıl dana

Rəbb bir neçə gün Sina dağında Musa ilə danışdı. İsraillilər Musanın gec qayıtdığını görəndə Harunun yanına gəlib ona dedilər: «Qalx və bizim üçün allah düzəlt ki, qabağımızca getsin. Çünki bizi Misir torpağından çıxaran Musanın başına nə iş gəldiyini bilmirik!» Harun onlara cavab verdi: «Qulaqlarınızdan qızıl sırğaları çıxarıb mənim yanıma gətirin». Bütün xalq qulaqlarında olan qızıl sırğaları çıxarıb Haruna gətirdi. Harun qızılı əritdi, qızıl dana düzəltdi və oyma aləti ilə ona surət verdi. İsraillilər dananı görəndə dedilər: «Ey İsraillilər, budur sizi Misir torpağından çıxaran allahınız!» Ertəsi gün xalq səhər tezdən qalxıb dana bütünə qurbanlar kəsdi və səcdə etdi. Sonra xalq yedi-içdi və səs-küylə əylənməyə başladılar.

Rəbb Musaya dedi: «Tez ol, düş aşağı, çünki Misirdən gətirdiyin xalqın öz əxlaqını pozdu. Mən onlara əmr etdiyim yoldan yaman tez döndü». Allah bu dikbaş və sərt xalqı məhv etmək istəyirdi, amma Musa Ona yalvarıb dedi: «Ya Rəbb, Öz xalqına qarşı qəzəblənmə. Sən onları Misirdən böyük qüvvətinlə və qüdrətli əlinlə qurtardın. Axı nə üçün Misirlilər "Onları pis niyyətlə, dağlarda öldürüb yer üzündən yox etmək üçün çıxartdı" desinlər? Yalvarıram, qəzəbini yatır və Öz xalqını məhv etmə».

Rəbb Musanın yalvarışını eşitdi və xalqına cəza vermək niyyətindən vaz keçdi.

Musa isə qəzəbləndi və daş lövhələri yerə atıb parça-parça etdi. Xalqın düzəltdiyi dananı götürüb yandırdı, toza dönənə qədər əzdi və suyun üzünə səpələyib İsraillilərə içirtdi.

*ÇIXIŞ 32:1–20*





## Hüzur çadırı

Musa çadırı götürüb onu düşərgədən kənarda – uzaqda qurdu. Onu Hüzur çadırı adlandırdı. Rəblə görüşmək istəyən oraya gedərdi.

Musa çadıra tərəf çıxdığı zaman bütün xalq durardı. Hər kəs öz çadırının girişində dayanardı və Musa çadıra girənə qədər ardınca baxardı. Musa Hüzur çadırına girəndə bulud sütunu düşüb çadırın girişində durardı; Rəbb Musa ilə danışardı. Bütün xalq Hüzur çadırının girişində dayanan bulud sütununu görər, hamı qalxıb öz çadırının girişində səcdə qılardı.

Rəbb Musa ilə üz-üzə, dostu ilə söhbət etdiyi kimi danışardı. Sonra Musa düşərgəyə qayıdardı. Lakin onun gənc köməkçisi Nun oğlu Yeşua çadırı tərk etməzdi.

*ÇIXIŞ 33:7–11*





## Müqəddəs məskən üçün ianələr

Bir gün Rəbb Musa vasitəsilə Öz xalqına Onun hüzurunun daimi olacağı başqa bir müqəddəs çadır tikməyi əmr etdi. İsraillilər orada Allaha qurbanlar gətirə bilərdilər.

Musa bütün İsraillilərə dedi: «Rəbbin əmr etdiyi iş budur: öz aranızdan Rəbbə bir ianə toplayın. Qoy könlü istəyən hər kəs Rəbbə belə ianə gətirsin: qızıl, gümüş, tunc, bənövşəyi, tünd-qırmızı və al rəngli iplik, incə kətan, keçi yunu, qırmızı boyanmış qoç dəriləri, suiti dəriləri, əbrişim ağacı, çıraq üçün zeytun yağı, məsh yağı və ətirli buxur üçün ətriyyatlar, efodla* döşlüyün üstünə taxılan damarlı əqiq və sağanaq daşları.

İsraillilər Musanı dinləyib lazım olanları gətirməyə başladılar. Ürəyinə toxunan və könlü istəyən hər adam gəlib Hüzur çadırı, onun inşası və müqəddəs geyimlər üçün Rəbbə ianə gətirdi. Kişilər və qadınlar – könlü istəyənlərin hamısı bəzəkli sancaqlar, sırğalar, üzüklər, bilərziklər kimi bütün qızıl əşyalarını gətirdilər. Hər kəs qızılı yellətmə təqdimi kimi Rəbbə təqdim etdi. Kimdə bənövşəyi, tünd-qırmızı və al rəngli iplik, incə kətan, keçi yunu, qırmızı boyanmış qoç dəriləri və suiti dəriləri var idisə, bunları təqdim etdi. Gümüş və tunc gətirən hər kəs də onu Rəbbə ianə olaraq təqdim etdi. Kimdə əbrişim ağacı var idisə, onu bütün inşa işi üçün təqdim etdi.

*ÇIXIŞ 35:4–29*





## Hüzur çadırının təqdis olunması

Hüzur çadırının ətrafında 50 metr uzunluğunda və 23 metr enində həyət var idi. Həyət pərdələrlə əhatə edilmişdi: onlar mis dirəklərdən asılmışdı. Hüzur çadırının özü isə 15 metr uzunluğu, 5 metr eni, 5 metr hündürlüyü olan dördbucaqlı formasında idi. Giriş şərq tərəfdən idi.

Hüzur çadırının içində iki hissə var idi. Birinci hissə müqəddəs məskən adlanırdı, o, ölçüsünə görə böyük idi. Onun içərisində ətirli buxur yandırmaq üçün qızıl qurbangah var idi. Qurbangahın yanında qızıl masa var idi. Onun üstündə on iki çörək var idi. Onlar təqdis çörəkləri və yaxud müqəddəs çörəklər adlanırdı. Bu hissədə yeddi qəndilli qızıl çıraqdan var idi. İkinci otaq birincisindən arakəsmə ilə ayrılmışdı. Orada qızıldan Əhd sandığı var idi, o, iki qızıl mələyin təsviri olan bir qutu idi. Onun içərisində üzərində On Əmr yazılmış daş lövhələr saxlanılırdı. Bu otaq Ən Müqəddəs yer adlanırdı.

Müqəddəs Məkana yalnız kahinlər, Ən Müqəddəs yerə isə yalnız baş kahin* ildə bir dəfə daxil ola bilərdi.

Hüzur çadırı tikiləndə Musa onu və orada xidmət edəcək kahinləri təqdis etdi. O vaxt bulud Hüzur çadırını bürüdü və Rəbbin izzəti məskəni doldurdu. Gecələr Hüzur çadırını örtən bulud od kimi yanırdı. Bulud daim Hüzur çadırını örtürdü. Bəzən bulud Hüzur çadırının üzərindən yüksəyə qalxırdı. Bu, Allahdan bir işarə idi və İsrailliləri Misirdən gözəl Kənan torpağına aparırdı.

Hüzur çadırı Müqəddəs Kitabda həm Vəhy* çadırı, həm də İbadət çadırı adlanır, çünki oraya xalq ibadət üçün toplanırdı.

*ÇIXIŞ 40:17–38*





## Kəşfiyyatçılar Kənanda

Nəhayət, İsraillilər Kənan torpağına çatdılar. Onlar Paran səhrasında dayandılar. Oradan Musa Kənan torpağına on iki kəşfiyyatçı göndərdi və onlara dedi: «Bu cənub ölkəsinə gedin və dağlığa çıxın. Ölkənin necə olduğunu görün. Orada yaşayan xalq güclümü, zəifmi, azmı, çoxmu? Yaşadıqları ölkə necə, yaxşımı, pismi? Şəhərləri necə, hasarlımı, istehkamsızmı? Torpaq necə, münbitmi, məhsulsuzmu? Orada ağac varmı, ya yox? Əlinizdən gələni edib ölkənin meyvəsindən gətirin». On iki kəşfiyyatçı yola düşdü. Qırx gün onlar Kənan ölkəsini nəzərdən keçirdilər. Geri qayıdanda özləri ilə nar, əncir və başqa meyvələr gətirdilər. Onlar həmçinin bir üzüm salxımı gətirdilər; salxım o qədər böyük idi ki, iki nəfər onu şüvülün üstündə gətirirdi. Kəşfiyyatçılar Musaya belə dedilər: «Həqiqətən də, o ölkədə süd və bal axır. Lakin orada yaşayan xalq çox güclüdür. Şəhərlər istehkamlı və çox böyükdür. Biz onlara qarşı döyüşə bilmərik!»

Kəşfiyyatçılar Kənan torpağı haqqında yalan şayiələr yayırdılar və İsraillilləri qorxudurdular. Kəşfiyyatçılar Allahın onlara vəd etdiyi köməyi unutmuşdular. Onlardan yalnız iki nəfər – Yeşua və Kalev Rəbbə sadiq qaldılar və camaatı qorxutmaq istəmədilər. Kalev camaatı sakitləşdirib dedi: «Gedib oranı ələ keçirərik. Biz mütləq onların öhdəsindən gələrik». Amma camaat onlara qulaq asmaq istəmirdi. Hamı fəryad qoparıb ağladı və onları Misirdən çıxardıqlarına görə Musa ilə Haruna deyindilər. Sonra bir-birlərinə dedilər: «Özümüzə başçı seçək və Misirə qayıdaq». Nun oğlu Yeşua və Yefunne oğlu Kalev əyinlərindəki paltarlarını cırıb dedilər: «Əgər Rəbb bizdən razı qalarsa, bizi o ölkəyə aparacaq, süd və bal axan torpağı bizə verəcək. Ancaq Rəbbə qarşı üsyankarlıq etməyin. Ölkənin xalqından qorxmayın,



onları məğlub edə bilərik. Müdafiələri yoxdur, amma Rəbb bizimlədir. Onlardan qorxmayın!» Musa və Harun camaatın üsyankar sözlərini eşidib kədərləndilər. Onlara İsraillilərin inadkarlığı və inamsızlığını görmək ağrılı idi. Rəbb Musaya belə dedi: «Nə vaxtadək bu xalq Mənə hörmətsizlik edəcək? Aralarında etdiyim əlamətləri görə-görə nə vaxta qədər Mənə iman gətirməyəcəklər?» Sonra Rəbb dedi ki, bu xalqı məhv etməyə hazırdır. Rəbb çox böyük və güclü bir milləti Musadan törətmək istəyirdi. Allah Musanın xətrinə üsyankar xalqı əfv etdi, amma dedi ki, inamsızlıqlarına görə vəd olunmuş torpağa İsraillilərin yalnız yeni nəsli girəcək və orada yaşayacaq. İndi yaşayanlardan oraya yalnız Yefunne oğlu Kalev və Nun oğlu Yeşua girəcək, çünki onlar Rəbbə sadiq qaldılar.

*SAYLAR 13:1–34; 14:1–30*



## Qorah, Datan və Aviramın cəzası

Rəbb Musanı xalqın üzərində başçı seçdiyinə görə bütün İsrail xalqına Musaya itaətli olmağı və onun sözlərinə əməl etməyi əmr etmişdi. Amma bir gün İsrail düşərgəsində üsyan qalxdı. Qorah, Datan və Aviramın başçılığı ilə iki yüz əlli nəfər adam Musaya qarşı üsyan etdi. Onlar Musaya tabe olmaq istəmirdilər və Musanı özünü hamıdan yüksək tutmaqda ittiham etdilər.

Musa bunu eşidib, Rəbbin ona əmr etdiyi kimi, bütün İsrail xalqına Qorah, Datan və Aviramın çadırlarından çəkilib onların əşyalarına toxunmamağı əmr etdi. Sonra Musa dedi: «Bütün bu işləri etmək üçün məni Rəbbin göndərdiyini, özbaşına hərəkət etmədiyimi bununla biləcəksiniz. Əgər bu adamlar hər kəsin öldüyü kimi ölsələr və yaxud hər kəsin başına gələn təcrübələrdən keçsələr, o halda Rəbb məni göndərməmişdir. Lakin Rəbb yeni bir şey etsə, yer ağzını açaraq onları və onlara aid olan hər şeyi udsa, onlar ölülər diyarına diri-diri ensələr, bu adamların Rəbbi təhqir etdiklərini anlayacaqsınız».

Musa bütün bu şeyləri danışıb qurtaran kimi onların altındakı yer yarıldı və onları, ailələrini, Qorahın bütün adamlarını və bütün evləri ilə mallarını uddu. Onlar və onlara aid olanların hamısı diri-diri cəhənnəmə getdilər. Yer üzü onları örtdü və yox oldular. Onların ətrafında olan bütün İsraillilər onların qışqırığını eşidib «Yer bizi də udmasın!» deyərək qaçışdılar. Rəbbin hüzurundan od çıxdı və yerdə qalan iki yüz əlli nəfər üsyançını da məhv etdi.

*SAYLAR 16:1–3, 23–35*





## Tunc ilan

Xalq səhrada yolunu davam edərkən yenə də ruhdan düşməyə və Allaha qarşı deyinməyə başladı. Musaya xitab edərək onlar hiddətləndilər: «Nə üçün bizi Misirdən çıxardın? Bizim bu səhrada ölməyimiz üçünmü? Burada nə su, nə çörək var və bu yararsız yemək bizi daha bezdirib».

Bu deyingənliklərinə görə Rəbb İsraillilərə zəhərli ilanlar göndərdi, onlar xalqı sancdı və İsraillilərdən çox adam öldü. O zaman camaatın çoxu gəlib Musaya dedi: «Biz günah etdik, çünki Rəbbə və sənə qarşı deyindik. İndi isə ilanları bizdən uzaqlaşdırmaq üçün Rəbbə dua et».

Musa xalqı üçün Rəbbə dua etdi. Rəbb ona cavab verdi: «Tuncdan bir ilan düzəlt və onu uzun dəyənəyin üzərinə qoy. İlan vuran adam ona baxdıqda sağalsın». Musa tuncdan bir ilan düzəltdi və dəyənəyin üzərinə qoydu, ilan vuran hər adam tunc ilana baxan kimi sağalırdı.

*SAYLAR 21:4–9*





## Bilam və mələk

Bir gün İsraillilər İordanın şərqində Yerixo şəhərinin yaxınlığında dayandılar. Bu yerlərdə Moavlılar yaşayırdılar. İsraillilər çox idilər və Moavlılar bundan qorxmuşdu. Moav padşahı Balaq Bilam peyğəmbəri çağırmaq üçün qasidlər göndərib dedi: «Budur, Misirdən bir xalq çıxıb, yaxınlığımda yerləşmişdir. Onlar o qədər çoxdurlar ki, yer üzünü bürüyüblər. İndi gəl, bu xalqa lənət oxu, çünki onlar məndən güclüdürlər. Bəlkə, onda mən onları məğlub edib ölkədən qova bildim. Sənin xeyir-dua verdiyin şəxsin xeyir-dualı, lənətlədiyin şəxsin lənətli olduğunu bilirəm».

Bilam yola düşdü. Bilam eşşəyinə minmişdi və onunla birgə iki nökəri də vardı. Birdən eşşək yolda duran Rəbbin mələyini əlində sıyrılmış qılıncla gördü və yoldan dönərək tarlaya girdi. Bilam yoluna döndərmək üçün eşşəyi vurdu. Amma eşşək yenə də mələyi görüb yerə uzandı, peyğəmbər isə onu çomaqla vurmağa başladı.

Rəbbin mələyi bağların arasında dar bir yolda durdu. Hər iki tərəf divar idi. Eşşək Rəbbin mələyini görüb divara sıxıldı və Bilamın ayağını divara sıxışdırdı. O, yenə eşşəyi vurmağa başladı.

Rəbbin mələyi irəli çıxdı və sağa-sola dönmək üçün yol olmayan dar bir yerdə durdu. Eşşək Rəbbin mələyini gördü və Bilamın altında çökdü. Bilam qəzəblənib, eşşəyi dəyənəklə vurdu.

Rəbb eşşəyin dilini açdı və o, Bilama dedi: «Sənə nə etdim ki, məni vurursan?» Sonra Rəbb Bilamın gözlərini açdı. Bilam əlində sıyrılmış qılınc olan Rəbbin mələyinin yolda durduğunu gördü və üzüstə yerə sərilib ona səcdə etdi. Mələk Bilama dedi: «Sən nə üçün eşşəyi vurdun? Mən gəldim ki, səni dayandırım, çünki sənin yolun önümdə səhv yoldur». Bilam mələyə cavab verdi: «Günah etdim, çünki sənin mənə qarşı yolda durduğunu bilmədim. İndi əgər bu, sənin gözündə pis görünürsə, qoy evimə qayıdım». Mələk Bilama dedi: «Bu adamlarla get, ancaq yalnız mənim sənə deyəcəyim sözü de».

Moavlılar gözləyirdilər ki, yanlarına gələn Bilam İsraillilərə lənət oxuyacaq və başlarına bəlalar çağıracaq. Lakin Bilam dedi: «Allahın lənət etmədiyinə mən necə lənət edim? Rəbbin qarğış etmədiyinə mən necə qarğış edim? Mən İsrailin başına necə bəlalar çağıra bilərəm? Axı Rəbb Özü bunu istəmir!» Bilam İsraili lənətləmək əvəzinə üç dəfə ona xeyir-dua verdi.

*SAYLAR 22:3–35; 23:7–20*



## Musanın davamçısı Nun oğlu Yeşua

Musa çox qocalmışdı və Allah ona tezliklə öləcəyi barədə dedi. Ölümündən əvvəl Musa xalqı çobansız quzular kimi olmasın deyə Rəbdən xahiş etdi ki, onun davamçısını təyin etsin.

Rəbb Musaya dedi: «İçində Allahın Ruhu olan bir adamı – Nun oğlu Yeşuanı yanına gətirərək əlini onun üzərinə qoyacaqsan. Onu kahin Eleazar və bütün xalq qarşısında dayandırıb onların gözləri önündə ona öyüd-nəsihət ver. Ona öz səlahiyyətindən ver ki, bütün İsrail xalqı ona itaət etsin. O, hökm almaq üçün kahin Eleazarın qarşısında duracaq. Eleazar Rəbbin önündə püşk atacaq və Yeşua ilə bütün İsraillər onun sözünə itaət edəcək». Musa Rəbbin ona əmr etdiyi kimi etdi.

Nun oğlu Yeşua İsrail xalqının Kənana daxil olmasına Allahın kömək edəcəyinə inanan o iki kəşfiyyatçıdan biri idi. Onlar o vaxt xalqı ruhlandırıb deyirdilər: «Rəbb bizimlədir, o torpağın sakinlərindən qorxmayın!» O vaxtdan qırx il keçdi. İsrail xalqı qırx il səhrada gəzib-dolaşdı. Bu dövr ərzində Misirdən çıxmış yaşlı İsraillilər öldülər və onlar vəd olunmuş Kənan torpağını görmədilər. Allahın dediyi kimi oldu: «Burada, səhrada Mənə qarşı deyindiyinizə görə iyirmi və ondan yuxarı yaşda olanların hamısı öləcək, sakin edəcəyim torpağa girməyəcək. Oraya yalnız Yefunne oğlu Kalev və Nun oğlu Yeşua girəcək. Lakin uşaqlarınızı oraya aparacağam və sizin rədd etdiyiniz ölkəni onlar görəcəklər. Siz ölkəni qırx gün nəzərdən keçirdiniz. Bu günlərin sayına, hər gün üçün bir il – qırx il günahlarınıza görə cəza çəkəcəksiniz!»

*SAYLAR 14:29–30, 34; 27:12–23*





## Gələcək nəsillərə vəsiyyət: Rəbbi unutmamaq

Musa xalqa belə öyüd-nəsihət verirdi: «Allahınız Rəbbin sizə əmr etdiklərinə diqqətlə əməl edin, onlardan nə sağa, nə də sola dönün. Bütünlüklə Allahınız Rəbbin sizə əmr etdiyi yolda gəzin. Onda sağ qalarsınız, xoş güzəranınız olar və mülk olaraq alacağınız torpaqda uzun ömür sürərsiniz. Dinlə, ey İsrail! Allahımız Rəbb yeganə Rəbdir. Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün gücünlə sev».

Musa İsraillilərə Rəbbin Misirdə, sonra səhrada gəzib-dolaşdıqları vaxt göstərdiyi möcüzələrdən övladlarına danışmağı vəsiyyət etmişdi. O həm də İsraillilərə Rəbbin əmrlərinə öz övladlarını öyrətməyi buyurmuşdu. Musa onlara dedi: «Baxın, sizi Misir torpağından – köləlik diyarından çıxaran Rəbbi unutmayın. Allahınız Rəbdən qorxun və Ona qulluq edin. Yad allahların – başqa xalqların allahlarının ardınca getməyin ki, Allahınız Rəbbin sizə qarşı qəzəbi alovlanmasın və sizi yer üzündən yox etməsin, çünki Allahınız Rəbb qısqanc Allahdır». Allahınız Rəbbin sizə buyurduğu əmrlərə, göstərişlərə və qanunlara diqqətlə əməl edin. Rəbbin gözündə doğru və yaxşı olana əməl edin.

*QANUNUN TƏKRARI 5:32–33; 6:4–25*





## Qurban

Musa hər bir İsrailliyə xitab edərək dedi: «Allahınız Rəbbin irs olaraq sizə verəcəyi torpağa girib orada məskunlaşanda Allahınız Rəbbin sizə verəcəyi ölkənin torpaqlarından topladığınız bütün məhsulların novbarını götürüb bir səbətə yığın. Sonra Allahınız Rəbbin Öz isminə məskən seçəcəyi yerə gedin. O dövrdə xidmət edən kahinin yanına gedib deyin: "Allahın Rəbbə bu gün bəyan edirəm ki, Rəbbin atalarımıza vəd etdiyi ölkəyə çatdım". Bunları Rəbbin, Allahının önünə qoy və Ona səcdə et.

Siz Levililər*, aranızda yaşayan qəriblər Allahınız Rəbbin sizə və ailənizə verdiyi bütün yaxşı şeylər üçün sevinin. Üçüncü il bütün məhsulunuzun onda birini ayırın. Onları sonra Levililərə, qəriblərə, yetimlərə və dul qadınlara verin ki, şəhərlərinizdə onlar da yeyib-doysunlar.

Bu gündən Allahınız Rəbb bu qaydalara, hökmlərə əməl etməyi sizə buyurur. Onlara bütün qəlbinizlə, bütün varlığınızla əməl etmək üçün diqqətli olun. Bu gün Rəbbin Allahınız olduğunu, Onun yolları ilə gedəcəyinizi, qanunlarına, əmrlərinə, hökmlərinə riayət edəcəyinizi, Onun sözünə qulaq asacağınızı bəyan etdiniz. Bu gün Rəbb sizə verdiyi sözə görə bəyan etdi ki, Ona məxsus xalq olasınız. Buna görə də Onun bütün əmrlərinə riayət etməlisiniz. O zaman dediyi kimi, Allahınız Rəbb yaratdığı bütün millətlərdən tərifdə, şöhrətdə və hörmətdə sizi üstün edəcək ki, Allahınız Rəbb üçün təqdis edilmiş xalq olasınız».

*QANUNUN TƏKRARI 26:1–19*





## Musanın ölümü

Rəbb Musaya Moav düzənliyindən Yerixo qarşısında Nevo dağına çıxmağı əmr etdi. Rəbb Musaya dedi ki, o, bu dağda öləcək. Rəbb ona İbrahimə, İshaqa və Yaquba vəd etdiyi bütün ölkəni göstərdi. O and içmişdi ki, bu torpağı onların övladlarına verəcək. Sonra Rəbb ona dedi: «Bax, torpaq budur, Mən izin verdim ki, oranı öz gözlərinlə görəsən. Lakin oraya girməyəcəksən».

Rəbbin sözünə görə Musa elə orada öldü. O, Moav torpağında olan Bet-Peor qarşısındakı dərədə dəfn edildi. Amma bu günə qədər heç kim onun dəfn olunduğu yerin harada olduğunu bilmir. Musa öləndə yüz iyirmi yaşında idi, amma gözü nurdan düşməmiş, taqəti tükənməmişdi. İsraillilər Musa üçün Moav düzənliyində otuz gün yas tutdular. İsraildə Musa kimi peyğəmbər bir daha olmadı. O, Rəblə üz-üzə danışmışdı. Rəbb Musanı Misir torpağında firon qarşısında, onun bütün əyanları qarşısında və bütün Misir torpağında böyük qüdrət və möcüzələr göstərməyə göndərmişdi. Musa bütün bunları İsraillilərin gözləri qarşısında edirdi.

Musa Nun oğlu Yeşuanın üzərinə əllərini qoyandan sonra o, hikmət ruhu ilə dolmuşdu. İsraillilər də ona qulaq asdılar və Rəbbin Musaya əmr etdiyi hər şeyə əməl etdilər.

*QANUNUN TƏKRARI 34:1–12*





## Raxav kəşfiyyatçıları xilas edir

Musanın ölümündən sonra Rəbb Nun oğlu Yeşuaya belə dedi: «Qulum Musa öldü. İndi qalx, sən və bütün bu xalq İordan çayını keçib İsraillilərə verəcəyim torpağa gedin. Musaya dediyim kimi, qədəm qoyacağınız hər yeri sizə vermişəm. Bütün ömrün boyu heç kəs sənə qarşı çıxa bilməyəcək. Musa ilə olduğum kimi, səninlə də olacağam, səni atmayacağam və tərk etməyəcəyəm. Möhkəm və cəsarətli ol, çünki atalarına vermək üçün and içdiyim bu torpağı bu xalqa irs olaraq sən verəcəksən. Qulum Musanın sənə tapşırdığı Qanuna tam və dəqiq əməl etmək üçün cəsarətli və çox möhkəm ol. Ondan nə sağa, nə də sola dön ki, hara getsən, uğur qazanasan. Bu Qanun kitabının sözləri dilindən düşməsin, orada yazılan hər şeyə dəqiq əməl etmək üçün gecə-gündüz onun üzərində düşün. Onda yolun uğurlu olacaq və müvəffəqiyyət qazanacaqsan».

İsraillilər get-gedə tezliklə alacaqları Kənan torpağına yaxınlaşırdılar. Artıq böyük istehkamlı Yerixo şəhərinin divarları göründü. Nun oğlu Yeşua iki İsraillini bu şəhərə kəşfiyyata yolladı. Onlar Yerixoya gəldilər və Raxav adlı qadının evində qaldılar. Yerixo padşahına bildirildi ki, şəhərə İsrail ordugahından iki kəşfiyyatçı gəlib və Raxav adlı qadının evində qalıblar. Padşah nökərlərinə əmr etdi ki, onları yaxalasınlar.

Raxav İsraillilər Allahın barədə etdiyi möcüzələr barədə eşitmişdi və inanırdı ki, Rəbb Yerixo şəhərini onlara verəcək, çünki bu şəhər İsraillilərə vəd olunmuş torpaqda yerləşir. Buna görə də qadın Allaha etibar edərək gələn kəşfiyyatçıları gizlətdi, padşahın nökərlərinə isə dedi ki, onlar axşam evindən gediblər. Padşahın nökərləri kəşfiyyatçıları təqib etmək üçün Yerixodan İordan çayının keçidinə qədər qaçdılar. Gecə düşəndə Raxav İsrailliləri kəndirlə pəncərədən



aşağı endirdi, çünki onun evi şəhərin qala divarında idi. Qadın onlara dedi: «Dağa gedin ki, təqibçilər sizə çatmasınlar, onlar qayıdana qədər üç gün orada gizlənin, sonra yolunuza davam edərsiniz».

*YEŞUA 1:1–7; 2:1–16*



## İordan çayından keçid

Yerixoya gedən yolda İsrail xalqı İordan çayını keçməli idi. Onda Rəbb Yeşuaya dedi: «Bu gün Mən səni bütün İsraillilərin gözündə ucaltmağa başlayacağam ki, onlar Musa ilə olduğum kimi, səninlə də olduğumu bilsinlər. Sən isə Əhd sandığını daşıyan kahinlərə əmr edib deyəcəksən: "Siz İordan çayının kənarına çatanda İordan çayına girib dayanın"». Yeşua İsraillilərə dedi: «Buraya yaxınlaşın və Allahınız Rəbbin sözlərini eşidin». Yeşua dedi: «Var olan Allahın aranızda olmasını buradan biləcəksiniz ki, O, sizin önünüzdən hökmən Kənanlıları, Xetliləri, Xivliləri, Perizliləri, Qirqaşlıları, Emorluları və Yevusluları qovacaq. Budur, bütün yer üzünün Sahibinin Əhd sandığı sizin önünüzdən keçib İordan çayına girəcək. İndi isə özünüzə hər qəbilədən bir adam olmaqla İsrail qəbilələrindən on iki adam götürün. Bütün yer üzünün Sahibi Rəbbin sandığını daşıyan kahinlərin ayaqları İordan çayının sularına dəyən kimi çayın suları kəsiləcək, yuxarıdan axan sular yığın halında dayanacaq».

Biçin ərzində İordan çayının suları daşıb sahilləri basırdı. Sandığı daşıyan kahinlər İordana girəndə və onların ayaqları çayın sularına dəyəndə yuxarıdan axan sular çox uzaqda – Adam şəhərində yığın halında dayanıb qalxdı. Duz dənizinə axan sular tamamilə kəsildi. Bütün İsraillilər İordan çayını tamamilə keçənə qədər quru yerdə gedirdilər. Rəbbin Əhd sandığını daşıyan kahinlər isə İordan çayının ortasında quru yerdə möhkəm durmuşdular. Nun oğlu Yeşua on iki İsraillinin hər birinə durduqları yerlərindən bu möcüzənin xatirəsi olaraq bir daş götürmələrini buyurdu. Bütün millət tamamilə İordan çayını keçəndən sonra Rəbb Yeşuaya dedi: «Şəhadət sandığını daşıyan kahinlərə əmr et ki, İordan çayından çıxsınlar». Kahinlər İordan çayından çıxanda çayın suları öz yerinə qayıtdı.



Nun oğlu Yeşua İordan çayından götürülmüş on iki daşı Qilqal adlanan yerdə qoydu.

*YEŞUA 3:7–17; 4:1–24*



## Yerixonun süqutu

İsraillilər Yerixoya yaxınlaşanda şəhərin padşahı bütün darvazaları bərk-bərk bağlamağı əmr etmişdi. Lakin Rəbb Yeşuaya dedi: «Bax Yerixonu, onların padşahını, igid adamlarını sənə təslim edirəm. Siz – bütün döyüşçülər şəhərin ətrafına bir dəfə dolanın; altı gün belə edin. Sandığın qarşısında yeddi kahin qoç buynuzundan olan yeddi şeypur daşısın. Yeddinci gün şəhəri yeddi dəfə dolanın və kahinlər şeypurları çalsınlar. Onlar qoç buynuzundan olan şeypuru uzun-uzadı çalan zaman siz şeypurun səsini eşidəndə bütün xalq gur səslə bağırsın. Onda şəhərin qala divarları yerə çökəcək və xalqın hər biri dayandığı yerdən şəhərə qalxsın».

Təntənəli yürüşün qabağında silahlı adamlar gedirdi, onların arxasında gedən kahinlər şeypurları çalırdı; silahlı adamlar yürüşün arxasında da gedirdilər. Yeşua xalqa əmr edib dedi: «Sizə "çığırın" deyəcəyim günə qədər çığırmayın, səsinizi eşitdirməyin və ağzınızdan bir söz çıxartmayın, ancaq mən deyən vaxt çığırın». Rəbbin sandığını bir dəfə şəhərin ətrafına dolandırdılar və İsrail ordugahına döndülər. O biri gün İsraillilər yenə də Rəbbin sandığını götürdülər şəhərin ətrafına dolandırdılar və ordugaha qayıtdılar. Onlar altı gün ərzində belə etdilər. Yeddinci gün Rəbbin sandığını yeddinci dəfə şəhərin ətrafına dolandıranda kahinlər şeypur çaldı. Yeşua isə xalqa dedi: «Çığırın, çünki Rəbb şəhəri sizə verdi!» Xalq şeypur səsini eşidəndə ucadan çığırdı. Onda şəhər divarları özülünə qədər yerə çökdü və xalqın hər biri dayandığı yerdən irəliləyərək şəhəri aldı.

Yerixoda iki kəşfiyyatçı onları təqibçilərdən gizlədən Raxava onu və qohumlarını şəhərin süqutu zamanı xilas etməyə söz vermişdi. Onlar Raxava İsraillilər şəhərə daxil olanda pəncərəyə qırmızı ip bağlamağı əmr etdilər. Raxav elə də etdi



və İsraillilər qadını qohumları ilə birgə Yerixonun kənarına çıxartdılar. Bundan sonra Yerixo yandırıldı.

*YEŞUA 6:1–24*



## Emorlularla döyüş

Bir dəfə Giveon adlı yerdə İsraillilərin onların düşmənləri Emorlularla böyük döyüşü olmuşdu. Döyüşdən əvvəl Rəbb Yeşuaya dedi: «Onlardan qorxma, çünki onları sənə təslim etdim, onlardan heç kim sənin qarşında dura bilməyəcək». İsrail ordusu gecə Yeşuanın başçılığı ilə ordugahı tərk edib yola düşdü. İsraillilər Emorlulara onlar gözləmədikləri zaman hücum etdilər və Rəbb Emorluları İsraillilərin önündə çaş-baş etdi. İsraillilər Emorluların üzərində böyük zəfər çaldılar və onları Bet-Xoron dağına aparan yol ilə Azeqaya və Maqqedaya qədər təqib etdilər.

Lakin bu qələbə dərhal əldə olunmamışdı. O gün döyüş uzandı. Yeşua Rəbbə yalvardı ki, günəş batmasın və gün uzansın. Bütün İsraillilərin gözü önündə O dedi:

«Dayan, ey günəş, Giveon üzərində,
Ey ay, Ayyalon dərəsində».

İsrail xalqı düşmənlərini məğlub edənə qədər günəş orada dayandı və ay yerində qaldı. Döyüş qurtaranda Yeşuanın ordusu zəfərlə ordugahlarına qayıtdı.

Rəbbin insan səsini eşitdiyi o gün kimi bir gün nə ondan əvvəl, nə də ondan sonra oldu. Çünki Allah Özü xalqı İsrail üçün vuruşdu.

Allah Yeşuaya və hər bir Ona iman edənə bu sözləri deyir: «Sənə möhkəm və cəsarətli olmağı əmr edən Mən deyiləmmi? Qorxma və ruhdan düşmə, çünki Allahın Rəbb gedəcəyin hər yerdə səninlədir».

*YEŞUA 1:9; 10:6–15*





# İsrail hakimləri

İsraillilər Kənana gəlməmişdən əvvəl orada müxtəlif bütpərəst xalqlar – Xetlilər, Qirqaşlılar, Emorlular, Kənanlılar, Perizlilər, Xivlilər və Yevuslular yaşayırdılar. Bütün bu xalqlar bəzən Kənanlılar adlandırılırdı. Allah artan günahlarına görə Kənanlıları məhv etmək qərarına gəlmişdi. Kənanlıların əsas allahları Baal* və Aştoret idi. Baala ibadət ədəbsiz şənliklərlə müşayiət olunurdu. Baala səcdə olunan yüksəkliklər adlanan yerlərdə qurbanlar gətirilərdi, orada hətta adamları da qurban gətirərdilər.

Musa torpağı on iki İsrail qəbiləsi arasında bölmüşdü; onlar Yaqubun on iki övladlarından on biri idi: Ruven, Şimeon, Yəhuda, Naftali, Qad, Aşer, İssakar, Zevulun, Yusif (onun qəbiləsi iki oğlundan – Efrayim və Menaşşedən gələn iki nəslə bölünürdü) və Binyamin. Bir qəbilə isə, Levi nəsli,





öz torpaq payını almamışdı, çünki onlar Allahın Müqəddəs məkanında xidmət etmək üçün seçilmişdi və İsrailin digər qəbilələrinin torpaqlarında yerləşən şəhərlərdə yaşayırdılar.

Kənana gələndən sonra 300–400 il ərzində on iki İsrail qəbiləsinin vahid hakimiyyəti yox idi. Onları yeri və göyü Yaradan tək Allaha olan iman birləşdirirdi. Buna baxmayaraq, onlar bütpərəstliyə dönürdülər, aralarında yaşayan xalqların allahlarına səcdə edirdilər və Allahın əmrlərindən üz döndərirdilər. Cinayətlərə və bütpərəstliyə görə Allah İsrailə qəzəblənirdi və cəzalandırırdı: İsrailin müharibələr apardığı düşmənləri – Moavlılar, Ammonlular, Amaleqlilər, Filiştlilər, Kənanlılar və Midyanlılar xalqı talan edib məğlub edirdilər. Bu xalqların zülmü altında olan İsraillilər çox iztirab çəkib qurtuluş üçün Allaha yalvarırdılar. Rəbb Öz mərhəmətinə görə onların arasından hakimlər seçirdi. Amma hakimlər öləndə xalq yenə bütpərəstliyə dönürdü, daha da pis işlər edirdi və bununla Rəbbin qəzəbinə düçar olurdu.

İsrailin hakimləri: Otniel, Ehud, Şamqar, qadın peyğəmbər Devora, Barak, Gideon, Avimelek, Tola, Yair, İftah, İvsan, Elon, Avdon, Şimşon və Şamuel. Bu kitabda biz onların bəzilərindən danışacağıq.

O dövrdə İsraildə padşah yox idi, hərə öz gözündə doğru görünən işi edirdi.

*HAKİMLƏR*

## Gideon

Yeşuanın ölümündən sonra İsraillilər bütlərə xidmət edərək daim Allahın qəzəbinə düçar olurdular. Bir gün Rəbb onlara buna görə cəza verdi: İsrail xalqı Midyanlıların əsarəti altına düşdü. İsraillilər üçün Midyanlıların zülmü çox ağır idi. Yeddi ildən sonra onlar Allaha fəryad etdilər. Rəbb onları eşitdi və onlara Gideon adlı başçı təyin etdi.

Gideon özünü güclü hesab etmirdi, amma Allah ona dedi: «Mən mütləq səninlə olacağam və sən də Midyanlıların hamısını bir nəfər kimi qıracaqsan». Rəbb Gideona atasının Baal bütünə düzəltdiyi qurbangahı dağıtmağı əmr etdi. Gideon qulluqçularından on nəfəri özü ilə götürüb Baal bütünə atasının düzəltdiyi qurbangahı dağıtdı və onun yanında Aşeranın ağac bütünü kəsdi. Gideon yeni bir qurbangah tikdi və orada Rəbbə qurban gətirdi. Gideonun üzərinə Rəbbin Ruhu endi və o, İsrailin düşmənlərinin qarşısına çoxsaylı qoşun yığmağa başladı. Gideon döyüşdən əvvəl İsrailliləri qurtarmaq üçün, həqiqətən də, onu seçdiyinə bir işarə verməsini Rəbdən xahiş etdi. Rəbb ona əlamət verdi: xırmanın üstünə sərilmiş yun ertəsi gün şehdən islandı, torpaq isə quru qaldı. O biri gecə isə, əksinə, yunun ətrafındakı bütün torpaq şehdən islandı, yun isə quru qaldı.

Gideon və onun ordusu Midyan ordugahı qarşısında yerləşəndə Rəbb ona dedi: «Yanında olan xalqın sayı çoxdur, ona görə Midyanlıları onlara təslim etmirəm. Çünki İsraillilər Mənim qarşımda "öz əlimlə özümü qurtardım" deyib öyünəcəklər». İndi sən xalqa bunu eşitdirib de: «Kim qorxudan əsirsə, Gilead dağından geri qayıtsın». Gideon belə də etdi, iyirmi iki min nəfər geri qayıtdı, on min nəfər qaldı. Amma Rəbb dedi ki, xalq yenə də çoxdur. O, Gideona adamları su kənarına gətirməyi əmr etdi. Sonra Rəbb Gideona onların





necə su içməyinə baxmağı əmr etdi. Xalqdan çoxu dizüstü oturub suyu birbaşa çaydan içirdi. Yalnız üç yüz nəfər əllərini ağızlarına aparıb suyu dili ilə içirdi. Rəbb Gideona dedi: «Sizi dili ilə su içən bu üç yüz nəfərlə qurtaracağam və Midyanlıları sənə təslim edəcəyəm».

Belə də oldu. Rəbb böyük möcüzə etdi: üç yüz İsrailli Midyanlılarla Amaleqliləri məğlub etdi, onlar isə çəyirtkə kimi saysız-hesabsız idilər.

*HAKİMLƏR 6 – 7*

## Pəhləvan Şimşon

Allahın möcüzələri, mərhəməti və köməyinə baxmayaraq, İsraillilər yenə Rəbdən üz döndərdilər və Onun xoşuna gəlməyən işlər etdilər. Buna görə onlar yenə əsarətə düşdülər və qırx il Filiştlilərin əsarətində oldular. Onlar əsarətdə olanda Rəbb onların üzərinə Şimşon adlı hakimi qoydu. O, qeyri-adi gücə malik olan bir insan idi, gücü isə saçında idi. Onun doğulmasından əvvəl Allah onun valideynlərinə uşağın saçını kəsməmələrini demişdi, çünki o, Nəziri (Allaha həsr olunmuş) adlanacaq və İsraili Filiştlilərin əlindən qurtaracaqdı.

Şimşon elə böyük gücə malik idi ki, bir dəfə cavan aslanı balaca oğlaq kimi parçaladı və bir gündə eşşəyin çənə sümüyü ilə min nəfəri öldürdü. O, asanlıqla ən möhkəm ipləri və qandalları qırırdı.

Bir gün Şimşon Qəzzə şəhərinə gəlib orada gecələməyə qaldı. Filiştlilər şəhər darvazasını qıfılladılar və gizlənib səhərin açılmasını gözlədilər ki, onu öldürsünlər. Şimşon gecəyarısı oyandı və şəhərdən çıxmaq istədi. O, şəhər darvazasının hər iki dirəyindən tutaraq cəftə qarışıq darvazanı çiyninə qoydu və dağın təpəsinə apardı.

*HAKİMLƏR 13:1–5; 14:5, 6; 15:14, 15; 16:1–3*





## Şimşonun ölümü

Şimşon iyirmi il İsraildə hakim oldu. O, xalqının düşmənləri olan Filiştlilərə çox narahatlıq gətirirdi. Onlar Şimşonu öldürmək istədilər, lakin onun gücünün haradan gəldiyini bilmirdilər və buna görə də ona heç bir şey edə bilmirdilər.

Bir gün Filiştlilər Şimşonun sevdiyi Delila adlı bir qadından pəhləvanın gücünün sirrini öyrənməyi xahiş etdilər. Delila üç dəfə ona yalvardı, amma Şimşon düzünü demək istəmədi. Hər gün Delila Şimşona bu sirri açması üçün ona yalvarırdı və onu sorğu-suala tutaraq, əzab verirdi. Şimşonun canı boğazına yığıldı və sirri qadına açıb dedi: «Əgər başım qırxılsa, o zaman bu qüvvə məndən çıxar və gücdən düşüb adi adam kimi olaram».

Delila bunu eşidən kimi Şimşonu yuxuya verdi, sonra Filiştliləri çağırdı. Filiştlilər onun saçını qırxdılar və bununla Şimşon gücdən düşdü. Rəbb onu tərk etdi, Şimşonun gücü zəiflədi.

Filiştlilər onu iki tunc zəncirlə bağladılar, gözlərini çıxartdılar və zindanda dəyirman daşı çəkdirdilər. Lakin vaxt keçdikcə Şimşonun qırxılmış saçı yenidən bitməyə və gücü qayıtmağa başladı.

Bir gün Filiştlilər öz allahlarına böyük qurban kəsmək və şənlik etmək üçün yığılıb dedilər: «Allahımız düşmənimiz Şimşonu bizə təslim etdi. Ölkəmizə ziyan vuran, bizdən bir çoxunu öldürən düşmənimizi allahımız bizə təslim etdi». Xalqın kefi kökələndə dedi: «Şimşonu bura gətirin, qoy bizi əyləndirsin». Onlar Şimşonu gətirdilər və otağın ortasında yerləşən və məbədin damını saxlayan iki dirəyin arasında dayandırdılar. Şimşon Rəbbə fəryad edib dedi: «Ey Xudavənd Rəbb, yalvarıram, məni yada sal. Yalvarıram, ay Allah, mənə ancaq bu dəfəlik qüvvət ver ki, bu Filiştlilərdən iki gözüm üçün bir zərbə ilə qisas alım». Şimşon əllərini məbədin damını saxlayan iki orta dirəyə uzatdı, yerindən tərpədib «qoy mən



də Filiştlilərlə bir ölüm» dedi. Sonra var gücü ilə əyilərək dirəkləri itələyib məbədin damını oradakı bütün ağaların və xalqın üzərinə saldı, oradakı adamlar öldülər.

*HAKİMLƏR 16:14–30*



## Rut və Naomi

Bir vaxtlar, hakimlərin hökm etdiyi günlərdə Yəhuda ölkəsində qıtlıq oldu. Bu səbəbə görə Elimelek adlı bir nəfər arvadı və iki oğlu ilə birgə yaşadığı Bet-Lexem şəhərini tərk etdi və Moav torpağına köçdü (Moavlılar Duz dənizinin şərq tərəfində yaşayırdılar). Arvadının adı Naomi, bir oğlunun adı Maxlon, o birinin adı isə Kilyon idi.

Bir gün Elimelek öldü və arvadı Naomi iki oğlu ilə qaldı. Oğullarının ikisi də Moav qadınları ilə evləndi. Bu qadınların birinin adı Orpa, o birinin adı isə Rut idi. Onlar on ilə yaxın orada yaşadılar. Lakin sonra Naominin oğulları da öldülər və qadın tək qaldı. O, doğma Yəhuda diyarına qayıtmaq qərarına gəldi. Naomi eşitmişdi ki, orada daha aclıq yoxdur, çünki Allah xalqa yaxşı məhsul vermişdir.

Naomi Moav torpağından vətəninə qayıtmaq üçün yola düşdü. Onun iki gəlini onunla yola düşdü. Naomi yolda hər iki gəlininə dedi: «Gəlin siz hər biriniz ananızın evinə qayıdın. Sizin oğullarıma və mənə etdiyiniz xeyirxahlığa görə qoy Rəbb sizə xeyirxahlıq etsin. Rəbb elə etsin ki, hər biriniz ər evində rahatlıq tapasınız». Sonra o, gəlinlərini öpdü. Gəlinləri ağladılar və dedilər: «Xeyr, biz də səninlə birgə xalqının yanına gedirik». Naomi isə dediyinin üstündə duraraq söylədi: «Yox, qızlarım! Sizin halınıza çox acıyıram, çünki mənə qarşı qalxan Rəbbin əlidir». Gəlinlər yenə ağladılar. Orpa qayınanası ilə vidalaşdı, Rut isə onunla qaldı. Rut dedi: «Məcbur etmə ki, səni tərk edib səninlə getməyim. Bil ki, hara getsən, ora gedəcəyəm, harada qalsan, orada qalacağam; xalqın xalqım olacaq, Allahın Allahım. Sən harada öləcəksənsə, mən də orada öləcəyəm, orada da basdırılacağam. Əgər ölümdən başqa bir şey məni səndən ayırarsa, qoy Rəbb mənə beləsini və bundan betərini etsin». Naomi



Rutun onunla getmək üçün qəti qərara gəldiyini görəndə bir daha onu dilə tutmadı.

*RUT 1:1–17*



## Rut Boazın zəmisində

Nəhayət, Naomi və Rut Bet-Lexemə gələndə bütün şəhər əhalisi hərəkətə gəldi və dedilər: «Bu, Naomi deyilmi?» Naomi onlara dedi: «Mənə Naomi (mənası **xoş** deməkdir) deməyin, mənə Mara (mənası **acı**) deyin, çünki Külli-İxtiyar həyatımı acı etdi. Mən buradan dolu çıxdım, Rəbb məni boş qaytardı».

Bir gün Rut bir zəmiyə getdi. Zəminin Boaz adlı sahibi Naominin qohumu idi. Rut biçinçilərin ardınca düşüb başaq yığmağa başladı.

Zəminin sahibi öyrəndi ki, qadın öz qohumlarını tərk edib qayınanasına baxmaq üçün yad torpağa gələn Naominin gəlinidir. O zaman o, qadını çağırdı və hər gün zəmiyə gəlməyə icazə verdi. Zəminin sahibi nökərlərinə əmr edib dedi: «Qoy o gedib dərzlərin arasından başaq yığsın, onu incitməyin».

Sonra Boaz Ruta dedi: «Sən atanı, ananı, doğma torpağını atıb heç tanımadığın bir xalqın yanına gəlmisən. Bu işinin əvəzini qoy Rəbb versin! Qoy qanadı altına sığınmaq üçün gəldiyin İsrailin Allahı Rəbb sənə bol mükafat versin!»

Xeyirxah və həlim Rut ona cavab verdi: «Qoy sənin gözündə lütf tapım, ağam, necə də mənə təsəlli verdin. Sənin kənizlərinə tay olmadığım halda, bu kənizinə ürəkləndirici sözlər söylədin».

Boaz tezliklə Rutla ailə qurdu və Rut ona oğul doğdu. Qadınlar Naomiyə dedilər: «Rəbbə alqış olsun ki, bu gün sənə gələcək müdafiəçini verdi. Qoy onun adı İsraildə tanınsın. Bu körpə səni canlandıracaq və qoca vaxtında səni saxlayacaq. Çünki onu sənə yeddi oğuldan daha yaxşı olan, səni sevən gəlinin doğmuşdur». Naomi uşağı qucağına alıb gəzdirdi və onun dayəsi oldu. Qonşu qadınlar ona ad qoyub dedilər: «Naomi üçün oğul doğulub». Onun adını Oved



qoydular. O, gələcək padşah Davudun babası idi. Davud İsraildə böyük padşah oldu. Onun barəsində bu kitabda hələ də danışılacaq.

*RUT 1:1–21; 2:1–16; 4:13–17*



## Xannanın duası

İsrailin Rama şəhərində Elqana adlı bir adam yaşayırdı. Onun arvadının adı Xanna idi. Xannanın uşağı olmurdu və bu, onu çox kədərləndirirdi. Hər il onlar təyin olunmuş günlərdə öz şəhərlərindən Şiloya, Rəbbin ibadətgahına gedərdilər. Onlar dua edəndə Xanna həmişə ağlayıb gileylənirdi. Elqana arvadını çox sevirdi və ona çox yazığı gəlirdi.

Bir gün onlar Şiloya Rəbbin ibadətgahına gələndə Xanna yenə ağlamağa başladı. Əri Elqana ona dedi: «Xanna, niyə ağlayırsan? Niyə yemək yemirsən? Axı niyə kədərlisən? Mən sənə on oğuldan da artıq deyiləmmi?»

Xanna ürək yanğısı ilə acı-acı ağlayırdı və Rəbbə dua edib Ona belə əhd etdi: «Ey Ordular Rəbbi, Öz dərdli bəndənin vəziyyətini görürsən. Mən bəndəni unutmayıb bir oğul versən, oğlumun həyatını Sənə həsr etmək üçün verər və qoymaram ki, onun başına ülgüc dəysin».

Xanna Rəbbin hüzurunda uzun müddət dua etdi. Məbədin* girişində oturan kahin Eli ona baxırdı. Xanna qəlbində yalvardığı üçün yalnız dodaqları tərpənirdi, Eli elə güman etdi ki, o, sərxoşdur. Ona görə də dedi: «Nə vaxta qədər sərxoşluq edəcəksən? Bəsdir, at bu şərabı». Xanna cavabında dedi: «Xeyr, ağam, mən nə şərab içmişəm, nə də başqa kefləndirici içki. Könlü qəm-qüssəli bir qadınam ki, sadəcə, Rəbbin hüzurunda ürəyimi boşaldıram. Kənizini pis qadın sanma. Bu yalvarışım indiyədək çəkdiyim böyük qayğı və əziyyətə görədir». Eli cavab verib dedi: «Salamat get, qoy İsrailin Allahı səni muradına çatdırsın!» Xanna «təki bəndənə mərhəmətli ol» deyib yolu ilə getdi və yemək yedi. Xanna evinə qayıtdı. Onun üzü əvvəlki kimi kədərli deyildi.

Rəbb Xannanın duasını eşitdi və o, oğul doğdu.

*1 ŞAMUEL 1:1–18*





## Xanna Şamueli Allaha təqdim edir

Xanna oğlunun adını Şamuel qoydu. Oğlan böyüyəndə Xanna uşağı məbədə, Elinin yanına gətirdi və dedi: «Ey ağam, canına and olsun, burada – sənin yanında durub Rəbbə yalvaran qadın mənəm. Yalvarışım bu uşaq üçün idi, Rəbb muradımı yerinə yetirdi. Mən onu Rəbbə əhd etmişdim və ömrü boyu Rəbbə həsr olunmalıdır». Sonra Xanna mərhəmətli Allaha səcdə etdi, Ona dua edərək Onun adına şükür və izzət gətirdi.

Xanna Rəbbə belə dua etdi: «Rəbdə tapdığım sevincdən ürəyim cuşa gəlir, Rəbb mənə böyük güc verir, düşmənlərimin önündə öyünürəm, çünki Sən məni qurtardığına görə sevinirəm. Rəbbə oxşar ikinci müqəddəs yoxdur, ey Rəbb, yeganəsən Sən! Allahımız kimi sığınacaq qaya yoxdur! Artıq qürurla danışmayın, dilinizdən təkəbbürlü sözlər çıxmasın. Çünki Rəbb hər şeyi bilən Allahdır, hər iş Onun tərəfindən ölçülür. Sadiq qullarının addımlarını qoruyur, pisləri isə zülmətdə susdurur. Çünki insan öz qüvvəsi ilə zəfər çalmır! Rəbbə qarşı duranlar parça-parça olacaqlar».

Xanna balaca Şamueli məbəddə kahin Eli ilə qoydu, uşaq orada böyüyürdü. Kiçik Şamuel Rəbbin və insanların məhəbbətini qazanırdı.

*1 ŞAMUEL 1:25–28; 2:1–10, 18, 19, 26*





## Şamueli çağıran səs

Gənc Şamuel məbəddə böyüyüb xidmət edirdi. O vaxt Rəbb insanlarla nadir hallarda birbaşa danışırdı.

Bir gecə Eli yatağında uzanmışdı. Allahın çırağı hələ yanırdı. Şamuel isə Rəbbin məbədində – Allahın sandığı olan yerdə uzanmışdı. Rəbb Şamueli çağırdı. Şamuel «buradayam» deyə cavab verdi. Elinin yanına qaçıb «məni çağırdın, mən buradayam» dedi. Amma Eli «mən çağırmamışam, get yat» deyə cavab verdi. Şamuel gedib öz yerində yatdı.

Rəbb «Şamuel!» deyə yenidən çağırdı. Şamuel yenə qalxıb Elinin yanına getdi və «Məni çağırdın? Mən buradayam!» dedi. Eli yenə də «mən çağırmadım, oğlum, get yat» deyə cavab verdi. Şamuel Rəbbin səsini hələ tanımırdı, çünki O, onunla hələ danışmamışdı.

Rəbb üçüncü dəfə Şamueli çağırdı və Şamuel yenə qalxaraq Elinin yanına gedib dedi: «Bax buradayam, məni sən çağırdın». O anda Eli anladı ki, gənc Şamueli çağıran Rəbdir. Eli Şamuelə dedi: «Get uzan, səni yenə çağırsalar, belə deyərsən: "Danış, ya Rəbb, qulun Səni eşidir"». Şamuel gedib yerində uzandı. Rəbb gəlib əvvəlki kimi Şamueli çağırdı. Şamuel Elinin öyrətdiyi kimi cavab verdi: «Danış, ya Rəbb, qulun Səni eşidir».

Onda Rəbb Şamuelə Elinin ailəsinə nə edəcəyi barədə danışmağa başladı. O dedi ki, Eli hər iki oğlunun nalayiq hərəkətlərindən xəbərdar olduğu halda, onların qarşısını almayan kahin olaraq cəzalandırılacaq.

*1 ŞAMUEL 3:1–14*





## Kahin Elinin ölümü

Rəbb yenə də İsrail xalqını qanunsuzluqlarına görə cəzalandırdı və Filiştlilərə onları döyüşdə məğlub etməyə izin verdi. Filiştlilərlə döyüşdə İsraillilər dörd minə yaxın adam itirdi. Məğlub olmuş ordu ordugaha qayıdanda İsrailin ağsaqqalları dedilər: «Görəsən Rəbb bu gün bizi Filiştlilər qarşısında nə üçün məğlub etdi? Şilodan Rəbbin Əhd sandığını yanımıza gətirək. Qoy aramızda olsun və bizi düşmənlərin əlindən qurtarsın». Şiloya göndərilən adamlar Ordular Rəbbinin Əhd sandığını oradan gətirdilər. Elinin iki oğlu Xofni və Pinxas Allahın Əhd sandığının yanında idi. Amma Filiştlilərlə yeni döyüşdə İsraillilər yenə də məğlub oldular, otuz min piyada itirdilər və döyüş yerindən qaçdılar. Filiştlilər Allahın sandığını ələ keçirdilər və Elinin iki oğlu – Xofni ilə Pinxas öldürüldü.

Döyüş yerindən qaçan bir nəfər Elinin yaşadığı Şiloya gəldi və bu İsrail xalqının dəhşətli məğlubiyyət xəbərini oraya çatdırdı. Şəhərin sakinləri bu xəbəri eşitdikdə böyük ağlaşma qurdular. Bu vaxt Eli yol kənarında şəhərin darvazası yanında oturmuşdu. Eli bu ağlaşma səsini eşidəndə qasiddən nə baş verdiyini soruşdu. Xəbər gətirən adam belə cavab verdi: «İsraillilər Filiştlilərin qabağından qaçdılar və xalq arasında böyük qırğın oldu. İki oğlun Xofni ilə Pinxas ölmüş, Allahın sandığı isə ələ keçirilmişdir».

Bu adam Allahın sandığından danışan zaman Eli arxası üstə yıxıldı, boynu qırıldı və o öldü. Eli qırx il İsrail xalqına hakimlik etmişdi və öləndə doxsan səkkiz yaşı var idi.

Rəbb ilk dəfə Şamueli çağırıb onunla danışanda Onun dediyi sözlər Elinin ailəsinin başına gəldi.

*1 ŞAMUEL 4:1–18*





## İsrailin padşahı Şaul

Şamuel İsraildə böyük peyğəmbər oldu. O, öz xalqını yad büt allahları tərk edib var olan Allaha dönməyə çağırırdı. Şamuel yaşa dolanda o, öz oğullarını İsrailin üzərinə hakim təyin etdi. Amma onlar atasının yolu ilə getmədilər və tamahkarlığa uydular. Onlar bəxşiş alıb xalqa düzgün olmayan hökmlər verirdilər. O vaxt İsrail ağsaqqalları Şamuelin yanına gəldilər və ona dedilər: «Bax sən qocasan və oğulların sənin yolunla getmirlər. İndi isə digər millətlərdə olduğu kimi bizə bir padşah təyin et ki, bizə hökmranlıq etsin». Şamuel bilirdi ki, onların xahişi Allaha xoş deyil. Onun duasına cavab verib Rəbb Şamuelə dedi: «Sənə dedikləri məsələlərlə əlaqədar xalqın hər sözünə qulaq as, çünki rədd etdikləri sən deyilsən, onlar üzərində hökmranlıq etməyim deyə yalnız Məni rədd edirlər. Onları Misirdən çıxartdığım gündən bu günə qədər yad allahlara qulluq etməklə Məni tərk edirlər. Mənə etdiklərini indi eyni şəkildə sənə edirlər. Sən onların sözlərinə qulaq as, amma açıqca xəbərdarlıq et ki, onlara hökmdarlıq edəcək padşahın hakimiyyəti necə olacaq».

Şamuel xalqa Rəbbin bütün sözlərini söylədi. Şamuel dedi ki, əgər padşah onların üzərində hökm etsə, onları qul edəcək, onlar xilas üçün yalvaracaqlar, amma Rəbb artıq onlara kömək etməyəcək. Amma xalq Şamueli dinləmədi və padşah tələb etməkdə davam etdi.

Bir dəfə Rəbb Şamuelin yanına hündürboy, yaraşıqlı, Şaul adlı gənci göndərdi. Rəbb ona dedi: «Bax sənə dediyim bu adam xalqıma hökmranlıq edəcək». Şamuel bir qab zeytun yağı götürüb Şaulun başına tökdü və onu öpərək dedi: «Rəbb səni Öz irsi olan İsrail üzərində başçı olmaq üçün məsh* etdi». Beləliklə, Şaul İsraildə padşah oldu.

*1 ŞAMUEL 8:1–22; 9:2, 17; 10:1*





# Çoban Davud – gələcək padşah

Şamuel tərəfindən padşahlığa məsh olunmuş Şaul bir dəfə böyük günah etdi. Filiştlilərlə döyüşdən əvvəl o, Şamuel peyğəmbəri gözləyirdi. Şamuel gəlib Rəbbə qurban gətirməli idi. Şaul Şamueli yeddi gün gözlədi, lakin Şamuel gəlmədi, buna görə də Şaulun ordusu onun yanından dağılmağa başladı. Onda Şaul Şamueli gözləmədən özü qurban gətirməyi qərara aldı, halbuki bunu yalnız kahin edə bilərdi. Şamuel gələndə Şaula dedi: «Ağılsızlıq etdin, Allahın Rəbbin sənə verdiyi əmrə əməl etmədin. Belə olmasaydı, Rəbb İsrail üzərində sənin padşahlığını əbədi saxlayacaqdı. Lakin indi padşahlığın davam etməyəcək. Rəbb Özü üçün Öz ürəyinə yatan bir adam tapıb. Həmin adamı Rəbb xalqına başçı təyin etdi. Çünki sən Rəbbin verdiyi əmrlərə əməl etmədin».

Tezliklə Rəbb Şamuelə sarışın, alyanaq, yaraşıqlı bir oğlan göstərdi. Gəncin adı Davud idi. O, atasının qoyunlarını otarırdı və yaxşı çoban idi. Davud qoyunlara qayğı göstərirdi və vəhşi heyvanlardan onları qoruyurdu.

Rəbbin əmri ilə Şamuel Davudu padşahlığa məsh etdi ki, o, İsrail xalqına hökm etsin. O gündən başlayaraq Davudun üzərinə Rəbbin Ruhu endi.

Şauldan Rəbbin Ruhu ayrıldı və şər ruh ona əzab verirdi. Onda Şaul öz nökərlərinə yaxşı çəng çalan bir adam tapıb yanına gətirsinlər deyə əmr etdi. O adam öz ifası ilə Şaulu sakitləşdirməli idi. Nökərlər Şaulun yanına Davudu gətirdilər. Beləliklə, Davud sarayda qulluq etməyə başladı. Davud Şaulun çox xoşuna gəldi və onu öz silahdarı etdi. Hər dəfə Şaula şər ruh gələn zaman Davud çəngini götürüb çalar, Şaul sakitləşər, yaxşı olar və şər ruh ondan ayrılardı.

*1 ŞAMUEL 13:8, 13–14; 16:11–33*





## Davud və Qolyat

Filiştlilər İsrail xalqına qarşı müharibə etmək üçün ordularını toplamışdılar. İsraillilər də Şaulun başçılığı altında ordugah qurdular və Filiştlilərin yerləşdiyi dağa qarşı döyüş üçün düzüldülər. Davudun üç qardaşı Şaulun ordusunda idi. Bir gün Yessey Davudu İsrail ordugahına qardaşları üçün çörək aparmağa və onlardan bir xəbər almağa yolladı.

Davud İsrail ordugahına gəlib qardaşları ilə söhbət edəndə Qolyat adlı nəhəng cəngavəri gördü. O, başına tuncdan dəbilqə qoymuş, əyninə isə tuncdan zireh geymişdi. Əlində böyük nizə və qalxan var idi. Qolyat Allahın xalqına gülüb Allahın adına küfr edirdi. İsraillilərə gülərək Qolyat deyirdi ki, əgər kimsə ona qalib gələrsə, Filiştlilər onun qulları olacaq. Amma İsrail ordugahından bir nəfər belə, onun dəhşətli görkəmindən qorxub onunla döyüşə çıxmağa cəhd etmirdi. Davud Qolyatın Allaha küfr etdiyini və İsrail qoşunlarını ələ saldığını eşidəndə Şaulun yanına getdi və Filiştli ilə döyüşməyə icazə istədi. Lakin Şaul ona dedi: «Bu Filiştli ilə vuruşmağa hünərin çatmaz, çünki sən hələ uşaqsan, o isə cavanlığından döyüşçüdür». Davud Şaula atasının qoyunlarını otaranda Allahın ona aslanlara qalib gəlməyə kömək etməsindən danışdı. Şaul Davuda Qolyatla vuruşmağa icazə verdi və öz dəmir zirehini Davuda geyindirdi və başına tunc dəbilqə qoydu. Amma Davud belə zirehlərə alışmamışdı. Buna görə də bunları əynindən çıxarıb, əlinə dəyənəyi ilə sapandını götürdü və çaydan özünə beş hamar daş seçdi. Onları üstündəki çoban torbasına qoydu və Filiştliyə yaxınlaşdı.

Qolyat Davudu görəndə ona güldü və dedi: «Məgər mən itəm ki, üstümə dəyənəklərlə gəlirsən?» Davud isə Filiştliyə dedi: «Sən mənim üstümə qılınc, nizə və mizraqla gəlirsən, lakin mən sənin üstünə söydüyün İsrail alaylarının



Allahı Ordular Rəbbinin ismi ilə gəlirəm». Davud əl atıb dağarcığından bir daş götürdü, sapandla fırladaraq Filiştlinin alnından vurdu. Daş onun alnına batdı və o, üzüstə yerə yıxıldı. Filiştlilər öz cəngavərlərinin öldürüldüyünü görəndə qaçdılar. İsrail ordusu zəfər çaldı.

*1 ŞAMUEL 17:1–53*



## Yonatan

Davud Qolyatı öldürüb, kəsdiyi başını Şaulun qarşısına gətirəndə Şaul ondan soruşdu: «Ey cavan, kimin oğlusan?» Davud cavab verdi: «Qulun Bet-Lexemli Yesseyin oğluyam». Söhbət zamanı padşah Şaulun oğlu Yonatan da orada idi. Bu, güclü və cəsur gənc idi. Yonatan Davudu səmimi qəlbdən sevdi və onunla dostluq əhdi bağladı. Bu əhdin nişanəsi kimi o, Davuda öz paltarını, kəmərini, qılıncını və ox-kamanını bağışladı. Davud da Yonatanı sevdi.

Lakin onların dostluğu Şaulun xoşuna gəlmədi. Filiştlilərə qalib gələn İsraillilər evə qayıdanda qarşılarına çıxan xalq Davudu şərəfləndirib qışqırırdı: «Şaul qırdı minləri, Davudsa on minləri». Bunu eşidən Şaul çox qəzəbləndi. Davudun şərəfi onun xoşuna gəlmədi. O vaxtdan bəri Davuda paxıllıq etdi və onu öldürmək üçün fürsət axtarırdı.

Bir gün şər ruh Şaula yenə əzab verəndə, Davud onun üçün çəng çalırdı. Şaul nizəni ona tərəf atdı, lakin Davud onun qabağından kənara çəkildi. Yonatan dəfələrlə Davudu atasının qəzəbindən qoruyur və Şaulu şər əməlinə görə tənbeh edib deyirdi: «Padşah qulu Davuda qarşı günah etməsin, çünki o, sənə qarşı heç vaxt günah etməyib və onun işləri sənin üçün çox xeyirli olmuşdur. O, canını dişinə tutub Qolyatı öldürdü və Rəbb bütün İsrailə böyük qələbə qazandırdı. Bunu sən də görüb sevindin. Davudu boş yerə öldürməklə nə üçün nahaq qan töküb günah edirsən?» Əvvəlcə Şaul Yonatanın sözünü dinləyirdi və Davudu öldürməməyə and içdi.

*1 ŞAMUEL 17:57–58; 18:1–11; 19:1–6*





## Davud yatan Şaulun qarşısında

Şaulun ürəyində Davuda nifrət günü-gündən artırdı və o, Davudu öldürmək qərarına gəldi. Yonatan bundan xəbər tutub öz sevimli dostuna xəbərdarlıq etdi. Sonra Davud qaçdı, ona sadiq insanlardan ibarət dəstə toplayıb, onlarla dağlara qaçdı. Şaul ordusu ilə onu təqib etməkdə davam edirdi, lakin Allah Davudla idi, buna görə də Şaul onu yaxalaya bilmirdi. Davuda bir neçə dəfə Şaulu öldürmək imkanı verilmişdi, amma o, Allahı sevdiyinə və Ondan qorxduğuna görə ona heç bir zərər vermək istəmirdi.

Bir gün Şaul üç min İsraillidən ibarət dəstə yığdı və Davudu axtarmağa dağlara getdi. Davud xəbər tutanda ki, Şaul öz əsgərləri ilə təpələrin birində gecələməyə yerləşib, o, öz bacısı oğlu Avişayı götürüb gecə Şaulun ordugahına endi. Orada hamı yatmışdı. Onlar yuxuya getmiş Şaulun yanına yaxınlaşdılar. Onun nizəsi isə başı üstündə yerə sancılmışdı. Avişay Davuda dedi: «Qoy mən bu nizəni götürüm və Şaulu öldürüm». Amma Davud Allahın məsh olunmuşunu öldürməyə icazə vermədi və dedi: «Var olan Rəbbə and olsun, Rəbb onu mütləq vuracaq. Elə gün gələcək ki, öz əcəli ilə öləcək, ya da döyüşdə həlak olacaq». Onlar Şaulun nizəsini və su qabını götürüb getdilər.

Sonra Davud Şaulun düşərgəsinin qarşısında yerləşən dağın üstünə çıxıb Şaulu ucadan çağırdı və ona əşyalarını göstərdi. Onda Şaul gördü ki, Davud onun etdiyi pisliklərin qisasını almayacaq və dedi: «Günah etdim, qayıt, oğlum Davud. Mənim canım bu gün sənin gözündə qiymətli olduğu üçün bir daha sənə pislik etməyəcəyəm. Bax ağılsızlıq edib lap çox yanıldım». Şaul Davudu bir daha təqib etməməyə söz verdi, amma ona nifrət etməkdən azad olmadı.

*1 ŞAMUEL 20:1–43; 26:2–21*





## Davud bütün İsrail üzərində padşah olur

İsraillilər Filiştlilərlə növbəti döyüşdə məğlub oldular, padşah Şaul və onun oğulları isə öldürüldülər. Bir nəfər padşahın ordusundan döyüş yerindən birbaşa Davudun yanına gəlib Şaulun və oğlu Yonatanın Filiştlilərlə döyüşdə həlak olmasını bildirdi. O, elə bildi ki, Davud düşməni Şaulun ölüm xəbərini eşidib sevinər. Amma Davud Şaulun etdiyi pislikləri yada salmadı. Kədər içində o, Şaula və Yonatana yas tutdu və onlar üçün mərsiyə qoşdu:

«Şaul ilə Yonatan necə sevimli, əziz, həyatda və ölümdə ayrılmaz oldunuz siz. Onlar qartallardan sürətli idilər, aslanlardan qüvvətli idilər. Ey İsrail qızları, ağlayın Şaul üçün. O, sizə qiymətli al qumaşlar geydirərdi, geyiminizə qızıl naxışlar vurardı. Ah, döyüş meydanında necə də igidlər qırıldı! Yonatan sənin yüksək təpələrində həlak oldu. Ey qardaşım Yonatan, sənin üçün ürəyim yanar. Sən mənə çox əziz idin!»

Davud onların ölümünə belə ağladı. Bundan sonra o, Rəbbin əmr etdiyi kimi, Xevron şəhərində məskunlaşdı. Bir az keçəndən sonra oraya Yəhudilər gəldi və Davudu İsrailin cənub hissəsi olan Yəhudaya padşahlıq etməyə məsh etdilər. Yeddi il yarım keçəndən sonra Davud bütün İsrail üzərində padşah oldu. Allah Şamuel peyğəmbər vasitəsi ilə vəd etdiyinin hamısını yerinə yetirdi.

*2 ŞAMUEL 1:1–4, 23–27; 2:1–4*





## Əhd sandığının Yerusəlimə gətirilməsi

Davud bütün İsrail üzərində padşah olanda, o, öz taxtını Yerusəlimdə qurdu. Allah Davudu müdrikliklə və qüdrətlə xeyir-dualandırdı, buna görə də o, bütün İsrailin düşmənlərinə qalib gəlmişdi. Davud Allahı sevirdi və Onun müqəddəs Əhd sandığının öz yanında, sevimli şəhərində olmasını istəyirdi. Bu Əhd sandığı döyüşlərin birində Filiştlilər tərəfindən ələ keçirilib aparılmışdı. Bir müddətdən sonra Filiştlilər onu İsraillilərə qaytardılar və o, Qiryət-Yearimdə, Avinadav adlı adamın evində idi. Davud onu Yerusəlimə gətirmək qərarına gəldi.

Davud otuz min nəfərin müşayiəti ilə sandığı gətirməyə getdi. Əhd sandığını Yerusəlimə gətirəndə, Sion dağına qaldıranda, Davud necə də xoşbəxt idi! Davud mərhəmətli Allahı izzətləndirərək çəng çalıb Rəbbin önündə sevinclə rəqs edirdi. Davudla bütün İsrail nəsli Rəbbin sandığını hay-küylə, şeypur səsi ilə çıxartdılar. Rəbbin sandığını gətirib Davudun bu məqsədlə qurduğu çadırın içərisində onun üçün ayrılan yerə qoydular. Davud Rəbbin önündə çoxlu qurbanlar təqdim etdi. Davud qurban gətirib xalqın hamısına – İsrail camaatından hərəyə bir kömbə çörək, kökələr və bişmiş ət payladı.

Rəbb Davuda onun padşah nəslini möhkəmləndirməyə söz verdi və onun varisi barəsində belə dedi: «Mən ona Ata, o isə Mənə oğul olacaq. Günah edəndə onu insanların dəyənəyi ilə, bəşər övladlarının kötəkləri ilə vuracağam. Qarşısından götürdüyüm Şauldan lütfümü geri aldığım kimi, ondan geri almayacağam. Sənin nəslin və padşahlığın Mənim qarşımda əbədi əmin-amanlıqda olacaq, taxtın isə əbədi möhkəm qalacaq». Bu sözləri Davuda Natan peyğəmbər nəql etdi. Davud bunları eşitdikdə Rəbbin önündə durdu və Ona dedi: «Ya Xudavənd Rəbb, mən kiməm və nəslim kimdir ki, Sən məni bu yerə çıxartdın? Bunun üçün, ya Rəbb Allah, Sən



böyüksən. Sənin kimisi heç yoxdur və Səndən başqa Allah yoxdur. İndi isə, ya Rəbb Allah, bu qulun və onun nəsli haqqında söylədiyin sözü əbədi saxla və dediyinə əməl et».

*2 ŞAMUEL 6:2–19; 7:14–16, 18–29*



## Davudun məzmurları

Davud hələ çoban olanda, o, çəng çalmağı və Rəbbi izzətləndirməyi sevirdi. O, böyük padşah olanda da yenə ilahilər yazmağa davam edirdi. Müqəddəs Kitabda Davudun çoxlu məzmurları yazılıb. Onlar Allaha olan məhəbbətdən ilhamlanıb və Onun adını izzətləndirir.

Davud qoyunlara yaxşı çobanın zəruri olmasını çox yaxşı bilirdi. Buna görə də o, məzmurların birində Rəbb haqqında oxuyur:

Rəbb mənim çobanımdır, möhtac olmaram.
O, məni yaşıl çəmənlərdə dincəldir,
Sakit axan sular kənarında gəzdirir.
Məni yenə də canlandırır,
İsmi şərəfinə salehlik yolları ilə aparır.
Ölüm kölgəsinin dərəsində gəzsəm belə,
Şərdən qorxmaram, çünki Sən mənimləsən,
Sənin əsan, Sənin dəyənəyin mənə təsəlli verir.

Düşmənlərimin qarşısında
Mənim üçün süfrə açırsan,
Başıma ətirli yağ çəkirsən,
Ağzınadək camımı doldurursan.
Bəli, bütün həyatım boyu
Yaxşılıq, məhəbbət məni izləyir.
Bütün ömrüm boyu
Rəbbin evində yaşayacağam!

*ZƏBUR KİTABI, MƏZMUR 23*





## Natan peyğəmbər Davudu ifşa edir

Davud Rəbbi sevirdi və Ona itaət edirdi. Amma bir dəfə o, böyük günah etdi. Bir axşam Davud padşah sarayının damı üstündə gəzişirdi. Oradan o, bir qadın gördü və ilk baxışdan meylini ona saldı. Amma Davud onunla evlənə bilməzdi, çünki o, ərdə idi. O qadının adı Bat-Şeva idi. Onda Davud Bat-Şevanın əri Uriyanı müharibəyə göndərdi. Orada Uriyanı öldürdülər, Davud isə Bat-Şeva ilə evləndi.

Bir müddət keçdikdən sonra Rəbb Natan peyğəmbəri Davudun yanına göndərdi. Natan ona belə bir hekayə danışdı: «Bir şəhərdə iki adam var idi. Onlardan biri varlı, o biri isə kasıb idi. Varlı adamın çoxlu sürüləri və naxırı var idi. Lakin kasıb adamın satın alıb bəslədiyi bir körpə dişi quzudan başqa heç nəyi yox idi. O, quzusunu öz yanında uşaqları ilə bərabər böyütmüş, ona öz yeməyindən yedirtmiş, öz içdiyi qabdan su içirtmiş və qoynunda yatırtmışdı. Quzu ona doğma qızı kimi idi. Bir gün varlı adamgilə yadelli bir qonaq gəlir. Varlı adam onlara gələn qonağa yemək hazırlamaq üçün öz sürüsündən və naxırından heyvan götürüb kəsməyə qıymadı. O gedib kasıbın quzusunu götürüb kəsdi və yanına gələn qonağa yemək hazırladı».

Davud bu hekayəni eşidib çox qəzəbləndi: «Var olan Rəbb haqqı, bunu edən adam ölümə layiqdir. Bu işi gördüyünə və rəhmsizliyinə görə o, quzunun əvəzini dördqat verəcək».

O zaman Natan Davuda dedi: «O adam sənsən!» Peyğəmbər Natan Davudun günahını ciddi pislədi. Davud çox peşman oldu və dedi: «Mən Rəbbə qarşı günah etdim». Natan Davudun peşman olduğunu görüb ona dedi: «Rəbb sənin günahını sildi, ölməyəcəksən. Lakin bunu etməklə Rəbbin düşmənlərinə Ona küfr etməyə böyük fürsət verdin. Ona görə də mütləq səndən doğulan uşaq öləcək». Beləliklə, Davudun günahı bağışlandı, amma o, cəzasız qalmadı. Bir az sonra Davud kədərli tövbə



məzmurunu qoşdu. Orada belə sözlər var idi: «Məhəbbətinə görə, ey Allah, mənə rəhm et... Ey Allah, məndə təmiz ürək yarat, daxilimə yenidən sədaqət ruhunu ver... Xilasının sevincini mənə qaytar, itaətkarlıq ruhu verib mənə dayaq ol».

*2 ŞAMUEL 11:2–17; 12:1–14;*
*ZƏBUR 51:1, 10, 12*



## Avşalomun ölümü

Avşalom Davudun oğullarından biri idi. O, çox qürurlu və yaraşıqlı gənc idi. Onun uzun saçları xüsusən gözəl idi. Avşalom atası Davudu sevmirdi və onun taxtını ələ keçirmək istəyirdi. İsraillilər Avşalomu sevirdilər və ona hörmət edirdilər, çünki o, yalanla, riyakarlıqla, yalan xeyirxahlıq və qayğı ilə onların ürəklərini özünə cəlb edirdi. Davud öz oğlunun təqibindən ucqar bir yerdə gizlənmək üçün qoşun toplamağa və Yerusəlimdəki sarayını tərk etməyə məcbur oldu.

Avşalom atasının harada olduğundan xəbər tutdu və onun üstünə böyük bir ordu ilə gəldi. Davud bundan xəbər tutub onun qarşısına öz böyük dəstəsini göndərdi. Lakin o əmr etdi ki, Avşaloma heç bir ziyan vurulmasın və həyatı qorunsun. Avşalom atasına çox dərd gətirdiyinə baxmayaraq, Davud onu sevməkdə davam edirdi.

Döyüş meşədə baş verdi. Allah Davudun qoşununa kömək etdi və onlar qalib gəldilər. Avşalomun əsgərləri qaçdılar. Avşalom qatıra minmişdi və qaçıb canını qurtarmaq istəyirdi. Qatır böyük bir palıd ağacının altından keçəndə Avşalomun saçı palıd ağacına ilişdi. Qatır qaçdı, o, ağacdan asılı qaldı və onun ayaqları yerə çatmırdı. Davudun ordu başçısı bunu görüb padşah oğluna çoxlu ox vurdu və Avşalom öldü.

Davud baş verən hadisədən xəbər tutub çox kədərləndi və ağladı. «Oğlum Avşalom, oğlum, oğlum Avşalom! Kaş sənin yerinə mən öləydim, oğlum! Oğlum, Avşalom!» Allah üsyankar Avşalomu həyatının ən gözəl çağında vurdu.

Müqəddəs Kitab deyir:

«Kim ki atasına, anasına qarğış edər,
Zülmətə düşərkən çırağı sönər».

*2 ŞAMUEL 14:25–26; 15:1–6; 18:2–14, 32–33;*
*SÜLEYMANIN MƏSƏLLƏRİ 20:20*





## Müdrik padşah Süleyman

Davudun ölümündən sonra Rəbb onun oğlu Süleymanı İsrailin padşahı etdi. Bir gün Allah yuxuda Süleymana göründü. Allah dedi: «Nə istəyirsən, sənə verim?» Onda Süleyman Rəbdən müdriklik istədi ki, öz çoxsaylı xalqına rəhbərlik edə bilsin. Rəbb ona dedi: «İndi ki özün üçün uzun ömür, var-dövlət və düşmənlərinin canını istəmədin, bunların yerinə ədaləti ayırd etmək üçün dərrakə istədin, Mən istəyini yerinə yetirirəm: sənə elə bir hikmətli və dərrakəli ürək verirəm ki, sənin kimisi nə səndən əvvəl olmuş, nə də səndən sonra olacaq. Hətta sənə istəmədiyini – var-dövləti də, şöhrəti də verirəm; belə ki, bütün ömrün boyu padşahlar arasında sənin kimisi olmayacaq. Əgər sən də atan Davud kimi qanunlarıma və əmrlərimə əməl edib yolumla getsən, sənin ömrünü də uzadacağam».

Bir gün Süleymanın yanına mübahisə edən iki qadın gəldi və bir körpə gətirdilər. Onların hər biri sübut etməyə çalışırdı ki, körpənin anası odur. Həqiqəti bilmək üçün Süleyman körpəni iki yerə bölüb və hər qadına yarısını verməyi təklif etdi. Əslində o, körpəni öldürmək fikrində deyildi, amma bunu qadınları yoxlamaq üçün etdi. Onda qadınlardan biri dedi: «Bölün, qoy nə onun olsun, nə mənim». Digəri isə çığırdı: «Sağ olan uşağı ona verin, amma öldürməyin».

Beləcə Süleyman qadınlardan uşağın anasının kim olduğunu öyrəndi; çünki ana öz körpəsini verməyə razılaşar, amma öldürməyə razılıq verməz.

*1 PADŞAHLAR 3:5–28*





## Allahın məbədi

Allah Davuda dedi ki, onun oğlu Süleyman Rəbbin məbədini tikəcək. Orada Allahın izzətinin nuru olacaq.

Süleyman Rəbbin əmrini yerinə yetirdi. Məbədin içərisində divarlar qızılla örtülmüşdü və çıraqların işığında orada hər şey bərq vuraraq parıldayırdı. Məbədin ətrafında Süleyman daş hasarla əhatə olunan həyət düzəltdi. Həyətində qurbanlıq heyvanları yumaq üçün on böyük tunc ləyən var idi. Orada başqa bir ləyən də var idi. O, digərlərindən böyük idi və on iki tökmə buğa fiqurunun üzərində dayanırdı. Ləyən kahinlərin yuyunması üçün təyin olunmuşdu. Həyətdə həmçinin böyük tunc qurbangah da var idi. Məbədin içində Əhd sandığı üçün qızılla örtülmüş yer – Ən Müqəddəs yer var idi. Ən Müqəddəs yerin daxili hissəsinin qabağında qızıl qurbangah var idi və onun üstündə ətirli buxur yandırılırdı. Orada zeytun ağacından düzəldilmiş və üzü qızılla örtülmüş iki keruv*, yəni böyük mələklər dururdu. Keruvlar o qədər böyük idi ki, onların hər biri bir qanadı ilə divara, o biri qanadı ilə ikinci keruvun qanadına toxunurdu.

Məbədin bütün divarları keruvların, xurma ağaclarının və açılmış güllərin oyma təsvirləri ilə bəzənmişdi. Məbədin döşəməsi də qızılla örtülmüşdü.

*1 PADŞAHLAR 6 – 7*





## Süleyman məbəddə dua edir

Məbəd tikilib qurtaranda kahinlər Allahın Əhd sandığını məbədə – Ən Müqəddəs yerə gətirdilər. Ora baş kahindən başqa heç kim daxil ola bilməzdi. Baş kahin ildə bir dəfə oraya daxil olub özünün və xalqının günahları üçün Rəbbin önündə qurban gətirərdi. Ən Müqəddəs yerə giriş böyük pərdə ilə örtülmüşdü.

Əhd sandığı məbədə gətiriləndə kahinlər və ilahiçilər Yaradanı izzətləndirdilər. Rəbbin Özü buludun içində gəldi və Onun izzəti məbədi doldurmuşdu. Süleyman Rəbbin qurbangahı önündə, bütün toplanan xalqın qarşısında durdu və əllərini göyə açıb dedi: «Ya Rəbb, İsrailin Allahı! Nə yuxarıda göydə, nə də aşağıda yerdə Sənin kimi Allah yoxdur. Sən bütün ürəkləri ilə yolunla gedən qullarına əhdini və lütfünü saxlayırsan. Lakin, doğrudan da, Allah yerdə yaşayarmı? Sən göyə və göylərin göyünə sığmazsan, o ki qaldı mənim tikdiyim məbədə! Ancaq Sən bu qulunun duasına və yalvarışına nəzər sal, ya Rəbb Allahım. Bu gün qulunun Sənin önündə etdiyi fəryadı və duanı eşit. Qoy Sənin nəzərin gecə-gündüz bu məbədin üstündə olsun. Bu yer barədə Sən demisən: “Mənim adım orada olacaq”. Qulunun buraya üz tutub etdiyi duanı eşit. Bu yerə tərəf dua etdikləri vaxt Öz qulunun və xalqın İsrailin yalvarışlarını Sən eşit, göydə – Öz məskənində eşit və bağışla! Bu qulunun və xalqın İsrailin yalvarışına nəzər yetir ki, onların Sənə fəryad etdikləri hər sözü eşidəsən».

*1 PADŞAHLAR 8:3–11, 22–52*





## Süleyman və Səba mələkəsi

Bir uzaq cənub ölkəsində Səba mələkəsi yaşayırdı. O, Süleymanın şöhrətini və onun Rəbbin adına gördüyü işləri barəsində eşidib onu tapmacalarla sınamağa gəldi. O, çox böyük sərvətlə Yerusəlimə gəldi. Onun dəvə karvanları ətriyyat, çoxlu qızıl və qiymətli daşlarla yüklənmişdi. O, Süleymanın yanına gəldi və ürəyində olan hər şey barədə onunla söhbət etdi. Süleyman onun bütün suallarına cavab verdi, elə bir gizli şey olmadı ki, padşah ona izah etməsin.

Səba mələkəsi Süleymanın bütün müdrikliyini gördü. Mələkə Süleymanın tikdiyi evə, süfrəsindəki yeməklərə, qullarının yaşayışına, nökərlərinin cah-calalına, geyimlərinə, padşahın saqilərinə fikir verdi. O, Rəbbin məbədində gətirilən yandırma qurbanlarını da gördü. Səba mələkəsi bütün bunlardan sarsılaraq Süleymana dedi: «Sənin işlərin və hikmətin barədə öz ölkəmdə eşitdiyim sözlər düz imiş. Gəlib öz gözlərimlə görənə qədər mən bu sözlərə inanmamışdım. Mənə heç gördüklərimin yarısı danışılmayıb, sənin hikmətin və var-dövlətin mən eşitdiyim şöhrətdən üstündür. Sənin adamların nə bəxtiyardır, bu qulluqçuların nə bəxtiyardır ki, həmişə önündə durub hikmətini eşidirlər. Allahın Rəbbə alqış olsun ki, səni istəyib İsrail taxtında oturtdu! Rəbb İsrailə olan əbədi sevgisi naminə ədalət və salehliklə hökm etmək üçün səni padşah qoydu».

Səba mələkəsi padşaha yüz iyirmi külçə qızıl, çoxlu ətriyyat və qiymətli daşlar bağışladı. Heç vaxt Yerusəlimə bu qədər çox ətriyyat hələ gəlməmişdi. Padşah Süleyman da böyük səxavətlə Səba mələkəsinə hədiyyələr verdi. Bundan başqa, padşah onun arzuladığı və istədiyi bütün şeyləri bəxş etdi. Mələkə də nökərləri ilə birgə qayıdıb öz ölkəsinə getdi.

*1 PADŞAHLAR 10:1–13*





## Süleyman Allahdan dönür

Süleyman məbədi tikəndə Allah ona dedi: «Budur, sən məbəd tikirsən. Əgər sən Mənim qaydalarımla getsən, hökmlərimə və əmrlərimə uyğun hərəkət etsən, onda Mən atan Davuda verdiyim sözü sənin vasitənlə yerinə yetirəcəyəm: İsraillilərin arasında yaşayacağam və xalqım İsraili tərk etməyəcəyəm». Süleyman Allahın buyruqlarına səmimi qəlbdən əməl edirdi.

Amma illər keçdi. Süleyman yaşa doldu və Allahdan döndü. Onun bütpərəst xalqlardan çoxlu arvadları var idi. Bu qadınlar Var Olan Allahı tanımırdılar. Arvadları Süleymanın ürəyini bütpərəstliyə döndərdilər və o, arvadlarının bütləri üçün qurbangahlar düzəltdi.

Allah Süleymana yalançı allahlara səcdə etməyi qadağan etmişdi, amma Süleyman Rəbbin əmrinə əməl etməmiş və ürəyində Rəbdən dönmüşdü. Rəbb isə ona iki dəfə görünmüşdü. Buna görə Allah Süleymana qəzəblənib dedi: «Bu niyyətdə olduğuna görə, sənə əmr etdiyim əhdimə və qaydalarıma əməl etmədiyin üçün Mən hökmən padşahlığını əlindən çəkib alacağam və onu sənin quluna verəcəyəm. Ancaq atan Davudun xatirinə Mən bunu sənin dövründə etməyəcəyəm, onu sənin oğlunun əlindən çəkib alacağam. Həm də bütün padşahlığı çəkib almayacağam, qulum Davudun xatirinə və Mənim seçdiyim Yerusəlimdən ötrü bir qəbiləni sənin oğluna verəcəyəm».

Belə də oldu. Padşahın günahına görə ölkə iki yerə bölündü və daxili müharibələr başladı.

*1 PADŞAHLAR 6:12–13; 11:1–13*





## Padşahlığın bölünməsi

Möhtəşəm İsrail padşahlığı yalnız 120 il mövcud oldu. Şaul, Davud və Süleyman, hər kəs qırx il padşahlıq etdi. Padşah Süleymanın ölümündən sonra padşahlıq İsrail və Yəhuda padşahlıqlarına bölündü.

Bu, belə baş verdi. Bütün İsraillilər mərhum padşah Süleymanın oğlu Rexavamı padşah etmək üçün Şekemə toplanmışdılar. Onlar Rexavama dedilər: «Atan üzərimizə ağır boyunduruq qoydu. Sən isə indi atanın çətin qulluğunu və üzərimizə qoyduğu ağır boyunduruğu yüngülləşdir, biz də sənə qulluq edərik».

Padşah Rexavam atası Süleymanın sağlığında xidmət edən ağsaqqallarla məsləhətləşdi. Onlar belə cavab verdilər: «Əgər bu gün sən bu xalqa xidmətçi olsan, onlara qulluq etsən və onlara cavab verəndə yaxşı sözlər desən, daim sənə qul olacaqlar». Amma Rexavam ağsaqqalların məsləhətinə məhəl qoymadı, onunla birgə böyümüş gənclərlə məsləhətləşdi. Onlar Rexavama pis məsləhət verdilər: «Mənim kiçik barmağım atamın belindən yoğundur. Atam sizi ağır boyunduruqla yükləmişdi, mən isə sizin boyunduruğunuzu daha da artıracağam; atam sizi qamçılarla cəzalandırırdı, mən isə sizi əqrəblərlə cəzalandıracağam».

İsraillilər Yaqubun oğullarının sayına əsasən on iki qəbiləyə bölünürdülər. Onlar yeni padşahın sözlərini eşidib başa düşdülər ki, o, onların xahişlərini yerinə yetirmək istəmir. On qəbilə Rexavama qarşı üsyan etdi, ayrıldı və özlərinə onun rəqibi Yarovamı padşah seçdilər. Müqəddəs Yazılarda bu padşahlıq İsrail padşahlığı adlandırılır. O həm də Şimal padşahlığı adlandırılır, çünki İsrailin şimalında yerləşirdi. Əvvəl onun paytaxtı Şekem, sonra Tirsa və nəhayət, Samariya şəhəri oldu. İsrail padşahlığı 200 ildən artıq mövcud oldu və Miladdan əvvəl 721-ci ildə Aşşur padşahı Salmanessar tərəfindən dağıdıldı.



Süleymanın oğlu Rexavama yalnız Yəhuda və kiçik Binyamin qəbiləsi sadiq qaldı. Onlar Yəhuda padşahlığını və ya sadəcə, Yəhudanı təşkil etdilər. O, İsrailin cənubunda yerləşdiyi üçün onu həm də Cənub padşahlığı adlandırırlar. Onun paytaxtı Yerusəlim idi. Yəhuda padşahlığı təqribən 350 il mövcud olmuşdu. B.e.ə. 586-cı ildə Babil* tərəfindən məhv edilmişdi.

*1 PADŞAHLAR 12*



## Cənub padşahlığı – Yəhuda

Yəhuda və yaxud Cənub padşahlığı üç yüz il yarım əsrə yaxın mövcud oldu. Bu padşahlıq Şimal padşahlığının süqutundan 135 il sonra dağıldı. Cənub padşahlığında 20 padşah bir-birinin ardınca dəyişildi: Rexavam, Aviya, Asa, Yehoşafat, Yehoram, Axazya, mələkə Atalya, Yoaş, Amasya, Uzziya (Azarya), Yotam, Axaz, Xizqiya, Menaşşe, Amon, Yoşiya, Yehoaxaz, Yehoyaqim, Yehoyakin və Sidqiya.

Cənub padşahlarının əksəriyyəti Rəbdən uzaqlaşmışdılar və bütlərə səcdə edib günahlı həyat sürürdülər. Lakin onların bəziləri hələ də Allaha sadiq idilər. Məsələn, Xizqiya və Yoşiyanın hökm etdiyi vaxt Cənub padşahlığında oyanış baş vermişdi. Padşahlar bütlərin məbədlərini dağıdırdılar, xalqa Allahın Kəlamını oxumağı, şər işlərdən uzaq durmağı, Allahın qanunlarına, əmrlərinə, nəsihətlərinə və qaydalarına əməl etməyi buyururdular.

Yəhuda padşahlığı İsrail padşahlığından təxminən altı dəfə balaca idi. Amma ətrafdakı xalqlara nisbətən hər iki padşahlıq balaca idi. Onlar bir-birləri ilə döyüşsələr də, əsas düşmənləri bütpərəst xalqlar idi. Şimalda Suriya (Aram), şərqdə güclü Aşşur və Babil dövlətləri, cənub-qərbdə Filiştlilər və cənub-şərqdə Moav.

Yəhuda və İsrail Rəbbə sadiq olduqları müddətdə döyüşlərdə zəfər çalırdılar. Lakin xalq və padşahlar qanunsuzluqda yaşayanda Rəbb onlara cəza verib düşmənlərə təslim edirdi.

*1 PADŞAHLAR 12*





## Şimal padşahlığı – İsrail

Bu padşahlıq 200 ildən artıq yaşamışdır. Taxtda 19 padşah bir-birinin ardınca dəyişildi: Yarovam, Nadav, Baaşa, Ela, Zimri, Omri, Axav, Axazya, Yoram, Yehu, Yoahaz, Yehoaş, II Yarovam, Zəkəriyyə, Şallum, Menahem, Peqahya, Peqah və Huşə. Bu padşahlığın tarixi dəhşətlidir. O, Yəhuda padşahlığı və başqa xalqlarla daim vuruşurdu. Padşahları öz oğulları və əyanları tərəfindən öldürülürdülər. Sonra özləri padşah olurdular. Padşah olduqdan sonra onları da öldürürdülər. Beləliklə, Şimal padşahlığının taxtında doqquz sülalə dəyişmişdi. Cənub padşahlığında isə bir sülalə – padşah Davudun sülaləsi hökm edirdi.

Şimal padşahlığının padşahları Rəbbə məqbul olmayan işlər görürdülər. Onlar Allahın yolundan dönüb allahsız olmuşdular. Onların padşahlığında əxlaqsızlıq və bütpərəstlik baş alıb getmişdi. Günahkar şimal padşahları bütün xalqı günaha batırdılar. Artıq birinci padşah Yarovamın dövründə xalq bütlərə səcdə etməyə başladı. Bu, belə baş vermişdi. Yarovam ürəyində dedi: «Padşahlıq yenə Davud sülaləsinə qayıda bilər. Əgər bu xalq Yerusəlimə, Rəbbin məbədinə qurban gətirmək üçün gedərsə, bu xalqın ürəyi ağalarına – Yəhuda padşahı Rexavama tərəf dönəcək. Onlar məni öldürüb Yəhuda padşahı Rexavamın tərəfinə keçəcəklər». Padşah məsləhətləşib iki qızıl dana düzəltdi və xalqa dedi: «Sizə daha Yerusəlimə getmək lazım deyil. Ey İsraillilər, sizi Misir torpağından çıxaran allahlarınız bunlardır». Padşah həmin danalardan birini Bet-Eldə, o birini isə Danda qoydu. Bu iş günahın başlanğıcı oldu. Xalq qızıl danalardan başqa Baal bütünə səcdə etməyə başladı.

O dövrdə İsraildə Axiya adlı Allahın peyğəmbəri yaşayırdı. Onun peyğəmbərlikləri Yarovama və onun padşahlığına qarşı idi: «İsrailin Allahı Rəbb belə deyir: Səndən əvvəl olanların hamısından çox pislik etdin. Məni qəzəbləndirmək üçün



gedib özünə başqa allahlar, tökmə bütlər düzəltdin və Məni kənara atdın. Bunun üçün Mən Yarovamın nəsli üzərinə bəla gətirəcəyəm». Sonralar elə belə də oldu.

*1 PADŞAHLAR 12, 14*



## İlyas peyğəmbər

İllər keçirdi. Padşahlar dəyişirdi. İsraildə Axav adlı padşah hökmranlıq edirdi. Axav ondan əvvəl olan bütün İsrail padşahlarından ən pisi idi. Onun arvadı İzevel bütpərəst idi. O, Axavı Baal bütünə səcdə etməyə və bu büt üçün məbəd tikdirməyə yönəldirdi. Həqiqi Allaha sadiq olanları isə məhv etməyə çalışırdı.

Axavın hökm etdiyi dövrdə İsraildə Allahın İlyas adlı sadiq peyğəmbəri yaşayırdı. O, hamını həqiqi Allaha tərəf dönməyə çağırırdı. O zamanlar İsrail xalqı Rəbbin yolundan dönüb bütlərə ibadət edirdi. Buna görə Allah İsraili cəzalandırdı: İlyas peyğəmbərin sözü ilə üç il yarım ərzində İsrail torpağında yağış yağmadı və böyük quraqlıq oldu. Rəbb İlyasa Axavın təqiblərindən xəlvəti bir yerdə, bulağın yanında gizlənməyi əmr etdi. Səhər və axşam peyğəmbərə çörək və ət gətirmələri üçün Allah qarğaları göndərdi, amma susuzluğunu yatırmaq üçün o, bulaqdan su içərdi.

*1 PADŞAHLAR 16:29–17:6*





## Dul qadının oğlunun dirilməsi

Bir müddətdən sonra İlyasın su içdiyi bulaq qurudu. Onda Allah ona Sidonun Sarfat şəhərinə gedib bir dul qadının evində qalmağı əmr etdi. İlyas bu evə gələrkən qadından bir az su və bir tikə çörək istədi. Dul qadın oğlu ilə yaşayırdı və çox yoxsul idi. Onun bir ovuc undan və küpdə bir az yağdan başqa heç nəyi yox idi. Qadın bu haqda İlyasa deyəndə o, belə cavab verdi: «Qorxma. Rəbb torpaq üzərinə yağış verəcəyi günə qədər nə küpdə un tükənəcək, nə də qabda yağ qurtaracaq».

İlyas peyğəmbər qadının evində qaldı və Rəbb möcüzə etdi: onlar hər gün çörək bişirirdilər, amma İlyasın əvvəlcədən dediyi kimi, nə yağ, nə də un əskik olmurdu.

Qəflətən dul qadının oğlu xəstələnib öldü. Kədər içində ana düşündü ki, Allah onu günahlarına görə cəzalandırır. O, ölü uşağını qucağına alıb ağlaya-ağlaya peyğəmbərin yanına gəldi. İlyas ona dedi: «Oğlunu mənə ver». O, uşağı qadının qucağından götürüb özünün qaldığı otağa apardı. Uşağı öz yatağının üstünə uzandırıb Rəbbə dua edərək belə dedi: «Ey Allahım Rəbb, yanında qaldığım dul qadının oğlunu öldürməklə onun başına bəla gətirirsən?» Sonra uşağın üstünə üç dəfə uzandı və Rəbbi çağırıb dedi: «Ey Allahım Rəbb, Sənə yalvarıram, qoy bu uşağın canı özünə qayıtsın». Rəbb sadiq peyğəmbərin duasını eşitdi və dul qadının oğlunu diriltdi. İlyas uşağı götürüb anasına verib dedi: «Bax oğlun sağdır». Qadın çox sevindi və İlyasa dedi: «İndi bildim ki, sən Allah adamısan və sənin ağzında Rəbbin sözü haqdır».

*1 PADŞAHLAR 17:7–24*





## İlyas və Baal peyğəmbərləri

Bir dəfə Rəbb İlyasa əmr etdi ki, o, Axav padşahın yanına getsin və ona desin ki, o, Baal bütünün peyğəmbərlərini və digər bütpərəst peyğəmbərləri, eləcə də, bütün xalqı Karmel dağına toplasın. Padşah bunu etdi və hamı dağa yığışdı. İlyas onlara belə xitab etdi: «Nə vaxta qədər iki tərəfə əyiləcəksiniz? Əgər Rəbb Allahdırsa, Ona xidmət edin, yox, Baal Allahdırsa, onda ona xidmət edin». Xalq onun sözünə cavab vermədi. Onda İlyas xalqa dedi: «Rəbbin peyğəmbərlərindən təkcə mən qaldım, amma Baal peyğəmbərləri dörd yüz əlli nəfərdir. İndi qoy bizə iki buğa verilsin və onlar özləri üçün bir buğa seçsinlər, onu doğrayıb odunların üstünə qoysunlar, ancaq od vurmasınlar. Mən isə başqa buğanı hazırlayıb onu odunların üstünə qoyacağam, ancaq od vurmayacağam. Siz öz allahınızın adını çağırın, mən isə Allahım Rəbbin adını çağıracağam. Hansı odla cavab verərsə, Allah odur». Bütün xalq razılaşdı.

Baal peyğəmbərləri buğanı götürüb odunun üstünə qoydular və qışqırmağa başladılar: «Ey Baal, bizə cavab ver!» Onlar, demək olar ki, bütün günü dəlicəsinə qışqırdılar, amma heç bir cavab olmadı. Onda İlyas xalqa onun yanına gəlməsini buyurdu. Hamı ona yaxınlaşanda İlyas İsrailin qəbiləsinin sayına görə on iki daş götürdü, bunlardan qurbangah düzəltdi, onun üzərinə odunları düzdü, buğanı doğrayıb odunların üzərinə qoydu. Sonra o, qurbangahın üzərinə üç dəfə dörd vedrə su tökdürdü ki, qurbangahın ətrafında qazılmış xəndək su ilə dolsun. Sonra İlyas dua etməyə başladı: «Ey İbrahimin, İshaqın və İsrailin Allahı Rəbb! Qoy bu gün bilinsin ki, İsraildə Sən Allahsan və mən Sənin qulunam, bütün bu işləri də Sənin sözünlə etdim. Səsimi eşit, ya Rəbb, mənə cavab ver. Qoy bu xalq bilsin ki, Sən Allahsan, ya Rəbb, onda onların ürəyini Özünə tərəf döndərəcəksən». Rəbb Öz peyğəmbərinin duasını



eşitdi, göydən düşən od qurbanı, odunu, ətrafında olan daşları, hətta xəndəkdəki suyu da uddu. Bütün xalq bunu gördü və onlar üzüstə düşüb dedilər: «Rəbb Allahdır! Rəbb Allahdır!»

Beləliklə, Rəbb hamıya göstərdi ki, yeganə Allah Odur, Baal peyğəmbərləri isə yalançıdırlar.

*1 PADŞAHLAR 18:18–39*



## Su və yağ möcüzələri

Allah Elişanı, İlyasın davamçısını böyük peyğəmbər etdi və onun vasitəsi ilə çoxlu möcüzələr yaratdı. Bir dəfə o, Yerixo şəhərində qalanda şəhərin sakinləri gəlib ona dedilər: «Ağamın gördüyü kimi, bu şəhərin yeri yaxşıdır, ancaq suyu pisdir, torpağı bəhər vermir». Onda Elişa təzə bir qab gətirməyi və onun içinə duz qoymağı xahiş etdi. Bunu Elişaya gətirəndə o, bulağa tərəf getdi, duzu oraya atıb dedi ki, Rəbbin sözü ilə su pak olur, artıq onda ölüm və bəhərsizlik olmayacaq. Bundan sonra bulaqdakı su çox yaxşı oldu.

O biri dəfə Elişanın yanına bir dul qadın gəldi və ağlaya-ağlaya dərdini danışdı. Ərinin ölümündən sonra bu qadın borclarını ödəyə bilməmişdi. Buna görə borclu olduğu adam gəlib hər iki oğlunu özünə köləliyə götürmək istəyirdi. Elişa onun dərdinə şərik olub ona kömək etmək istədi. O soruşdu: «Mənə söylə görüm, evində nəyin var?» Qadın dedi: «Bir qab yağdan başqa bu kənizinin evində heç nə yoxdur». Peyğəmbər qadına dedi: «Get bayırda bütün qonşularından özün üçün boş qablar istə, qoy çox olsun. Sonra içəri gir, özünün və oğullarının dalınca qapını bağla, öz yağını bütün bu qablara tök və onları doldurub bir tərəfə qoy».

Qadın getdi və Elişanın dediyini etdi. Qonşulardan kuzələr, kasalar borc aldı, evinin qapısını qıfıllayıb oğulları ilə birgə yağı öz kuzəsindən boş qablara tökdü. Qablar dolanda o, oğullarından birinə dedi: «Mənə bir qab da gətir». Oğlu ona dedi: «Daha qab qalmadı». Onda dul qadın gördü ki, onun kuzəsindəki yağ da kəsildi.

Bütün qablar yağla dolandan sonra qadın gəlib bu möcüzə barəsində Elişaya danışdı. O da dedi: «Get yağı satıb borcunu ödə. Qalanı ilə də oğullarınla birgə dolanarsan».

*2 PADŞAHLAR 2:19–22; 4:1–7*





## Suriyalı ordu başçısı Naaman

Suriya padşahının Naaman adlı ordu başçısı var idi. O, hörmətli və məşhur bir adam idi, amma dəhşətli xəstəliyə – cüzama tutulmuşdu.

Suriyalılar döyüşlərin birində İsrail torpağından kiçik bir qızı əsir götürmüşdülər. Bu qız Naamanın arvadının yanında qulluqçu oldu. Bu qız Rəbbin Elişa vasitəsi ilə etdiyi möcüzələrdən xəbərdar idi. Bir dəfə o, öz xanımına dedi: «Kaş ki ağam Samariyada peyğəmbərin yanında olaydı. O zaman peyğəmbər onun cüzamına şəfa verərdi». Naaman gedib «İsrail torpağından olan qız belə-belə söylədi» deyə ağasına bildirdi. Suriya padşahı dedi: «Get, mən İsrail padşahına bir məktub göndərərəm».

Naaman İsrailə yola düşdü. Padşahın yanına gəlib məktubu ona verdi. Məktubda belə yazılmışdı: «İndi bu məktubla bərabər qulum Naamanı da yanına göndərirəm ki, sən onun cüzamına şəfa verəsən».

İsrail padşahı məktubu oxuyanda paltarını cırıb dedi: «Məgər mən öldürüb-dirildən Allaham? Niyə bu adam cüzamına şəfa vermək üçün mənim yanıma adam göndərir? Baxarsınız, mənimlə dava etmək üçün bəhanə axtarır».

Elişa İsrail padşahının öz paltarını cırdığını eşidəndə onun yanına nökərini göndərib dedi: «Nə üçün paltarını cırdın? Qoy indi o, mənim yanıma gəlsin və bilsin ki, İsraildə bir peyğəmbər var».

*2 PADŞAHLAR 5:1–8*





## Naamanın şəfası

Naaman döyüş arabası ilə gəldi və Elişanın evinin girişində dayandı. Elişa onun yanına nökərini göndərib dedi: «Get, İordan çayında yeddi dəfə yuyun ki, bədənin sağalıb tər-təmiz olsun». Naaman bu sözləri eşidib acıqlandı və dedi: «Mən güman edirdim ki, mütləq bayıra çıxıb yanıma gələcək, durub Allahı Rəbbin adını çağıracaq və əlini cüzamlı yerin üzərində yelləyib şəfa verəcək. Dəməşqin çayları Avana və Parpar İsrailin bütün sularından daha yaxşı deyilmi? Onlarda yuyunub təmiz ola bilməzdimmi?» O, hirslə Elişanın evindən dönüb getdi.

Naamanın qulları onun yanına gəlib dedilər: «Ey atamız, əgər peyğəmbər sənə böyük bir şey əmr etsəydi, ona əməl etməzdinmi? O yalnız sənə “yuyun və təmiz ol” deyir». Onda Naaman peyğəmbərin sözünə görə hərəkət etməyə razı oldu. O, İordan çayına enib yeddi dəfə suya baş vurdu. Onun bədəni sağaldı və körpə bədəni kimi tər-təmiz oldu.

Naaman yenə peyğəmbərin yanına gəldi və ona dedi: «Bax indi bildim ki, İsraildən başqa, dünyanın heç bir yerində Allah yoxdur. Buyur, bu qulunun hədiyyəsini götür». Lakin Elişa onun hədiyyələrindən imtina etdi. Naaman hədiyyələri götürməyi təkid etdi, ancaq Elişa istəmədi. Naaman Elişa ilə vidalaşaraq peyğəmbərə söz verdi ki, artıq o, bütpərəst allahlarına deyil, yalnız Rəbbə yandırma qurbanları və təqdimlər gətirəcək.

*2 PADŞAHLAR 5:9–17*





## Kor edilmiş istilaçılar

İsrail ilə Suriya müharibə etdiyi vaxt Elişa peyğəmbər İsrail padşahına Suriya qoşunlarının yerlərini bildirirdi, çünki bunu ona Allah aşkar edirdi. İsrail zəfər dalınca zəfər qazanırdı. Suriyalı padşah çox narahat oldu. O düşünürdü ki, onun əsgərləri arasında bir xain var və o, İsraillilərə hərbi sirləri çatdırır. Amma padşahın nökərlərindən biri ona dedi: «Heç kim, ağam padşah. Bunları İsrail padşahına bildirən İsraildə olan peyğəmbər Elişadır. O hətta yataq otağında söylədiyin sözləri ona çatdırır».

Elişa peyğəmbərin hansı şəhərdə yaşadığını xəbər tutan Suriya padşahı oraya böyük qoşun göndərdi. Padşah onu əsir götürmək istəyirdi. Lakin suriyalılar Elişanın yanına gələndə, o, Rəbbə dua etdi və dedi: «Bu adamları kor et». Elişanın sözünə görə Rəbb onları kor etdi. Elişa peyğəmbər kor olmuş suriyalıları öz şəhərindən çıxarıb o dövrdə Şimal padşahlığı olan Samariyaya gətirdi. İsrailin padşahı orada yaşayırdı. Onlar Samariyaya girəndə Elişa dedi: «Ya Rəbb, onların gözlərini aç ki, görsünlər». Rəbb onların gözlərini açdı və onlar Samariyanın düz ortasında olduqlarını gördülər.

İsrail padşahı onları görəndə Elişaya dedi: «Mənim atam, onları qırıb məhv edimmi?» Elişa dedi: «Yox, qırma. Məgər bu adamları sən qılıncın və ox-kamanınla əsir etmisən ki, qırmağa haqqın olsun? Onların qabağına çörək və su qoy ki, yeyib-içsinlər və sonra öz ağalarının yanına getsinlər». Padşah onlar üçün böyük nahar hazırladı, onlar da yeyib-içdilər. Sonra padşah onları buraxdı və onlar öz hökmdarlarının yanına qayıtdılar. Suriya qoşunları bir daha İsrail torpağına gəlmədi.

*2 PADŞAHLAR 6:8–23*





## Yoaşın padşah olması

Axazya Yəhuda padşahlarından biri idi. Atalya Axazyanın anası idi. O, çox pis və qəddar qadın idi. Oğlu döyüşdə həlak olanda o, bütün padşah nəslini məhv etdi ki, özü taxta varis olsun. Ancaq Axazyanın bacısı Yehoşeva Axazyanın oğlu Yoaşı Atalyadan gizlətdi. Yehoşeva Yoaşı altı il Rəbbin məbədində gizlətdi. Atalya isə bu müddət ölkə üzərində padşahlıq etdi.

Yoaşın yeddi yaşı tamam olanda kahin Yehoyada bütün əsgərləri, yüzbaşıları, qasidləri və padşahın mühafizəçilərini Rəbbin məbədinə çağırdı. Kahin Yehoyada şahzadəni onlara göstərdi və onu taxta çıxarmaq barəsində onlarla sözləşdi. Əsgərlər şahzadəni mühafizə edərək, hər tərəfdən məbədi əhatəyə aldılar. Kahin Yehoyada isə Yoaşı çıxartdı, başına tac qoydu və padşahlığa məsh etdi. Hamı Yoaşı salamlayıb «Yaşasın padşah!» deyərək, nida etdilər. İsrail xalqı bunu eşidib sevindi. Atalya isə öldürüldü.

Nə qədər ki, kahin Yehoyada gənc padşahın nəsihət verəni idi, Yoaş Allaha məqbul olanları edirdi. Yoaş boya-başa çatanda əmr verdi ki, əvvəllər Allahın məbədində zədələnmiş yerlər təmir olunsun. Lakin Yehoyadanın ölümündən sonra padşah pis məsləhətçilərə qulaq asdı və Var Olan Allahı tərk edib bütpərəstliyə döndü. O, Allahın iradəsinə qarşı hərəkət etməyə başladı.

Bir gün kahin Yehoyadanın oğlu Zəkəriyyə xalqın günahını ifşa etdi. Yoaş onu Rəbbin məbədinin həyətində öldürtdürdü. Bundan sonra ölkəyə fəlakətlər gəldi. Suriyalılar İsraili talan etdi və məbədin sərvətlərini qənimət kimi apardılar. Padşah Yoaş ağır yaralı yatarkən iki əyanı gəlib onu öldürdü.

*2 PADŞAHLAR 11:12; 2 SALNAMƏLƏR 24:1–25*





## Uzziya padşahın qüruru və cəzası

Uzziya Yəhuda padşahlığında onuncu padşah idi. O, taxta çıxanda onun cəmi 16 yaşı var idi. O, Yerusəlimdə 52 il padşahlıq etdi.

Uzziya Rəbbə məqbul olanları edirdi. Kahin Zəkəriyyə Uzziyaya Allah qorxusunu öyrətdiyi vaxtlarda o, Rəbbə tərəf dönürdü, Allah da ona kömək edirdi. Uzziya Yerusəlimdə və çöldə möhkəm istehkamlar qurdu. O, çoxlu quyular qazdı, çünki dağların yamaclarında və düzənlikdə çoxlu heyvan sürüləri var idi. Onun tarlalarında və üzüm bağlarında çoxlu adam işləyirdi, çünki o, əkinçiliyi çox sevirdi. Uzziyanın üç yüz yeddi min beş yüz nəfərlik ordusu var idi. Uzziya bütün ordu üçün qalxanlar, nizələr, dəbilqələr, zirehlər, kamanlar və sapand daşları hazırladı. Yerusəlimdə oxlar və böyük daşlar atmaq üçün məharətli adamların icad etdiyi qurğular düzəldib qüllələr və divar küncləri üzərinə qoydu. Uzziyanın şöhrəti Yəhudanın hüdudlarından uzaqlara yayıldı, çünki o, padşahlığını çox möhkəmləndirdi və qüdrətli padşah oldu.

Lakin Uzziya belə qüvvətlənəndə onun ürəyi qürurlandı. Bu da onu həlaka apardı: o, Allahı Rəbbin Qanununu pozdu. Uzziya qürurlanıb buxur qurbangahı üzərində buxur yandırmaq üçün Rəbbin məbədinə daxil oldu. Kahin Azarya və onunla bərabər Rəbbin səksən kahini onun ardınca girdi. Onlar padşah Uzziyanı bu addımı atmaqdan saxlamaq istədilər və ona dedilər: «Ey Uzziya, Rəbbə buxur yandırmaq sənin işin deyil, bu iş buxur yandırmaq üçün təqdis edilmiş Harun nəslindən olan kahinlərin işidir, Müqəddəs məkandan çıx, çünki xainlik etdin və bu iş Rəbb Allahdan sənə izzət gətirməyəcək». Uzziya kahinlərin bu sözlərinə qəzəbləndi. Onun əlində isə buxur yandırmaq üçün buxurdan var idi.





Amma o qəzəblənəndə üzünə cüzam çıxdı. Bu, kahinlərin gözü önündə, Rəbbin məbədində, buxur qurbangahının qarşısında baş verdi. Padşahın üzündəki cüzamı görərək kahin Azarya və bütün kahinlər onu məbəddən bayıra çıxmağa məcbur etdilər. Elə Uzziya Rəbbin ona bəla göndərdiyini başa düşdü və özü də çıxmağa tələsdi. Uzziya padşah ölənə qədər cüzamlı qaldı. O, başqa evdə yaşayırdı və Rəbbin məbədindən uzaqlaşdırıldı. Onun oğlu Yotam isə saray üzərində və ölkə xalqına başçılıq edirdi.

*2 SALNAMƏLƏR 26*

# İsrail Allahdan dönür

İsraillilər onları fironun əsarəti altından və Misir torpağından çıxaran özlərinin Allahı Rəbbə qarşı günah etməyə başladılar. Onlar Rəbbin onların önündən qovaraq İsrailliləri yerləşdirdiyi torpaqlarda yaşayan bütpərəstlərin yad allahlarına səcdə etməyə və onların adətlərinə əməl etməyə başladılar. İsraillilər öz padşahlarından nümunə götürərək, Allaha məqbul olmayan işlər görürdülər. Onlar gözətçi qülləsindən tutmuş istehkamlı şəhərə qədər, yaşadıqları hər yerdə bütlərə qurbangahlar qururdular. İsraillilər hər hündür təpənin üstündə və hər kölgəli ağacın altında sütunlar və Aşera bütləri qoyurdular. Onlar orada Rəbbin İsraillilərin önündən qovduğu millətlərin etdiyi kimi buxur yandırırdılar. İsraillilər Rəbbi qəzəbləndirirdilər: Rəbb onlara «bunu etməyin» söylədiyinə baxmayaraq, onlar bütlərə qulluq edirdilər.

O vaxt Rəbb Özünün bütün peyğəmbərləri və görücüləri vasitəsilə İsraillilərə və Yəhudalılara xəbərdarlıq edib demişdi: «Pis yolunuzdan dönün. Atalarınıza buyurduğum və qullarım peyğəmbərlər vasitəsilə sizə öyrətdiyim Qanunda olan bütün əmrlərimə və qanunlarıma əməl edin». Amma İsraillilər ataları kimi inadkarlıq edib öz Rəbb Allahlarına inanmırdılar. Onlar Onun qanunlarını, ataları ilə bağladığı əhdi və onlara etdiyi xəbərdarlıqları rədd etmişdilər. Boş şey dalınca gedib boş adamlar olmuşdular. Onlar ətraflarındakı millətlər kimi hərəkət edirdilər, halbuki Rəbb «ətrafınızdakı millətlər kimi hərəkət etməyin» deyib əmr etmişdi. İsraillilər öz Allahları Rəbbin əmrlərini tərk edib özlərinə iki tökmə dana bütü və Aşera üçün səcdəgahlar* düzəltmişdilər. Onlar həm də səma cisimlərinə səcdə edirdilər, Baal tanrısına qulluq edirdilər; oğullarını və qızlarını oda qurban verirdilər, falçılıq və baxıcılıq edirdilər. Rəbbə məqbul olmayan pis işlərlə məşğul olub Onu qəzəbləndirirdilər.



Onda Rəbbin İsraillilərə qarşı qəzəbi alovlandı və O, onlardan üz döndərdi. Yəhuda qəbiləsindən başqa heç biri qalmadı, amma onlar da öz Allahları Rəbbin əmrlərinə əməl etmirdilər.

*2 PADŞAHLAR 17:7–18*



## Aşşur İsraili işğal edir

Huşə Şimal padşahlığının – İsrail padşahlığının sonuncu padşahı idi. O, Miladdan əvvəl doqquz il – 730–721-ci illərdə padşahlıq etmiş və Rəbbə məqbul olmayan işlər görmüşdü. İsrailin şimal-şərqində böyük Aşşur padşahlığı yerləşirdi. Onun paytaxtı Nineva şəhəri idi. Aşşur hökmdarları qəddar və mənsəbpərəst idilər. 724-cü ildə padşah Şalmaneserin hökmranlığı altında qüdrətli Aşşur ordusu İsrailə daxil oldu. İsrail padşahı Huşə Şalmaneserə tabe olub ona xərac verməyə başladı.

Aşşur padşahı öyrəndi ki, Huşə Misir padşahı Sonun yanına qasidlər göndərib, həm də hər il olduğu kimi, Aşşur padşahına xərac verməyib. Buna görə də Aşşur padşahı onu bir xəyanətkar kimi tutub zindana saldı, özü isə İsrailə hücum etdi. Aşşur padşahı Samariyaya yaxınlaşıb bu şəhəri üç il mühasirədə saxladı. Huşənin padşahlığının doqquzuncu ilində Aşşur padşahı Samariyanı aldı və İsraillilləri Aşşur torpağına sürgün etdi. Onları Xalahda, Qozan çayı sahilindəki Xavorda və Midiya şəhərlərində yerləşdirdi. Bu, Şimal padşahlığının sonu idi.

Rəbb Öz xalqını onların qanunsuzluqlarına görə belə cəzalandırdı. Bu, Miladdan əvvəl 721-ci ildə baş vermişdi. Yalnız iki yüz ildən sonra İsraillilərin bəziləri Aşşurdan İsrailə qayıtdı. Bu, Cənub padşahlığının sakinləri olan Yəhudilərin əsarətdən qayıtması ilə eyni vaxtda baş vermişdi.

*2 PADŞAHLAR 17:2–6*





## Samariyalılar

Şimal padşahlığının İsraillilәri әsarәtә alınmış vә uzaq Aşşura sürgün edilmişdilәr. Onların ölkәsi, demәk olar ki, tam boşalmışdı. Bir müddәt keçәndәn sonra Aşşur padşahı orada Babildәn vә digәr ölkәlәrdәn olan adamları yerlәşdirdi. Onlar Samariyaya sahib oldular vә oranın şәhәrlәrindә yaşadılar. Bu adamlar orada yaşamağa başlayanda Rәbbә sitayiş etmirdilәr. Rәbb dә onların üstlәrinә şirlәr göndәrdi vә şirlәr onları öldürmәyә başladı. Bu barәdә Aşşur padşahına xәbәr verildi: «Sürgün edib Samariyanın şәhәrlәrindә yerlәşdirdiyin millәtlәr bu ölkә Allahının adәtlәrini bilmirlәr. Buna görә Allah onların üstlәrinә şirlәr göndәrir vә şirlәr onları öldürür». Aşşur padşahı oradan sürgün edilmiş bir kahini Samariyaya göndәrmәyi әmr etdi ki, o, orada yaşasın vә hәmin ölkәnin Allahının qanununu onlara öyrәtsin.

Samariyadan sürgün edilәn kahinlәrdәn biri gәlib Bet-Eldә yaşadı. O, Samariya sakinlәrinә Rәbbә necә sitayiş etmәyi öyrәtmәyә başladı. Bu zaman hәr millәt öz tanrısının bütünü düzәltdi vә nә vaxtsa Samariyalıların düzәltdiklәri bütü sәcdәgahlarına qoydular. Onlar Rәbbә ehtiram edirdilәr, amma eyni zamanda, aralarından sürgün olunduqları millәtlәrin adәtlәrinә görә öz tanrılarına da sitayiş edirdilәr.

Yәhudilәr bu yerin adamlarını Әhdi-Cәdiddә adı çәkilәn Samariyalılar adlandırdılar. Halbuki o dövrdә Samariyalılar bütlәrә yox, yalnız Rәbbә sәcdә edirdilәr. Onlar çox şeydә Yәhudilәrdәn fәrqlәnirdilәr vә onlarla düşmәnçilik edirdilәr. Samariyalıların öz kahinlәri var idi vә onlar öz әnәnәlәrinә әmәl edirdilәr. Onlar hәtta Gerizim dağında özlәrinә ayrı mәbәd dә tikdilәr. Yәhudilәr daha sonralar bu mәbәdi dağıtdılar.

*2 PADŞAHLAR 17:24—33*





## Padşah Xizqiyanın duası

Miladdan əvvəl 721-ci ildə Aşşurlular Şimal padşahlığını işğal edib İsraillilləri Aşşura sürgün etdikdən sonra Allahın köməyi ilə kiçik Cənub padşahlığı Yəhuda hələ də 130 il mövcud olmuşdu.

Xizqiya Yəhuda padşahlarından biri idi. O, iyirmi doqquz il Yerusəlimdə padşahlıq etdi. O, bütün Yəhuda padşahlarından ən yaxşısı idi. Cünki o, Musa peyğəmbər vasitəsilə verilən bütün əmrlərə əməl edərək Rəbdən dönmürdü. Xizqiya bütpərəstliklə mübarizəyə başladı. O, bütlərin hamısını dağıtdı və xalqı Var Olan Allaha etibar etməyə çağırdı. Xizqiya Aşşur padşahının hakimiyyəti altından çıxdı və daha ona xidmət etmədi.

Onda Aşşur padşahı Sanxeriv Xizqiyanı hədələməyə başladı və təslim olmağı tələb etdi. O, Xizqiyaya məktub göndərdi. Bu məktubda o, Xizqiyanın Allaha etibarını təkəbbürlə ələ saldı və ona, yəni Aşşur padşahına, qeyd-şərtsiz tabeçiliyi tələb etdi. Aşşur padşahı həm də ətrafındakı padşahlıqların onun hakimiyyətində olduğunu və heç bir allahın Sanxerivin qüvvəti qarşısında dura bilmədiyini vurğuladı.

Xizqiya məktubu alıb Allahın məbədinə getdi. O, həmin məktubu Rəbbin önündə yerə sərdi və dua etməyə başladı: «Ey keruvlar üstündə əyləşən İsrailin Allahı Rəbb! Bütün dünya padşahlıqlarının Allahı yalnız Sənsən. Göyü və yeri Sən yaratmısan. Ya Rəbb, qulağın eşitsin, gözün görsün, Sanxerivin Var Olan Allaha qarşı küfr edərək göndərdiyi sözlərə qulaq as. Ya Rəbb, doğrudur, Aşşur padşahları millətləri və onların torpaqlarını talan etdilər, allahlarını oda atıb məhv etdilər. Çünki onlar Allah deyildi, insanlar onları ağac və daşdan düzəltmişdilər. Ey Allahımız Rəbb, indi isə yalvarıram, bizi onun əlindən qurtar və bütün dünya padşahlıqları bilsinlər ki, ya Rəbb, Sən, yalnız Sən Allahsan!»



Allah Xizqiya padşahın imanla etdiyi duanı eşidib Onun müqəddəs adına hörmətsizliyə görə Aşşurluları cəzalandırdı. O gecə Rəbbin mələyi Aşşur ordugahında yüz səksən beş min nəfəri qırdı.

*2 PADŞAHLAR 18:1–7; 19:9–19*



## Padşah Yoşiyanın vəsiyyəti

Yoşiya da Yəhuda padşahlarından biri idi. Yoşiya padşah olduğu vaxt səkkiz yaşında idi və Yerusəlimdə otuz bir il padşahlıq etdi. Rəbbə məqbul olan doğru işlər etdi, hər işdə babası Davudun yolu ilə gedərək bu yoldan kənara çıxmadı.

Yoşiya on altı yaşından bütün qəlbi ilə Rəbbi axtarırdı. Padşahlığının on ikinci ilində Yəhudanı və Yerusəlimi bütlərdən və səcdəgahlardan təmizləməyə başladı. O, Yəhuda torpağının hər yerində bütləri, heykəlləri, oyma və tökmə bütləri tamamilə dağıtdı. Yoşiya padşahlığının on səkkizinci ilində Allahı Rəbbin məbədini bərpa etməyi əmr etdi. Bu məqsədlə xalq ianə olaraq çoxlu gümüş verdi.

Rəbbin məbədinin bərpa işlərinə başlayanda kahin Xilqiya Musa peyğəmbər vasitəsilə verilən Rəbbin Qanun Kitabını tapdı. Kahin Xilqiya kitabı mirzə Şafana verdi. Mirzə kitabı padşaha gətirdi. Padşah kitabı oxumağı əmr etdi. O, tapılmış kitabdakı sözləri eşidib dəhşətə gəldi: bu, Allahın Qanununun sözləri idi; bütün xalq isə ondan dönmüşdü.

Yoşiya bütün qəlbi ilə kədərləndi, ağladı və Rəbdən bağışlanma dilədi. O, məbədə gəldi və bütün xalqı çağırdı. O, onların önündə Rəbbin məbədində tapılmış Əhd kitabının bütün sözlərini onlara eşitdirərək oxudu. Yoşiya Rəbbin önündə vəd verdi ki, Rəbbin ardınca gedib Onun əmrlərinə, göstərişlərinə, qaydalarına bütün qəlbi və bütün varlığı ilə əməl etsin və bu kitabda yazılmış əhdin sözlərini yerinə yetirsin. O həm də bütün xalqa Rəbbin önündə sadiq olub Onun əhdinə əməl etməyi əmr etdi.

Yoşiya bütün İsraillilərin torpağında qalan bütpərəst iyrənc şeyləri və bütləri dağıtdı. Yoşiyanın bütün ömrü boyu xalq Rəbbə xidmət etməyə verdiyi vədlərə sadiq qalıb onlardan dönmədi.

*2 SALNAMƏLƏR 34:1–8, 14–19, 29–33*





## Yeremya peyğəmbər

Yeremya peyğəmbər daim Allah haqqında şəhadət edirdi. Yerusəlim sakinləri yad tanrılara səcdə edirdilər və buna görə də Yeremya onları ifşa edirdi. Əvvəl Yeremya onlar haqqında Tofetdə peyğəmbərlik edirdi. Sonra o, Yerusəlimə gəldi, Allahın məbədinin həyətində durub orada olan camaata dedi: «İsrailin Allahı olan Ordular Rəbbi belə deyir: "Mən bu şəhər barədə söylədiyim bütün fəlakətləri onun və ətrafında olan kəndlərin üzərinə gətirəcəyəm, çünki inadkarlıq edərək sözlərimə qulaq asmırlar"».

Rəbbin məbədindəki kahin bu peyğəmbərliyi eşidib çox qəzəbləndi. O, Yeremya peyğəmbəri vurdu, əl-qolunu bağlayıb zindana atdı. Ertəsi gün kahin onu buraxdı. Yeremya yenə də İsrail şəhərlərinin, bütün xalqın və Rəbbə sadiq olmayan kahinin aqibətindən peyğəmbərlik etdi. Sonra Yeremya belə sözlərlə Allaha müraciət etdi: «Ya Rəbb, Sən məni məcbur etdin, mən də məcbur oldum. Sən məndən güclüsən, Sən mənə üstün gəldin. Bütün gün mənə gülürlər, hər kəs mənimlə əylənir. Çünki mən danışmağa başlayan kimi fəryad edib "Zorakılıq və talan!" deyə qışqırıram. Rəbbin sözündən ötrü mən bütün gün rüsvay oldum, təhqir edildim.



Mən fikirləşdim: "Daha Onu yada salmayacağam, Onun adı ilə danışmayacağam". Onda Onun sözü sümüklərimdə həbs edilən, ürəyimdə yanan bir od oldu. Onu içimdə saxlamaqdan yoruldum, artıq bunu edə bilmirəm».

Sadiq peyğəmbərin təqibçiləri çox idi, amma Allah ona həmişə qüvvət verirdi. Buna görə Yeremya dedi:

«Ancaq Rəbb igid bir döyüşçü kimi mənimlədir.
Buna görə də məni təqib edənlər büdrəyəcək,
Qalib gələ bilməyəcəklər.
Uğur qazana bilmədikləri üçün
Böyük xəcalət çəkəcəklər.
Rüsvayçılıq əbədi olacaq,
Heç vaxt unudulmayacaq.

Ancaq, ey Ordular Rəbbi,
Sən salehi sınağa çəkirsən,
Fikri və ürəyi görürsən.
Qoy gözüm Sənin onlardan alacağın
Qisası görsün!
Çünki işimi Sənə tapşırdım.

Rəbbi tərənnüm edin,
Rəbbə həmd edin!
Çünki fəqiri
Zalımların əlindən qurtardı».

*YEREMYA 19:13–15; 20:1–13*

## Baruk Yeremyanın peyğəmbərliklərini yazır

Bir gün Rəbb Yeremyaya dedi: «Bir tumar götür, Yoşiyanın dövründə səninlə ilk dəfə danışdığım gündən indiyə qədər İsrail, Yəhuda və başqa millətlər haqqında sənə söylədiyim bütün sözləri oraya yaz. Bəlkə, Yəhuda xalqı başına gətirməyi niyyət etdiyim bütün fəlakətlər barəsində xəbər alanda öz pis yolundan dönər, Mən də onların təqsirlərini və günahlarını bağışlayaram».

Yeremya Baruk adlı bir adamı çağırıb Rəbbin peyğəmbər vasitəsi ilə dediklərini yazmağı xahiş etdi. Baruk bütün sözləri kitab tumarına yazanda Yeremya ona dedi: «Mən məhbusam, Rəbbin məbədinə gedə bilmərəm. Sən oruc günü Rəbbin məbədinə get. Oradakı xalqa mənim dilimdən eşidib tumara yazdığın Rəbbin sözlərini oxu. Yəhuda şəhərlərindən gələn bütün xalqa bunu oxu. Bəlkə, onda Rəbbə yalvarışla müraciət edib öz pis yollarından dönərlər. Çünki Rəbbin bu xalq barədə ifadə etdiyi qəzəb və hiddət böyükdür».

Neriya oğlu Baruk Yeremya peyğəmbərin əmr etdiyi hər şeyə əməl etdi. Yəhuda padşahı Yoşiya oğlu Yehoyaqimin padşahlığının beşinci ilinin doqquzuncu ayında Yerusəlimdə yaşayan və Yəhuda şəhərlərindən Yerusəlimə gələn bütün xalq Rəbbin önündə oruc elan etdi. O gün Baruk tumarda yazılan Yeremyanın sözlərini Rəbbin məbədində oxudu.

*YEREMYA 36:1–10*





## Padşah Yehoyaqim peyğəmbərlik olan tumarı yandırır

Baruk Rəbbin məbədində tumarda yazılmış Yeremya peyğəmbərin sözlərini oxuyanda bütün Yəhudi əyanları dəhşətə gəldilər və padşah Yehoyaqimə bu barədə dərhal xəbər verdilər. Padşah o tumarı onun yanına gətirib oxumağı əmr etdi. Padşah öz qış sarayında oturmuşdu, onun önündə odlu manqal yanırdı. Tumarı onun yanına gətirib oxumağa başladılar. O, oxunan hissələri bıçaqla kəsib manqaldakı oda atdı. Beləcə, bütün tumar yandırılıb məhv edildi. Padşah Yehoyaqim və onun əyanları Allahın sözlərinə inanmadılar. Rəbbə etdikləri itaətsizliyə görə tezliklə Babil padşahına əsir düşəcəkləri haqda Yeremya peyğəmbərin peyğəmbərliyini eşidəndə də qorxmadılar. Yehoyaqim mirzə Baruku və Yeremyanı tutmağı əmr etdi, amma Rəbb onları təqibçilərdən gizlətdi.

Padşah tumarı yandırandan sonra Rəbb Yeremyaya dedi ki, o, başqa tumar götürsün və Yəhuda padşahı Yehoyaqimin yandırdığı ilk tumarda olanları oraya yazsın. Yəhuda padşahı Yehoyaqimə isə belə deməyi əmr etdi: «Sən bu tumarı yandırıb söylədin ki, nə üçün Babil padşahının mütləq gəlib bu ölkəni xarabalığa çevirəcəyini, oradakı insanları da, heyvanları da məhv edəcəyini bu tumara yazdın? Buna görə də Yəhuda padşahı Yehoyaqim barədə Rəbb belə deyir: “Onun nəslindən heç kəs Davudun taxtında oturmayacaq. Cəsədi gündüzün istisinə, gecənin ayazına atılacaq. Özünü, nəslini və əyanlarını günahlarından ötrü cəzalandıracağam. Haqqında danışdığım bütün fəlakətləri onların, Yerusəlimdə yaşayanların və Yəhuda adamlarının başına gətirəcəyəm, çünki qulaq asmadılar”».

Yeremya başqa bir tumar götürüb mirzə Neriya oğlu Baruka verdi. Yəhuda padşahı Yehoyaqimin oda atıb yandırdığı tumardakı bütün sözləri Baruk Yeremyanın diktəsi



ilə tumara yazdı; yeni tumara əvvəlkinə bənzər bir çox söz də əlavə olundu.

*YEREMYA 36:14–32*



## Babil Yəhudanı işğal edir

Hər şey Rəbbin Yeremya peyğəmbər vasitəsi ilə əvvəlcə dediyi kimi oldu. Bu cəzalar onların başına buna görə gəldi ki, bütün ifşalara və xəbərdarlıqlara baxmayaraq, xalq Allah qarşısında tövbə etmədi və bütpərəstlikdən, şərdən və günahdan dönmədi. Cənub padşahlığının sakinləri Rəbbin Şimal padşahlığına verdiyi cəzanın şahidləri oldular. Amma yenə də günahda yaşamaqda davam etdilər. Onda Rəbb bu padşahlığı da dağıtmağı qərara aldı. Rəbb 130 il əvvəl İsraili də eyni tərzdə cəzalandırmışdı.

Yehoyaqim padşahın oğlu Yehoyakin Yerusəlimdə padşahlıq etməyə başlayanda on səkkiz yaşı var idi. O, Rəbbə məqbul olmayan işlər görüb atasının hərəkətlərini təkrar edirdi. Yehoyakin üç ay padşahlıq edəndən sonra Babil padşahının qoşunları Yerusəlimə gəlib şəhəri mühasirəyə aldı. Qoşunlar şəhəri mühasirəyə alanda Babil padşahı Navuxodonosorun özü şəhərin ətrafına gəldi. Yəhuda padşahı Yehoyakin anası, əyanları, xədimləri və saray xidmətçiləri ilə birlikdə Babil padşahına təslim oldu. Rəbbin əvvəldən söylədiyi kimi, Navuxodonosor Yerusəlimdən Rəbbin məbədinin xəzinələri ilə birlikdə sarayın xəzinələrini də apardı və İsrail padşahı Süleymanın Rəbbin məbədi üçün düzəltdirdiyi qızıl qabları darmadağın etdi. İşğalçılar bütün Yerusəlimi – əyanları, cəsur ordunu, dülgərləri, dəmirçiləri Babilə köçürtdülər. Sürgün olanların sayı on min nəfər idi. Yəhudada kasıb əkinçilərdən başqa heç kim qalmadı.

Babil padşahı Yehoyakinin yerinə əmisi Mattanyanı padşah etdi və onun adını dəyişib Sidqiya qoydu. Sidqiya padşah olanda onun iyirmi bir yaşı var idi. O, Yerusəlimdə on bir il padşahlıq etdi. O, padşah Yehoyaqimin etdiyi kimi, Rəbbin önündə pis işlər edirdi. Rəbbin qəzəbi Yerusəlimə və Yəhudaya qarşı o qədər böyük idi ki, O, onları Öz hüzurundan rədd etdi.

*2 PADŞAHLAR 24:8–20*



## Yerusəlimin və məbədin məhv edilməsi

Biz artıq Allahın əmri ilə İsrail padşahı Süleymanın Yerusəlimdə möhtəşəm məbəd tikdiyi barədə oxumuşuq. Amma Xaldeylilərin (Babillilərin) qoşunları Yerusəlimin birinci süqutundan sonra yenə bu şəhərə daxil olanda onlar Süleymanın tikdiyi məbədi dağıtdılar. Müqəddəs Kitabda bu barədə belə yazılıb.

Babil padşahı Navuxodonosor padşahlığının doqquzuncu ilində özünün bütün qoşunları ilə Yerusəlimə gəlib onu mühasirəyə aldı və ətrafında mühasirə divarları düzəltdi. Yerusəlim bir il yarım müddətində mühasirədə idi. Şəhərdə aclıq başladı: camaatın yeməyə çörəyi qalmadı. Həmin vaxt şəhər alındı. Yəhudi ordusu gecə ikən padşah bağçasının yanında olan iki divar arasındakı darvazadan çıxıb qaçdı. Xaldeylilər şəhərin ətrafında olsalar da, padşah düzənliyə aparan yol ilə qaçdı. Xaldeylilərin qoşunu padşahı təqib etdi və Yerixo düzənliklərində ona çatdı. Yəhuda padşahının bütün ordusu onu tərk edib dağılmışdı. Sidqiya əsir alındı, onu Rivlaya, Babil padşahının yanına aparıb orada onun haqqında hökm verdilər. Sidqiyanın oğullarını gözü qabağında öldürdülər, özünün isə gözlərini çıxartdılar və qandallayıb Babilə apardılar.

Babil padşahının mühafizəçilər rəisi Nevuzaradan və Xaldey qoşunu Yerusəlimə gəldi. Onlar Yerusəlim məbədini, padşah sarayını, Yerusəlimdəki bütün evləri yandırdılar və Yerusəlimin ətrafındakı divarları dağıtdılar. Nevuzaradan şəhərdə qalan xalqı, Babil padşahının tərəfinə keçən fərariləri və başqa əhalini sürgün etdi. Yalnız ölkədəki kasıb əkinçilərin bir hissəsini o üzümlüklərdə işləmək və torpağı əkib-becərmək üçün saxladı. Xaldeylilər Rəbbin məbədində olan tunc sütunları, dayaqları və ibadət üçün işlənilən avadanlığı parçalayıb tunclarını Babilə apardılar. İbadət zamanı işlədilən



qazanları, kürəkləri, maqqaşları, nimçələri və bütün tunc qabları, qızıl-gümüşdən olan bütün əşyaları götürüb apardılar.

Bu, Miladdan əvvəl 587–586-cı illərdə baş vermişdi. Süleymanın məbədi 400 ilə yaxın dayanmışdı.

*2 PADŞAHLAR 25:1–16*



## Daniel və onun üç dostu

Yerusəlim sakinlərini əsir alan Babil padşahı Navuxodonosor saray xadimlərinin rəisinə əsir düşmüş İsraillilərin və Yəhudalıların arasından sarayda xidmət etmək üçün gəncləri seçməyi əmr etdi. Onlar padşah, yaxud zadəgan nəslindən, bədənlərində qüsur olmayan, yaraşıqlı, hər elmdən xəbərdar, bilikli, dərrakəli cavanlar olmalıydılar. Əmr icra olundu. Padşah onlara özünün yediyi yeməklərdən və içdiyi şərabdan verməyi əmr etdi. Eləcə də o, onlara elmləri və Xaldey dilini və ədəbiyyatını öyrətməyi və beləcə, üç il tərbiyə verməyi əmr etdi.

Yəhuda gənclərinin arasında Daniel, Xananya, Mişael və Azarya var idi. Babil sarayında onlara yeni ad qoyuldu: Danieli Belteşassar, Xananyanı Şadrak, Mişaeli Meşak və Azaryanı Aved-Neqo adlandırdılar. Daniel qərara aldı ki, padşahın yediyi yeməklərlə və içdiyi şərabla özünü murdar etməsin: bu yeməklər Musanın Qanununa* görə, yəhudilər üçün yeməyə qadağan olunan heyvan və quşların ətindən hazırlanmış ola bilərdi. Buna görə də Daniel saray xadimlərinin rəisindən xahiş etdi ki, onlara yalnız tərəvəz və su verilsin. Əvvəl o, Danielin xahişini yerinə yetirməkdən çəkindi. O qorxurdu ki, gənclər arıqlayar və buna görə da padşah ona qəzəblənər. Amma Daniel onu dilə tutdu və on gün ərzində onlara sınaq kimi tərəvəz və su verməyi xahiş etdi. On gündən sonra onların siması padşah yeməklərindən yeyən başqa gənclərin simasından daha gözəl göründü və onlar bədəncə daha dolğun idi. Allah Danielə, Xananyaya, Mişaelə və Azaryaya bilik və hikmət verdi. Danielə isə hər cür görüntüləri və yuxuları yozma ənamını da vermişdi.

Üç ildən sonra padşah xidmət üçün seçilən bütün İsrail və Yəhuda gənclərini yanına gətirməyi əmr etdi. Onlarla söhbət edəndən sonra padşah nəticəyə gəldi ki, onların arasında Danielə, Xananyaya, Mişaelə və Azaryaya tay yoxdur. Buna görə də



onlar padşah hüzurunda xidmətə təyin olundular. Padşah gənclərdən nə soruşsaydı, onların cavabları bütün Xaldey sehrbazlarının və cadugərlərinin dediklərindən on dəfə hikmətli idi.

*DANİEL 1:3–20*



## Qızıl heykəl və üç cəsur kişi

Babil padşahı Navuxodonosor bir qızıl heykəl düzəltdirdi. Onun hündürlüyü altmış qulac, eni altı qulac idi. Onu Babil vilayətində olan Dura çölündə qoymağı əmr etdi. Sonra padşahın əmri ilə carçı ucadan elan etdi: «Ey müxtəlif xalqlara, millətlərə və dillərə mənsub adamlar, sizə əmr olunur ki, şeypur, zurna, çəng, lira, səntur, tuluq zurnası və hər cür musiqi alətlərinin səsini eşidən vaxt yerə əyilib padşah Navuxodonosorun qoyduğu qızıl heykələ səcdə edəsiniz. Kim yerə əyilib səcdə etməsə, o saat odla qızmış sobanın içinə atılacaq».

Xaldeylilərdən biri padşah Navuxodonosora xəbərçilik etdi: «Sənin Babil vilayətinə məmur qoyduğun Şadrak, Meşak və Aved-Neqo Yəhudidirlər. Ey padşah, bu adamlar sənə itaət etmir, sənin allahlarına xidmət etmir və qoyduğun qızıl heykələ səcdə etmirlər». O zaman Navuxodonosor qızğın qəzəblə əmr etdi ki, Şadrakı, Meşakı və Aved-Neqonu yanına gətirsinlər. Navuxodonosor onlara dedi: «Əgər qızıl heykələ səcdə etməsəniz, o saat odla qızmış sobaya atılacaqsınız. O zaman sizi hansı allah mənim əlimdən qurtara bilər?» Onlar isə padşaha belə cavab verdilər: «Qulluq etdiyimiz Allahımız bizi odla qızmış sobadan xilas etməyə qadirdir və sənin də əlindən qurtaracaq. Sənə məlum olsun ki, ey padşah, əgər belə olmasa da, biz sənin allahlarına qulluq edən deyilik və sənin qoyduğun qızıl heykələ də səcdə etməyəcəyik». Üç Yəhudi gəncin əl-qolu bağlandı və onlar odlu sobaya atıldılar. Sobanı adətən qızdırdıqlarından yeddi dəfə artıq qızdırdılar. Soba həddindən artıq qızdırıldığı üçün alov Şadrakı, Meşakı və Aved-Neqonu oda atan adamları öldürdü. Padşah Navuxodonosor diqqətlə oda baxdı və öz müşavirlərinə dedi: «Biz üç nəfər əl-qolu bağlanmış adamı oda atmadıqmı? Budur, mən odun içində əl-qolu bağlanmamış dörd nəfərin gəzdiyini





görürəm və onlara heç nə olmur. Onlardan dördüncüsü allahların oğluna bənzəyir».

O zaman Navuxodonosor sobanın astanasına yaxınlaşdı və səsləyib dedi: «Ey Allah-Taalanın qulları Şadrak, Meşak və Aved-Neqo! Çıxın və buraya gəlin». Onda Şadrak, Meşak və Aved-Neqo odun içindən çıxdı və padşaha yaxınlaşdılar. Hamı gördü ki, od onlara heç bir zərər vurmayıb: nə onların saçları yanmış, nə də paltarları dəyişmişdi, hətta odun hisi də onlara hopmamışdı. Onda Navuxodonosor dedi:

«Şadrakın, Meşakın və Aved-Neqonun Allahına şükür olsun!
Onun əlamətləri necə də böyükdür,
Onun möcüzələri necə də qüdrətlidir!
Onun padşahlığı əbədi padşahlıqdır,
Onun hökmranlığı nəsildən-nəslə qalacaq». O zaman padşah Babil diyarında Şadrakın, Meşakın və Aved-Neqonun vəzifələrini yüksəltdi.

*DANİEL 3 – 4:3*

## Daniel aydın olmayan sözlərin mənasını yozur

Navuxodonosordan sonra Babildə Belşassar padşah oldu. Bir gün o, min nəfər əyanı üçün böyük bir ziyafət qurdu. Bunun üçün Belşassar nökərlərinə atası Navuxodonosorun Yerusəlimdəki məbəddən çıxardığı qızıl və gümüş qabları gətirmələrini əmr etdi. Padşah, arvadları, əyanları onlarla şərab içib öz qızıl, gümüş, mis, dəmir, taxta və daş bütlərini şərəfləndirməyə başladılar.

Birdən ziyafət gedən padşah sarayının otaqlarının birində insan əli göründü və divarda şamdanın qarşısında yazı yazmağa başladı. Padşah bunu görəndə qorxudan üzünün ifadəsi dəyişdi, dizləri titrəməyə başladı. Padşah ucadan qışqırdı ki, ovsunçuları, Xaldey müdriklərini və falçıları onun yanına gətirsinlər. Gələn Babil müdriklərinə padşah belə dedi: «Kim bu yazılanı mənə oxuyub mənasını izah etsə, ona qırmızı libas geyindiriləcək, boynuna qızıl zəncir asılacaq və padşahlıqda üçüncü adam olacaq». Amma Babil müdriklərindən heç kim divardakı yazının mənasını izah edə bilmədi.

Bunu eşidən mələkə ziyafət otağına gəldi. O, padşaha Daniel barəsində danışdı. Mələkə Danielin iti ağla, biliyə, dərrakəyə, yuxuları yozmaq qabiliyyətinə malik olmasından nəql etdi. Danieli padşahın yanına gətirdilər və o, ondan anlaşılmaz sözləri yozmasını xahiş etdi.

Daniel Belşassara başa saldı ki, Allah padşaha qüruruna görə qəzəblənir. Həm də müqəddəs qabları götürməyinə və onlardan şərab içib, bütləri şərəfləndirdiyi üçün də padşah Allahın qəzəbinə düçar oldu. Bu göndərilən yazı da Allahdandır. Sonra Daniel davam etdi: «Mene, Mene, Teqel və Parsin sözlərinin isə mənası budur:

Mene – Allah sənin padşahlıq müddətini hesabladı və ona son qoydu;



Teqel – sən tərəzidə çəkildin və yüngül olduğun bilindi;

Parsin – sənin padşahlığın böləndü, Midiyalılara və Farslara verildi». Onda Belşassarın əmri ilə Danielə qırmızı libas geyindirdilər, boynuna qızıl zəncir asdılar və o, padşahlıqda üçüncü adam elan olundu. Həmin gecə peyğəmbərlik yerinə yetdi: Belşassar öldürüldü və Midiyalı padşah Dara onun hakimiyyətini əlinə aldı.

*DANİEL 5:1–31*



## Daniel dua edir

Belşassarın taxtını ələ keçirən Dara da qürurlu və bütlərə pərəstiş edən insan idi. Amma o, Danieli müdrikliyinə və ruh yüksəkliyinə görə sevmişdi.

Dara ölkəyə başçılıq etmək üçün padşahlığın bütün ərazisinə yüz iyirmi canişin təyin etməyi qərara aldı. Bu canişinlərin üzərində də başçılıq etmək üçün üç vəzir təyin etdi. Canişinlər padşahı yormamaq üçün hesabatı bu üç vəzirə verməli idilər. Həmin üç vəzirdən biri olan Daniel digər canişinlərdən və vəzirlərdən ağılda və alicənablıqda üstün idi. Padşah da onu bütün padşahlıq üstündə başçı qoysun deyə düşünürdü. Onda canişinlər və vəzirlər padşahlığı pis idarə etməkdə Danieli ittiham etmək üçün bəhanə axtarmağa başladılar. Lakin heç bir nöqsan və qüsur tapa bilmədilər. Çünki Daniel hər işdə padşaha sadiq idi.

Nəhayət, əyanlar Danielə padşahın önündə qara yaxmaq üçün hiyləgər plan qurdular. Onlar bilirdilər ki, Daniel öz Allahına tez-tez dua edir. Buna görə də onlar padşahın yanına gəldilər və otuz gün ərzində kim padşah Daradan savayı başqa bir allahdan, yaxud insandan nə isə diləsə, onun vəhşi şirlər olan quyuya atılması barədə fərman imzalamasını təklif etdilər. Padşah bu xahişin əsl səbəbini bilmirdi və bu fərmanı imzalamağa razılıq verdi.

Daniel yeni qanun barədə eşitmişdi. Amma Rəbbinə dua etməkdə davam edirdi. O, otağında gündə üç dəfə diz çöküb Allaha minnətdarlıq edərək, dua edirdi. Bu vaxtlar onun otağının doğma şəhəri Yerusəlimə tərəf olan pəncərələri açıq olurdu. Həmin məbəd dağılmamışdan əvvəl Allahın izzəti orada nur saçardı.



Danielə nifrət edən şər adamlar Danielin öz Allahına dua etməsini və Ondan mərhəmət diləməsini gizlicə güdüb dərhal padşaha bu barədə xəbər verməyi qərara aldılar.

*DANİEL 6:1–11*



## Daniel şirlərlə quyuda

Danielə nifrət edən əyanlar padşah Daraya xəbər verdilər ki, Daniel padşahın fərmanına baxmayaraq, gündə üç dəfə öz Allahına dua edir. Padşah bunu eşidib çox kədərləndi və Danieli xilas etmək istədi. Amma əyanlar dedilər ki, Midiyalıların və Farsların qanununa görə, padşahın imzaladığı heç bir fərman əsla dəyişilə bilməz. Onda padşah Danieli şirlər olan quyuya atmağı əmr etdi. Sonra padşah öz sarayına qayıtdı. Gecəni yemək yemədən keçirdi, yuxusu da qaçdı. Səhər açılanda padşah tələsik şirlərin olduğu quyuya getdi, kədərli səslə Danieli çağırıb dedi: «Ey Daniel, Var Olan Allahın qulu! Daim qulluq etdiyin Allahın səni şirlərdən qurtara bildimi?» Onda Daniel padşaha cavab verdi: «Allahım Öz mələyini göndərib şirlərin ağzını bağladı və onlar mənə toxunmadı, çünki mənim Allahın önündə təqsirsiz olduğum bilindi. Ey padşah, sənə qarşı da heç bir cinayət etməmişəm».

Dara Danielin sağ qalmasına çox sevindi və onu quyudan çıxarmağı əmr etdi. Danieli oradan çıxaranda şirlərin ona heç bir ziyan vurmadıqları aşkar oldu. Padşahın əmri ilə Danieli ittiham edən adamlar gətirildi və o quyuya atıldılar. Quyunun dibinə çatmamış şirlər onları qapıb parçaladı.

Bundan sonra padşah Dara bir məktub yazıb padşahlığının hər tərəfinə yolladı. O məktubda Dara bütün dünyada yaşayan xalqlara, millətlərə və dillərə mənsub olan adamlara Danielin Allahına ehtiramla yanaşmağı əmr etdi, çünki Danielin Allahı əbədidir və Onun hakimiyyəti sonsuzdur. Bu məktubda belə sözlər yazılmışdı:

«O, Var Olan Allahdır, əbədi olaraq mövcuddur,
Onun padşahlığı dağılmaz və hökmranlığı sonsuzdur.
O qurtarıb xilas edər, göydə və yerdə əlamətlər,



Möcüzələr göstərər.
Danieli şirlərin pəncəsindən O qurtardı».

*DANİEL 6:12–27*



## Yəhudilərin əsirlikdən qayıtması

Biz artıq oxumuşduq ki, Aşşur qoşunları Şimal padşahlığını, İsraili işğal edib, İsrail xalqını əsarətə aparmışdı. Bu, Miladdan 700 il əvvəl baş vermişdi. Yüz ildən sonra Midiyalıların və Aşşurluların birləşmiş qoşunları iki illik mühasirədən sonra Nineva şəhərini məhv etdilər. Qüdrətli ölkə olmuş Babil qonşu ölkələri talan edirdi. Onların arasında Cənub padşahlığı Yəhuda da var idi; buraya dəfələrlə hücum edilərək, Yəhudiləri Babil əsirliyinə aparırdılar.

Lakin qüdrətli Babil imperiyasının da sonu gəldi. Onu Midiyalılar və Farslar işğal etdilər. Fars padşahı Kir Yəhudilərə doğma torpaqlarına qayıtmağa icazə verdi. O, bütün padşahlığına elan etdi: «Budur, Fars padşahı Kir belə deyir: "Göylərin Allahı Rəbb dünyanın bütün padşahlıqlarını mənə verdi və Yəhudanın Yerusəlim şəhərində Öz məbədini tikməyi mənə əmr etdi. Aranızda Onun xalqına mənsub olanların hamısına qoy Allahı yar olsun! Qoy onlar Yəhudanın Yerusəlim şəhərinə qalxsın və İsrailin Allahı Rəbbin məbədini tiksinlər"». Müxtəlif qəbilələrdən qırx mindən artıq Yəhudi vətənlərinə qayıtdı. Onlar əsasən Yəhuda qəbiləsindən olan Yəhudilər idilər. Amma bir çoxu Fars ölkələrində qaldılar.

Vətənə qayıdandan iki il sonra Yəhudilər Yerusəlimdə toplandılar. Onlar məbədin yenidən tikilməsini qərara aldılar və təzə məbədin təməlini qoydular. Əvvəlki məbədi görmüş bir çox qoca kahinlər, Levililər və nəsil başçıları məbədin təməlinin qoyulduğunu görəndə hönkürüb ağladılar, bir çoxları isə sevincdən haray çəkdilər. Sevinc nidaları ilə ağlaşma səsləri bir-birinə qarışmışdı, onların haray səsləri uzaqlarda eşidilirdi.

Təzə məbədin tikintisinə padşah Yehoyakinin nəvəsi Zerubbabil başçılıq edirdi. Amma Yəhudilərin əvvəl yaşadığı yerlərdə məskunlaşmış xalqlar onlara nifrət edirdilər. Onlar



məbədin tikintisinə əngəl törətməyə, Yəhudiləri hədələməyə və Fars padşahı Artaxşastanın qarşısında onları ittiham etməyə başladılar. Onlar məbədin tikinti işlərini on beş il yubatdılar. Bu, Dara adında digər Fars padşahının hökmdarlığına qədər davam etdi.

Padşah Dara Kir padşahın əmrini təsdiq etdi və Yerusəlimə məbədin tikintisini tamamlamaq haqqında fərman olan bir məktub göndərdi. Təzə məbəd padşah Daranın hakimiyyətinin altıncı ili, Adar ayının üçündə başa çatdı.

*EZRA 1 – 6*



# Mələkə Ester

Fars padşahı Axaşveroş evlənmək qərarına gəldi. O, padşahlığının hər tərəfinə qasidlər göndərdi ki, bütün ən gözəl qızları paytaxt şəhəri Şuşana yığsınlar. Orada onları on iki ay ərzində padşahın qəbuluna hazırlaşdırırdılar. O dövrdə Fars diyarında vaxtı ilə Aşşur və Babil qoşunlarının əsir apardıqları Yəhudi övladları yaşayırdılar. Şuşanda Mordokay adlı bir Yəhudi yaşayırdı. O, Ester adlı əmisi qızını böyüdüb tərbiyə vermişdi. Qız gözəl və qamətli idi. Ata-anasının vəfatından sonra Mordokay Esteri qızlığa götürmüşdü. Bütün ölkənin hər tərəfindən gözəl qızları paytaxt şəhəri Şuşana yığanda Ester də padşah evinə dəvət olundu. Padşah Esteri başqa gözəllərdən daha çox sevdi. O, Esterin başına mələkəlik tacını qoyub onu mələkə etdi. Sonra isə Esterin şərəfinə böyük ziyafət qurdu. Bu ziyafətə padşahın bütün rəisləri və əyanları dəvət olunmuşdu. Padşah bütün vilayətlərə imtiyazlar verdi və öz səxavətinə görə hədiyyələr payladı. Ester isə, Mordokayın ona öyrətdiyi kimi, hansı nəsildən olduğunu söyləməmişdi.

Bir müddət keçəndən sonra padşah öz əyanlarından birini, Hamanı şərəfləndirib rütbəsini qaldırdı. Ona yanındakı bütün rəislərdən üstün mövqe verdi. Padşahın əmrinə görə, saray darvazasında olan bütün əyanlar Hamana baş əyib onun qarşısında təzim edirdi. Mordokay isə Hamana baş əyərək təzim etmirdi. Haman qəzəbləndi və Axaşveroşun ölkəsində bütün Yəhudiləri məhv etmək fikrinə düşdü.

Sonra Haman padşah Axaşveroşa dedi: «Sənin padşahlığının hər vilayətinin xalqları arasına səpələnib yayılan bir xalq vardır. Onların qanunları bütün xalqların qanunlarından fərqlidir və padşahın qanunlarına əməl etmirlər». Padşah





Hamana bu xalqla istədiyi kimi rəftar etməyə izin verdi. On ikinci ay olan Adar ayının on üçündə bütün vilayətlərə qasidlər göndərildi. Onlar oraya məktublarla getdilər. Məktublarda deyilirdi ki, Yəhudi gəncləri, qocaları, körpə uşaqları və qadınları bir gündə məhv edib kökünü kəssinlər və mallarını talan etsinlər. Padşahın bu fərmanı hansı vilayətə çatmışdısa, oradakı Yəhudilər arasında böyük fəryad, oruc, ağlaşma və ah-nalə var idi.

*ESTER 1 – 3*

# Mələkə Ester
## (davamı)

Mordokay baş vermiş bu hadisələrdən xəbər tutanda mələkə Esterə padşahın fərmanı haqqında məlumat verdi. Mordokay ona tapşırdı ki, padşahın yanına getsin və öz xalqı üçün yalvarıb əfv diləsin. Ester Mordokaya nökər vasitəsilə belə cavab verdi: «Padşahın bütün əyanları və padşah vilayətlərinin xalqları bilir ki, kişi, qadın – kim olursa-olsun – padşahın çağırışı olmadan içəri həyətə girərsə, onun haqqında təkcə ölüm hökmü veriləcək. Yalnız padşah qızıl əsasını kimə uzatsa, o sağ qalar. Otuz gündür ki, padşahın yanına getmək üçün çağırışım yoxdur». Mordokay Esterə belə cavab verdi: «Elə düşünmə ki, padşah sarayında olduğun üçün o biri Yəhudilər qırılanda təkcə sən sağ qalacaqsan. Əgər sən susarsansa, Yəhudilərə yardım və qurtuluş başqa yerdən gələcək, amma sən və ata evin tamamilə məhv olacaq. Kim bilir, bəlkə, sən elə bu gün üçün mələkəliyə





çatmısan?» Ester Mordokayın cavabında belə söylədi: «Get, Şuşanda olan bütün Yəhudiləri topla. Üç gün-üç gecə yeməyib-içməyib mənim üçün oruc tutun. Mən də burada xidmətçi qızlarımla oruc tutacağam və sonra qanunu pozub padşahın yanına girəcəyəm. Buna görə ölməliyəmsə, qoy ölüm». Zalım Haman isə Mordokayı asmaq üçün hündürlüyü əlli qulac (25 metr) olan bir dar ağacı düzəltdirməyi əmr etdi.

Üçüncü gün Ester mələkə paltarını geyindi və sarayın içəri həyətində padşahın otağına getdi. Padşah qızıl əsasını ona tərəf uzatdı. Ester də yaxınlaşıb əsanın ucuna toxundu. O, padşahla Hamanı həmin o günü ziyafətə dəvət etdi. Padşahla Haman ziyafətə gəldilər. Onlar şərab içəndə padşah soruşdu: «Mələkə Ester, nə istəyirsən? Arzun nədir?» Mələkə padşaha cavab verdi: «Əgər padşahın gözündə lütf tapmışamsa, əgər padşahın xoşuna gəlirəmsə, istəyim budur ki, mənə həyat bəxş etsin, arzum budur ki, xalqıma qıymasın. Çünki həm mən, həm də xalqım qırılmaq, öldürülmək, məhv edilmək üçün satılmışıq». Beləcə, padşah bildi ki, arvadı Yəhudidir və Hamanın hiyləgər niyyətini anladı. Padşahın əmri ilə Hamanı Mordokay üçün hazırladığı dar ağacından asdılar.

Lakin Fars padşahlığında yaşayan Yəhudilərin məhv edilməsi haqqındakı fərmanı ləğv etmək və ya dəyişdirmək mümkün deyildi. Çünki onlar padşahın adından yazılmış və onun möhürlü üzüyü ilə möhürlənmişdi. Onda padşahın əmri ilə mirzələr yeni fərmanla məktublar yazdılar: padşah hər şəhərdə yaşayan Yəhudilərə izin verdi ki, yığılıb öz canlarını qorusunlar. Hindistandan tutmuş Həbəşistana qədər yüz iyirmi yeddi vilayətə padşahın xüsusi çapar atlı süvariləri göndərildi. Tezliklə padşahın fərmanı bu vilayətlərin valilərinə çatdırıldı. Yəhudilərin xilas olmalarının xatirəsi olaraq, Mordokay hər il Purim adlanan bayram təyin etdi.

*ESTER 4 – 10*

## Nehemya Yerusəlimin divarlarını tikir

Yəhudi Nehemya Fars padşahı Artaxşastanın sarayında Şuşan paytaxt şəhərində nüfuzlu saray əyanlarından idi.

Onun qardaşlarından biri və bir neçə adam Yerusəlimdən Fars diyarına qayıtmışdı. Nehemya qardaşından orada qalan Yəhudilərlə Yerusəlim şəhəri barəsində soruşmağa başlayanda o, Nehemyaya bunları danışdı: «Əsirlikdən qurtulub qayıdanlar orada – vilayətdə böyük məşəqqət və xəcalət içində yaşayırlar. Yerusəlimin divarı dağıdılıb, darvazaları isə yandırılmışdır». Nehemya bu sözləri eşidəndə oturub ağladı. O, bir neçə gün böyük kədər içində oruc tutub Allaha dua etdi ki, padşah Artaxşasta ona Yerusəlimə gedib şəhərin divarlarını bərpa etməyə icazə versin.

Padşah Artaxşasta Nehemyanı Yerusəlimə buraxdı. Nehemya da başqa Yəhudilərlə şəhərin dağıdılmış divarlarını və darvazalarını bərpa etməyə başladılar. Yəhudilərin düşmənləri bu barədə eşidib tikintiyə mane olmağa çalışdılar. Nehemya isə öz adamlarını yaraqlandırmışdı. Divarların tikintisinə daş daşıyanlar bir əlləri ilə işləyir, o biri əllərində silah tuturdular. Bütün bənnaların əlində qılınc var idi. İş gecə-gündüz davam edirdi. Allahın əli bənnaları qoruyurdu. Babil qoşununun Yerusəlimi dağıdıb yandırdığı vaxtdan qırx il keçəndən sonra divar bərpa olundu.

Yeddinci ay gələndə bütün xalq meydanda toplaşdı. Kahin Ezraya dedilər ki, Rəbbin İsrailə verdiyi Musanın Qanun Kitabını gətirsin. Kahin Ezra Qanun Kitabını gətirib toplaşan kişilərin, qadınların və anlaya bilənlərin qabağında səhər açılandan günortaya qədər bu kitabdan oxudu. Bütün xalq Qanun Kitabına qulaq asırdı. Ezra ulu Allaha, Rəbbə həmd etdi və bütün xalq əllərini göyə qaldıraraq «Amin*! Amin!»



deyə cavab verdi. Sonra baş əydilər və üzüstə yerə döşənib Rəbbə səcdə qıldılar.

*NEHEMYA 1 – 8*



## Xalq Allaha yalvarır

Həmin ayın iyirmi dördüncü günü İsraillilər oruc tutaraq əyinlərində çul və başları toz-torpaq içində toplandılar. Bu, oruc tutma vaxtlarında Yəhudilərin adəti idi. İsraillilər bütün yadellilərdən ayrılaraq günahlarını və ata-babalarının pis işlərini tövbə edirdilər. Onlar olduqları yerdə dayanıb günün dörddə bir hissəsini özlərinin Allahı Rəbbin Qanun Kitabından oxudular. Həm də günün digər dörddə bir hissəsini günahlarını etiraf edib özlərinin Allahı Rəbbə səcdə qıldılar. Yeşua, Bani, Qadmiel, Şevanya, Bunni, Şerevya, Bani və Kenani yüksəklikdə dayanıb özlərinin Allahı Rəbbə uca səslə yalvardılar. Levililər dedilər: «Ayağa qalxın və əbədi olan Allahınız Rəbbə həmd edin! Qoy Sənin izzətli adına həmd olsun və etdiyiniz bütün həmdlərdən, şükürlərdən də çox ucaldılsın! Sən, yalnız Sən Rəbsən, göyləri, göylərin ən uca qatlarını və bütün səma cisimlərini, yer üzünü və onun məxluqlarını, dənizləri və içindəki hər şeyi Sən yaratdın və hamısına həyat verirsən. Səma cisimləri Sənə səcdə qılır!»

Xalq günahlarını və Rəbdən dönüklüyünü dərindən tövbə edib dua edirdi: «Ey Allahımız! Böyük, qüdrətli və zəhmli, əhdi və məhəbbəti saxlayan Allah! Aşşur padşahlarının dövründən bu günə qədər bizim çəkdiyimiz, padşahlarımızın, ağalarımızın, kahinlərimizin, peyğəmbərlərimizin, atalarımızın və bütün xalqın çəkdiyi əzab-əziyyət Sənin gözündə kiçik görünməsin. Sən haqlısan, başımıza gələn hər işdə bizimlə ədalətlə davrandın, biz isə pis işlər etdik. Padşahlarımız, rəislərimiz, kahinlərimiz, atalarımız Sənin Qanununa riayət etmədilər. Sənin əmrlərinə və verdiyin xəbərdarlıqlara qulaq asmadılar. Bütün bunlara görə biz Səninlə yazılı sabit əhd bağlayırıq. Rəislərimiz, Levililərimiz və kahinlərimiz də bu əhdi möhürləyirlər». Mötəbər adamlar bu əhdi imzalayıb öz möhürləri ilə



möhürləyirdilər. Qalan xalq – kahinlər, Levililər, məbəd qapıçıları, ilahiçilər, məbəd qulluqçuları, ətraf xalqlardan Allahın Qanununu qəbul edən hər kəs arvadları, oğul və qızları ilə bərabər anlayışlı adamlar soydaşları ilə birləşib xalqın mötəbərləri ilə dilbir oldular. Onlar bu əhdə əməl etmək üçün and içdilər.

*NEHEMYA 9:1–6; 9:32 – 10:29*



## Əyyubun iztirabları

Uz ölkəsində əməlisaleh, Allahdan qorxan və çox varlı Əyyub adlı bir adam yaşayırdı. O, kamil, adil və özünü hər cür şərdən uzaq saxlayan bir adam idi. Onun yeddi oğlu və üç qızı var idi.

Bir gün şeytan Allahın hüzuruna gəldi. Rəbb ondan soruşdu: «Haradan gəlirsən?» Şeytan cavabında «dünyanı gəzib-dolaşmaqdan» dedi. Rəbb ona dedi: «Qulum Əyyuba yaxşı-yaxşı nəzər sala bildinmi? Axı yer üzərində onun kimisi yoxdur. O, kamil, əməlisaleh, Allahdan qorxan və özünü şərdən uzaq saxlayan bir adamdır». Şeytan Rəbbə belə cavab verdi: «Əyyub Allahdan boş yerəmi qorxur? Canına, evinə, var-dövlətinə sipər olub onu qoruyan Sən deyilsənmi? Əlinin bütün əməyinə bərəkət vermisən, sürüləri bütün ölkəni bürüyüb. İndi bir əl uzadıb onun var-yoxunu əlindən al, o, gözünün qabağında mütləq Sənə lənət edəcək». Rəbb Şeytana dedi: «Yaxşı, sahib olduğu hər şeyi sənə təslim edirəm».

Şeytan belə icazə aldıqda bütün yollarla Əyyuba zərər verməyə can atdı. O, onun övladlarını məhv etdi, varını yox etdi. Əyyub isə narazılıq etmədi, Allaha küfr etmədi. O dedi:

«Verən də Rəbdir, alan da Rəbdir. Rəbbin isminə alqış olsun!»

Əyyub arvadına belə dedi: «Nə oldu, Allahdan yaxşılığı qəbul edək, pisliyi qəbul etməyək?» Əyyub bir sözlə də Rəbbin önündə günah etmədi. Onda şeytan onu dəhşətli xəstəliklə vurdu: Əyyubun bədəninə başdan ayağadək ağrılı çibanlar çıxartdı. Əyyubun iztirabı böyük idi və o, ümidsiz bir hala düşdü.

Əyyubun üç dostu onun başına gələn bəlaları eşidib, ona təsəlli verməyə gəldilər. Amma sonra təsəllidən ittihamlara keçdilər. Onlar dedilər ki, Allah əməlisalehlərə cəza vermir, deməli, Əyyub haradasa təqsirkardır. Amma Əyyub yenə



də öz doğruluğunu müdafiə edirdi. O, dostlarının sözlərinə qulaq asmaqla kifayətlənmirdi. O, Allahla danışmaq istədi. Əyyub onun başına gələn iztirabların səbəblərini soruşurdu. Amma o, xilas ümidini itirmirdi:

«Amma mən bilirəm ki, Müdafiəçim yaşayır,
Axırda O, yer üzərində dayanacaq.
Dərim yox olandan sonra
Bədən alıb Allahı görəcəyəm».

*ƏYYUB 1; 2; 4; 5; 19:25–26*



## Əyyub çəkdiyi iztirablardan sonra

Əyyub dostları ilə söhbət edən zaman birdən şiddətli fırtına səsi eşidildi və fırtınada Rəbbin Özünün səsi gəldi. Allah Əyyuba elə suallar verməyə başladı ki, insan ona cavab tapa bilməzdi. Əyyub anladı ki, Allahdan hesabat tələb etmək olmaz. Allah bizim Onun barəsində olan təsəvvürlərdən daha ucadır. Rəbb sözlərini bitirəndə Əyyub Ona dedi:

«Bilirəm, Sən hər şeyə qadirsən,
Sənin istəyinin qarşısı alınmaz».

Allah Əyyubu sınağa çəkib onun itirdiklərini əvvəlkindən ikiqat artıq qaytardı. Əyyubun pis təsəlli verən dostlarına isə Rəbbin qəzəbi alovlandı. Axı dostları Onun haqqında Əyyub kimi düzgün danışmırdılar. Buna görə də Allah onlara özləri üçün qurban gətirmələrini və Əyyubun onlar üçün dua etməsini əmr etdi. Çünki O, yalnız Əyyubun duasını qəbul edəcəkdir. Dostlar Rəbbin əmrinə əməl etdilər və Əyyubun duasına görə Allahdan bağışlanma aldılar.

Bütün çəkdiyi iztirablardan sonra Əyyubun yanına bacıları və qardaşları gəldi və ona hədiyyələr gətirdilər. Rəbb Əyyubun axır günlərini əvvəlki günlərindən daha çox bərəkətli etdi. Əyyub başına gələn fəlakətlərdən sonra çox yaşadı. Əyyubun yeddi oğlu, üç qızı oldu. Yer üzünün heç bir yerində Əyyubun qızları kimi gözəl qadınlar yox idi.

O qocalıb yaşa dolaraq öldü.

*ƏYYUB 38 – 42*





## Zəbur

Zəbur Müqəddəs Kitabın ən çox oxunan kitablarından biridir. O, yüz əlli məzmurdan, yəni musiqi müşayiəti ilə ifa olunan ilahilərdən ibarətdir. Məzmurlar Allaha sadiq olanları həyəcanlandıran duyğuları ifadə edir: yer üzündə qanunsuzluğa görə qəm-qüssə, işığın qaranlıq üzərində zəfər çalmasına ümid, günahların tövbəsi və Allahın bəxş etdiyi xilas. Ən çox ilhamlanmış məzmurlar Məsih*, yəni Xilaskar haqqında nəql edir.

Adətən məzmurlardan söhbət açılanda Davudun məzmurları nəzərdə tutulur. Axı məzmurların çoxunun müəllifi odur. Lakin Zəbur Kitabında başqa müəlliflərin yazdığı məzmurlar da var. Bir çox məsihçilərin* dualarında məzmurlardan hissələr var. Bu kitabda nümunə olaraq iki məzmuru göstərəcəyik.

## Məzmur 1

Pislərin məsləhəti ilə getməyən, Günahkarların yolunda dayanmayan, Rişxəndçilərin arasında oturmayan insan nə bəxtiyardır! O ancaq Rəbbin Qanunundan zövq alar, Gecə-gündüz bu təlimatı dərin düşünər. Axar sular kənarında əkilən ağac kimi Barını mövsümündə verər, Yarpağı solmaz, etdiyi hər işdə uğur qazanar. Pis adamlarsa belə deyil, Onlar yelin sovurduğu saman çöpünə bənzəyərlər. Buna görə pis adamlar hökm günündə, Günahkarlar salehlərin məclisində dayana bilməzlər. Çünki Rəbb salehlərin yolunu qoruyur, Pislərinsə yolu onları ölümə aparır.

## Məzmur 150

Rəbbə həmd edin! Müqəddəs məskənində Allaha həmd edin! Möhtəşəm göy qübbəsində Ona həmd edin! Qüdrətli



işləri üçün Ona həmd edin! Bol əzəmətinə görə Ona həmd edin! Şeypur səsi ilə Ona həmd edin! Çənglə, lira ilə Ona həmd edin! Dəflə, rəqslərlə Ona həmd edin! Sazla, tütəklə Ona həmd edin! Xoş səsli sinclərlə Ona həmd edin! Cingildəyən sinclərlə Ona həmd edin! Ey bütün canlı varlıqlar, Rəbbə həmd edin! Rəbbə həmd edin!



## Məzmurlardan ayələri yadda saxlayaq

İsmini tanıyanlar Sənə güvənir, Çünki, ya Rəbb, Səni axtaranları tərk etməzsən! *(9:10)*

Göylər Allahın əzəmətini bəyan edir, Göy qübbəsi əllərinin işini elan edir. *(19:1)*

Qoy bütün dünya Rəbdən qorxsun, Bütün yer üzünün əhalisi Onu şərəfləndirsin. *(33:8)*

Dadın, görün Rəbb nə qədər şirindir, Nə bəxtiyardır Ona pənah gətirənlər! *(34:8)*

Yolunu Rəbbə ver, Ona güvən, O edəcək. *(37:5)*

Dar gündə Məni çağır, Mən səni xilas edəcəyəm, Sən də Məni şərəfləndirəcəksən. *(50:15)*

Ey Allah, məndə təmiz ürək yarat, Daxilimə yenidən sədaqət ruhunu ver. *(51:10)*

Ey xalq, hər zaman Ona arxalan, Onun hüzurunda qəlbini açıb-boşalt, Çünki Allah bizim pənahımızdır! *(62:8)*

Qoy yer üzündə Sənin yolun, Bütün millətlər arasında qurtuluşun tanınsın. *(67:2)*

Dağlara təvəllüd verməmişdən əvvəl, Kainatı, dünyanı doğmazdan əvvəl Əzəldən axıradək Allah Sənsən. *(90:2)*

Amma Rəbb mənə qala oldu, Allahım mənə sığınacaq bir qaya oldu! *(94:22)*

Rəbbə alqış et, ey könlüm, Unutma etdiyi yaxşılıqları. *(103:2)*

Çünki göylər yerdən nə qədər ucadırsa, Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür. *(103:11)*

Rəbb qorxusu hikmətin başlanğıcıdır. *(111:10)*

Rəbb mənimlədir, heç qorxmaram. İnsan mənə nə edə bilər? *(118:6)*

Bir cavan yolunu necə təmiz saxlaya bilər? – Sənin sözlərinə bağlı qalmaqla. *(119:9)*

Qurtar məni, mən Səninəm. *(119:94)*

Göz yaşı ilə əkənlər Sevinc harayı çəkərək biçəcəklər. *(126:6)*



Rəbb Onu çağıran bütün insanlara, Onu sidq ürəkdən çağıran bütün insanlara yaxındır. *(145:18)*



## Süleymanın Məsəlləri

Müqəddəs Kitabda kitabların biri Süleymanın Məsəlləri adlanır. O, gənclərə xitab olan qısa nəsihətlərdən ibarətdir. Onların əksəri müdrik Süleyman padşah tərəfindən yazılmışdır. Məsəllərin mövzuları – müdriklik, salehlik, Allah qorxusu, bilik, əxlaq, nəfsini saxlama, səy, dözüm, Allaha təvəkkül, yoxsullara yardım, düşmənlərə yardım, uşaqların tərbiyəsi, dürüstlük, ədalət, sağlam düşüncə və s. Süleymanın Məsəlləri Kitabından bəzi nəsihətlər bunlardır:

Rəbb qorxusu biliyin başlanğıcıdır, amma səfehlər hikmət və tərbiyəyə xor baxarlar.

Oğlum, ata tərbiyəsinə qulaq as, ananın öyrətdiklərini kənara atma.

Oğlum, qoyma səni günahkarlar azdırsınlar.

Bütün qəlbinlə Rəbbə güvən, öz idrakına etibar etmə. Bütün yollarında Onu tanı, O, sənin yollarını düzəldər.

Oğlum, Rəbbin verdiyi tərbiyəyə xor baxma, Onun məzəmmətinə nifrət etmə. Ata sevdiyi oğlunu necə məzəmmət edərsə, Rəbb də sevdiyini elə məzəmmət edər.

Kasıba zülm edən Yaradanına xor baxar, yoxsula lütf göstərən Ona hörmət edər.

Salehlik bir milləti ucaldar, günah ümmətləri utandırar.

İnsan ürəyində özü üçün yol qurar, amma Rəbbin verdiyi istiqamətlə addımlayar.

Kim ki atasını soyub, anasını qovar, xəcalət gətirən övladdır, ad batırar.

Uşağa tərbiyə ver ki, layiqli yol tutsun, o qocalanda da bu yoldan dönməz.

Düşmənin acdırsa, onu yedizdir, susuzdursa, ona su ver.

*SÜLEYMANIN MƏSƏLLƏRİ*





## Vaiz Kitabı

Süleymanın Məsəlləri Kitabının ardınca Vaiz Kitabı gəlir. Bu kitabda Süleymanın Məsəlləri Kitabına bənzər gözəl müdrik nəsihətlər var. Bu kitabdan bir neçə sətir sizə təqdim edirik.

Vaiz deyir: Hər şey puçdur, puçdur, tamam puçdur.

Qüssə gülməkdən yaxşıdır, çünki üzün qəmgin olması insan üçün daha yaxşıdır.

Hikmət döyüş silahından üstündür, amma bir günahkar hər cür yaxşılığı bərbad edər.

Quyu qazan içinə özü düşə bilər, divar sökəni ilan sanca bilər.

Çörəyini suların üzünə burax, çünki uzun müddət sonra yenə onu taparsan.

Ey gənc, cavanlığında sevin, qoy ürəyin səni cavanlıq günlərində sevindirsin. Ürəyinin istədiyi ilə, gözlərinin gördüyü ilə get. Ancaq bil ki, Allah bunların hamısına görə səni mühakimə edəcək.

Pis günlər gəlməzdən qabaq, «Onlardan zövq almıram» deyəcəyin illər yaxınlaşmazdan əvvəl, cavanlıq günlərində səni Yaradanı xatırla. Günəş, işıq, ay və ulduzlar sönməzdən əvvəl, yağışdan sonra buludlar yenə qayıtmazdan əvvəl Onu xatırla. O gün gələndə evi qoruyanlar tir-tir əsəcək, güclülər əyiləcək, əl dəyirmanı ilə işləyənlər az olduqları üçün dən üyüdə bilməyəcək, pəncərədən baxanlar qaralacaq. Küçəyə açılan qapılar bağlanacaq, dəyirmanların səsi kəsiləcək, adamlar quş səsi ilə oyanacaq, nəğmə oxuyan bütün qızların səsini zəif eşidəcəklər. O zaman onlar uca yerdən qorxacaqlar, yolda yerimək də təhlükəli olur. Bax badam ağacı çiçək verir, çəyirtkə özünü güclə çəkir, həvəsi zəifləyir. Beləcə insan son mənzilə gedir, yas tutanlar küçələrə düşür. Gümüş iplər qopmamış, qızıl kasa qırılmamış, bulaq başında kuzə tikə-tikə olmamış, quyu yanında çarx sınmamış, torpaq gəldiyi yerə qayıtmamış, həyat



nəfəsi isə onu verən Allaha dönməmiş səni Yaradanı xatırla.

*VAİZ KİTABI*



## Peyğəmbərlər

Əhdi-Ətiqin mühüm hissəsini peyğəmbərlərin kitabları təşkil edir. Buraya Yeşayanın, Yeremyanın, Yezekelin və Danielin, eləcə də, həcminin azlığına görə «kiçik» adlanan on iki peyğəmbərin kitabları daxildir. Onların adları Huşə, Yoel, Amos, Avdiya, Yunus, Mikeya, Nahum, Habaqquq, Sefanya, Haqqay, Zəkəriyyə və Malakidir.

Müqəddəs Kitab peyğəmbərləri, sadəcə, gələcəyi qabaqcadan görmək ənamına malik olan adamlar deyildilər, amma belə ənama malik ola bilərdilər. Onların xidməti ətrafdakı insanlara keçmişdə, indi və gələcəkdə baş verən hadisələrin həqiqi mənasını aşkar etməkdən ibarət idi. Peyğəmbərlər unutqan İsrailin yadına salırdılar ki, o, yer üzünün başqa xalqları kimi deyil. Allah İsraili Öz xalqı adlandırdı. O, bu xalqla əhd bağladı. İsrailin gələcəyi zahiri hadisələrdən və taleyin dəyişkənliyindən deyil, amma onun öz Rəbbinə nə dərəcədə sadiq qalmasından asılı idi. Peyğəmbərlərin kitablarında ifşa sözləri nurlu ümid və möhkəm imanla bir-birinin ardınca gəlir. Peyğəmbərlər inanırdılar ki, insanlar əvvəl-axır öz Allahı Rəbbə tərəf dönüb Onda xilas tapacaqlar.

Peyğəmbərlər İsrail övladlarına öz adlarından xitab etmirdilər. Onlar Allahın Özündən gələn açıqlamalar bəyan edirdilər. Onların sözlərində rəmzlər və müəmmalar var idi və mənasını asanlıqla başa düşmək olmurdu. Amma əsrlər keçdikcə insanlar peyğəmbərlik kəlmələrinin haqq olmasına əmin olub və baş vermiş hadisələrdə peyğəmbərlərin bəyan etdiyi hadisələri tanıyırdılar. Beləcə Məsihin dünyaya gəlməsindən çox əvvəl peyğəmbərlər dünyaya bəşəriyyəti günah və ölüm hakimiyyətindən qurtaran, Öz Əbədi Padşahlığını quran Xilaskarın gəlişini xəbərdar edirdilər.



Bu gün biz peyğəmbərlik kitablarında yalnız tarixi hekayətləri və yerinə yetən peyğəmbərlikləri deyil, həmçinin insanı Allaha gətirən yollar barədə köhnəlməyən hekayələri oxuyuruq.



## Yeşaya peyğəmbər

Yeşaya peyğəmbər Miladdan yeddi əsr əvvəl yaşamışdır. O, Allahın izzəti barəsində səylə vəz edirdi, İsrail xalqının riyakar dindarlığını ifşa edirdi. Axı İsrail xalqı Rəbdən dönmüşdü. O həm də günahkarları tövbəyə çağırırdı. Peyğəmbər bir çox şəhərlərin gələcəyini əvvəlcədən söyləmişdi.

Yeşaya xalqı Allaha etibar etməyə çağırırdı. Onun çağırışlarından biri budur: «Məgər sən bilmirsən? Məgər eşitməmisən? Rəbb əbədi Allahdır, Odur bütün dünyanı yaradan. Nə yorulur, nə taqətdən düşür, Onun ağlı dərkedilməzdir. O, yorğunlara güc verər, taqətsizlərin qüvvətini artırar. Hətta cavanlar yorular, taqətdən düşər, igidlər əldən düşüb titrəyər. Rəbbə ümid bağlayanlarsa yeni qüvvət alar, qanad açıb qartal kimi yüksəklərə uçar, qaçanda taqətdən düşməzlər, yol gedib yorulmazlar».

Yeşaya peyğəmbərlik vasitəsilə İsa Məsihin – bəşəriyyətin Xilaskarının dünyaya gəlməsini əvvəlcədən söyləmişdir. O, Məsihin doğulması, həyatı, iztirabları, ölümü və dirilməsi barəsində danışmışdı. Bunlar hamısı yüzilliklər keçdikdən sonra baş vermiş və Əhdi-Cədidin kitablarında yazılmışdı.

Yeşaya peyğəmbər Məsih haqqında belə danışmışdı: «Əslində xəstəliklərimizi o çəkdi, dərdlərimizi öz üzərinə götürdü. Biz isə onun Allah tərəfindən cəzalandırıldığını, vurulub iztirab çəkdiyini zənn etdik. Bizim üsyankarlığımıza görə onun bədəni deşildi, şər əməllərimiz naminə əzildi, bizim əmin-amanlığımız üçün o cəza aldı, Onun yaraları ilə biz şəfa tapdıq. Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu. Ona zülm etdilər, O iztirab



çəkdi, amma ağzını açmadı. Kəsilməyə aparılan quzu kimi, qırxımçıların qabağında dilsiz qoyun kimi ağzını açmadı».

*YEŞAYA 40:28–31; 53:4–7*



## «Qılınclarından kotan düzəldəcəklər»

Yeşaya peyğəmbərin kitabında son zamanlardan, çoxdan gözlənilən Məsihin Padşahlığından, Allah tərəfindən vəd edilən Xilaskardan və dünyanın Hökmdarından peyğəmbərlik var:

Axır zamanda
Rəbbin evi olan dağ
Dağların zirvəsində möhkəm duracaq,
Təpələrdən yuxarı ucalacaq.
Bütün millətlər ona sarı gələcək.
Çox xalqlar gəlib deyəcək:
«Gəlin Rəbbin dağına,
Yaqubun Allahının evinə qalxaq,
Qoy Rəbb bizə Öz yollarını öyrətsin,
Biz Onun rizləri ilə gedək.
Siondan Rəbbin təlimi,
Yerusəlimdən Onun kəlamı yayılacaq.
Millətlər arasında Rəbb hakim olacaq,
Onlar qılınclarından kotan,
Nizələrindən isə dəryaz düzəldəcəklər.
Millət millətə qarşı qılınc qaldırmayacaq,
Artıq dava etməyi öyrənməyəcək».

*YEŞAYA 2:2–4*





## «Heç bir kəs o birisini məhv etməyəcək»

Rəbb Yeşaya peyğəmbərə aşkar etmişdi ki, gələcəkdə Allahın Oğlu İsa Məsihin Padşahlığı gələndə yer üzündə nə şər, nə qəm-qüssə olacaq.

Lakin O, yoxsullara haqq ilə hökm edəcək,
Yer üzündəki fəqirlərin işinə ədalətlə qərar çıxaracaq.
Dünyanı ağzının dəyənəyi ilə vuracaq.
Pis adamları ağzının nəfəsi ilə öldürəcək.
O, belini salehliklə qurşayacaq,
Sədaqəti kəmər kimi taxacaq.
O gün qurdla quzu bir yerdə yaşayacaq,
Bəbirlə çəpiş birgə yatacaq,
Dana, gənc aslan və bəslənmiş mal-qara
Yan-yana duracaq,
Onları balaca uşaq gəzdirəcək.
İnəklə ayı bir yerdə otlayacaq,
Onların balaları bir yerdə yatacaq,
Şir də buğatək saman yeyəcək.
Südəmər körpə əfi ilanın yuvası üstündə oynayacaq,
Süddən kəsilmiş uşaq əlini gürzənin yuvasına salacaq,
Müqəddəs dağımın heç bir yerində
Heç kimə zərər dəyməyəcək,
Heç bir kəs o birisini məhv etməyəcək.
Çünki sular dənizi bürüdüyü kimi,
Dünya Rəbbin biliyi ilə dolacaq.

*YEŞAYA 11:4—9*





## Huşə peyğəmbər

Biz artıq Şimal padşahlığı olan İsrailin Rəbdən dönməsindən və oradakı qanunsuzluqdan və bütpərəstlikdən oxumuşuq. Rəbb xalqına Öz peyğəmbərləri vasitəsilə xitab edərək insanlara cəza ardınca cəza göndərirdi. Rəbbin məqsədi o idi ki, İsrail xalqını və onun padşahlarını həqiqət yoluna qaytarsınlar, amma bu, əbəs yerə idi. Padşahlar və xalq qanunsuzluqda yaşayıb bütlərə pərəstiş etməkdə davam edirdilər. Buna görə də Rəbb bu padşahlığı dağıdıb onun xalqını işğalçıların əlinə vermək qərarına gəldi. Şimal padşahlığının düşkünlüyündən əvvəl İsraildə Huşə, Yeşaya və Mikeya peyğəmbərlər yaşayıblar. Huşə peyğəmbərin kitabında Allahla İsrailin münasibətləri nikah kimi təsvir olunub. Xalqın riyakarlığı isə arvadın ərə vəfasızlığı kimi qələmə alınıb. Huşə peyğəmbər bu barədə belə yazır:

«Ey İsrail övladları, Rəbbin sözünü eşidin, çünki bu ölkədə yaşayanları Rəbb ittiham edir. Sədaqət, məhəbbət, Allahı tanımaq bu yerdə yox olub.

Lənət, yalan, qətl, oğurluq və zina hər yerə yayılıb. Qoluzorluluq edərək qan üstünə qan tökürlər. Xalqım biliksizlikdən məhv oldu. Sən biliyi rədd etdiyin üçün Mən də səni rədd edəcəyəm ki, bir daha Mənə kahinlik etməyəsən. İndi ki öz Allahının qanununu unutdun, Mən də sənin balalarını unudacağam. Ey İsrail, başqa xalqlar kimi sevinib coşma, çünki öz Allahına xəyanət etdin».

Amma peyğəmbər deyir ki, əgər xalq qayıtsa və Rəbbin önündə tövbə etsə, Allah Öz xalqına xeyir-dua verəcək: «Dua sözləri ilə Rəbbə tərəf dönün. Ona belə deyin: Onların dönüklüyünə əlac edəcəyəm, onları ürəkdən sevəcəyəm, çünki qəzəbim onlardan vaz keçdi. Mən İsrailə bir şeh olacağam, o, zanbaq kimi çiçək açacaq. Livan sidri kimi kök atacaq».



Tövbə etmiş xalqın uzaq gələcəyi barədə peyğəmbərlik edərək Huşə əvvəlcədən söyləyir: «Ancaq İsrail övladları dəniz qumu kimi saysız-hesabsız olacaq. Onlara "siz Mənim xalqım deyilsiniz" deyilən yerdə "siz Var Olan Allahın övladlarısınız" deyiləcək».

*HUŞƏ 1:10; 4:1–2, 6; 9:1; 14:2, 5–6*



## Yoel peyğəmbər

Yoel peyğəmbərin nə vaxt yaşadığı məlum deyil, amma o, Yəhuda peyğəmbərlərindən biri sayılır. O, məhz uzaq gələcəkdən, Rəbbin gələn günündən danışırdı:

«Vay o günə! Budur, Rəbbin o günü yaxındır, o gün Külli-İxtiyar fəlakət gətirəcək. Sionda şeypur çalın, Müqəddəs dağımda bərkdən çalın. Qoy ölkənin bütün əhalisi titrəsin, çünki Rəbbin günü gəlir, həmin gün yaxındadır. Ondan sonra isə bütün bəşər üzərinə Ruhumu tökəcəyəm. Oğullarınız və qızlarınız peyğəmbərlik edəcək, ağsaqqallarınız röyalar, cavanlarınızsa görüntülər görəcəklər. O günlərdə qul və qarabaşların üzərinə də ruhumu tökəcəyəm. Göylərdə və yerdə əlamətlər göstərəcəyəm: Qan, alov və tüstü sütunları görünəcək. Rəbbin möhtəşəm və dəhşətli günü gəlməzdən əvvəl günəş qaranlığa və ay qan rənginə dönəcək. Amma Rəbbin adını çağıran hər kəs xilas olacaq, çünki Rəbbin dediyi kimi Sion dağında və Yerusəlimdə qurtuluş olacaq, Rəbbin çağırdığı sağ qalanlar arasında olacaq».

Bir neçə yüzillik keçəndən sonra həvari Peter Rəbb İsa Məsih barədə şəhadət etdikdə bu sözləri sitat gətirdi.

Yoel həm də İsrailin bərpa olmasından peyğəmbərlik edirdi: «O günlərdə Yəhuda və Yerusəlimin sərvətlərini geri qaytardığım zaman bütün millətləri yığıb Yehoşafat vadisinə endirəcəyəm. İrsim və xalqım İsraildən ötrü orada millətləri mühakimə edəcəyəm, çünki xalqımı millətlər arasında dağıtdılar, torpağımı da böldülər. Xalqım üçün püşk atdılar. Rəbb Siondan nərə çəkəcək, Yerusəlimdən guruldayacaq, göy və yer sarsılacaq. Lakin Rəbb Öz xalqı üçün sığınacaq yer, İsrail övladları üçün qala olacaq. O zaman biləcəksiniz ki, Müqəddəs dağım Sionda məskən salan Allahınız Rəbb



Mənəm! Yerusəlim müqəddəs olacaq, artıq yadellilər oradan keçməyəcəklər».

*YOEL 1:15; 2:1, 28–32; 3:1–2, 16–17*



## Yunus peyğəmbər

Bir gün Rəbb Yunus peyğəmbərə dedi: «Qalx, Ninevaya – o böyük şəhərə get və ona qarşı car çək, çünki oradakıların pisliyi gəlib Mənə qədər çatmışdır». Yunus Allahın sözünə qulaq asmaq istəməyərək Ondan Tarşişə qaçmağı qərara aldı. Yunus Yafoya çatdı və Tarşişə gedən bir gəmiyə mindi. Lakin Rəbb dəniz üzərində güclü külək göndərdi. Dənizdə böyük bir fırtına qopdu və gəmi az qala parçalanacaqdı. Gəmiçilər qorxuya düşüb hər biri öz allahını çağırmağa başladı. Onlar gəmini yüngülləşdirmək üçün oradakı yükləri dənizə atdılar. Yunus bu vaxtı gəminin anbarında bərk yuxuya getmişdi. Gəminin kapitanı onu oyadıb dedi: «Sən nə yatırsan? Qalx, öz Allahını çağır. Bəlkə, sənin Allahın bizi yada salar və biz məhv olmarıq». Gəmiçilər bir-birlərinə deyirdilər: «Gəlin püşk ataq, görək kimə görə bu bəla başımıza gəldi?» Püşk atdılar və püşk Yunusa düşdü. Yunus onlara dedi: «Məni götürüb dənizə atın, onda dəniz qarşınızda sakitləşər, çünki bilirəm, bu böyük fırtına mənə görə baş verib».

Yunusu dənizə atdılar və o, dərhal sakitləşdi. Onda gəmidəki adamların hamısı Rəbdən bərk qorxdu və Rəbbə qurban təqdim edərək əhdlər etdilər. Allah isə nəhəng balığa əmr etdi ki, Yunusu udsun. Yunus balığın qarnında üç gün-üç gecə öz Rəbb Allahına durmadan dua etdi. Rəbb balığa əmr etdi və balıq Yunusu ağzından quruya tüpürdü.

Rəbb Yunusa ikinci dəfə dedi: «Qalx, Ninevaya – o böyük şəhərə get və sənə söyləyəcəyim sözləri onlara car çək». Bu dəfə Yunus Allahın sözünə baxmamağa cəhd etmədi və Ninevaya getdi. Yunus şəhəri gəzməyə başlayıb bir günlük yol getdi və car çəkərək dedi: «Qırx gündən sonra Nineva dağılacaq!» Bu xəbər Nineva padşahına çatanda o, taxtından qalxaraq şahlıq libasını əynindən çıxartdı, əyninə köhnə,



gişdən tikilmiş geyim geydi. O əmr etdi ki, hamı eyni tərzdə geyimlər geysin və oruc tutub Allaha fəryad etsinlər. Sonra da bütün günahlarını tövbə edib əfv diləsinlər. Ninevalılar Allaha və Onun peyğəmbərinə inandılar. Rəbb gördü ki, Ninevalılar öz şər işlərindən əl çəkdilər. O, şəhərin sakinlərinə rəhm etdi və başlarına göndərəcəyi fəlakəti göndərmədi.

*YUNUS 1 – 4*



## Mikeya peyğəmbər

Mikeya peyğəmbər Yəhudada yerləşən Moreşet kəndindən idi. O, Miladdan əvvəl 740—700-cü illərdə Yəhuda padşahları Yotam, Axaz və Xizqiyanın dövründə və İsrail padşahlarından Menaxem, Peqahya, Peqah və Huşənin dövründə peyğəmbərlik etmişdi. Mikeya xalqın Allahdan dönüklüyündən, başçılarının üzərinə gələn mühakimədən, Samariyanın və Yerusəlimin məhv olmasından peyğəmbərlik edirdi. O həm də Sionun gələcək Padşahı – Məsih və Onun Padşahlığı haqqında qabaqcadan söyləmişdi.

Axır zamanda Rəbbin evi olan dağ dağların zirvəsində möhkəm duracaq, təpələrdən yuxarı ucalacaq. Xalqlar ona sarı gələcək. Çox millətlər gəlib deyəcək: «Gəlin Rəbbin dağına, Yaqubun Allahının evinə qalxaq, qoy Rəbb bizə Öz yollarını öyrətsin, biz Onun rizləri ilə gedək». Siondan Rəbbin təlimi, Yerusəlimdən Onun kəlamı yayılacaq. Rəbb çox xalqlar arasında hakim olacaq, güclü millətlər haqqında qərar çıxaracaq. Onlar qılınclarından kotan, nizələrindən isə dəryaz düzəldəcək. Millət millətə qarşı qılınc qaldırmayacaq, artıq dava etməyi öyrənməyəcək. Hər kəs öz meynəsinin, əncir ağacının altında əyləşəcək, onları qorxudan olmayacaq. Ordular Rəbbi belə söz verdi. Bütün xalqlar öz allahlarının adı ilə getsələr belə, biz daim və əbədi Allahımız Rəbbin adı ilə gedirik. «Gün gələcək», – Rəbb bəyan edir, – «Mən şikəstləri yığacağam, incitdiyim pərən-pərən düşən xalqı bir yerə toplayacağam. Şikəstləri sağ qalan xalq edəcəyəm, atılanları güclü millətə çevirəcəyəm. Mən Rəbb onlara Sion dağından indidən sonsuzadək hökm edəcəyəm». Sən, ey Yerusəlim, sürüyə nəzarət edən qüllə, Sion qızının qalası, əvvəlki hakimiyyət sənə yenidən veriləcək, Yerusəlim qızının səltənəti gələcək.

Yaqub nəslinin sağ qalanları çoxlu xalqlar arasında heç kimi



gözləmədən, bəşər övladlarından asılı olmadan Rəbbin göndərdiyi şehtək, ot üzərinə tökülən leysan kimi olacaq.

*MİKEYA 4:1–8; 5:7*



## Məsih barəsində peyğəmbərliklər

Bu kitabın əvvəlində Allah insanı Öz Surəti və əksində yaratdığından danışılır. Allah istəyirdi ki, insan Onun kimi mərhəmətli, ədalətli, günahsız olsun. Lakin ilk yaradılan insanlar Adəm və Həvva artıq günahın qarşısında dura bilməmişdilər. Onların ilk oğlu Qabil qardaşı Habili öldürmüşdü. Tezliklə yer üzü o qədər günahla doldu ki, Rəbb dedi: «Hamı birgə pozulub, namus əldən gedib, Bir nəfər də olsun yaxşı iş görən yoxdur».

Rəbb Allah yer üzündə bir xalqı – İsrail xalqını seçmişdi ki, bu xalq Ona, Həqiqi Allaha inamı saxlasın və Onun əmrləri ilə yaşasın. Allah Öz peyğəmbərləri vasitəsilə İsrail xalqına dünyaya Xilaskarın – Öz Məsh Olunmuşunun gəlişindən danışırdı. (İbrani dilində «Məsh Olunmuş» «Məsih» kimi, yunan dilində isə «Xristos» səslənir). Beləcə, Yeşaya peyğəmbər yeddi yüz il İsa Məsihin dünyaya gəlməsindən əvvəl demişdi: «Çünki bizim üçün Körpə doğuldu, bizə Oğul verildi, hakimiyyət Onun çiyinləri üzərində olacaq, Onun adı Ecazkar Məsləhətçi, Qüdrətli Allah, Əbədi Ata, Sülh Hökmdarı olacaq». Mikeya peyğəmbər hətta Məsihin doğulduğu yeri də əvvəlcədən söyləmişdi: «Ey Bet-Lexem Efrata,... Mənim üçün İsrail üzərində Hökmdar səndən çıxacaq. Onun nəsli çox qədimlərə, zamanın başlanğıcına gedir».

Yeşaya peyğəmbərin kitabından biz Məsihin gəlişinin əsas məqsədi haqqında öyrənirik: bəşəriyyəti günahın hökmündən qurtarmaq, insanları Allaha tərəf yönəltmək və günahlarına görə ölüb onları xilas etməkdir. Peyğəmbər vasitəsilə Rəbb deyir: «Mənim saleh qulum öz biliyi ilə çoxlarına bəraət qazandıracaq, onların şər əməllərinin yükünü üzərinə götürəcək».



Bütün bu peyğəmbərliklər İsa Məsih yer üzünə gəldikdə yerinə yetdi. Bundan sonra biz kitabımızda İsa Məsihin doğulması, Onun həyatı və təlimi, ölümü və dirilməsindən danışacağıq.

*ZƏBUR 14:3; YEŞAYA 9:6; 53;*
*MİKEYA 5:2*



# ƏHDİ-CƏDİD

## Zəkəriyyə və mələk Allahın məbədində

Əhdi-Cədiddə yazılmış hadisələri Əhdi-Ətiqdə təsvir olunanlardan bir neçə yüz il ayırır. İsa Məsihin dünyaya gəldiyi dövrdə Yəhudi xalqı öz siyasi müstəqilliyini tam itirmişdi və Romalıların hakimiyyəti altına düşmüşdü. Amma xalq ümidlə yaşayırdı: qədim peyğəmbərlərin kitablarında gələcəkdə dünyaya Xilaskarın gəlişindən yazılmışdı. İnsanların əksəriyyəti Onun Yəhudiləri Romalıların hakimiyyətindən qurtarıb İsrailin əvvəlki əzəmətini bərpa edəcəyinə inanırdı. Amma Allah Öz xalqı üçün daha çox, daha yaxşı bir şey hazırlamışdı. Xilaskarın – Məsihin gəlişi barəsində ilk xəbər verən isə Vəftizçi Yəhya oldu.

Yəhyanın doğuluşu qeyri-adi olmuşdu. Onun atası Zəkəriyyə kahin idi, arvadı Elizavetlə Yəhudanın dağlıq bölgəsində yaşayırdı. Bu mömin ər-arvad Rəbbin əmr və qaydalarına əməl edirdilər. Amma övladlarının olmaması onları məyus edirdi. Artıq hər ikisi yaşa dolmuşdu.

Bir dəfə Zəkəriyyə Yerusəlim məbədində kahinlik xidmətini icra edirdi. Bütün camaat isə məbədin həyətində dua edirdi. Zəkəriyyə buxur yandıranda Rəbbin mələyi ona göründü. Zəkəriyyə onu görəndə çox qorxdu. Mələk isə ona dedi: «Qorxma, Zəkəriyyə! Sənin duan eşidildi. Arvadın Elizavet sənə bir oğul doğacaq. Onun adını Yəhya qoy. O, şərab və başqa kefləndirici içki içməyəcək; hələ ana bətnində olarkən Müqəddəs Ruhla* dolacaq. O, İsraillilərin çoxunu Allahı Rəbb tərəfə döndərəcək». Amma Zəkəriyyə mələyin sözlərinə şübhə etdi və dedi: «Mən bunu necə bilərəm? Axı mən çox yaşlıyam, elə arvadımın da yaşı ötüb». Mələk ona cavab verdi: «Mən Allahın önündə dayanan Cəbrayılam və səninlə danışıb bu müjdəni* sənə çatdırmaq üçün göndərilmişəm.



Budur, vaxtında həyata keçəcək sözlərimə inanmadığına görə bu, yerinə yetən günədək sən lal olub danışa bilməyəcəksən».

*LUKA 1:5–21*



## Vəftizçi Yəhyanın doğulması

Hər şey mələyin dediyi kimi oldu. Təyin olunmuş vaxtda Zəkəriyyə ilə Elizavetin oğlu oldu. Onlar buna çox sevinirdilər, onlarla birgə qohum-qonşu da sevinirdi. Axı qədim vaxtlarda ər-arvadın övladı olmurdusa, bu, böyük bədbəxtlik və xəcalət sayılırdı.

Musanın Qanununa görə, körpənin doğulmasından səkkiz gün sonra onu sünnət* etməli idilər. Sünnət etmə mərasiminə gələnlərin hamısı körpənin adını Zəkəriyyə qoymaq istəyirdi. Uşaqlara valideynlərin, ya da qohumların adını vermək o vaxtın adəti idi. Körpənin anası isə dedi: «Yox, onun adı Yəhya olacaq». Ona dedilər: «Axı qohumların arasında belə adı olan bir kəs yoxdur». Onda körpənin atasından körpəyə hansı adın qoyulmasını işarə ilə soruşdular. Zəkəriyyə bir yazı lövhəciyi istədi və onun üzərində yazdı: «Onun adı Yəhyadır». Hamı təəccüb etdi. Həmin o anda Zəkəriyyənin dili açıldı. O, Allaha həmd etməyə başladı. Onların ətrafında yaşayanların hamısını qorxu bürüdü. Bu hadisə haqqında Yəhudanın bütün dağlıq bölgəsində danışırdılar. Bunu eşidənlərin hamısı deyirdi: «Bu körpə böyüyüb nə olacaq?», çünki Rəbbin qüvvəsi onunla idi. Onun atası Zəkəriyyə Müqəddəs Ruhla dolub belə peyğəmbərlik edib deyirdi: «Alqış olsun İsrailin Allahı Rəbbə, çünki Öz xalqına nəzər salıb onu qurtardı. O, qulu Davudun nəslindən bizə qüdrətli Xilaskar yetirdi. Qədimdən bəri Öz müqəddəs peyğəmbərlərinin vasitəsilə bildirdiyi kimi, düşmənlərimizdən və bizə nifrət edənlərin əlindən bizi xilas etdi. Beləcə, ata-babalarımıza mərhəmət göstərib Öz müqəddəs Əhdini xatırladı. Atamız İbrahimə and içdiyi kimi bizə elə güc verdi ki, düşmənlərimizin əlindən qurtulub həyatımız boyu qorxmadan Rəbbin önündə müqəddəslik və salehliklə Ona ibadət edək. Ey körpə, sən Haqq-Taalanın peyğəmbəri



adlanacaqsan, çünki Rəbbin önündə gedəcəksən, Onun yolunu hazırlayacaqsan; Onun xalqına günahlarının bağışlanması ilə xilas olunmaları barədə bildirəcəksən. Axı Allahımızın ürəyi mərhəmətlidir, Onun bu mərhəmətinə görə ucalarda bizim üçün Günəş doğacaq ki, zülmətdə və ölüm kölgəsində oturanların üzərinə nur saçsın, ayaqlarımızı sülh yoluna yönəltsin».

Körpə Yəhya böyüyüb ruhən qüvvətlənirdi və İsrail xalqına görünən günədək səhrada qaldı.

*LUKA 1:22–25, 57–80*



## İsanın doğulması barədə Xoş Xəbər

Bəşəriyyəti günah və ölümün hökmündən qurtarmaq üçün Allah dünyaya Öz Oğlu İsa Məsihi göndərdi. Onun doğulması ilə yer üzündə yeni dövr başlandı. Hətta bizim tarix hesabımız da İsa Məsihin doğulmasından başlayır.

İsanın doğulması hekayəsi heyrətləndiricidir. Allahın Oğlu tövlədə dünyaya gəldi. Amma İsanın doğulmasından bir müddət sonra padşah Hirod Onu öldürmək istədi...

Lakin gəlin əvvəldən başlayaq. İsrailin şimalında Nazaret adlanan balaca şəhərdə Məryəm adlı bir qız yaşayırdı, onun Allahı sevən pak qəlbi var idi. Bir gün Allahın göndərdiyi mələk Cəbrayıl gəlib ona dedi: «Salam, ey lütfə nail olmuş qız! Rəbb səninlədir». Məryəm onu görüb həyəcanlandı. Mələk ona dedi: «Qorxma, Məryəm, çünki sən Allahın lütfünə nail oldun. Sən hamilə olub bir Oğul doğacaqsan. Onun adını İsa qoy. (İsa adının mənası "Rəbb xilas edir" deməkdir.) O, böyük olacaq və Haqq-Taalanın Oğlu adlanacaq. Rəbb Allah Ona ulu atası Davudun taxtını verəcək. O, Yaqub nəslinin üzərində əbədi olaraq Padşah olacaq və Onun Padşahlığının sonu olmayacaq».

Məryəm Yusif adlı bir Allah adamına nişanlı idi. Məryəm mələyə dedi: «Bu, necə olacaq? Axı mən hələ ərdə deyiləm». Mələk cavabında ona dedi: «Müqəddəs Ruh sənin üzərinə enəcək, Haqq-Taalanın qüdrəti üstünə kölgə salacaq. Buna görə də doğulacaq müqəddəs Övlad Allahın Oğlu adlanacaq». Onda Məryəm dedi: «Mən Rəbbin quluyam, qoy mənə sənin dediyin kimi olsun». Mələk onu tərk edib getdi.

Yusif Məryəmin hamilə olduğundan xəbər tutanda nişanı qaytarmaq istədi. Amma Rəbbin bir mələyi yuxuda ona görünüb dedi: «Davud oğlu Yusif! Məryəmi özünə arvad etməkdən qorxma, çünki onun bətnindəki körpə Müqəddəs



Ruhdandır. Məryəm bir Oğul doğacaq və Onun adını İsa qoy, çünki O, Öz xalqını günahlarından xilas edəcək».

*MATTA 1:19–21; LUKA 1:26–35*



## İsa Məsihin doğulması

Məryəm hamilə olanda o, Yusiflə uzaq yola çıxmalı idi, çünki Roma imperatoru Avqust bütün Roma imperiyası üçün siyahıyaalma keçirmək barəsində fərman vermişdi. Hər kəs öz əcdadlarının şəhərinə getməli idi. Yusiflə Məryəm padşah Davudun nəslindən idi. Padşah Davud İsanın doğulmasından min il öncə İsraildə hökm edirdi.

Beləliklə, Yusif və Məryəm Davudun şəhəri olan Bet-Lexemə getdilər. Nazaretdən Bet-Lexemə iki yüz kilometr məsafə idi. O dövrdə nə qatar, nə də avtomobil var idi və belə səyahət bir neçə gün davam edirdi. Nazaret İsrailin şimalında, Qalileyada, Bet-Lexem isə cənubda, Yəhudada yerləşirdi. Qalileyadan Yəhudaya getmək üçün Samariyadan keçmək lazım idi. Həm də Samariya və Qalileya dağlıq yerlər idi.

Nəhayət, Yusiflə Məryəm Bet-Lexemə gələndə mehmanxanada yer olmadı. Məryəmin isə doğuş vaxtı çatdı. İncildə oxuyuruq: «O, ilk Oğlunu doğdu. Körpəni bələyib axura qoydu». Bu, o deməkdir ki, onlar heyvanlar saxlanan tövlədə yerləşmişdilər, Körpəni isə axura qoymuşdular. Qədim məlumatlara görə, bu tövlə mağarada yerləşirdi. O yerlərdə çobanlar belə mağaraları öz qoyunları üçün tövlə kimi istifadə edirdilər.

*LUKA 2:1–7*





## Mələklər çobanlara İsanın doğulmasını xəbər verirlər

Bu vaxt Bet-Lexemin ətrafında çobanlar qoyun otarırdılar. İsanın dünyaya gəldiyi gecə çobanların bəziləri yatmayıb öz sürülərinin keşiyini çəkirdilər. Qəfildən Rəbbin bir mələyi onların qarşısında göründü. Rəbbin ehtişamı onların üzərinə nur saçdı və çobanları qorxu bürüdü. Amma mələk onlara dedi: «Qorxmayın! Mən sizə bütün xalqı çox sevindirəcək bir Müjdə gətirmişəm. Bu gün Davudun şəhərində sizin üçün Xilaskar doğuldu. Bu, Rəbb Məsihdir. Sizə əlamət bu olacaq: axurda yatan bələnmiş Körpə tapacaqsınız». Qəflətən mələyin yanında Allaha həmd edən çoxsaylı səmavi ordu göründü. Onlar Allaha belə həmdlər edib, nida edirdilər: «Ən ucalarda Allaha izzət, yer üzündə Onun razı olduğu insanlara sülh olsun!»

*LUKA 2:9–14*





## Çobanlar İsanın yanında

Biz çobanların mələkləri görəndə necə qorxduqlarını təsəvvürümüzə gətirə bilərik. Onlar Xilaskarın doğulması haqqında xəbəri eşidəndə heyrətləndilər. Buna görə də onlar öz sürülərini qoyub Bet-Lexemə getdilər. İncildə belə yazılıb: Mələklər göyə qalxandan sonra çobanlar bir-birinə dedilər: «Gəlin Bet-Lexemə gedək və Rəbbin bizə bildirdiyi bu baş vermiş hadisəni görək». Onlar tələsik getdilər. Məryəmi, Yusifi və axurda yatan Körpəni tapdılar. Çobanlar Körpəni görəndə Onun haqqında onlara deyilənləri bildirdilər. Bunu eşidənlərin hamısı çobanların sözlərindən heyrətə gəldi. Məryəm isə bütün bu şeyləri dərin düşünərək öz ürəyində saxlayırdı. Çobanlar bütün gördükləri və eşitdiklərinə görə Allahı izzətləndirib həmd edərək geri qayıtdılar, çünki hər şey onlara söylənilən kimi baş vermişdi.

*LUKA 2:15–20*





## Saleh Şimeon

Səkkizinci gün Körpənin sünnət olunması vaxtı gələndə Onun adını İsa qoydular. Bu ad Ona ana bətninə düşməzdən əvvəl mələk tərəfindən verilmişdi.

Rəbbin verdiyi Qanuna görə, hər ilk övlad, yəni hər ilk oğul Allaha həsr olunurdu. Bu səbəbə görə İsanın altı həftəsi tamam olanda Onu Rəbbə həsr etmək üçün Yerusəlim məbədinə gətirdilər. Rəbbin Qanununda deyildiyi kimi, iki qumru quşu, yaxud iki göyərçin balası qurban gətirdilər.

O vaxt Yerusəlimdə Şimeon adlı bir adam var idi. O, saleh, mömin və Müqəddəs Ruhla dolu bir insan idi. Müqəddəs Ruh ona əvvəlcədən açıqlamışdı ki, o, Rəbbin Məsihini – Xilaskarı görməyincə ölməyəcək. Şimeon Müqəddəs Ruhdan ilham alıb məbədə gəldi. Elə həmin o vaxt İsanın valideynləri Qanuna görə, Onun üzərində ayinə əməl etmək üçün Körpəni oraya gətirdilər. Şimeon Körpəni qucağına götürdü və Allaha alqış edərək belə dedi: «Ey Pərvərdigar, indi Sənin sözünə görə mən, Sənin qulun, arxayın ölə bilərəm, çünki bütün xalqların gözləri önündə hazırladığın xilası, millətlərə aşkar edən nuru, xalqın İsrail üçün də göndərdiyin izzəti öz gözlərimlə gördüm». Yusiflə Körpənin anası isə Şimeonun Onun barəsində dediyi sözləri eşidib heyrətləndilər.

Şimeon onlara xeyir-dua verdi və Məryəmə dedi: «Bu Körpə İsraildə bir çox adamın yıxılmasının, ya ucalmasının səbəbkarı və insanların rədd etdiyi bir əlamət olmaq üçün təyin olunub. Sənin köksünə isə sanki qılınc saplanacaq. Bütün bunlar bir çoxlarının qəlbindəki fikirlərin aşkara çıxması üçün olacaq».

*LUKA 2:21–35*





## Müdrik adamların səcdə etməsi

İsa padşah Hirodun dövründə anadan olanda Yerusəlimə şərqdən müdrik adamlar gəlib dedilər: «Yəhudilərin anadan olmuş Padşahı haradadır? Şərqdə Onun ulduzunu gördük və Ona səcdə qılmağa gəldik».

Bunu eşidib padşah Hirod narahat oldu. O, bütün baş kahinləri və ilahiyyatçıları toplayaraq onlardan Məsihin harada doğulduğunu soruşdu. «Yəhudeyanın* Bet-Lexem şəhərində» dedilər. «Peyğəmbər vasitəsilə belə yazılıb: "Ey Yəhuda torpağındakı Bet-Lexem, sən Yəhuda hökmdarları arasında ən kiçiyi deyilsən, çünki xalqım İsrailə çoban olan Hökmdar səndən çıxacaq"». Onda Hirod müdrik adamları gizlicə çağırıb onlardan ulduzun göründüyü dəqiq vaxtı öyrəndi. «Gedin, Körpəni diqqətlə axtarın, tapan kimi mənə xəbər verin ki, mən də gedib Ona səcdə qılım», – deyərək onları Bet-Lexemə göndərdi. Amma əslində padşah Hirod Körpəni öldürmək istəyirdi, çünki vaxt yetişəndə İsanın onun taxtına sahib olacağından qorxurdu.

Müdrik adamlar padşahı dinlədikdən sonra yola düşdülər. O vaxt şərqdə gördükləri ulduz onlara yol göstərirdi və onların qarşısında gedirdi. Nəhayət, ulduz Körpənin olduğu yerin üzərinə çatdıqda dayandı. Müdrik adamlar ulduzun dayandığını görüb çox sevindilər.

*MATTA 2:1–10*





## Hirodun günahsız körpələrin qətli haqqında fərmanı

Müdrik adamlar Bet-Lexemə gəldilər və üzərində ulduzun dayandığı evə girdilər. Körpəni anası Məryəmlə birlikdə gördülər və yerə qapanaraq, Ona səcdə etdilər. Xəzinələrini açıb Ona hədiyyələri – qızıl, kündür* və mirranı* təqdim etdilər.

Allah onlarla yuxuda danışdı və onlar padşah Hirodun yanına qayıtmadılar. Müdrik adamlar başqa yol ilə öz ölkələrinə getdilər. Hirod bu barədə eşidib qəzəbləndi. O, müdrik adamlardan öyrəndiyi vaxta görə, Bet-Lexem və onun ətrafında yaşayan iki və iki yaşdan aşağı körpə oğlan uşaqlarını öldürmək üçün oraya əsgərlərini göndərdi. Əsgərlər də Bet-Lexemə gəlib günahsız körpələri öldürdülər.

*MATTA 2:10–12, 16–18*





## Misirə qaçış

Hirod elə düşünürdü ki, öldürülən körpələrin arasında müdrik adamların söylədiyi İsrailin gələcək padşahı olacaq. Amma bu, belə deyildi. Müdrik adamlar yola düşəndən sonra Rəbbin bir mələyi Yusifə yuxuda görünərək dedi: «Qalx, Körpə ilə anasını götür, Misirə qaç. Mən sənə xəbər verənə qədər orada qal, çünki Hirod Körpəni öldürmək üçün axtarmağa başlayır». Beləliklə, Yusif qalxdı, gecəyarısı Körpə ilə anasını götürüb Misirə yollandı və Hirod ölənə qədər orada qaldı. Bu, Rəbbin peyğəmbər vasitəsilə söylədiyi «Öz Oğlumu Misirdən çağırdım» sözünün yerinə yetməsi üçün baş verdi. Bet-Lexemdən Misirədək yol yüzlərlə kilometr idi. Məryəm və Yusifə Körpə ilə bu yolu getmək asan deyildi.

*MATTA 2:13–15*





## İsanın Nazaretdə keçən uşaqlıq dövrü

Yusif, Məryəm və Körpə İsa padşah Hirodun ölümünə qədər Misirdə qaldılar. Hirod ölәndə Rəbbin mələyi yenə də yuxuda Yusifə göründü və dedi: «Qalx, Körpə ilə anasını götür, İsrail ölkəsinə qayıt, çünki Körpənin canını almaq istəyənlər öldü».

Yusif mələyin sözünə əməl edib İsrailə gəldi. Amma Hirodun oğlu Arxelanın Yəhudeya padşahı olduğunu eşidəndə oraya getməyə qorxdu. Yusif yuxuda xəbərdarlıq alaraq Qalileyaya, Məryəmin əvvəllər yaşadığı Nazaret şəhərinə getdi.

Bizim İsanın Nazaretdəki həyatından az məlumatımız var. Yusif dülgər idi, İsa ona kömək edərək bu peşəni öyrənirdi. İncildə İsanın uşaqlıq və gənclik dövründən çox az yazılıb. Amma oxuduğumuz bu ayə çox şeydən danışır: «Uşaq böyüyür, qüvvətlənir və hikmətdə yetkinləşirdi. Allahın lütfü də Onunla idi». Bunu da oxuyuruq: «İsa böyüyürdü və hikmətdə artırdı. O, Allahın və insanların qarşısında lütf qazanırdı».

Burada İsanın ata-anasına itaətli olmasını qeyd etmək çox vacibdir. İncildə bu barədə oxuyuruq: «... O, ata-anasına itaətli idi». Allah uşaqların öz ata-analarını sevmələrini və onlara itaətli olmalarını istəyir. Allahın On əmrindən biri belə deyir: «Ata-anana hörmət et ki, Allahın Rəbbin sənə verdiyi torpaqda ömrün uzun olsun».

*MATTA 2:19–23; LUKA 2:40, 50–52; ÇIXIŞ 20:12*





## İsa məbəddə

Beləliklə, İsa Nazaret şəhərində böyüyüb tərbiyə alırdı. O, böyüyürdü və hikmətdə artırdı. Allahın lütfü Onunla idi.

Hər il İsanın ata-anası Pasxa bayramında Yerusəlimə gedərdi. İsanın on iki yaşı tamam olanda onlar İsanı özləri ilə Yerusəlimə, bayrama apardılar.

Bayram qurtaranda hamı evə qayıtdı, amma yeniyetmə İsa Yerusəlimdə qaldı. Məryəmlə Yusif Onu görmədilər, Onun qohumlarla və tanışlarla gəldiyini düşündülər. Bir müddət keçdikdən sonra onlar İsanı axtarmağa başladılar. Onu tapmayıb Yerusəlimə qayıtdılar. Üçüncü gün Onu məbəddə tapdılar. İsa müəllimlər arasında oturmuşdu və onlara qulaq asır, suallar verirdi. Onu dinləyən hər kəs Onun zəkasına və verdiyi cavablara mat qalırdı.

İsanın anası Ona dedi: «Oğlum, bu, nədir başımıza gətirdin? Atanla mən nigaran qalıb səni axtarırdıq». İsa onlara cavab verdi: «Məni nə üçün axtarırdınız? Məgər bilmirdiniz ki, Mən Atamın evində olmalıyam?» Amma ata-ana Onun nə demək istədiyini başa düşmədilər. Məryəmin isə bu sözlər yadında qaldı və o, bunları yadında saxladı.

Sonra İsa valideynləri ilə Nazaretə qayıtdı və onlara itaət etdi. İsa böyüdükcə hikmətdə artırdı. O, Allahın və insanların məhəbbətini qazanırdı.

*LUKA 2:40–52*





## Yəhya vəftiz etməyə başlayır

Kahin Zəkəriyyənin oğlu Yəhya səhrada yaşayırdı. Rəbb onu xüsusi xidmətə – xalqa İsa Məsihin tezliklə gələcəyini bildirmək və onları tövbəyə çağırmaq üçün hazırlamışdı. Yəhya doğulmamışdan yüz illər əvvəl peyğəmbərlər yazmışdılar ki, o, xalqı Məsihin – Xilaskarın gəlişinə hazırlayacaq:

«Budur, Sənin önündə Öz elçimi göndərirəm.
O, Sənin yolunu hazırlayacaq».
«Səhrada nida edənin səsi gəlir:
"Rəbbin yolunu hazırlayın,
Onun keçəcəyi yerləri düz edin"».

Yəhya dəvə yunundan paltar geymiş, belinə dəri qurşaq bağlamışdı, yeməyi çəyirtkə və çöl balı idi. Allah Yəhyaya Öz iradəsini açdı. Yəhya da Onun sözlərini bəyan etməyə başladı. O, İordan çayının civarında dolaşıb xalqı tövbəyə çağırırdı. Yəhya onları günahların bağışlanmasının rəmzi olaraq vəftiz* olunmağa, yəni suda yuyunma ayinini icra etməyə çağırırdı. Bütün Yəhuda və İsrail sakinləri onun yanına gəlib günahlarını tövbə edirdi, Yəhya isə onları İordanda vəftiz edirdi.

Camaat ondan soruşurdu: «Bəs biz nə edək?» Yəhya onlara belə cavab verdi: «İki köynəyi olan birini köynəyi olmayana versin. Həmçinin yeməyi olan adam da olmayanla bölüşsün». Vergiyığanlar* da vəftiz olunmaq üçün onun yanına gəlib soruşdular: «Müəllim, biz nə edək?» Yəhya onlara dedi: «Sizə tapşırılan məbləğdən artıq vergi yığmayın». Əsgərlər də gəlib ondan soruşdular: «Bəs biz nə etməliyik?» Yəhya da onlara cavab verdi: «Heç kimdən zorla pul almayın, nahaq yerə ittiham etməyin, aldığınız maaşla kifayətlənin».

*MARK 1:1–8; LUKA 3:2–18*





## İsa Məsihin vəftiz olması

Xalq Məsihin gəlişini gözləyirdi, buna görə çoxları soruşurdu: «Görəsən, Yəhya həmin vəd olunmuş Məsihdirmi, Xilaskardırmı?» Yəhya isə cavab verirdi: «Mən sizi tövbəniz üçün su ilə vəftiz edirəm, amma məndən sonra Gələn məndən daha qüdrətlidir. Mən Onun çarıqlarını daşımağa belə, layiq deyiləm. O, sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək». Bunu Yəhya İsa Məsih haqqında deyirdi.

Bir gün İsa Yəhya tərəfindən vəftiz olmaq üçün onun yanına gəldi. Yəhya Onu dayandırmaq istəyərək dedi: «Sən məni vəftiz etməlisən, Sən niyə mənim yanıma gəlirsən?» Amma İsa ona cavab verdi: «Hələlik buna razı ol, çünki biz salehlik işini beləcə yerinə yetirməliyik». O zaman Yəhya buna razı oldu. İsa vəftiz olunan kimi sudan çıxdı və Yəhya göylərin yarıldığını, Allahın Ruhunun göyərçin kimi enərək İsanın üzərinə qonduğunu gördü. Göylərdən bir səda gəldi: «Bu, Mənim sevimli Oğlumdur, Ondan razıyam».

*MATTA 3:11–17*





## İsanın səhrada sınağa çəkilməsi

İsa vəftiz olduqdan sonra iblis tərəfindən sınağa çəkilmək üçün Müqəddəs Ruh tərəfindən səhraya aparıldı. Orada İsa qırx gün-qırx gecə oruc tutduqdan sonra aclıq hiss etdi. O zaman sınağaçəkən şeytan yaxınlaşıb Ona dedi: «Əgər Sən Allahın Oğlusansa, bu daşlara əmr et ki, çörəyə dönsün». İsa şeytana Müqəddəs Yazılardakı sözlərlə cavab verdi: «İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar».

Onda iblis İsanı Yerusəlim məbədinin damına qaldırıb dedi: «Əgər Sən Allahın Oğlusansa, Özünü aşağı at. Axı "Allah Sənə görə mələklərinə əmr edər ki, Səni əlləri üstündə aparsınlar, Ayağın bir daşa dəyməsin" deyə yazılmışdır».

İsa ona dedi: «"Allahın Rəbbi sınama" deyə də yazılmışdır».

Sonra iblis İsanı çox yüksək bir dağa qaldırdı və bu dünyanın bütün səltənətini şan-şöhrəti ilə göstərib Ona dedi: «Əgər Sən yerə qapanıb mənə səcdə etsən, bütün bu şeyləri Sənə verəcəyəm». İsa dedi: «Rədd ol, şeytan! "Allahın Rəbbə səcdə et və yalnız Ona ibadət et" deyə yazılmışdır». Bundan sonra iblis İsanı tərk etdi, mələklər də gəlib Ona xidmət edirdi.

*MATTA 4:1–11*



# İsa Məsihin on iki şagirdi

Yetkinlik yaşına çatan İsa Nazareti tərk edib Qalileya gölünün ətrafında yerləşən Kefernahum şəhərində məskunlaşdı. O vaxtlar bu göl həm də Qalileya gölü adlanırdı. Beləliklə, Yeşaya peyğəmbərin dedikləri yerinə yetdi:

«Zevulun və Naftali bölgələri,
Dənizkənarı yol,
İordan çayının o biri tayı,
Müxtəlif millətlər yaşayan Qalileya –
Zülmətdə yaşayan xalq
Möhtəşəm bir işıq gördü.
Ölüm kölgəsi diyarında məskunlaşanların üzərinə
Nur doğdu».

O vaxtdan etibarən İsa vəz etməyə başladı: «Tövbə edin! Səmavi Padşahlıq yaxınlaşıb». Onun ardınca müxtəlif yerlərdən gəlmiş çoxlu adam gedirdi. İsa onları öyrədir və xəstələrə şəfa verirdi.

Qalileya gölündə bir neçə balıqçı balıq tuturdu. Onların arasında Andrey və onun qardaşı Peter adlanan Şimon da var idi. İsa onları görüb dedi: «Ardımca gəlin, Mən sizi müjdəçi edəcəyəm». Bunun mənası bu idi: İsa onları Xoş Xəbəri vəz etməyə göndərəcək ki, insanlar həqiqəti bilsinlər. Peter və Andrey dərhal torları kənara atıb Onun ardınca getdilər. İsa oradan irəli gedib başqa iki qardaşı – Zavday oğlu Yaqubu və onun qardaşı Yəhyanı gördü. Onlar ataları Zavdayla birlikdə qayıqda torlarını düzəldirdilər. İsa onları çağırdı. Onlar da dərhal qayığı və atalarını qoyub Onun ardınca getdilər. Həmçinin digər şagirdlər də İsa onları çağıranda dərhal Onun ardınca getdilər. İsa onlara xəstələrə şəfa vermək və natəmiz ruhları qovmaq səlahiyyətini verdi.



Beləliklə, İsa daim Onunla qalmaları üçün Özünə on iki nəfər şagird seçdi. İsa onları Öz həvariləri adlandırdı. Şagirdlərin adları budur: Şimon, Andrey, Yəhya, Filip, Bartalmay, Matta, Halfay oğlu Yaqub, Tomas, Tadday, Millətçi adlanan Şimon və İsaya xəyanət edən Yəhuda İskaryot. Şagirdlərin hamısı sadə adamlar idi, amma Allah onlara Öz Oğlu İsa Məsihin dostları və şagirdləri olmaq səadətini nəsib etmişdi.

*MATTA 4:12–22;*
*MARK 3:14–19*



## İsanın ilk möcüzəsi

Bir dəfə İsa şagirdləri ilə birlikdə Qalileyanın Qana kəndinə toya dəvət olundu. Elə oldu ki, toy ziyafəti vaxtı şərab qurtardı. İsanın anası da orada idi. O, İsaya dedi: «Şərabları qalmadı». Lakin İsa anasına Onun vaxtının hələ çatmadığını söylədi. Onda Məryəm xidmətçilərə İsanı göstərib dedi: «Sizə nə desə, edin».

Orada altı ədəd böyük daş küp var idi. İsa xidmətçilərə dedi: «Küpləri su ilə doldurun». Xidmətçilər bunu edəndən sonra İsa onlara oradan bir az şərab götürüb toyağasına aparmağı əmr etdi.

Toyağası şəraba çevrilmiş suyun dadına baxdı, sonra bəyi çağırıb ona dedi: «Hər kəs əvvəlcə əla şərabı, çox içiləndən sonra isə adi şərabı təqdim edir. Amma sən əla şərabı indiyə saxlamısan». Toyağası bu şərabın haradan gəldiyini bilmirdi. Bunu yalnız küplərə su dolduran xidmətçilər bilirdilər.

Beləliklə, İsa Qalileyanın Qana kəndində bu ilk möcüzəsini etdi və Öz izzətini göstərdi. Şagirdləri də Ona iman etdilər.

*YƏHYA 2:1–11*





## İsa satıcıları məbəddən qovur

Pasxa bayramı ərəfəsində İsa Yerusəlimə gəldi. Məbədə girib gördü ki, orada öküz, qoyun, göyərçin satırlar; sərraflar da orada oturmuşdular. İsa iplərdən bir qamçı düzəldib hamını qoyun və öküzlərlə birgə məbəddən qovdu, sərrafların masalarını çevirib pullarını yerə tökdü. Sonra O, göyərçin satanlara dedi: «Bunları buradan götürün. Atamın evini bazara döndərməyin». Şagirdləri də Müqəddəs Yazıların «evinin qeyrəti Məni yandırıb-yaxacaq» sözünü xatırladılar.

İsa məbəddə bu işləri etdikdən sonra Yəhudilər Ondan soruşdular: «Bunları etməyə ixtiyarın olduğunu bizə hansı əlamətlə göstərə bilərsən?» İsa onlara cavab verdi: «Bu məbədi dağıdın, üç günə Mən onu təzədən quraram». Buna Yəhudilər belə cavab verdilər: «Bu məbəd qırx altı ilə tikilib, Sən onu üç günəmi quracaqsan?» Lakin İsa məbəd deyəndə Öz bədənini nəzərdə tuturdu. O, ölülər arasından dirildikdən sonra Onun şagirdləri bu sözləri yada saldılar, Müqəddəs Yazılara və İsanın dediklərinə iman etdilər.

İsanın Pasxa bayramında Yerusəlimdə olarkən etdiyi möcüzələri bir çox adam görüb Ona iman etdi.

*YƏHYA 2:13–23*





## İsanın Nikodimlə söhbəti

Yəhudi rəislərindən biri, Nikodim adlı farisey* gecə vaxtı gizlicə İsanın yanına gəlib dedi: «Ey Müəllim, bilirik ki, Sən Allah tərəfindən göndərilmisən, çünki Allah ona yar olmasa, heç kəs Sənin göstərdiyin əlamətləri edə bilməz». İsa ona cavab verdi: «Doğrusunu, doğrusunu sənə deyirəm: bir kəs yenidən doğulmasa, Allahın Padşahlığını görə bilməz». Nikodim Ondan soruşdu: «Yaşa dolmuş bir adam necə yenidən doğula bilər? O, ikinci dəfə anasının bətnindən doğula bilərmi?»

İsa cavab verdi: «Doğrusunu, doğrusunu sənə deyirəm: bir kəs sudan və Ruhdan doğulmasa, Allahın Padşahlığına daxil ola bilməz. Sənə "yenidən doğulmalısınız" dediyimə heyrət etmə». Nikodim Onu başa düşməyib soruşdu: «Bu şeylər necə ola bilər?». İsa dedi: «Musa çöldə ilanı yuxarı qaldırdığı kimi Bəşər Oğlu* da yuxarı qaldırılmalıdır ki, Ona iman edən hər kəs əbədi həyata malik olsun».

Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun. Allah dünyanı mühakimə etmək üçün deyil, Oğlunun vasitəsilə xilas etmək üçün Onu dünyaya göndərdi. Ona iman edən mühakimə olunmur, iman etməyənsə artıq mühakimə olunub, çünki Allahın vahid Oğlunun adına iman etməyib. Mühakimə bundan ibarətdir ki, dünyaya nur gəldi, amma insanlar qaranlığı nurdan daha çox sevdilər, çünki əməlləri pis idi. Pislik edən hər kəs nura nifrət edər, əməllərinin üzə çıxmaması üçün nura tərəf gəlməz, çünki əməlləri pisdir. Həqiqətə əməl edən isə nura tərəf gələr ki, əməllərini Allah naminə etdiyi bəlli olsun.

*YƏHYA 3:1–21*





## İsa və Samariyalı qadın

Bir gün İsa Yəhudadan, İsrailin cənub hissəsindən Qalileyaya gedirdi. Yəhuda və Qalileya arasında Samariya yerləşirdi. Samariyalılar da Yəhudilər kimi yeri və göyü yaradan tək Allaha inanırdılar. Amma onların öz adətləri, öz kahinləri, hətta bir vaxtlar öz məbədləri də var idi. Lakin Yəhudilər onu dağıtmışdılar. Yəhudilərlə Samariyalılar daim düşmənçilik edirdilər.

İsa Öz şagirdləri ilə Samariyalıların Sixar adlanan şəhərinə gəldi. Yol İsanı yorduğu üçün quyunun yanında oturdu. Onun şagirdləri isə yemək almağa getmişdilər. Günorta idi. Bir Samariyalı qadın gəlib quyudan su çəkmək istəyirdi. İsa ona dedi: «Mənə su ver, içim». Qadın təəccüblənib Ona dedi: «Sən bir Yəhudisən, mənsə Samariyalı bir qadın. Sən necə məndən su istəyə bilərsən?» İsa ona cavab verdi: «Əgər sən Allahın bəxşişini və "Mənə su ver, içim" deyənin Kim olduğunu bilsəydin, özün Ondan su istəyərdin, O da sənə həyat suyu verərdi». Qadın Ona dedi: «Ağa, su çəkmək üçün bir qabın yox, quyu da dərindir. Bəs o həyat suyunu haradan götürəcəksən?» İsa ona cavab verdi: «Bu sudan içən hər kəs yenə susayar, amma Mənim ona verəcəyim sudan kim içsə, heç vaxt susamaz. Lakin ona verəcəyim su onun daxilində əbədi həyat verən bir su qaynağına çevriləcək». Qadın Ondan Allaha harada – Samariyalıların ata-babaları ibadət etdiyi dağda, yoxsa Yerusəlimdə ibadət etmək lazım olduğunu soruşdu. İsa qadına cavab verdi: «Allah Ruhdur və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidirlər». Samariyalı qadın Ona dedi: «Bilirəm ki, "Məsih" deyilən məsh olunmuş Şəxs gələcək və gələndə bizə hər şeyi bildirəcək». İsa ona dedi: «Səninlə danışan Odur; O, Mənəm».

Bu zaman qadın səhəngini yerə qoydu və şəhərə gedib adamlara görüşdüyü Adam haqqında danışıb, onlara dedi: «Bəlkə, elə Məsih Odur?» Qadının sözü ilə o şəhərdən olan



Samariyalıların çoxu İsaya iman etdilər. Buna görə də onlar İsadan yanlarında qalmasını xahiş etdilər. İsa orada iki gün qaldı. Onu dinləyərkən daha da çox adam Ona iman etdi.

*YƏHYA 4:1–42*



## Qeyri-adi balıq ovu

İsa tez-tez Qalileya gölünün sahilində xalqa Allahın Kəlamını öyrədirdi. Bir dəfə Allahın Kəlamını dinləmək istəyənlər o qədər çox idi ki, İsa danışmağa çətinlik çəkirdi. Sahilin yanında suda iki boş qayıq var idi. Onlardan biri Şimonun idi. İsa Şimonun qayığına minib sahildən bir az uzaqlaşdı və gölün sahilində dayanan xalqa təlim verməyə başladı.

İsa təlimi bitirib Şimona dedi: «Qayığı dərinliyə aparın və torlarınızı balıq tutmaq üçün suya atın». Şimon cavab verdi: «Ustad, biz bütün gecə çalışdıq, lakin heç nə tuta bilmədik. Amma Sənin sözünə görə yenə də torları ataram». Torlarını dərinliyə atıb onlar o qədər balıq tutdular ki, torlar cırılmağa başladı. Yaxınlıqda balıq tutan dostları Yaqubla Yəhyanı çağırdılar, onlar gəlib iki qayığı balıqla doldurdular. Amma qayıqlar ağırlıqdan batmağa başladı. Bunu görən Şimon Peter İsanın ayaqlarına düşdü və belə dedi: «Ya Rəbb, məndən uzaqlaş, axı mən günahkar bir adamam». Peteri heyrət bürümüşdü, Rəbbin onun yanında olmasına özünü layiq bilmirdi. Amma İsa Şimona belə dedi: «Qorxma, bundan belə, müjdəçi olacaqsan».

Vaxt keçdi, Peter, həqiqətən, vəz etməyə və insanları Rəbb İsaya imana gətirməklə onları xilas etməyə başladı.

*LUKA 5:1–10*





## İflic adamın şəfa alması

İsa Kefernahum şəhərində olanda müxtəlif yerdən gəlmiş bir çox sadə və adlı-sanlı adamlar Onun yanına toplaşmışdılar. İsa onlara təlim öyrədirdi. Rəbbin qüdrəti Onunla idi və xəstələrə şəfa verməsində aşkar olurdu. Bu vaxt İsanın vəz etdiyi evin yanına bir neçə nəfər yataqda yatan bir iflic adamı gətirdi. Onlar bu adamı içəri gətirib İsanın önünə qoymağa çalışırdılar ki, İsa ona şəfa versin. Amma ev adamla dolu olduğuna görə onlar xəstəni qapıdan keçirə bilmədilər. Ona görə də evin damına çıxıb kirəmitləri söküb açdıqları yerdən xəstəni yatağı ilə birgə aşağı endirdilər və ortalığa, İsanın qarşısına qoydular. İsa onların imanını görüb iflicə dedi: «Dostum, günahların bağışlandı».

İlahiyyatçılar və fariseylər belə düşünməyə başladılar: «Küfr danışan bu Adam kimdir ki? Tək Allahdan başqa günahları kim bağışlaya bilər?» İsa onların nə fikirləşdiyini bilib cavab verdi: «Niyə ürəyinizdə belə düşünürsünüz? Bax hansı daha asandır? “Günahların bağışlandı” demək, yoxsa “Qalx, yeri!” demək? Lakin siz bilin ki, Bəşər Oğlunun yer üzündə günahları bağışlamaq səlahiyyəti var» və iflicə dedi: «Sənə deyirəm, qalx, yatağını götür, evinə get!»

Xəstə durdu, yatağını götürdü və böyük şəfa möcüzəsinə görə Allaha həmdlər etdi. Orada olanların hamısı Allaha həmdlər edərək «Bu gün möcüzəli işlər gördük!» deyib nida etdilər.

*LUKA 5:17–26*





## İsanın Dağüstü vəzi. Bəxtiyarlıq barədə

Bir gün İsa izdihamı görüb dağa çıxdı. İsanın xalqa burada söylədiyi vəz «Dağüstü vəz» adlanır. Allahın Öz xalqına Əhdi-Ətiq dövründə verdiyi On Əmr kimi Dağüstü vəz də insanın həyatının mənəvi əsaslarını özünə daxil edir və Allahın Padşahlığına yol göstərir. Şagirdlər və xalq İsanın yanında gəlib oturanda O, onları öyrətməyə başladı:





«Nə bəxtiyardır ruhən yoxsullar!
Səmavi Padşahlıq onlarındır.
Nə bəxtiyardır yaslı olanlar!
Onlar təsəlli tapacaqlar.
Nə bəxtiyardır həlimlər!
Onlar yer üzünü irs alacaqlar.
Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar!
Onlar doyacaqlar.
Nə bəxtiyardır mərhəmətli olanlar!
Onlara mərhəmət ediləcək.
Nə bəxtiyardır ürəyi təmiz olanlar!
Onlar Allahı görəcəklər.
Nə bəxtiyardır sülhyaradanlar!
Onlar Allahın övladları adlanacaqlar.
Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər!
Səmavi Padşahlıq onlarındır.

İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər.

Siz yer üzünün duzusunuz. Amma duz öz dadını itirərsə, nə ilə duzlanar? Artıq çölə atılıb insanlar tərəfindən tapdalanmaqdan başqa bir şeyə yaramaz.

Siz dünyanın nurusunuz. Dağın zirvəsində qurulan şəhər gizli qala bilməz. Heç kim çırağı yandırıb qabın altına qoymaz. Əksinə, çıraqdana qoyar ki, evdəkilərin hamısını işıqlandırsın. Eləcə də, sizin nurunuz insanların qarşısında elə parlasın ki, onlar xeyirxah işlərinizi görüb göylərdə olan Atanızı izzətləndirsinlər».

*MATTA 5:3–16*

## Dağüstü vəz: Musanın Qanunu haqqında

«Sanmayın ki, Mən Qanun və Peyğəmbərlərin sözlərini ləğv etmək üçün gəldim. Mən onları ləğv etmək üçün yox, yerinə yetirmək üçün gəldim. Sizə doğrusunu deyirəm: göy və yer keçib getmədən, hər şey icra olmadan Qanundan ən kiçik bir hərf və ya bir nöqtə belə, yox olmayacaq. Beləliklə, bu əmrlərdən ən kiçiyindən birini kim pozarsa və başqalarına da bu cür öyrədərsə, Səmavi Padşahlıqda ən kiçik sayılacaq. Amma kim bu əmrləri yerinə yetirər və başqalarına da öyrədərsə, Səmavi Padşahlıqda böyük sayılacaq. Sizə bunu deyirəm: əgər sizin salehliyiniz ilahiyyatçılarla fariseylərin salehliyindən artıq olmasa, Səmavi Padşahlığa əsla girə bilməzsiniz.

Siz qədim zamanlarda adamlara "Qətl etmə, kim qətl edərsə, mühakiməyə məruz qalacaq" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm, qardaşına hirslənən hər kəs mühakiməyə məruz qalacaq. Kim qardaşına "axmaq" deyərsə, Ali Şuranın* hökmünə məruz qalacaq. Kim qardaşına "səfeh" deyərsə, cəhənnəm oduna məruz qalacaq. Buna görə də qurbangah qarşısına qurbanını gətirdiyin zaman yadına düşsə ki, qardaşının sənə qarşı bir şikayəti var, qurbanını qurbangahın qarşısında qoy, get, əvvəlcə qardaşınla barış və ondan sonra gəl, qurbanını təqdim et.

"Zina etmə" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm, qadına şəhvətlə baxan hər adam artıq ürəyində onunla zina etmiş olur. Kim arvadını boşayarsa, ona talaq kağızı versin" deyilmişdir. Mənsə sizə deyirəm, cinsi əxlaqsızlıqdan başqa bir səbəbə görə arvadını boşayan hər kəs onu zinaya sövq edir. Boşanmış qadınla evlənən də zina edir.

Yenə qədim zamanlarda adamlara "Yalandan and içmə, amma andlarını Rəbbin önündə yerinə yetir" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm, heç and içmə, nə göyə, çünki o, Allahın taxtıdır; nə yerə, çünki yer Onun ayaqlarının altındakı kətildir; nə də Yerusəlimə, çünki o, böyük Padşahın şəhəridir. Başına da and içmə, çünki sən hətta bir dənə saçı belə, ağ və ya qara edə bilməzsən. Ancaq sözünüzdə "bəi"niz bəli, "xeyr"iniz xeyr olsun. Bundan qalanı şər olandandır».

*MATTA 5:17–37*



## Dağüstü vəz: Məhəbbət və dua haqqında

«"Göz əvəzinə göz, diş əvəzinə diş" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm, pis adama qarşı durma. Əksinə, sağ üzünə şillə vurana o birini də çevir. Səni məhkəməyə verib köynəyini götürmək istəyənə üst paltarını da ver. Kim səni min addım yol getməyə məcbur edirsə, sən onunla iki min addım yol get. Səndən bir şey diləyənə ver, səndən borc istəyəni əliboş geri qaytarma.

"Qonşunu sev və düşməninə nifrət et" deyildiyini eşitmisiniz. Mənsə sizə deyirəm, düşmənlərinizi sevin, sizi təqib edənlər üçün dua edin, sizi lənətləyənlərə xeyir-dua verin, sizə nifrət edənlərə yaxşılıq edin, sizi incidənlər və təqib edənlər üçün dua edin. Belə ki, siz göylərdə olan Atanızın övladları olasınız, çünki O, günəşini həm pislərin, həm yaxşıların üzərinə doğurur, yağışını da həm salehlərin, həm də saleh olmayanların üzərinə yağdırır. Əgər sizi sevənləri sevirsinizsə, nə mükafatınız olacaq? Vergiyığanlar da belə etmirmi? Əgər yalnız qardaşlarınızı salamlayırsınızsa, başqalarından artıq nə etmiş olursunuz? Bütpərəstlər də belə etmirmi? Ona görə də Səmavi Atanız kamil olduğu kimi, siz də kamil olun. Ehtiyatlı olun, siz saleh iş görəndə bunu insanların önündə, onlara göstərmək üçün etməyin. Yoxsa göylərdə olan Atanızdan mükafat almazsınız. Ona görə də sədəqə verdiyin zaman önündə şeypur səsi ilə car çəkmə, çünki adamlar onları izzətləndirsin deyə ikiüzlülər sinaqoqlarda və küçələrdə belə edirlər. Sizə doğrusunu deyirəm: onlar öz mükafatlarını alıblar. Amma sən sədəqə verdiyin zaman sol əlin sağ əlinin nə etdiyini bilməsin. Belə ki, verdiyin sədəqə gizli qalsın. Gizlində olanı görən Atan səni mükafatlandıracaq.



Dua etdiyiniz zaman da ikiüzlülər kimi olmayın, çünki belələri adamlar onları görsün deyə sinaqoqlarda və küçə tinlərində durub dua etməyi sevirlər. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar. Amma sən dua etdiyin zaman öz otağına gir və qapını örtüb gizlində olan Atana dua et. Gizlində olanı görən Atan səni mükafatlandıracaq.

Dua edəndə bütpərəstlər kimi boşboğazlıq etməyin, çünki onlar çox söz söyləməklə eşidiləcəklərini düşünürlər. Siz onlara bənzəməyin! Atanız nələrə ehtiyacınız olduğunu siz Ondan diləməzdən əvvəl bilir. Buna görə siz belə dua edin:




*MATTA 5:38–48; 6:9–13*

## Dağüstü vəz: Allaha münasibət haqqında

«Oruc tutduğunuz zaman ikiüzlülər kimi qaşqabaqlı gəzməyin. Onlar oruc tutduqlarını insanlara göstərmək üçün üzlərini tutqun hala salırlar. Sizə doğrusunu deyirəm: onlar mükafatlarını alıblar. Amma sən oruc tutanda başına yağ çək və üzünü yu. Belə ki, insanlara deyil, gizlində olan Atana oruclu görünəsən. Gizlində olanı görən Atan səni mükafatlandıracaq.

Yer üzündə özünüzə xəzinələr yığmayın. Orada güvə və pas onları məhv edər, ya da oğrular girib oğurlayarlar. Bunun yerinə özünüzə göydə xəzinələr yığın. Orada nə güvə, nə pas onları məhv edər, nə də oğrular girib oğurlayarlar, çünki xəzinən haradadırsa, ürəyin də orada olacaq.

Bədənin çırağı gözdür. Əgər gözün sağlam olarsa, bütün bədənin də nurlu olacaq. Yox, əgər gözün zəif görərsə, bütün bədənin qaranlıq olacaq. Əgər səndəki “nur” qaranlıqdırsa, zülmət nə qədər böyükdür!

Heç kim iki ağaya qulluq edə bilməz, çünki ya birinə nifrət edib o birisini sevəcək, ya da birinə bağlı qalıb o birisinə xor baxacaq. Siz həm Allaha, həm də sərvətə qulluq edə bilməzsiniz.

Buna görə sizə deyirəm: “Nə yeyəcəyik?” və ya “Nə içəcəyik?” deyə canınız üçün, “Nə geyinəcəyik?” deyə bədəniniz üçün qayğı çəkməyin. Can yeməkdən, bədən isə geyinməkdən daha vacib deyilmi? Göydə uçan quşlara baxın: onlar nə əkir, nə biçir, nə də məhsulu anbarlarda saxlayır. Amma Səmavi Atanız onları yedizdirir. Siz onlardan daha qiymətli deyilsinizmi? Hansı biriniz qayğı çəkməklə ömrünü bir anlıq belə, uzada bilər? Nəyə görə geyim üçün qayğı çəkirsiniz? Görün çöl zanbaqları necə böyüyür: onlar nə zəhmət çəkir, nə də ip əyirir. Lakin sizə bunu deyirəm, bütün cah-calalı içində olan Süleyman belə,



bunlardan biri kimi geyinməmişdi. Ey imanı az olanlar, bu gün olub sabah ocağa atılan çöl otunu Allah belə geyindirirsə, sizi geyindirəcəyi daha da yəqin deyilmi? Beləliklə, “Nə yeyəcəyik?”, “Nə içəcəyik?” və ya “Nə geyəcəyik?” deyə qayğı çəkməyin. Bütün bu şeyləri bütpərəstlər axtarırlar. Doğrudan da, Səmavi Atanız bütün bunlara ehtiyacınız olduğunu bilir. Ona görə də siz əvvəlcə Allahın Padşahlığını və Onun salehliyini axtarın. Onda bunların hamısı sizə əlavə olaraq veriləcək. Beləliklə, sabahın qayğısını çəkməyin, sabahkı gün özü üçün qayğı çəkəcək. Hər günün öz yamanlığı kifayətdir!»

*MATTA 6:16–34*



## Dağüstü vəz: İnsanlara münasibət haqqında

«Mühakimə etməyin ki, siz də mühakimə olunmayasınız, hansı hökmlə mühakimə etsəniz, onunla da mühakimə olunacaqsınız. Siz hansı ölçü ilə ölçsəniz, sizin üçün də eyni ölçü ilə ölçüləcək. Sən nə üçün qardaşının gözündə çöpü görürsən, amma öz gözündəki tiri seçmirsən? Öz gözündə tir ola-ola qardaşına necə deyə bilərsən: “Qoy gözündəki çöpü çıxarım!” Ey ikiüzlü, əvvəlcə öz gözündən tiri çıxar, onda qardaşının gözündəki çöpü necə çıxarmağı aydın görərsən. Müqəddəs olanı itlərə verməyin və mirvarilərinizi donuzlara atmayın; yoxsa bunları ayaqları ilə tapdalayarlar və dönüb sizi parçalayarlar.

Diləyin, sizə veriləcək, axtarın, tapacaqsınız, qapını döyün və sizə açılacaq, çünki hər diləyən alar, axtaran tapar, qapı döyənə açılar. Aranızdan kimsə oğlu ondan çörək diləsə, ona daş verərmi? Ya da balıq diləsə, ona ilan verərmi? Beləliklə, siz pis olduğunuz halda öz övladlarınıza yaxşı hədiyyələr verməyi bilirsinizsə, göylərdə olan Atanızın Ondan diləyənlərə gözəl hədiyyələr verəcəyi nə qədər yəqindir!

İnsanların sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin, çünki Qanun və Peyğəmbərlərin söylədiyi də elə budur.

Dar qapıdan girin, çünki həlaka aparan qapı geniş və yolu enlidir. Bu qapıdan girənlər çoxdur. Amma həyata aparan qapı dar və yolu ensizdir, onu tapanlar azdır».

*MATTA 7:1–14*





## Dağüstü vəz: Həqiqət və yalan

«Yalançı peyğəmbərlərdən özünüzü gözləyin! Onlar yanınıza quzu cildində gələrlər, amma daxilən yırtıcı qurddurlar. Onları bəhrələrindən tanıyacaqsınız. Qaratikandan üzüm, yaxud qanqaldan əncir yığılarmı? Beləcə, hər yaxşı ağac yaxşı bəhrə, pis ağac isə pis bəhrə verər. Yaxşı ağac pis bəhrə verə bilməz, pis ağac da yaxşı bəhrə verə bilməz. Yaxşı bəhrə verməyən hər ağac kəsilər və oda atılar. Beləliklə, yalançı peyğəmbərləri bəhrələrindən tanıyacaqsınız.

Mənə "ya Rəbb, ya Rəbb" deyən hər kəs Səmavi Padşahlığa girməyəcək; lakin göylərdə olan Atamın iradəsini yerinə yetirən oraya girəcək.

O gün bir çoxları Mənə deyəcək: "Ya Rəbb, ya Rəbb, biz Sənin adınla peyğəmbərlik etmirdikmi? Sənin adınla cinləri* qovmurduqmu? Sənin adınla bir çox möcüzələr yaratmırdıqmı?" Onda Mən onlara bəyan edəcəyəm: "Ey qanunsuzluq edənlər, Mən sizi heç vaxt tanımamışam, Məndən uzaq olun!"

Beləliklə, bu sözlərimi eşidib onlara əməl edən hər kəs öz evini qaya üzərində quran ağıllı adama bənzəyir. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Amma ev uçmaz, çünki təməli qaya üzərində qurulub. Bu sözlərimi eşidib onlara əməl etməyən hər kəs isə öz evini qum üzərində tikən ağılsız adama bənzəyir. Yağış yağar, sellər gələr, yellər əsər və o evə hücum edər. Ev uçar və onun yıxılması bir müsibət olar».

İsa bu sözləri bitirəndə xalq Onun təliminə təəccübləndi, çünki onlara ilahiyyatçılar kimi deyil, səlahiyyət sahibi kimi təlim öyrədirdi.

*MATTA 7:15–29*





## Dul qadının oğlunun dirilməsi

Bir dəfə İsa Nain adlanan bir şəhərə getdi. Şagirdləri və böyük bir izdiham Onunla gedirdi. İsa şəhər darvazasına yaxınlaşarkən bir dul ananın yeganə oğlunun dəfn mərasimini gördü. Rəbb qadını görəndə ona rəhmi gəldi və dedi: «Ağlama!» Yaxınlaşıb mafəyə toxundu və cənazəni aparanlar dayandılar. İsa dedi: «Ey cavan oğlan, sənə deyirəm: qalx!» Ölü qalxıb danışmağa başladı. İsa onu anasına verdi. Hamını qorxu bürüdü. «Aramızda böyük bir peyğəmbər ortaya çıxdı!» və «Allah Öz xalqına nəzər saldı!» deyərək Allahı izzətləndirdilər.

*LUKA 7:11–16*





## Əkinçi barədə məsəl

İsa camaata əkinçi barədə məsəl danışdı:

«Bir əkinçi toxum səpməyə çıxdı. O, toxumları səpən zaman toxumlardan bəzisi yol kənarına düşdü və quşlar gəlib onları dənlədi. Bəzisi torpağı çox olmayan daş-kəsəkli yerlərə düşdü. Torpağı dərin olmadığına görə tez cücərdilər. Lakin günəş doğanda qarsalandılar və kökləri olmadığına görə qurudular. Bəzisi tikanlar arasına düşdü. Tikanlar böyüyüb onları boğdu. Başqaları isə münbit torpağa düşdü. Bəzisi yüz, bəzisi altmış, bəzisi isə otuz qat səmərə verdi. Qulağı olan eşitsin!»

Sonra İsa bu məsəlin mənasını şagirdlərinə anlatdı:

«Kim Səmavi Padşahlıqla bağlı kəlamı eşidib anlamırsa, iblis onun ürəyində səpilmiş olanı oğurlayır. Yol kənarına səpilən toxum budur.

Daş-kəsəkli yerlərə səpilən isə kəlamı eşidir və dərhal sevinclə qəbul edir. Lakin onda kök olmadığına görə dözümü az olur, kəlama görə əziyyət və ya təqib olunan kimi yıxılır.

Tikanlar arasına səpilən odur ki, kəlamı eşidir, lakin gündəlik qayğılar və var-dövlətin aldadıcılığı kəlamı boğur və kəlam barsız olur.

Münbit torpağa səpilənsə odur ki, kəlamı eşidir, anlayır və doğrudan da, səmərə – bəzisi yüz, bəzisi altmış, bəzisi otuz qat səmərə verir».

*MATTA 13:3–9, 18–23*





## Allahın Padşahlığı barəsində altı məsəl

Bir dəfə İsa evdən çıxıb dəniz kənarında oturdu. Onun yanına çoxlu adam toplaşdı. İsa qayığa minib sahildə dayanan camaata təlim öyrətməyə başladı və onlarla məsəllər vasitəsilə danışdı.

«Səmavi Padşahlıq tarlasına yaxşı toxum səpmiş bir adama bənzəyir. Hamı yatanda onun düşməni gəldi və





buğdaların arasına alaq toxumu səpib getdi. Buğda böyüyüb sünbüllər əmələ gələndə alaqlar göründü. Ev sahibinin qulları gəlib ona belə dedilər: “Ağa, sən tarlana yaxşı toxum səpmədinmi? Bəs bu alaq haradan əmələ gəldi?” O isə qullara dedi: “Bunu düşmən etmişdir”. Qullar da ona dedilər: “İstəyirsənmi gedib onları çıxaraq?” O dedi: “Yox, çünki alaqları çıxararkən onlarla birgə buğdanı da qopararsınız. Qoy biçinə qədər hər ikisi birlikdə böyüsün. Biçin vaxtı mən biçinçilərə deyəcəyəm: ’Əvvəlcə alaqları yığın və yandırmaq üçün onlardan dərz bağlayın, buğdanı isə anbarıma toplayın‘”».

İsa onlara digər məsəli də danışdı:

«Səmavi Padşahlıq bir adamın götürüb öz tarlasında səpdiyi xardal toxumuna bənzəyir. Xardal toxumu bütün toxumların ən kiçiyi olsa da, böyüdükdə bütün bostan bitkilərindən hündür, lap ağac boyda olur. Belə ki, göydə uçan quşlar gəlib onun budaqlarında yuva qurur».

İsa onlara başqa məsəllər də danışdı:

«Səmavi Padşahlıq xəmir mayasına bənzəyir. Qadın onu üç kisə una qarışdırıb bütün xəmir acıyanadək saxlayır.

Səmavi Padşahlıq tarlada gizlədilən bir xəzinəyə bənzəyir. Onu tapan adam bunu sirli saxladı. Tapdığına görə sevinərək gedib bütün varını satdı və o tarlanı aldı.

Səmavi Padşahlıq həmçinin gözəl mirvarilər axtaran bir tacirə bənzəyir. O, çox dəyərli olan bir mirvari tapanda gedib bütün varını satdı və onu aldı.

Səmavi Padşahlıq bir də dənizə atılan və hər cür balıq tutan bir tora bənzəyir. Tor dolduğu zaman onu sahilə çəkdilər və oturub yaxşılarını qablara yığdılar, pisləri isə kənara atdılar. Bu dövrün sonunda da belə olacaq. Mələklər gəlib pisləri salehlərin arasından kənar edəcəklər. Sonra onları odlu sobaya atacaqlar. Orada ağlaşma və diş qıcırtısı olacaq».

*MATTA 13:24—33, 44—50*

## İsa göldə tufanı yatırır

Bir gün İsa Öz şagirdləri ilə qayıqla Qalileya gölünün o biri sahilinə keçirdi. Onlar qayıqda gedərkən İsanı yuxu apardı. Birdən göldə tufan qopdu. Qayıq dalğalarla örtülürdü. Onda şagirdlər İsanı oyadıb dedilər: «Ya Rəbb, bizi xilas et, biz həlak oluruq!» İsa onlara dedi: «Ey imanı az olanlar, niyə qorxursunuz?» İsa durub küləyə qadağan etdi və gölə dedi: «Sus, sakit ol!» Külək dayandı və dərin sükut çökdü.

Şagirdlər qorxu və heyrət içində qalıb bir-birlərindən soruşurdular: «Bu Adam kimdir ki, həm küləklərə, həm suya əmr verir, onlar da itaət edir?»

*MATTA 8:23–27; MARK 4:37–41; LUKA 8:22–25*





## Yairin qızının dirilməsi

Bir gün İsa Qalileya dənizində yanına başqa-başqa yerlərdən gələn xalqa təlim öyrədirdi. Sinaqoq rəislərindən Yair adlı bir adam gəlib İsanı görəndə ayaqlarına düşüb yalvardı: «Qızcığazım can üstündədir. Gəl əllərini onun üstünə qoy ki, sağalıb yaşasın». İsa da onunla getdi. Ardınca çoxlu adam gedərək hər tərəfdən Onu sıxışdırırdı.

Orada on iki il qanaxma xəstəliyindən əziyyət çəkən bir qadın var idi. O, neçə həkimin əlindən xeyli əzab çəkmiş, amma şəfa tapmamışdı. Bu qadın İsa haqqında eşidib izdihamın içindən keçərək Onun arxasından gəldi və Onun paltarına toxundu. Qadın düşünürdü: «Heç olmasa, paltarına toxunsam, sağalaram». Dərhal onun qanaxması kəsildi və bədənindəki xəstəlikdən sağaldığını bildi.

Bu vaxt sinaqoq rəisinin evindən adamlar gəlib dedilər: «Qızın öldü. Daha Müəllimi niyə narahat edirsən?» Lakin İsa bu sözü eşidib sinaqoq rəisinə dedi: «Qorxma, yalnız iman et!» İsa sinaqoq rəisinin evinə gələndə çox hay-küy, ağlaşıb nalə çəkən qohumları gördü. İsa onlara dedi: «Niyə hay-küy salıb ağlaşırsınız? Uşaq ölməyib, sadəcə olaraq, yatıb». Onlar İsaya güldülər. Amma İsa Peteri, Yaqubu, Yəhyanı və qızın ata-anasını Özü ilə götürüb qız olan otağa girdi. İsa uşağın əlindən tutub dedi: «Qızcığaz, sənə deyirəm: qalx!» Qız dərhal qalxıb gəzməyə başladı. Bu möcüzəni görənlər mat-məəttəl qalmışdılar.

*MARK 5:21–42*





## İsa beş min nəfəri doyuzdurur

Bir gün İsa şagirdləri ilə Qalileya gölünün o biri tərəfinə, Tiberiya ətrafına getdi. Onun ardınca çoxlu adamlar gedirdi, çünki xəstələrə göstərdiyi möcüzələri görürdülər.

İsa dağa çıxıb şagirdləri ilə orada oturdu. Yəhudilərin Pasxa bayramı yaxınlaşırdı. İsa başını qaldıraraq böyük bir izdihamın yanına gəldiyini görüb Filipə dedi: «Haradan çörək alıb bu adamları yedirək?» Bu sözləri onu sınamaq üçün söylədi, çünki Özü nə edəcəyini artıq bilirdi. Filip Ona cavab verdi: «Bunlara iki yüz dinarlıq* çörək də çatmaz ki, hərəsi bir tikə yemək yesin».

Şagirdlərindən biri Şimon Peterin qardaşı Andrey Ona dedi: «Burada beş kiçik arpa çörəyi ilə iki balığı olan bir oğlan var, amma bu qədər adam üçün bunlar nədir ki?» İsa dedi: «Xalqı yerə oturdun». O yer otla örtülmüşdü. Hamı oturdu. Adamların sayı beş minə yaxın idi.

O zaman İsa çörək və balıqları götürüb şükür edərək hər kəsə istədiyi qədər payladı. Onlar yeyib-doyandan sonra İsa şagirdlərinə dedi: «Artıq qalan hissələri toplayın ki, heç bir şey zay olmasın». Bunları topladılar və beş arpa çörəyini yeyənlərin qabağından qalan hissələrdən on iki zənbil doldurdular.

O zaman İsanın göstərdiyi möcüzəni görən adamlar «Həqiqətən, dünyaya gəlməli olan peyğəmbər Budur!» dedilər.

*YƏHYA 6:3–14*





## İsa suyun üstü ilə yeriyir

Çörək və balıq möcüzəsindən sonra İsa dərhal şagirdlərinə Onun camaatı buraxmasını gözləmədən qayığa minib o biri sahilə keçmələrini əmr etdi. İsa camaatı buraxıb dua etmək üçün dağa qalxdı. Axşam düşdükdə orada tək qaldı. Şagirdlərin mindiyi qayıq isə artıq gölün ortasında idi və güclü külək olduğundan dalğalar qayığa zərbələr endirirdi. Səhərə yaxın onlar İsanın gölün üstü ilə yeriyərək onların yanına gəldiyini gördülər. Şagirdlər İsanın gölün üstü ilə yeridiyini görəndə «Bu bir kabusdur!» deyərək lərzəyə düşdülər və qorxudan qışqırdılar. Lakin İsa dərhal onlarla danışıb dedi: «Cəsarətli olun, Mənəm, qorxmayın!»

Peter cavabında Ona dedi: «Ya Rəbb, əgər Sənsənsə, mənə suların üstü ilə yanına gəlməyimi əmr et». İsa «Gəl!» dedi. Peter də qayıqdan çıxıb suların üstü ilə yeridi və İsaya tərəf getdi. Amma küləyin güclü əsdiyini görəndə qorxdu və batmağa başladı. «Ya Rəbb, məni xilas et!» deyərək qışqırırdı. İsa o an əlini uzadıb onu tutdu və dedi: «Ey imanı az olan adam, nə üçün şübhə etdin?» Onlar qayığa mindikləri zaman külək sakitləşdi.

Qayıqda olanlar «Doğrudan da, Sən Allahın Oğlusan!» deyərək Ona yaxınlaşıb səcdə etdilər.

*MATTA 14:22–33*





## İsanın görünüşü dəyişir

Bir gün İsa Özü ilə Peter, Yəhya və Yaqubu götürüb yüksək bir dağa çıxdı. Onların qarşısında İsanın görünüşü dəyişdi: üzü günəş kimi nur saçdı və libası işıq kimi ağ oldu. Musa və İlyas peyğəmbər ehtişamı içində gəlib İsa ilə söhbət edirdilər. Peter heyrətləndi və İsaya dedi: «Ustad! Nə yaxşı ki, biz buradayıq. Gəl üç çadır quraq, biri Sənin, biri Musa, biri də İlyas üçün». O, hələ bu sözləri söyləməkdə idi ki, bir parlaq bulud gəldi və onların üzərinə kölgə saldı. Buluddan bir səs gəldi: «Bu, Mənim sevimli Oğlumdur, Ondan razıyam, Ona qulaq asın!»

Bu səsi eşidib şagirdlər qorxu içində üzüstə yerə qapandılar. İsa onlara yaxınlaşıb toxundu və dedi: «Qalxın, qorxmayın!» Onlar başlarını qaldıranda İsadan başqa kimsəni görmədilər.

Dağdan enərkən İsa şagirdlərinə dedi: «Bəşər Oğlu ölülər arasından dirilənə qədər gördüyünüzü heç kimə söyləməyin».

*MATTA 17:1–9; LUKA 9:28–36*





## Hər şeyi bağışlayan məhəbbət

Bir gün Peter İsanın yanına gəlib Ondan soruşdu: «Ya Rəbb! Qardaşım mənə qarşı günah işlədərsə, neçə dəfə mən onu bağışlamalıyam? Yeddi dəfəmi?» İsa cavabında ona dedi: «Sənə deyirəm: yeddi dəfə yox, yetmiş dəfə yeddi». Sonra bir məsəl danışdı:

«Səmavi Padşahlıq öz qulları ilə hesablaşmaq istəyən bir padşaha bənzəyir. Hesablaşmağa başladığı zaman onun yanına on min talant* borcu olan biri gətirildi. Amma onun ödəməyə bir şeyi olmadığı üçün ağası özünün, arvadının, uşaqlarının və bütün malının satılaraq borcunu ödəməsini ona əmr etdi. Elə bu vaxt qul yerə qapanıb ona səcdə edərək dedi: "Səbir et! Mən hamısını ödəyəcəyəm". Ağasının o qula rəhmi gəldi, onu buraxdı və borcunu bağışladı. Amma o qul kənara çıxıb ona yüz dinar borclu olan bir yoldaşını tapdı. Onu yaxaladı və "Borcunu ödə!" deyərək boğmağa başladı. Yoldaşı yerə qapanıb ona "səbir et, borcunu ödəyəcəyəm" deyərək yalvardı. O isə istəmədi. Gedib borcunu ödəyənə qədər onu zindana saldırdı. Ağanın digər qulları baş verən hadisəni görəndə çox kədərləndilər və gedib olanları ağalarına danışdılar. Onda ağa o qulu yanına çağırıb dedi: "Ey pis qul, bütün o borcu sənə bağışladım, çünki mənə yalvardın. Mən sənə mərhəmət etdiyim kimi, sən də yoldaşına mərhəmət etməli deyildinmi?" Ağası qəzəblənib bütün borcunu ödəyənə qədər onu işgəncə verənlərə təslim etdi. Hər biriniz qardaşlarınızı ürəkdən bağışlamasanız, Səmavi Atam da sizə elə edər». Rəbb İsa «Göylərdə olan Atamız» duasında bizə bağışlanma barədə dua etməyi öyrədir: «Bizə borclu olanları bağışladığımız kimi, bizim borclarımızı da bağışla».

*MATTA 6:12; 18:21–35*





## Xeyirxah Samariyalı

Bir qanunşünas İsanı sınamaq məqsədi ilə qalxıb dedi: «Müəllim, əbədi həyatı irs olaraq almaq üçün mən nə etməliyəm?» İsa ona dedi: «Qanunda nə yazılıb? Orada nə oxuyursan?» Qanunşünas İsaya belə cavab verdi: «“Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla, bütün gücünlə və bütün düşüncənlə sev” və “Qonşunu özün kimi sev”». İsa ona dedi: «Sən düz cavab verdin, buna əməl et və yaşayacaqsan». Amma o, özünə haqq qazandırmaq üçün İsadan soruşdu: «Bəs mənim qonşum kimdir?» İsa cavabında ona belə bir məsəl danışdı:

«Bir nəfər Yerusəlimdən Yerixoya gedən yolda quldurların əlinə düşdü. Quldurlar onun paltarını soyundurub döydülər və yarımcan halda qoyub getdilər. Təsadüfən o yoldan bir kahin keçirdi, onu gördü və yan keçdi. Bir Levili də ora yaxınlaşıb o adamı görəndə yolun o biri tərəfi ilə keçib getdi. O yolla gedən bir Samariyalı isə bu adamı görəndə ona yazığı gəldi. Ona yaxınlaşdı və zeytun yağı ilə şərab tökərək yaralarını sarıdı. Sonra bu adamı eşşəyinə mindirib mehmanxanaya gətirdi və ona qayğı göstərdi. Ertəsi gün isə Samariyalı yola düşərkən mehmanxana sahibinə pul verib ona dedi: «Onun qayğısını çək. Əgər bundan da çox xərcin çıxsa, mən geri qayıdanda sənə verərəm».

İsa bu məsəli danışıb qanunşünasdan soruşdu: «Səncə, bu üç nəfərdən hansı quldurların əlinə düşən adamın qonşusu idi?» Qanunşünas cavab verdi: «Ona mərhəmət göstərən». İsa da ona dedi: «Get, sən də elə et».

*LUKA 10:25–37*





## İsa yaxşı çobandır

Məsih Allah tərəfindən Onun Xalqının çobanı olmaq üçün göndərilmişdi. Çoban necə qoyunların qayğısına qalırsa, dünyanın Xilaskarı İsa da Onu səmimi qəlbdən qəbul edənlərin və həyatlarında Onun əmrlərinə əməl edənlərin qayğısına qalır. Rəbb İsanın sözləri bunlardır:





«Doğrusunu, doğrusunu sizə deyirəm: qoyun ağılına qapıdan girməyib hasardan aşan oğru və quldurdur. Amma qapıdan girən qoyunların çobanıdır. Keşikçi qapını onun üzünə açar və qoyunlar onun səsinə qulaq asar. O da öz qoyunlarını adları ilə çağırar və onları çölə çıxarar. Öz qoyunlarının hamısını çölə çıxarandan sonra onların önündə gedər və qoyunlar da ardınca gedər, çünki onun səsini tanıyırlar. Amma yad adamın ardınca getməzlər, ondan qaçarlar, çünki yad adamların səsini tanımazlar.

Doğrusunu, doğrusunu sizə deyirəm: qapı Mənəm. Məndən əvvəl gələnlərin hamısı oğru və quldur idi, amma qoyunlar onlara qulaq asmadı. Qapı Mənəm, kim Məndən girərsə, xilas olar, girib-çıxar və özünə otlaq tapar. Oğru yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mənsə gəldim ki, onlar həyata, bol həyata malik olsun.

Yaxşı çoban Mənəm, yaxşı çoban qoyunlar uğrunda canını qurban verər. Qoyunların çobanı olmayan muzdur isə canavarın gəldiyini görəndə onları atıb qaçar, çünki qoyunların sahibi deyil. Canavar da onları qapıb pərən-pərən salar. Muzdur qaçar, çünki muzdurdur, qoyunlar üçün qayğı çəkməz.

Yaxşı çoban Mənəm. Ata Məni tanıyır və Mən Atanı tanıyıram, eləcə də, Özümünküləri tanıyıram, Özümünkülər də Məni tanıyır. Mən quzular uğrunda canımı qurban verirəm. Bu ağıldan olmayan başqa quzularım var ki, onları da gətirməliyəm. Onlar da səsimi eşidəcək, beləcə, tək sürü, tək Çoban olacaq.

Buna görə də Ata Məni sevir, çünki Mən sonra canımı geri almaq üçün onu qurban verirəm. Canımı Məndən heç kəs ala bilməz, amma onu Özüm verirəm. Onu verməyə də, sonra geri almağa da ixtiyarım var. Bu əmri Atamdan almışam».

*YƏHYA 10:1–5, 7–18*

## Marta və Məryəm adlı iki bacı

Yerusəlimin yaxınlığında Bet-Anya adlı bir kənd var idi. Orada Marta və Məryəm adlı iki bacı qardaşları Lazar ilə yaşayırdı. Üçü də İsanı çox sevir və Onu tez-tez evlərinə dəvət edirdilər.

Bir gün İsa onların evinə gəldi. Məryəm İsanın ayaqları yanında oturub Onun sözlərinə qulaq asırdı. Marta isə böyük qonaqlıq hazırlayırdı. Məryəmin ona kömək etməməsi Martanın xoşuna gəlmirdi. O, İsaya yaxınlaşıb dedi: «Ya Rəbb! Görmürsən ki, bacım işlərin hamısını mənim üstümə atıb? Ona de ki, mənə kömək etsin». Rəbb isə Martaya belə cavab verdi: «Marta, Marta, sən çox şeyin qayğısını çəkib təlaşa düşürsən. Yalnız bir şey lazımdır. Məryəm yaxşısını seçdi. Bu da onun əlindən alınmayacaq».

*LUKA 10:38–42*





## Ağılsız dövlətlinin məsəli

İsa xalqa vəz edərək dedi: «Diqqətli olun, hər cür tamahkarlıqdan özünüzü qoruyun, çünki insanın həyatı var-yoxunun bolluğundan asılı deyil». İsa onlara bu məsəli danışdı:

«Bir varlının torpağı bol məhsul verdi. Bu adam ürəyində düşündü: "Məhsulumu qoymağa yerim yoxdur. Axı nə edim?" Sonra dedi: "Belə edərəm: anbarlarımı söküb daha böyüklərini tikəcəyəm. Bütün taxılımı və malımı oraya yığaram. Canıma deyərəm: ey canım, illərlə kifayət qədər var-dövlət yığmısan. İndi dincəl, ye-iç, kef elə". Amma Allah ona dedi: "Ay axmaq, bu gecə canını səndən alacaqlar. Bəs hazırladığın kimə qalacaq?" Özü üçün xəzinə toplayan, amma Allahın önündə varlı olmayan hər bir insanın axırı da elə olacaq».

Rəbb, həmçinin dedi: «"Nə yeyəcəyik?", "Nə içəcəyik?" deyə axtarıb narahat olmayın, çünki dünyadakı bütpərəstlər bütün bu şeyləri axtarırlar. Doğrudan da, Atanız bunlara ehtiyacınız olduğunu bilir. Lakin siz Allahın Padşahlığını axtarın, onda bunlar da sizə əlavə olaraq veriləcək. Qorxma, ey kiçik sürü! Atanız Padşahlığı sizə verməyi münasib gördü. Əmlakınızı satın və sədəqə verin. Özünüzə köhnəlməyən kisələr, göylərdə tükənməyən xəzinə hazırlayın. Oraya nə oğru gələr, nə də onu güvə yeyər; xəzinəniz haradadırsa, ürəyiniz də orada olacaq».

*LUKA 12:15–21, 29–34*





## Varlı adam və yoxsul Lazar məsəli

İsa belə bir məsəl danışdı:

«Varlı bir adam var idi. O, incə kətandan tünd qırmızı paltar geyərdi və hər gün cah-calal içində kef edərdi. Bütün bədəni yaralı olan Lazar adlı yoxsul bir adam da var idi. O, varlı adamın qapısı ağzına uzanmışdı. Lazar varlı adamın süfrəsindən tökülən qırıntılarla qarnını doydurmaq arzusunda idi. İtlər də gəlib onun yaralarını yalayırdı.

Bir gün yoxsul adam öldü və mələklər onu İbrahimin qucağına apardı. Varlı adam da öldü və dəfn edildi.

Varlı adam ölülər diyarında iztirab çəkəndə gözlərini qaldırıb uzaqda İbrahimi və onun yanında Lazarı gördü. O, uca səslə dedi: "Ey İbrahim ata, mənə rəhm et! Lazarı göndər, barmağının ucunu suya batırıb mənim dilimi sərinlətsin, çünki mən bu alov içində əzab çəkirəm". Lakin İbrahim dedi: "Oğlum, sən öz həyatında yaxşı şeyləri, Lazar isə pis şeyləri aldığını yadına sal. İndi isə o, təsəlli tapır, amma sən əzab çəkirsən. Üstəlik, sizinlə bizim aramıza böyük bir uçurum qoyulmuşdur ki, nə buradan sizin tərəfinizə keçmək istəyənlər keçə bilir, nə də oradan bizim yanımıza gələ bilirlər".

Varlı adam dedi: "Ata, elə isə yalvarıram sənə, Lazarı atamın evinə göndər, çünki beş qardaşım var. Qoy onların da bu iztirab yerinə gəlməmələri üçün onlara xəbərdarlıq etsin". İbrahim ona dedi: "Onlarda Musanın və Peyğəmbərlərin sözləri var. Qoy onlara qulaq assınlar".

Varlı adamsa dedi: "Xeyr, İbrahim ata! Əgər ölülərdən biri onların yanına gəlsə, onlar tövbə edərlər". Onda İbrahim ona dedi: "Əgər onlar Musaya və Peyğəmbərlərə qulaq asmırlarsa, ölülərdən biri dirilsə belə, inanmazlar"».

*LUKA 16:19–31*





## İtmiş qoyun məsəli

İsa bu dünyaya Allahdan dönənləri və Onu unudanları aramaq üçün gəldi. O, yaxşı çoban kimi həmişə itmiş qoyunları axtarır. Öz məsəllərinin birində İsa dedi:

«Sizlərdən birinin yüz qoyunu olsa və onlardan birini itirsə, doxsan doqquzunu qoyub itmiş qoyunu tapanadək onu axtarmazmı? Tapanda isə onu sevinclə çiyinlərinə qoyar. Evə gələndə öz dostlarını və qonşularını çağırıb belə deyər: "Mənimlə birlikdə sevinin, itmiş qoyunumu tapmışam!" Sizə bunu deyirəm: beləcə, göydə tövbə edən bircə günahkara görə tövbəyə ehtiyacı olmayan doxsan doqquz saleh insan üçün olduğundan daha çox sevinc olacaq».

*LUKA 15:3–7*





## İtmiş oğul məsəli

İsa bir məsəl də danışdı:

«Bir adamın iki oğlu var idi. Oğlanlardan kiçiyi atasına dedi: "Ata! Var-dövlətindən payıma düşəni mənə ver". Atası da varını onların arasında bölüşdürdü.

Bir neçə gün sonra kiçik oğul nəyi vardısa, yığıb uzaq bir diyara yollandı. Orada pozğun həyat sürüb var-dövlətini heç-puç etdi. Oğlan hər şeyi xərclədikdən sonra o ölkədə böyük bir aclıq oldu. O korluq çəkməyə başladı. Buna görə də oğlan gedib o ölkənin sakinlərindən birinin yanında iş tapdı. O adam da onu öz otlaqlarına donuz otarmağa göndərdi. Oğlan donuzların yediyi ilə qarnını doydurmağa şad olardı, amma ona icazə vermirdilər.

Onda oğlan özünə gəlib dedi: "Atamın nə qədər muzdlu işçisi və hamısının da doyunca yeməyə çörəyi var. Mənsə burada acından ölürəm! Durub atamın yanına gedəcəyəm və ona deyəcəyəm: 'Ata, mən göyə və sənə qarşı günah etdim. Artıq sənin oğlun adlanmağa layiq deyiləm. Məni öz muzdlu işçilərinin biri kimi qəbul et'". O durub öz atasının yanına getdi.

Oğul hələ uzaqda ikən atası onu gördü. Ona rəhmi gəldi, qaçıb onun boynuna sarıldı və öpdü. Oğul dedi: "Ata! Mən göyə və sənə qarşı günah etdim. Mən artıq sənin oğlun adlanmağa layiq deyiləm". Atası isə öz qullarına dedi: "Tez olun, ən gözəl libas gətirin və onu geyindirin. Barmağına üzük və ayaqlarına çarıq taxın. Kökəldilmiş dananı gətirin, kəsin: gəlin yeyib-şadlanaq; çünki bu oğlum ölmüşdü, yenə həyata qayıtdı. O itmişdi, tapıldı". Beləliklə, şadlıq etməyə başladılar.

Atanın böyük oğlu tarlada idi. Qayıdaraq evə yaxınlaşanda çalğı və rəqs səsləri eşitdi. O, nökərlərdən birini yanına çağırıb soruşdu: "Bu, nədir?" Nökər ona dedi: "Qardaşın qayıdıb. Atan da onun sağ-salamat qayıtmasına görə kökəldilmiş dananı kəsib". Böyük oğul isə buna hirsləndi və içəri girmək istəmədi. Atası bayıra çıxıb ona yalvardı. Amma o, atasına belə cavab verdi: "Bax neçə ildir ki, sənin üçün qul kimi işləyirəm. Heç zaman sənin əmrindən çıxmamışam. Amma mənə heç vaxt bir oğlağı belə, qıymadın ki, dostlarımla şadlıq edim. Bu oğlunsa sənin bütün varını pozğun qadınlara sərf edib. Amma o qayıdanda sən onun üçün kökəldilmiş dananı kəsdin". Atası isə ona dedi: "Oğlum, axı sən həmişə mənimləsən və bütün varım sənindir. Lakin sevinmək və şadlanmaq lazımdır, çünki sənin bu qardaşın ölmüşdü, həyata qayıtdı. O itmişdi, tapıldı!"»

*LUKA 15:11–32*



## On cüzamlı

İsa Yerusəlimə doğru yolunu davam edərkən Samariya ilə Qalileya arasından keçirdi. Kəndlərin birinə girəndə Onu on nəfər cüzamlı kişi qarşıladı. Onlar uzaqda durub ucadan çığırdılar: «İsa, Ustad, bizə rəhm et!» İsa onları görüb: «Gedin, özünüzü kahinlərə göstərin» dedi. Cüzamlılar getdilər və yolda öz dəhşətli xəstəliklərindən sağaldıqlarını gördülər.

Sağalan on nəfərdən yalnız biri İsanın yanına qayıtdı. O, üzüstə İsanın ayaqlarına düşərək Ona uca səslə təşəkkür etdi. Bu adam Samariyalı idi. Digərləri isə Yəhudi idi.

Onda İsa dedi: «Pak olanlar on nəfər deyildimi? Bəs qalan doqquz adam haradadır? Bu yadellidən savayı geri dönüb Allaha izzət verən olmadımı?» Sonra o adama dedi: «Ayağa qalx, get. İmanın səni xilas etdi».

*LUKA 17:11–19*





## Farisey və vergiyığan məsəli

Özlərinin saleh olduğuna güvənib başqalarına xor baxan bəziləri üçün də İsa belə bir məsəl çəkdi:

«Biri farisey, digəri isə vergiyığan olan iki nəfər dua etmək üçün məbədə girdi. Farisey ayaq üstə durub öz-özünə belə dua edirdi: "Ya Allah, Sənə şükürlər olsun ki, mən başqaları kimi soyğunçu, haqsız, zinakar, ya da bu vergiyığan kimi deyiləm. Həftədə iki dəfə oruc tuturam, bütün qazandığımın onda birini verirəm".

Vergiyığan isə uzaqda durub gözlərini göyə qaldırmağa belə, cəsarət etmirdi, amma sinəsinə vurub hey deyirdi: "Ya Allah! Mən günahkara rəhm et!"

Sizə deyirəm ki, o farisey yox, vergiyığan evinə saleh sayılaraq getdi, çünki özünü yüksəldən hər kəs aşağı tutulacaq, özünü aşağı tutansa yüksəldiləcək».

*LUKA 18:10–14*





## İsa uşaqlara xeyir-dua verir

Bir gün şagirdlər İsanın yanına gəlib dedilər: «Səmavi Padşahlıqda ən böyük kimdir?» İsa yanına bir balaca uşaq çağırıb onu şagirdlərin arasına qoydu. O dedi: «Sizə doğrusunu deyirəm: əgər siz yolunuzdan dönüb uşaqlar kimi olmasanız, Səmavi Padşahlığa əsla daxil ola bilməzsiniz. Beləliklə, kim bu uşaq kimi özünü aşağı tutarsa, Səmavi Padşahlıqda ən böyük odur. Kim Mənim adımla belə bir uşağı qəbul edərsə, Məni qəbul edər».

O zaman uşaqların üzərinə əllərini qoyub dua etməsi üçün onları İsanın yanına gətirdilər. Şagirdlər isə onlara qadağan etdilər. Amma İsa dedi: «Uşaqları buraxın, qoy Mənim yanıma gəlsinlər! Onlara mane olmayın, çünki Səmavi Padşahlıq belələrinə məxsusdur». İsa uşaqların üzərinə əllərini qoyub onlara xeyir-dua verdi.

*MATTA 18:1–5; 19:13–15*



## İsa ölən Lazarı diriltdir

Lazar, onun bacıları Marta və Məryəm Yerusəlimin yaxınlığında yerləşən Bet-Anya kəndində yaşayırdılar. Onlar İsanın dostları idilər. Bir gün İsa şagirdləri ilə tənha yerdə olanda kədərli xəbər aldı. Bacılar İsaya xəbər yolladılar: «Ya Rəbb, sevdiyin Lazar xəstədir». İsa bunu eşidib dedi: «Bu xəstəliyin nəticəsi ölüm yox, Allahın izzəti və Allah Oğlunun izzət qazanması olacaq». O, şagirdləri ilə olduğu yerdə daha iki gün qaldı, sonra Bet-Anyaya getdi.

Yəhudilərin bir çoxu bacılara baş çəkib onlara qardaşlarının vəfat etməsi ilə əlaqədar təsəlli verirdilər. Marta İsanı görüb dedi: «Ya Rəbb, əgər Sən burada olsaydın, qardaşım ölməzdi. Ancaq bilirəm ki, Sən indi də Allahdan nə diləsən, O, Sənə verəcək». İsa ona «qardaşın diriləcək» dedi. Marta Ona dedi: «Bilirəm, dirilmə zamanı, son gündə o da diriləcək». İsa ona dedi: «Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar. Mənə iman edən heç vaxt ölməz. Buna inanırsanmı?» Marta Ona cavab verdi: «Bəli, ya Rəbb, inanıram, dünyaya gəlməli olan Allahın Oğlu Məsih Sənsən».

Sonra Marta gedib bacısı Məryəmi çağırdı. İsa onu və onun yanında gələn Yəhudilərin ağladığını görəndə ürəkdən kədərlənib soruşdu: «Mərhumu haraya qoymusunuz?» Ona «Ağa, gəl bax» dedilər. İsa Lazarın dəfn olunduğu mağaraya yaxınlaşdı; mağaranın ağzına daş qoyulmuşdu. İsa «daşı götürün» dedi. Marta isə Lazarın artıq dörd gün bundan qabaq öldüyünü söylədi. İsa dedi: «Mən sənə söyləmədimmi, iman etsən, Allahın izzətini görəcəksən?» Beləcə, daşı götürəndə, İsa da başını yuxarı qaldırıb dedi: «Ey Ata, Məni eşitdiyin üçün Sənə şükür edirəm. Məni həmişə eşitdiyini bilirəm. Lakin bunu ətrafımda duran xalq üçün söylədim ki, Məni Sən göndərdiyinə inansınlar». Bu sözləri söylədikdən sonra bərkdən



çağırdı: «Lazar, bayıra çıx!» Lazar da çıxdı. Onun əl-ayağı və üzü sarğılarla bağlanmışdı.

Onda Yəhudilərin bir çoxu Ona iman etdi. Fariseylər və başçı kahinlər isə İsanı öldürmək niyyətinə düşdülər.

*YƏHYA 11:1–45, 53*



## Korun gözlərinin açılması

İsa Yerixo şəhərinə gəldi. Həmişəki kimi Onun yanında böyük izdiham var idi. Bir kor adam yol kənarında oturub dilənirdi. Onun adı Bartimay idi. Ona İsanın möcüzələrindən çox danışmışdılar. İsanın oradan keçdiyini eşitdikdə bağırmağa başladı: «Ey Davud Oğlu İsa! Mənə rəhm elə!» Çox adam ona qadağan edib susdurmaq istədisə də, o, daha ucadan bağırdı: «Ey Davud Oğlu! Mənə rəhm elə!»

İsa dayanıb dedi: «Onu çağırın». Onlar bu kor adamı çağıraraq dedilər: «Cəsarətli ol, qalx, İsa səni çağırır». O, üst paltarını kənara atdı və yerindən sıçrayaraq İsanın yanına tələsdi. İsa ondan soruşdu: «Nə istəyirsən, sənin üçün edim?» Kor adam Ona dedi: «Ey Müəllimim, gözlərim açılsın». İsa ona dedi: «Get, imanın səni xilas etdi». Bartimayın gözləri açıldı və o, Allahı izzətləndirərək İsanın ardınca getdi.

*MARK 10:46–52; LUKA 18:35–43*





## Zakkayın Allaha tərəf dönməsi

İsa yenə Duz dənizinin yaxınlığındakı Yerixo şəhərinə gəldi. Orada vergiyığanların rəisi Zakkay adlı varlı bir adam var idi. O, İsanı görməyə can atırdı, amma balacaboy olduğuna görə izdihamın arasından Onu görə bilmirdi. Zakkay İsanı görmək üçün irəliyə qaçıb bir əncir ağacına dırmaşdı, çünki İsa oradan keçməli idi.

İsa o yerə yaxınlaşdı, yuxarı baxıb onu gördü və ona dedi: «Ey Zakkay, tez aşağı düş. Bu gün Mən sənin evində qalmalıyam». O, tez aşağı düşüb İsanı sevinclə qəbul etdi.

Hamı bunu gördükdə hiddətlənməyə və İsanın günahkar adamın evində qonaq olmasından danışmağa başladı. Zakkay isə Rəbbə belə dedi: «Ya Rəbb, əmlakımın yarısını yoxsullara verərəm və kimdən haqsızlıqla bir şey almışamsa, ona dörd qat qaytaracağam». İsa dedi: «Bu gün bu evə xilas gəldi, çünki bu adam da İbrahimin oğludur. Bəşər Oğlu itmişləri axtarıb xilas etmək üçün gəlmişdir».

*LUKA 19:1–10*





## Kimə çox bağışlanıbsa, çox sevər

Fariseylərdən biri, Şimon adlı bir nəfər İsanı nahara dəvət etdi. İsa razılıq verdi və onun evinə gəldi.

Günahkar bir qadın İsanın fariseyin evində olmasından xəbər tutanda ağ mərmər qabda qiymətli ətirli yağ gətirdi. Qadın arxada, İsanın ayaqlarının yanında durdu. Sonra ağlayaraq göz yaşları ilə Onun ayaqlarını islatmağa başladı. O, İsanın ayaqlarını saçları ilə sildi, öpdü və ətirli yağ çəkdi.

İsanı evinə dəvət etmiş farisey bunu görüb öz-özünə belə dedi: «Əgər bu adam peyğəmbər olsaydı, Ona toxunanın kim və nə cür qadın olduğunu bilərdi, çünki bu qadın günahkardır». Lakin İsa ona xitab edib söylədi: «Şimon, Mənim sənə sözüm var». O da dedi: «Müəllim, buyur». «Bir sələmçiyə iki nəfərin borcu var idi. Biri beş yüz, o birisi isə əlli gümüş pul borclu idi. Onların borcu ödəməyə imkanları yox idi. Ona görə də sələmçi hər ikisinin borcunu bağışladı. De görüm, bu adamlardan hansı onu daha çox sevəcək?» Şimon cavab verdi: «Güman edirəm, daha çox bağışlanmış adam». İsa ona «düz söylədin» dedi.

Sonra İsa qadına tərəf baxıb Şimona dedi: «Sən bu qadını görürsənmi? Mən sənin evinə gəldim, sən ayaqlarımı yumaq üçün Mənə su da vermədin. Bu qadınsa ayaqlarımı göz yaşları ilə isladıb saçları ilə sildi. Sən Məni öpmədin, bu qadınsa Mən evə girəndən bəri ayaqlarımı hey öpür. Sən başıma zeytun yağı çəkmədin. O isə ayaqlarıma ətirli yağ çəkdi. Buna görə də sənə deyirəm: bu qadının çox olan günahları bağışlandı. Böyük məhəbbət göstərməsi də bu səbəbdəndir. Kimə az bağışlanıbsa, az sevər».

İsa qadına belə dedi: «Sənin günahların bağışlandı». Orada olanlar öz aralarında danışmağa başladılar: «Bu



adam kimdir ki, günahları da bağışlayır?» Amma İsa qadına dedi: «İmanın səni xilas etdi. Arxayın get».

*LUKA 7:37–50*



## Rəbbin Yerusəlimə daxil olması

İsa şagirdləri ilə Yerusəlimə yaxınlaşıb Zeytun dağının yamacındakı Bet-Faqeyə və Bet-Anyaya gəldilər. O, iki şagirdi göndərərək onlara dedi: «Qarşınızdakı kəndə gedin. Orada bağlanmış bir eşşəklə bir sıpa tapacaqsınız. Onları açıb Mənə gətirin. Kim sizə bir söz desə, ona “bunlar Rəbbə lazımdır, tezliklə onları geri göndərəcək” deyərsiniz».

Şagirdlər gedib İsanın dediyi kimi etdilər. Sıpanı gətirib üzərinə paltarlarını qoydular və İsa sıpanın belinə mindi. Adamların çoxu öz paltarlarını yola sərdi. Bəzisi də ağaclardan budaqlar kəsib yola döşədi. İsanın önündə gedən və ardınca gələn xalq belə nida edirdi:

«Davud Oğluna hosanna*!
Rəbbin ismi ilə Gələnə alqış olsun!
Ən ucalarda hosanna!»

İsa Yerusəlimə daxil olanda bütün şəhər «Bu, Kimdir?» deyərək sarsıldı. Onu izzətləndirənlər cavab verirdi: «Bu, Qalileyanın Nazaret şəhərindən olan İsa Peyğəmbərdir». Bir çoxları İsanın Lazarı qəbirdən çağırıb ölülər arasından diriltdiyinə və çox möcüzələr etdiyinə şəhadət edirdi. Onda fariseylər bir-birlərinə dedilər: «Baxın əlinizdən bir iş gəlmir. Artıq aləm Onun ardınca gedir!» Onlar İsaya dedilər: «Müəllim, şagirdlərinə qadağan et!» Lakin İsa onlara cavab verdi: «Sizə bunu deyirəm: onlar sussa, daşlar dilə gələr!»

*MATTA 21:6–11; MARK 11:1–10;*
*LUKA 19:39–40; YƏHYA 12:14–19*





## İsanın Yerusəlim üçün ağlaması

İsa Onu qəbul etməyən Yerusəlim şəhəri üçün kədərlənirdi. O şəhərin hər bir daşı müdriklərdən və peyğəmbərlərdən, müharibələrdən və fəlakətlərdən, alovlu dualardan və ümidlərdən danışırdı. Axı bu şəhər xeyli vaxt idi Xilaskarı gözləyirdi, amma gözləyib məqsədinə çatanda Onu tanımadı.

«Ey Yerusəlim, Yerusəlim! Peyğəmbərləri öldürən və ora göndərilənləri daşqalaq edən şəhər! Toyuq cücələrini qanadları altına yığan kimi, Mən də dəfələrlə sənin övladlarını yığmaq istədim, sizsə istəmədiniz! Baxın, eviniz viran qalır. Mən sizə bunu deyirəm: "Rəbbin ismi ilə Gələnə alqış olsun!" deyənə qədər Məni bir daha görməyəcəksiniz».

Vaxt gəlib çatdı və İsa Yerusəlimə yaxınlaşanda şəhərə baxıb onun üçün ağladı:

«Ah, kaş sən də bu gün sülhə aparan yolu tanıyaydın! Amma bu yol hələlik sənin nəzərindən gizlənib, çünki düşmənlərinin səni sədlə əhatə edəcəkləri, mühasirəyə alacaqları və hər yerdən sıxışdıracaqları günlər gözləyir. Səni də, qucağındakı övladlarını da yerlə yeksan edəcəklər. Daşını daş üstə qoymayacaqlar, çünki Allahın sənə yaxınlaşdığı zamanı anlamadın».

*LUKA 13:34–35; 19:41–44*





## «Dəvət edilmiş çox, seçilmiş isə azdır»

Bir gün İsa bir fariseyin evinə gəldi. Orada çoxlu qonaq var idi və İsa ev sahibinə dedi: «Günorta, yaxud axşam yeməyi verdiyin vaxt öz dostlarını, qardaşlarını, qohumlarını, dövlətli qonşularını dəvət etmə ki, onlar da səni çağıraraq sənə əvəzini versinlər. Amma qonaqlıq verəndə yoxsulları, əlilləri, topalları, korları çağır. Onlar sənə əvəzini verə bilmədiklərinə görə sən bəxtiyar olacaqsan, çünki salehlər dirildiyi zaman sənə əvəz veriləcək».

Orada olanlardan biri bunu eşidib İsaya dedi: «Allahın Padşahlığında çörək yeyən nə bəxtiyardır!» İsa bu sözlərə məsəl ilə cavab verdi:

«Bir adam böyük ziyafət hazırladı və oraya çoxlu qonaq çağırdı. Yemək vaxtı gələndə öz qulunu dəvət olunanların yanına göndərdi ki, onlara desin: “Buyurun, indi hər şey hazırdır”. Amma hamı birdən üzr istəməyə başladı. Birincisi ona dedi: “Mən bir torpaq sahəsi almışam, gedib ona baxmalıyam. Səndən xahiş edirəm, məni bağışla”. Digəri isə dedi: “Mən beş cüt öküz satın almışam və onları yoxlamağa gedirəm. Səndən xahiş edirəm, məni bağışla”. Üçüncüsü dedi: “Mən təzə evlənmişəm, buna görə də gələ bilmərəm”. Qul qayıdıb bunları ağasına bildirdi. O zaman ev yiyəsi qəzəblənib quluna dedi: “Qaç, şəhərin küçə və tinlərində olan yoxsulları, əlilləri, korları və topalları buraya gətir”. Əmri icra edən qul dedi: “Ağa, sənin əmrin yerinə yetirildi, hələ artıq yer də qalıb”. Ağası quluna dedi: “Get, bütün yolları və çəpərləri gəz. Evimin dolması üçün adamları gəlməyə vadar et. Sizə bunu deyirəm: ilk dəvət olunanların heç biri mənim ziyafətimdən dadmayacaq, çünki dəvət edilmiş çox, seçilmiş isə azdır».

*LUKA 14:12–24; MATTA 22:14*





## «Qeysərin haqqını qeysərə, Allahın haqqını Allaha verin»

İlahiyyatçılarla fariseylər İsanı söz üstündə tutub ittiham etmək üçün Onu öz mübahisələrinə çəkmək istəyirdilər. Onlar öz şagirdlərini padşah Hirodun tərəfdarları ilə birgə İsanın yanına göndərib dedilər: «Müəllim, Sənin etibarlı adam olduğunu, Allahın yolunu həqiqətə görə öyrətdiyini və heç kimə tərəfkeşlik etmədiyini bilirik, çünki Sən insanlar arasında fərq qoymursan. İndi bizə de görək, Səncə, qeysərə* vergi verməliyik, ya yox?»

İsaya dolaşıq sual verilmişdi. Əgər O, «qeysərə vergi verilməlidir» desəydi, Onu İsrailə xəyanətkarlıqda və Roma hökuməti ilə əlbir olmaqda ittiham edərdilər. Əgər O, «vergi vermək olmaz» cavabını versəydi, Onu Romaya qarşı qiyam etməkdə ittiham edərdilər.

İsa onların hiyləgərliyini görüb dedi: «Ey ikiüzlülər, Məni niyə sınağa çəkirsiniz? Vergi verdiyiniz pulu Mənə göstərin». Onlar da Ona bir dinar gətirdilər. İsa onlara dedi: «Pulun üstündəki bu təsvir və yazı kimindir?» Ona dedilər: «Qeysərin». Onda İsa onlara dedi: «Elə isə, qeysərin haqqını qeysərə, Allahın haqqını Allaha verin». Bunu eşitdikdə onlar təəccübləndi və İsanı tərk edib getdilər.

Bundan sonra İsa camaata və şagirdlərinə dedi: «İlahiyyatçılar və fariseylər Musanın kürsüsündə oturmuşlar. Buna görə də sizə əmr etdikləri hər şeyə riayət və əməl edin. Amma onların etdiklərini etməyin, çünki söylədiklərinə özləri riayət etməzlər. Ağır və çətin daşına bilən yükləri bağlayıb insanların çiyninə yükləyərlər, özləri isə bu yükləri daşımaq üçün barmaqlarını belə, tərpətmək istəməzlər».

*MATTA 22:15–22; 23:1–5*





## İki ən böyük əmr

Bir dəfə qanunşünaslardan biri İsanı sınamaq məqsədi ilə Ondan soruşdu: «Müəllim, Qanunda ən böyük əmr hansıdır?» İsa ona dedi: «“Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev”. Bu, böyük və əsas əmrdir. Buna bənzəyən ikinci əmr budur: “Qonşunu özün kimi sev”. Bütün Qanun və Peyğəmbərlərin sözləri bu iki əmrə əsaslanır».

*MATTA 22:36–40*





## Dul qadının ianəsi

Bir gün İsa məbəddə təlim öyrədirdi: «İlahiyyatçılardan özünüzü qoruyun. Onlar uzun paltarlarda gəzməyi, bazar meydanlarında salam almağı, sinaqoqlarda baş kürsüləri, ziyafətlərdə yuxarı başı tutmağı xoşlayarlar. Onlar dul qadınların evlərini yeyib-dağıdar və özlərini göstərmək üçün uzun-uzadı dua edərlər. Bu adamların cəzası daha ağır olacaq».

İsa məbədin ianə qutusunun qarşısında oturub xalqın oraya necə pul atmasına baxırdı. Varlı adamlar böyük məbləğdə pul atırdılar. Bir kasıb dul qadın da gəlib ianə qutusuna xırda pul atdı.

İsa şagirdlərini yanına çağırıb onlara dedi: «Sizə doğrusunu deyirəm: bu kasıb dul qadın ianə qutusuna hamıdan çox pul atdı, çünki onların hamısı varlarının artıqlığından verdi, bu qadın isə kasıblığına baxmayaraq, dolanmaq üçün əlində nə varsa, hamısını verdi».

*MARK 12:38–44*



# İsa gələcək haqqında danışır

Müqəddəs Kitabın bir çox hissəsi Məsihin gözlənilən gəlişindən və bütün dünyada olacaq Allahın Padşahlığından danışır. Məsih ehtişam və əzəmət içində gələcək, lakin bu dünyanın şəri mübarizə olmadan Ona yol verməz. Buna görə şər üzərində qəti qələbədən əvvəl çoxsaylı fəlakətlər olacaq. İsa Özü dəfələrlə şagirdlərinə bunu demişdi: «Ehtiyatlı olun, qoy sizi heç kim aldatmasın, çünki Mənim adımla çox adam gəlib "Məsih mənəm" deyərək çoxlarını aldadacaq. Siz müharibələr və müharibə xəbərləri eşidəcəksiniz. Amma təlaşa düşməyin. Bunlar baş verməlidir, amma bu hələ hər şeyin axırı deyil. Millət millətə, padşahlıq padşahlığa qarşı çıxacaq. Yerbəyer aclıq, vəba və zəlzələlər olacaq. Bütün bunlar iztirabların başlanğıcıdır. O zaman sizə əziyyət verib öldürəcəklər. Mənim adıma görə bütün millətlər sizə nifrət edəcək. Onda bir çoxu imandan büdrəyərək bir-birini təslim edəcək və bir-birinə nifrət edəcək. Bir çox yalançı peyğəmbər törəyib çox adamı aldadacaq. Qanunsuzluq artacağı üçün bir çoxunun məhəbbəti soyuyacaq. Amma axıracan dözən xilas olacaq. Səmavi Padşahlığın bu Müjdəsi bütün millətlərə şəhadət olmaq üçün bütün dünyada vəz ediləcək. O zaman hər şeyin axırı gələcək.

Yalançı məsihlər və yalançı peyğəmbərlər törəyəcək. Onlar imkan taparlarsa, seçilmişləri də aldatmaq üçün böyük əlamətlər və xariqələr göstərəcəklər. Amma o günlərin əzab-əziyyətindən dərhal sonra

Günəş tutulacaq,
Ay nurunu saçmayacaq,
Ulduzlar göydən töküləcək,
Səma cisimləri lərzəyə gələcək.

O zaman Bəşər Oğlunun əlaməti göydə görünəcək. O vaxt yer üzünün bütün tayfaları şivən qoparacaq və Bəşər Oğlunun göyün



buludları üzərində qüdrət və böyük izzətlə gəldiyini görəcək. Yer və göy keçib gedəcək, amma Mənim sözlərim əsla keçib getməyəcək. Lakin o günü və o saatı nə göylərin mələkləri, nə də Oğul bilir. Atadan başqa heç kim bilmir. Ona görə də oyaq olun, çünki Rəbbinizin hansı gün gələcəyini bilmirsiniz».

*MATTA 24:3–14, 24–31, 35–36, 42*



## On qız məsəli

İsa həmişə oyaq olmaq və Bəşər Oğlunun önündə durmağa hazır olmaq əmrini məsəllərlə bildirirdi. O, bunları əsrin sonu barəsində peyğəmbərlikdən sonra danışdı. Məsəllərin birində gözlənilmədən gələn Allahın Padşahlığını çıraqlarını götürüb bəyin qarşısına çıxan on qıza bənzətdi. «Səmavi Padşahlıq çıraqlarını götürüb bəyin qarşısına çıxan on qıza bənzəyəcək. Onlardan beşi ağıllı, beşi isə ağılsız idi. Ağılsızlar özləri ilə çıraqlarını götürmüşdü, amma yağ götürməmişdilər. Ağıllılarsa çıraqları ilə birgə qablarda yağ da götürmüşdülər. Lakin bəy gecikdiyindən hamısı yuxulayıb yatdı.

Gecə yarısı bir qışqırıq qopdu: "Budur, bəy gəlir, onu qarşılamağa çıxın!" O zaman bu qızların hamısı durub öz çıraqlarını düzəltdilər. Ağılsızlar ağıllılara dedilər: "Yağınızdan bizə də verin, çünki çıraqlarımız sönür". Ağıllılarsa cavab verib dedilər: "Belə olmasın ki, yağ nə bizə çatsın, nə sizə. Yaxşısı budur, gedib satıcılardan alasınız". Onlar yağ satın almağa getdikləri zaman bəy gəldi. Hazır olanlar onunla toy məclisinə girdilər və qapı bağlandı.

O biri qızlar da sonradan gəlib "Ağa! Ağa! Qapını bizə aç!" yalvardılar. O isə cavab verib dedi: "Sizə doğrusunu deyirəm: sizi tanımıram".

Beləliklə, oyaq olun, çünki siz Bəşər Oğlunun gələcəyi nə günü, nə də saatı bilirsiniz».

*MATTA 25:1–13*





## İsa Məsih meynədir

İsa şagirdlərinə dedi:

«Mən həqiqi Meynəyəm, Atam da Bağbandır. Məndə olub bəhrə verməyən hər budağı Atam qoparır. Bəhrə verən hər budağı daha çox bəhrə vermək üçün budayıb təmizləyir. Sizə söylədiyim söz sayəsində siz artıq təmizsiniz. Məndə qalın, Mən də sizdə qalım. Budaq meynədə qalmasa, özündən bəhrə vermədiyi kimi, siz də Məndə qalmasanız, bəhrə verə bilməzsiniz. Meynə Mənəm, sizsə budaqlarsınız. Kim Məndə qalsa, Mən də onda qalsam, çoxlu bəhrə verər, çünki Mənsiz heç nə edə bilməzsiniz. Kim Məndə qalmasa, budaq kimi kənara atılıb quruyar. Belə budaqlar yığılıb oda atılaraq yanar. Əgər Məndə qalsanız və sözlərim sizdə qalsa, nə istəyirsinizsə, diləyin, sizə veriləcək.

Ata Məni sevdiyi kimi, Mən də sizi sevdim. Mənim məhəbbətimdə qalın. Əgər əmrlərimə riayət etsəniz, Mənim məhəbbətimdə qalacaqsınız, necə ki Mən Atamın əmrlərinə riayət edərək Onun məhəbbətində qalıram.

Dünya sizə nifrət edəndə sizdən əvvəl Mənə nifrət etdiyini yada salın. Əgər dünyadan olsaydınız, dünya özünə aid olan sizləri sevərdi. Amma siz dünyadan deyilsiniz. Mən sizi dünyadan seçdim, buna görə dünya sizə nifrət edir. Əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər; Mənim sözümə riayət etdilərsə, sizin də sözünüzə riayət edəcəklər. Lakin bunların hamısını sizə Mənim adıma görə edəcəklər, çünki Məni Göndərəni tanımırlar. Əgər gəlib onlara söyləməsəydim, günahları olmazdı, amma indi günahları üçün bəhanələri yoxdur. Mənə nifrət edən Atama da nifrət edir».

*YƏHYA 15:1–7, 9–10, 15–23*





## Sonuncu şam yeməyi

Pasxa bayramı gələndə İsa Peterlə Yəhyanı Yerusəlimə göndərib «gedin, Pasxa yeməyimiz üçün hazırlıq görün» dedi. Onlarsa İsadan soruşdular: «Harada hazırlıq görməyimizi istəyirsən?» İsa onlara cavab verdi: «Şəhərə girəndə qarşınıza səhənglə su daşıyan bir nəfər çıxacaq. Onun ardınca gedin və onun girəcəyi evə girin. Oranın sahibinə deyin: “Müəllim soruşur: ’Şagirdlərimlə birgə Pasxa yeməyini yeyəcəyim qonaq otağı haradadır?‘” Ev sahibi sizə yuxarı mərtəbədə hər şeyi hazırlanmış böyük bir otaq göstərəcək. Orada hazırlıq işləri görün». Şagirdlər gedib İsanın onlara dediyi kimi etdilər və Pasxa yeməyini hazırladılar.

Vaxt çatanda İsa və Onun on iki şagirdi süfrəyə oturub yeməyə başladılar. İsa onlara dedi: «Əzab çəkməzdən əvvəl bu Pasxa yeməyini sizinlə birgə yeməyi çox arzulayırdım. Sizə bunu deyirəm: Pasxa Allahın Padşahlığında yerinə yetənədək Mən bir daha onu yeməyəcəyəm».

İsa çörək götürdü, Allaha şükür etdi, onu böldü və şagirdlərə verərək: «Bu, Mənim sizin üçün verilən bədənimdir. Bunu Məni xatırlamaq üçün edin» dedi. Eləcə də, axşam yeməyindən sonra kasanı götürüb dedi: «Bu kasa sizin üçün axıdılan qanımla bağladığım Yeni Əhddir*».

*LUKA 22:8–20*





## Sonuncu şam yeməyi zamanı edilən söhbət

Şam yeməyi zamanı Rəbb qalxıb üst paltarını kənara qoydu və bir dəsmal götürüb belinə bağladı. Sonra ləyənə su töküb şagirdlərin ayaqlarını yumağa və belinə bağladığı dəsmalla silməyə başladı. İsa Şimon Peterə yaxınlaşanda o, İsaya «Ya Rəbb, Sənmi mənim ayaqlarımı yuyacaqsan?» dedi. İsa cavabında ona dedi: «Mənim nə etdiyimi sən indi bilməzsən, amma sonra anlayacaqsan».

İsa onların ayaqlarını yuduqdan sonra şagirdlərinə dedi: «Mənim sizə nə etdiyimi bilirsinizmi? Siz Məni "Müəllim" və "Rəbb" deyə çağırırsınız və doğru deyirsiniz, çünki Mən elə Oyam. İndi ki Mən Rəbb və Müəllim olduğum halda ayaqlarınızı yudum, siz də bir-birinizin ayaqlarını yumalısınız, çünki sizə nümunə göstərdim... Doğrusunu, doğrusunu sizə deyirəm: qul ağasından, elçi də onu göndərəndən üstün deyil. Əgər bu şeyləri bilib onlara əməl edirsinizsə, bəxtiyarsınız. Hamınız barədə söyləmirəm. Mən Öz seçdiklərimi tanıyıram. Amma qoy "çörəyimi yeyən Mənə xəyanət etdi" deyən Müqəddəs Yazı yerinə yetsin».

İsa bu sözləri söylədikdən sonra ürəyi təlaşa düşdü və şəhadət edib dedi: «Doğrusunu, doğrusunu sizə deyirəm: sizlərdən biri Mənə xəyanət edəcək». Şagirdlər Onun kimin barəsində danışdığını bilməyib heyrət içində bir-birlərinə baxırdılar. Şagirdlərindən biri İsanın sinəsinə tərəf əyilərək Ondan soruşdu: «Ya Rəbb, o, kimdir?» İsa cavab verdi: «Bu çörək tikəsini batırıb kimə versəm, odur». Çörək tikəsini batırıb Yəhuda İskaryota verdi. Yəhuda çörəyi alan kimi dərhal otaqdan çıxdı; artıq gecə idi.

Sonra İsa dedi: «Ey övladlarım! Sizə yeni bir əmr verirəm: bir-birinizi sevin, Mən sizi sevdiyim kimi siz də bir-birinizi sevin. Əgər bir-birinizə məhəbbətiniz olsa, bütün insanlar Mənim şagirdlərim olduğunuzu biləcəklər».



Sonra İsa bu gecə hamının Onu atıb gedəcəyini dedi. Peter Ona cavab verib dedi: «Hamı Səni atıb getsə də, mən əsla atıb getməyəcəyəm». İsa ona dedi: «Sənə doğrusunu deyirəm: bu gecə xoruz banlamazdan əvvəl sən Məni üç dəfə inkar edəcəksən».

*MATTA 26:33–34; YƏHYA 13:4–35*



## Getsemani bağında dua

Həmin o gecə, şam yeməyindən sonra İsa On Bir şagirdi ilə Yerusəlimdən çıxıb Getsemani adlanan bir yerə gəldi. İsa şagirdləri ilə bağa girib onlara dedi: «Mən dua edərkən siz burada oturun». O, Özü ilə Peteri, Yəhyanı və Yaqubu apardı. İsa kədər və narahatlıq hiss etməyə başladı və onlara dedi: «Ürəyimi elə dərin kədər bürüyüb, az qalır ki, ölüm. Burada qalın və Mənimlə birlikdə oyaq olun».

İsa bir qədər irəli getdi və diz çöküb dua etdi: «Ey Atam, mümkündürsə, qoy bu əzab kasası Məndən yan keçsin. Amma Mənim yox, Sənin iradən olsun». Göydən bir mələk görünüb İsanı ruhlandırırdı. İsa iztirab içində daha səylə dua edirdi. Onun təri yerə düşən qan damlalarına bənzəyirdi. İsa şagirdlərin yanına qayıtdı, onları yatmış gördü. Onları oyadıb dedi: «Mənimlə birlikdə bir saat oyaq qala bilməzdinizmi? Oyaq durub dua edin ki, sınağa düşməyəsiniz. Ruh gümrah, bədən isə zəifdir».

İsa onlardan uzaqlaşdı və yenə dua etdi: «Ey Atam, əgər Mən içmədən bu kasanın yan keçməsi mümkün deyilsə, qoy Sənin iradən olsun». Məsih bizim günahlarımıza görə içəcəyi əzab kasasından bəhs edirdi.

*MATTA 26:36–44; LUKA 22:39–46*





## İsa həbs olunur

İsa üç dəfə şagirdlərinə yaxınlaşıb hər dəfə onları yatmış görürdü. Üçüncü dəfə gəlib onlara dedi: «Hələ də yatıb dincəlirsiniz? Budur, vaxt yaxınlaşıb və Bəşər Oğlu günahkarların əlinə təslim olunur. Qalxın gedək. Budur, Mənə xəyanət edən gəlir!»

O hələ bunu deyərkən birdən on iki şagirddən biri, İsanı başçı kahinlərə otuz gümüş pula xaincəsinə ələ verməyə razı olan Yəhuda orada peyda oldu. Yəhuda ilə birgə başçı kahinlərin və fariseylərin göndərdikləri, əllərində məşəl, qılınc və dəyənəklər olan çoxlu sayda əsgər də gəldi. Xain Yəhuda onlara işarə ilə bildirib demişdi: «Kimi öpsəm, İsa Odur, Onu tutun». O, İsaya yaxınlaşıb «Salam, Müəllim!» deyərək Onu öpdü. İsa da ona dedi: «Dostum, nə üçün gəlmisən? Sən Bəşər Oğlunu öpüşləmi satırsan?» Sonra İsa Yəhuda ilə gələn əsgərlərdən soruşdu: «Kimi axtarırsınız?» Ona cavab verdilər: «Nazaretli İsanı». Rəbb İsa onlara «Mənəm» dedi. Onlar bunu eşidib geri çəkilib yerə qapandılar. İsa onlara dedi: «Nə üçün quldur üstünə gələn kimi qılınc və dəyənəklərlə gəlmisiniz? Mən hər gün məbəddə sizinlə birlikdə olanda siz Mənə əl qaldırmırdınız. Amma indi sizin vaxtınızdır, zülmət hökmranlığıdır».

Əsgərlər İsanı yaxalayıb baş kahinin evinə apardılar. Şagirdlər isə Onu tərk edib qaçdılar.

*MATTA 26:45–49, 56–57; LUKA 22:45–54; YƏHYA 18:1–12*





# İsanın məhkəməsi və Peterin inkarı

Peter və başqa şagirdlər uzaqdan İsanın ardınca baş kahinin həyətinə qədər getdilər. Onlar bunun nə ilə qurtarmasını görmək istəyirdilər. Başçı kahinlər, ağsaqqallar və bütün Ali Şura İsaya ölüm hökmü vermək üçün Ona qarşı yalançı şahidlik





ifadəsi axtarırdılar. Yalançı şahidlər gəlirdi, amma başçı kahinlər və ağsaqqallar İsanı nədə ittiham etməyi tapa bilmirdilər.

Axırda iki yalançı şahid gəlib dedi: «Bu Adam deyirdi: "Mən Allahın məbədini dağıdıb üç gün ərzində tikə bilərəm"». Baş kahin ayağa qalxıb İsaya dedi: «Sənin heç cavabın yoxdur? Onlar Sənin əleyhinə bu nə ifadədir verirlər?» Amma İsa susmaqda davam edirdi. Baş kahin isə Ona dedi: «Səni var olan Allaha and etdirirəm, bizə de, Allahın Oğlu Məsih Sənsənmi?»

İsa da ona dedi: «Sənin dediyin kimidir. Hətta sizə deyirəm: bundan sonra Bəşər Oğlunun Qüdrətli Olanın sağında oturduğunu və göyün buludları üzərində gəldiyini görəcəksiniz».

Onda baş kahin əynindəki paltarını cırıb dedi: «O, Allaha küfr etdi! Artıq şahidlərə nə ehtiyacımız var? Elə indi Onun küfr söylədiyini eşitdiniz! Bəs buna nə deyirsiniz?» Onlar cavab verib dedilər: «O, ölüm cəzasına layiqdir». Onda İsanın üzünə tüpürüb Onu döyməyə başladılar; digərləri də Ona şillə vuraraq istehza edib deyirdilər: «Ey Məsih, bizə peyğəmbərlik elə görək, Səni vuran kimdir?»

Peter isə baş kahinin həyətində tonqalın yanında nökər və qarabaşlarla isinirdi. Bir qarabaş ona yaxınlaşıb dedi: «Sən də Qalileyalı İsa ilə birlikdə idin». Amma Peter hamının qarşısında inkar edərək dedi: «Bilmirəm, sən nə danışırsan». Sonra darvazaya gələndə başqa bir qarabaş onu görüb oradakılara dedi: «Bu adam Nazaretli İsa ilə birlikdə idi». Peter yenə inkar edib and içdi: «Mən o Adamı tanımıram». Bir az sonra orada duranlar gəlib Peterə dedilər: «Doğrudan da, sən onlardansan, çünki nitqin səni ifşa edir». Bu dəfə Peter and içərək o Adamı tanımadığını dedi. Həmin anda xoruz banladı.

O an Peter İsanın «xoruz banlamazdan əvvəl sən Məni üç dəfə inkar edəcəksən» dediyi sözü yadına saldı. O, həyətdən çıxıb acı-acı ağladı.

*MATTA 26:58–75; YƏHYA 18:15*

## İsa Pilatın qarşısında

Səhər açılanda bütün başçı kahinlər və ağsaqqallar yığışıb İsanı edam etməyi qərara aldılar. Onlar İsanın əl-qolunu bağlayaraq vali Pilatın yanına apardılar. O zaman İsaya xəyanət edən Yəhuda Onun məhkum edildiyini görəndə peşman oldu. Otuz gümüş pulu başçı kahinlərə və ağsaqqallara geri gətirib «mən təqsirsiz qanı təslim etməklə günah işlətdim» dedi. Yəhuda otuz gümüş pulu məbədin içinə atıb oradan çıxdı, gedib özünü asdı.

İsanı bütpərəst Pilatın yanına gətirən Yəhudilər murdar olmamaqları və Pasxa yeməyini yeyə bilməkləri üçün vali sarayına girmədilər. Pilat özü onların yanına çıxıb dedi: «Bu Adamı nədə ittiham edirsiniz?» Onlar Pilata cavab verdilər: «Əgər bu Adam cinayətkar olmasaydı, Onu sənə təslim etməzdik». Onu ittiham etməyə başlayaraq dedilər: «Bu Adamın millətimizi yoldan çıxartdığını gördük. O, Qeysərə vergi verməyə mane olur və Özünü Məsih, Padşah adlandırır».

Pilat yenə vali sarayına girdi, İsanı çağırıb Ona dedi: «Yəhudilərin Padşahı Sənsənmi?» İsa cavab verdi: «Mənim Padşahlığım bu dünyadan deyil. Əgər Mənim Padşahlığım bu dünyadan olsaydı, xidmətçilərim Yəhudi başçılarına təslim edilməməyim üçün döyüşərdi, amma indi Mənim Padşahlığım buradan deyil». Pilat ona dedi: «Deməк, Sən Padşahsan?» İsa cavab verdi: «Mən həqiqət barədə şəhadət etmək üçün doğulub dünyaya gəldim. Həqiqətdən olan hər kəs Mənim səsimə qulaq asar». Pilat Ondan soruşdu: «Həqiqət nədir?»

Pilat İsanın padşah Hirodun idarə etdiyi vilayətdən olduğunu bildikdə Onu Hirodun yanına göndərdi. Hirod o vaxt Yerusəlimdə idi. Hirod İsaya çoxlu suallar verdi, amma O, ona heç bir cavab vermədi. Başçı kahinlər və ilahiyyatçılar Ona qarşı çoxlu ittiham irəli sürdülər. Hirod öz əsgərləri ilə



Onu təhqir edib ələ saldı. Onun əyninə padşah libası geyindirib Pilatın yanına qaytardı. Əvvəllər düşmən olan Pilatla Hirod o gün bir-biri ilə dostlaşdı.

O zaman Pilat başçı kahinləri, rəhbərləri və xalqı toplayıb onlara dedi: «Siz "bu Adam xalqı yoldan çıxardır" deyib Onu yanıma gətirdiniz. Mən isə məsələni araşdırıb bu Adamı sizin irəli sürdüyünüz ittihamların heç birində təqsirkar görmədim». Pilat adətə görə bayram günü bir məhbusu azad etməli idi. Amma bütün xalq birlikdə çığırırdı: «Bu Adam öldürülsün! Bizə Barabbanı azad et!» Barabba isə şəhərdə üsyan qaldırmaq və adam öldürməyə görə zindana atılmışdı. Pilat İsanı azad etmək istəyərək yenə də səsini ucaltdı. Onlar isə bağırırdılar: «Onu çarmıxa* çək, çarmıxa çək!» Onların səsi Pilatın səsindən uca idi.

*MATTA 27:1–4;*
*LUKA 23:2, 7–23;*
*YƏHYA 18:28–30, 33–38*



## İsa ölümə məhkum olunur

Onda Pilat İsanı aparıb qamçılatdı. Əsgərlər də tikandan bir tac hörüb Onun başına qoydular və Ona tünd qırmızı paltar geyindirdilər. Onlar İsanın yanına gəlib «Yəhudilərin Padşahı sağ olsun!» deyirdilər və Ona şillə vururdular. Pilat yenə çıxıb Yəhudilərə dedi: «Budur, Onu bayıra, sizin yanınıza gətirirəm ki, Onda bir təqsir görmədiyimi biləsiniz».

O zaman başında tikandan tac, əynində tünd qırmızı paltar olan İsa bayıra çıxdı. Pilat onlara dedi: «Budur o Adam!» Başçı kahinlər və mühafizəçilər Onu gördükdə bağırdılar: «Çarmıxa çək, çarmıxa çək!» Pilat onlara dedi: «Onu özünüz götürüb çarmıxa çəkin, çünki mən Onda bir təqsir görmürəm». Yəhudilər ona cavab verdilər: «Bizim bir Qanunumuz var, bu Qanuna görə O ölməlidir, çünki Özünü Allahın Oğlu adlandırır». Pilat bu sözü eşidəndə daha çox qorxdu. Yenə vali sarayına girib İsadan soruşdu: «Sən haradansan?» Amma İsa susurdu. Pilat Ona dedi: «Mənəmi cavab vermirsən? Səni azad etməyə, yaxud çarmıxa çəkməyə səlahiyyətimin olduğunu bilirsən?» İsa ona cavab verdi: «Əgər sənə yuxarıdan verilməsəydi, Mənim üzərimdə heç bir səlahiyyətin olmazdı. Buna görə də Məni sənə təslim edənin günahı daha böyükdür». Bundan sonra Pilat Onu azad etməyə çalışdı.

Pilat bu sözü eşitdikdə İsanı vali sarayından çıxarıb hökm kürsüsünə oturdu. Pilat Yəhudilərə «Padşahınız budur!» dedi. Onlar isə bağırdılar: «Yox, rədd olsun, rədd olsun! Onu çarmıxa çək!» Pilat onlardan soruşdu: «Padşahınızımı çarmıxa çəkim?» Başçı kahinlər cavab verdilər: «Qeysərdən başqa padşahımız yoxdur!» Pilat onlara «Elə isə Məsih deyilən İsaya nə edim?» dedi. Onların hamısı «Çarmıxa çəkilsin!» dedilər. Vali soruşdu: «Axı O nə pislik edib?» Onlarsa daha ucadan bağırdılar: «Çarmıxa çəkilsin!» Pilat gördü ki, əlindən heç bir



şey gəlmir. Sonra o, su götürüb xalqın önündə əllərini yudu və belə dedi: «Mən bu Adamın qanı üçün təqsirkar deyiləm, qoy sizin boynunuzda qalsın». Bütün xalq cavab verib dedi: «Onun qanının məsuliyyəti bizim və övladlarımızın üzərinə olsun!» Onda Pilat onlar üçün Barabbanı azad etdi. İsanı isə qamçılatdıqdan sonra çarmıxa çəkilməyə təslim etdi.

Əsgərlər İsanı götürüb çarmıxa çəkməyə apardılar. İsa çarmıxını Özü daşıyaraq İbranicə Qolqota, yəni «Kəllə yeri» adlanan yerə çıxdı. İsanın ardınca böyük bir izdiham və Onun üçün ağlayıb nalə çəkən qadınlar gedirdi. İsa onlara tərəf dönüb dedi: «Ey Yerusəlim qızları, Mənim üçün ağlamayın. Özünüz və övladlarınız üçün ağlayın, çünki çox ağır günlər gələcək».

*MATTA 27:20–26;*
*LUKA 23:27–29;*
*YƏHYA 19:1–1*



## İsanın çarmıxa çəkilməsi

İsa ilə birlikdə iki cinayətkar da edama aparılırdı. Kəllə adlanan yerə gələndə orada Onu və cinayətkarları – birini sağında, birini də solunda çarmıxa çəkdilər. Amma İsa deyirdi: «Ata! Onları bağışla, çünki nə etdiklərini bilmirlər». Pilat bir lövhə yazıb onu çarmıxın üstündən asdırdı. Orada belə yazılmışdı: «Yəhudilərin Padşahı Nazaretli İsa». Əsgərlər





İsanı çarmıxa çəkdikləri zaman Onun paltarlarını götürüb aralarında böldülər; köynəyi üçün püşk atdılar. Camaat durub tamaşa edirdi. Rəhbərlər də İsaya istehza edib deyirdilər: «Başqalarını xilas edirdi. Əgər O, Allahın seçdiyi Məsihdirsə, qoy Özünü də xilas etsin!» Əsgərlər də yaxınlaşıb Onu ələ salırdılar. Ona şərab sirkəsi təqdim edib deyirdilər: «Əgər Sən Yəhudilərin Padşahısansa, Özünü xilas et!» Çarmıxa asılmış cinayətkarlardan biri Ona böhtan ataraq deyirdi: «Məgər Sən Məsih deyilsən? Özünü də, bizi də xilas et!» O biri cinayətkarsa ona qadağan edərək deyirdi: «Sən heç Allahdan qorxmursan? Sən özün də eyni cəzaya məhkum olmusan! Biz ədalətlə məhkum olunmuşuq, çünki əməllərimizə layiq olan əvəzi alırıq. Bu Adamsa heç bir haqsızlıq etməmişdi». Sonra İsaya dedi: «Ey İsa, Öz Padşahlığına gələndə məni xatırla!» İsa ona dedi: «Sənə doğrusunu deyirəm: bu gün sən Mənimlə birlikdə cənnətdə olacaqsan». Gündüz saat on ikidən saat üçədək bütün yer üzünə qaranlıq çökdü. Saat üçə yaxın İsa uca səslə nida edərək dedi: «Eli, Eli, lema şabaqtani?» Bu, «Ey Allahım, Allahım, niyə Məni tərk etdin?» deməkdir. Əsgərlərdən biri dərhal qaçıb bir süngər gətirdi, şərab sirkəsinə batırıb bir qamışın ucuna keçirərək içmək üçün İsaya verdi. İsa şərab sirkəsini dadanda «tamam oldu» dedi. O, uca səslə nida etdi: «Ey Ata! Ruhumu Sənin əlinə verirəm»; bunu deyib son nəfəsini verdi.

O an məbədin pərdəsi yuxarıdan aşağıya qədər iki yerə böləndü. Yer sarsıldı, qayalar yarıldı. Qəbirlər açıldı, vəfat etmiş bir çox müqəddəs dirildi. Onlar İsanın dirilməsindən sonra qəbirlərdən çıxıb müqəddəs şəhərə getdilər və bir çox insana göründülər. İsaya nəzarət edən yüzbaşı və onunla birlikdə olan əsgərlər zəlzələni və baş verən şeyləri gördükdə «doğrudan da, bu Adam Allahın Oğlu idi» dedilər. Buna tamaşa edən xalq geri dönüb sinələrinə vururdu.

*MATTA 27:45–49, 51–54; LUKA 23:32–43, 46–48; YƏHYA 19:19–24, 30*

## İsanın dəfni

İsa öldüyü gün cümə günü idi. Yəhudilər Pilatdan çarmıxa çəkilənlərin baldırlarının qırılmasını və cəsədlərin götürülməsini xahiş etdilər. Onlar cəsədlərin Şənbə günü çarmıxda qalmasını istəmirdilər, çünki o Şənbə günü böyük bir bayram idi. Onda əsgərlər gəlib əvvəl İsa ilə çarmıxa çəkilən bir adamın, sonra isə o biri adamın baldırlarını qırdılar. İsanın yanına gələndə isə Onun artıq öldüyünü görüb baldırlarını qırmadılar. Amma əsgərlərdən biri Onun böyrünü nizə ilə deşdi, o anda oradan qan və su axdı. Bunu görən adam özü şəhadət edir və onun şəhadəti doğrudur, sizin də iman etməyiniz üçün həqiqəti söylədiyini bilir. Bunlar Müqəddəs Yazının «Onun bir sümüyü də qırılmayacaq» sözü yerinə yetsin deyə oldu.

Bundan sonra Ali Şuranın üzvü mötəbər və varlı Arimateyalı Yusif gizlicə Pilatın yanına gəldi və İsanın cəsədini götürmək üçün icazə istədi. Pilat buna izin verdi.

Vaxtı ilə gecə İsanın yanına gələn Ali Şuranın üzvlərindən biri Nikodim də gəldi. O, böyük qablarda ətirli yağ gətirdi. Yəhudilərin dəfn adətinə görə İsanın cəsədini ətirli yağlarla hopdurulmuş təmiz kətana bürüdülər. İsanın çarmıxa çəkildiyi yerin yaxınlığındakı bağda, qayanın içində dəfn üçün təzə oyulmuş məzar var idi. Yusif və Nikodim İsanın cəsədini oraya qoydular və mağaranın ağzına böyük bir daş yuvarladılar.

Şənbə günü başçı kahinlərlə fariseylər Pilatın yanına gəlib dedilər: «Ağa, o yalançının hələ sağ ikən "üç gün sonra diriləcəyəm" dediyini xatırlayırıq. Ona görə də üçüncü günə qədər qəbrin təhlükəsizliyinin qorunmasını əmr et. Yoxsa şagirdləri gəlib Onu oğurlayar və xalqa "O, ölülər arasından dirildi" deyərlər. Axırıncı yalan birincisindən daha pis olar».



Onlar icazə alıb qəbrin yanına keşikçilər qoydular, qəbir daşını isə möhürlədilər.

*MATTA 27:57–66; YƏHYA 19:31–42*



## Məsihin dirilməsi

Şənbə günü keçəndən sonra böyük zəlzələ oldu, çünki Rəbbin bir mələyi göydən enib gələrək qəbrin daşını bir tərəfə yuvarladı. Onun görünüşü şimşək kimi, paltarı isə qar kimi ağ idi. Mağaranın keşiyini çəkən əsgərlər qorxudan titrəyib ölü kimi oldular. Keşikçilər şəhərə gəlib baş verənləri başçı kahinlərə bildirdilər. Onlar ağsaqqallarla toplaşıb məşvərət keçirdikdən sonra əsgərlərə çoxlu pul verib dedilər: «Deyərsiniz ki, İsanın şagirdləri gecə biz yatanda gəlib Onu oğurlayıblar. Əgər bu xəbər valinin qulağına gedib çatsa, biz onu inandırarıq, sizi də bəladan qurtararıq». Əsgərlər pulu alıb başçı kahinlərin öyrətdikləri kimi etdilər.

Həmin gün səhər tezdən Məcdəlli Məryəm, Yaqubun anası Məryəm və Şalomit İsanın cəsədinə çəkmək üçün ətirlər aldılar. Onlar bir-birlərinə deyirdilər: «Görəsən qəbrin ağzındakı daşı bizim üçün kim kənara yuvarlayacaq?» Qəbrə yaxınlaşanda daşın kənara yuvarlandığını gördülər. Bu daş nəhəng idi. Qəbrə girib sağ tərəfdə ağ libas geyinmiş bir mələk gördülər və heyrətə gəldilər. Mələk isə onlara dedi: «Qorxmayın! Çarmıxa çəkilmiş Nazaretli İsanı axtarırsınız. O dirilmişdir! Burada yoxdur. Bax Onu qoyduqları yer budur. İndi isə gedin, Onun şagirdlərinə deyin: "İsa Qalileyaya sizdən qabaq gedir. Sizə dediyi kimi, Onu orada görəcəksiniz"».

Qadınlar mağaradan çıxıb qorxu və böyük sevinclə şagirdlərə Məsihin dirilməsi barəsində xəbəri çatdırmağa tələsdilər.

*MATTA 28:1–8, 11–15; MARK 16:1–7, 9*





## İsa sağdır!

Qadınlar İsanın dirilməsi barədə xəbəri şagirdlərə bildirməyə getdikləri zaman O, Özü yolda onları qarşılayıb dedi: «Sizə salam!» Qadınlar Onu görüb sevindilər, yaxınlaşıb Ona təzim etdilər. Onda İsa onlara dedi: «Qorxmayın! Gedin, qardaşlarıma xəbər verin ki, Qalileyaya getsinlər. Məni orada görəcəklər».

Qadınlar On Bir şagirdin yanına gəlib dirilmiş İsanı gördüklərini dedilər. Amma şagirdlər onlara inanmadılar.

Buna baxmayaraq, Peter və Yəhya qəbrə tərəf qaçdılar. Yəhya Peterdən cəld qaçdı və qəbrin yanına tez çatdı. O, mağaraya boylanıb baxanda yerdə kətan bezləri gördü, amma mağaraya girmədi. O vaxt onun ardınca Şimon Peter də gəlib qəbrə girdi. O, düşüb-qalan kətan bezləri və ayrıca atılmış İsanın başına örtülən dəsmalı gördü. Onda Yəhya da məzara girib bunları gördü və Rəbbin dirilməsinə inandı.

*MATTA 28:8–10; LUKA 24:9–12; YƏHYA 20:3–8*





## İsa Xammaya gedən şagirdlərinə görünür

Həmin gün şagirdlərdən ikisi Yerusəlimin yaxınlığında olan Xamma kəndinə gedir, olub-keçən bütün bu hadisələr barədə öz aralarında söhbət edirdi. Onlar bunu müzakirə edərkən İsa yaxınlaşıb onlarla birlikdə yol getdi, amma onlar Onu tanımadılar.

İsa şagirdlərindən soruşdu: «Siz yol gedə-gedə öz aranızda nə barədə danışırsınız?» Onlardan Kleopa adlı bir nəfər İsaya cavab verdi: «Yerusəlimdə qalıb bu günlərdə orada baş vermiş hadisələrdən xəbəri olmayan bircə sənsənmi?» İsa onlara dedi: «Hansı hadisələrdən?» Şagirdlər Ona cavab verdi:

«Nazaretli İsa barəsindəki hadisələrdən. O, Allahın və bütün xalqın önündə əməldə və sözdə qüdrətli bir peyğəmbər idi. Bizim başçı kahin və rəhbərlərimiz Onu ölümə məhkum edib çarmıxa çəkdirdilər. Biz də ümid edirdik ki, bu, İsrailin gələcək Xilaskarıdır. Bu hadisələr artıq üç gündür ki, baş verib. Qadınlardan bəzisi də bizi mat qoydular: onlar səhər erkən qəbir üstünə gedib Onun cəsədini orada tapa bilməyiblər. Gəlib görüntüdə Onun diri olduğunu bəyan edən mələkləri gördüklərini dedilər. Bizimlə olanların bəziləri qəbrə gedib qadınların dediyi kimi, onu boş gördülər».

Onda İsa onlara dedi: «Ey ağılsızlar və peyğəmbərlərin xəbər verdiklərinə inanmaq üçün ürəyində ləngiyənlər! Məsih bu əzabları çəkib Öz izzətinə qovuşmalı deyildimi?» Sonra Musa ilə bütün peyğəmbərlərdən başlayaraq Müqəddəs Yazıların hamısında Özü haqqında olanları izah etdi.

Onlar getdikləri kəndə yaxınlaşdılar. İsa Özünü yoluna davam etmək istəyən kimi göstərdi. Amma onlar İsadan təkidlə xahiş edib dedilər: «Bizimlə qal, çünki axşam düşür və gün batmaq üzrədir». O da onlarla qalmaq üçün içəri girdi. İsa onlarla süfrəyə oturanda çörək götürüb şükür duası etdi, sonra çörəyi



böldü və onlara verdi. Bu anda onların gözləri sanki açıldı və onlar İsanı tanıdılar. Amma İsa onlar üçün görünməz oldu. Onlar bir-birlərinə dedilər: «O, yolda bizimlə danışıb Müqəddəs Yazıları bizə izah edəndə ürəklərimiz alışıb-yanmırdımı?»

*LUKA 24:13–32*



## İsa digər şagirdlərinə görünür

Xammaya gedən yolda İsa gözlərinə görünən şagirdlər dərhal Yerusəlimə qayıtdılar. On Bir şagirdi və onlarla birlikdə olanları bir yerdə toplaşmış və «Rəbb, doğrudan da, dirilmiş və Şimona görünmüşdür» deyən gördülər. Onlar da yolda baş verənlərdən, çörəyi böldüyü zaman Onu necə tanıdıqlarından bəhs etdilər.

Onlar bu barədə danışarkən İsa Özü aralarında peyda olub dedi: «Sizə salam olsun!» Onlarsa çaşıb dəhşətə gələrək ruh gördüklərini zənn etdilər. Amma İsa onlardan soruşdu: «Nə üçün təlaşa düşürsünüz? Nəyə görə ürəklərinizə belə fikirlər gəlir? Əllərimə və ayaqlarıma baxın. Bu, Mən Özüməm! Mənə toxunun və baxın, çünki Məndə gördüyünüz kimi ruhun əti və sümüyü olmur». İsa bunu deyib əllərindəki və ayaqlarındakı yara izlərini onlara göstərdi. Onlar hələ sevincdən inanmayıb heyrətlənərkən İsa onlara dedi: «Burada yeməyə bir şey varmı?» Ona bir tikə bişmiş balıq verdilər, İsa da yeməyi götürüb onların qabağında yedi.

Sonra İsa onlara dedi: «Sizinlə birgə olarkən söylədiyim sözlər bunlardır: Musanın Qanununda, Peyğəmbərlərin Kitablarında və Zəburda Mənim haqqımda yazılanlar yerinə yetirilməli idi». Sonra İsa onlara söylədi: «Belə yazılıb: Məsih əzab çəkib üçüncü gün ölülər arasından dirilməlidir. Yerusəlimdən başlayaraq bütün millətlərə günahların bağışlanması üçün tövbə Onun adı ilə vəz edilməlidir. Siz bu hadisələrin şahidisiniz; Atamın vəd etdiyini sizə göndərəcəyəm. Sizsə ucalardan gələn qüvvəni alanadək bu şəhərdə qalın».

*LUKA 24:33–49*





## «Məni sevirsənmi?»

Bu hadisələrdən sonra dirilmiş Rəbb Qalileya gölünün kənarında şagirdlərə göründü. Şimon Peter, «Əkiz» adlanan Tomas, Qana kəndindən olan Natanael, Zavdayın oğulları və İsanın başqa iki şagirdi orada birlikdə idi. Şimon Peter onlara «balıq tutmağa gedirəm» dedi. O birilər də onunla getməyi qərara aldılar. Onlar gedib qayığa mindilər, amma o gecə bir şey tuta bilmədilər.

Səhər açılanda İsa sahildə dayanmışdı, amma şagirdlər Onu tanımadılar. İsa onlara dedi: «Uşaqlar, bir şey tutmusunuzmu?» Onlar cavab verdilər: «Xeyr». İsa yenə dedi: «Toru qayığın sağ tərəfinə atın, orada tapacaqsınız». Onlar da atdılar və o qədər balıq tutdular ki, toru çəkə bilmirdilər. Onda İsanın sevimli şagirdi Yəhya Peterə «Bu, Rəbdir» söylədi. Şimon Peter bunu eşidən kimi gölə atıldı və sahilədək üzdü. O biri şagirdlər isə balıq torunu çəkə-çəkə qayıqda gəldilər, çünki sahildən uzaq deyildilər. Onlar quruya çıxanda orada közərmiş tonqalı, onun üzərinə qoyulmuş balığı və yanında olan çörəyi gördülər. Bu, üçüncü dəfə idi ki, İsa dirilməsindən sonra şagirdlərin gözünə görünmüşdü.

Onlar nahar edəndə İsa Şimon Peterə dedi: «Ey Yəhya oğlu Şimon, Məni bunlardan çox sevirsənmi?» Peter ona dedi: «Bəli, ya Rəbb, Səni sevdiyimi bilirsən». İsa ona dedi: «Quzularımı bəslə». İkinci dəfə yenə Peterə dedi: «Ey Yəhya oğlu Şimon, Məni sevirsənmi?» O da İsaya dedi: «Bəli, ya Rəbb, Səni sevdiyimi bilirsən». İsa ona dedi: «Quzularımı otar». Üçüncü dəfə Peterə dedi: «Ey Yəhya oğlu Şimon, Məni sevirsənmi?» Peter üçüncü dəfə İsanın ona «Məni sevirsənmi?» sualını verməyinə kədərləndi və Ona dedi: «Ya Rəbb, Sən hər şeyi bilirsən, Səni sevdiyimi bilirsən». İsa ona dedi: «Quzularımı bəslə».



Peter üç dəfə İsadan imtina etdiyi kimi, İsaya olan məhəbbətini də üç dəfə etiraf etdi. «Quzularımı bəslə» sözləri ilə Rəbb İsa Peterə və digər şagirdlərinə Ona iman edənlərin qayğısına qalmağı tapşırdı.

*YƏHYA 21:1–17*



## İsa Məsihin göyə qalxması

Dirilmiş Məsih qırx gün ərzində şagirdlərinə görünüb Allahın Padşahlığından danışırdı. Nəhayət, şagirdlərini toplayıb onlara əmr etdi:

«Yerusəlimdən kənara çıxmayın, Atanın verdiyi, Məndən eşitdiyiniz vədin həyata keçməsini gözləyin. Yəhya su ilə vəftiz edirdi, amma siz bir neçə gündən sonra Müqəddəs Ruhla vəftiz olacaqsınız. Müqəddəs Ruh üzərinizə enəndə siz qüdrət alacaqsınız və Yerusəlimdə, bütün Yəhudeya və Samariyada, həmçinin yer üzünün qurtaracağınadək hər yerdə Mənim şahidlərim olacaqsınız».

İsa bu sözləri söylədikdən sonra onların gözü önündə göyə qalxmağa başladı. Bulud Onu şagirdlərin nəzərindən gizlətdi. İsa göyə qalxanda onlar səmaya baxırdılar. Elə həmin an ağ libaslı iki kişi onların yanında peyda olub soruşdu: «Ey Qalileyalılar, niyə səmaya baxa-baxa qalmısınız? İsanın göyə qaldırıldığını necə gördünüzsə, göydən qayıdacağını da elə görəcəksiniz».

*HƏVARİLƏRİN İŞLƏRİ 1:3–5, 8–11*





## «Yol, həqiqət və həyat»

Rəbb İsa Məsihin yer üzündə xidməti təxminən üç il davam etdi. Rəbb xilas və Allahın Padşahlığı haqqında Xoş Xəbərini bəyan edirdi. Onun hikmətli kəlmələrinin bəziləri bunlardır:

Yol, həqiqət və həyat Mənəm. Mənim vasitəm olmadan heç kim Atanın yanına gələ bilməz. *(Yəhya 14:6)*

Dirilmə və həyat Mənəm. Mənə iman edən ölsə də, yaşayar. *(Yəhya 11:25)*

Dünyanın nuru Mənəm. *(Yəhya 9:5)*

Həyat çörəyi Mənəm. Mənim yanıma gələn heç vaxt acmaz, Mənə iman edən heç vaxt susamaz. *(Yəhya 6:35)*

Bəşər Oğlu itmişləri axtarıb xilas etmək üçün gəlmişdir. *(Luka 19:10)*

«Nə yeyəcəyik?», «Nə içəcəyik?» və ya «Nə geyəcəyik?» deyə qayğı çəkməyin... Allahın Padşahlığını və Onun salehliyini axtarın. Onda bunların hamısı sizə əlavə olaraq veriləcək. *(Matta 6:31, 33)*

Aranızda sülh qoyub gedirəm, Öz sülhümü sizə verirəm. Mən onu sizə dünyanın verdiyi kimi vermirəm. Ürəyiniz təlaşa düşməsin, qorxmayın. *(Yəhya 14:27)*

Ey bütün yorğunlar və yükləri ağır olanlar, Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm. Mənim boyunduruğumu üzərinizə götürün və Məndən öyrənin, çünki Mən həlim və qəlbən itaətkaram. Bununla canınıza rahatlıq taparsınız, çünki Mənim boyunduruğum rahat və yüküm yüngüldür. *(Matta 11:28–30)*

Mənim sözümə qulaq asıb Məni Göndərənə inanan şəxs əbədi həyata malikdir və ona hökm çıxarılmayacaq, əksinə, o, ölümdən həyata keçib. *(Yəhya 5:24)*

Oğula iman edən şəxs əbədi həyata malikdir, Oğula itaət etməyənsə həyat görməyəcək, lakin Allahın qəzəbi onun üzərində qalır. *(Yəhya 3:36)*



Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və hər gün çarmıxını götürüb ardımca gəlsin. *(Luka 9:23)*

İnsan bütün dünyanı qazanıb canını məhv edər, yaxud itirərsə, ona nə xeyri var? *(Luka 9:25)*

İnsanlar qarşısında Məni iqrar edən hər kəsi Mən də göylərdə olan Atamın qarşısında iqrar edəcəyəm. Amma kim insanlar qarşısında Məni inkar etsə, Mən də onu göylərdə olan Atamın qarşısında inkar edəcəyəm. *(Matta 10:32–33)*

Yer və göy keçib-gedəcək, amma Mənim sözlərim əsla keçib-getməyəcək. *(Luka 21:33)*



## Həvarilərin İşləri

Bu vaxta qədər Rəbb İsa Məsihin göyə qalxmasından əvvəl olan hadisələr haqqında yazılmışdı. Onlar Mattanın, Markın, Lukanın və Yəhyanın dörd Müjdəsində nəql olunmuşdu.

Əhdi-Cədidin beşinci kitabı Həvarilərin İşləri adlanır. Orada Roma imperiyasının vilayətlərində məsihçiliyin yayılması tarixindən danışılır. Həvarilər – Rəbb İsa Məsihin şagirdləridir. İsa onlara bütün dünyaya Müjdə yaymağı tapşırmışdı. Həvarilərin İşləri Kitabında həvari Peter və Paulun xidməti və ələlxüsus Paulun dünyanın bir sıra ölkələrində Müjdə yayımı fəaliyyəti əsas yer tutur.

Həvarilərin İşləri Kitabını oxuyarkən biz görürük ki, Rəbb İsa Məsihin Qolqota çarmıxında ölümü və dirilməsi haqqında xəbər bütün dünyada yayılmağa başlayır.

Həvarilərin İşləri Kitabının Müjdənin müəllifi Luka tərəfindən yazıldığı hesab olunur. Bu kitabların yazılma tarixi b.e. 30–60-cı illərinə aiddir. Bu, məsihçiliyin yayılmasının tarixidir.





## Müqəddəs Ruhun gəlməsi

İsanın göyə qalxdığı Zeytun dağından Yerusəlimə qayıdan şagirdlər adətən toplandıqları evdə dua edirdilər. Onlarla birgə bir neçə qadın, onların arasında İsa Məsihin anası Məryəm var idi. İsanın şagirdləri özünü öldürən Yəhudanın yerinə on ikinci həvari Mattiyanı seçdilər. Pasxa bayramından sonra əllinci gündə qeyd olunan bayram zamanı On İki həvarinin hamısı bir yerə yığılmışdı. Birdən güclü külək uğultusu kimi göydən bir səs gəlib onlar oturan evin hər tərəfini bürüdü. Sonra sanki alova bənzər bir şey hər birinin üstünə endi. Həvarilər Müqəddəs Ruhla dolub naməlum dillərdə danışmağa başladılar.

O vaxt Yerusəlimdə müxtəlif ölkələrdən bayrama gələn mömin yəhudilər toplaşmışdılar. Onlar səs-küy eşidib həmin tərəfə tələsik getdilər. Hamı həvarilərin onların doğma dilində danışdığını eşidəndə çaş-baş qaldı. Onlar təəccüb içində bir-birindən soruşurdular: «Bu danışanların hamısı Qalileyalı deyilmi? Bəs necə olur ki, biz hamımız öz ana dilimizi eşidirik? Onlar bizim dilimizdə Allahın əzəmətli işlərindən danışırlar!»

Hamı mat qalıb çaşqınlıq içində bir-birindən soruşurdu: «Bu, nədir?» Bəziləri də rişxəndlə deyirdi: «Bunlar şirin şərabdan sərxoş olublar».

*HƏVARİLƏRİN İŞLƏRİ 1:12–26; 2:1–13*





## Peterin vəzi

Peter o biri həvarilərlə birgə xalqın qarşısında durdu və onu eşitsinlər deyə ucadan danışmağa başladı: «Ey Yəhudilər və Yerusəlimin bütün sakinləri, sözlərimə qulaq asın. Bu adamlar fikirləşdiyiniz kimi sərxoş deyillər. Hələ səhər saat doqquzdur. Gördüklərinizi Yoel peyğəmbər əvvəlcədən söyləmişdir. Allah demişdi: "Axır zamanda bütün bəşər üzərinə Ruhumdan tökəcəyəm. Oğullarınız və qızlarınız peyğəmbərlik edəcək, cavanlarınız görüntülər, ağsaqqallarınızsa röyalar görəcəklər. O günlərdə qul və qarabaşların üzərinə də Ruhumdan tökəcəyəm, onlar da peyğəmbərlik edəcəklər... Rəbbin adını çağıran hər kəs xilas olacaq". Ey İsraillilər, sözlərimə qulaq asın! Bildiyiniz kimi, Allahın Nazaretli İsa vasitəsilə yaratdığı möcüzələr Onun Allahdan gələn Şəxs olduğunu aydın göstərdi. Allahın əzəldən bilib müəyyən etdiyi məqsədə uyğun olaraq siz bu Şəxsi qanunsuzlara təslim edib onların əli ilə çarmıxa mıxlatdıraraq öldürdünüz. Allah isə Onu diriltdi, çünki Onu ölüm tutub saxlaya bilməzdi.

Allah İsanı ölümdən diriltdi və hamımız buna şahid olduq. Allah Onu ucaltdı və sağ tərəfində oturtdu. O, vəd olunmuş Müqəddəs Ruhu Atadan götürüb sizin görüb-eşitdiyiniz kimi üstümüzə tökdü. Ona görə də qoy bütün İsrail xalqı bilsin ki, Allah çarmıxa çəkdiyiniz İsanı həm Rəbb, həm də Məsih təyin etmişdir».

Bu sözlər ona qulaq asanların ürəyinə toxundu. Onlar həm Peterdən, həm də o biri həvarilərdən soruşdular: «Qardaşlar, bəs biz nə edək?» Onda Peter onlara dedi: «Tövbə edin, hamınız İsa Məsihin adı ilə vəftiz olun. Onda günahlarınız bağışlanacaq və bəxşiş olaraq Müqəddəs Ruhu alacaqsınız, çünki bu vəd həm sizin, həm övladlarınız, həm də uzaqdakıların hamısı – Allahımız Rəbbin çağırdığı hər kəs üçündür».



Çoxları Peterin sözlərini həvəslə qəbul etdi. O gün üç minə yaxın adam vəftiz olundu. O vaxtdan etibarən Rəbb xilas olunanların sayını hər gün artırırdı.

*HƏVARİLƏRİN İŞLƏRİ 2:14–47*



## Şikəstin şəfası

Bir gün Peterlə Yəhya dua vaxtı məbədə gedirdilər. Məbədin Gözəl adlı qapısında şikəst bir kişi oturmuşdu. Onu hər gün gətirib oraya qoyurdular ki, orada dilənib sədəqə yığsın. Peterlə Yəhyanı məbədin qapısında görən şikəst onlardan da sədəqə istədi.

Peterlə Yəhya ona diqqətlə baxıb dedilər: «Bizə bax». Dilənçi bir şey almaq ümidi ilə həvarilərə baxdı. Peter ona dedi: «Sənə verməyə nə qızılım, nə də gümüşüm var. Nəyim varsa, sənə verirəm. Nazaretli İsa Məsihin adı ilə qalx, gəz». Sonra sağ əlindən tutub onu qaldırdı. Bu kişinin topuqları və ayaqları dərhal qüvvət aldı. O qaçıb tullana-tullana, Allaha həmd edərək həvarilərlə bərabər məbədə girdi. Məbəddə olanlar məbədin Gözəl qapısında oturub dilənən şikəsti tanıdılar. Onu ayaq üstə Allaha həmd edən görəndə hamını heyrət və qorxu bürüdü.

Şəfa almış şikəst Peterlə Yəhyadan ayrılmadığına görə bütün xalq onlara tərəf, Süleymanın eyvanı adlanan yerə tələsdi. Bunu görən Peter xalqa dedi: «Ey İsraillilər, burada heyrətamiz nə var ki? Niyə gözlərinizi bizə dikib baxırsınız? Elə bil biz öz qüdrətimizlə, öz möminliyimizlə bu kişinin yeriməsinə səbəb olmuşuq. İbrahimin Allahı, İshaqın Allahı və Yaqubun Allahı, ata-babalarımızın Allahı Öz Qulu İsanı izzətləndirib. Siz Onu sataraq Pilatın qarşısında rədd etdiniz. Pilat Onu azad etmək üçün qərar vermişdi, amma siz Müqəddəs və Saleh Olanı rədd edib bir qatilin azad edilməsini istədiniz. Siz Həyat Banisini öldürdünüz, amma Allah Onu ölülər arasından diriltdi. Biz bunun şahidləriyik. Gördüyünüz və tanıdığınız bu kişi İsanın adı sayəsində, Onun adına olan imanla sağaldı. İsaya olan iman ilə bu kişi hamınızın gözü qarşısında tam şəfa tapdı. İndi, ey qardaşlar, rəhbərləriniz



kimi sizin də bunu bilmədən etdiyinizi bilirəm. Amma Allah peyğəmbərlərin dili ilə Öz Məsihinin əzab çəkməsi barədə əvvəlcədən bəyan etdiyini yerinə yetirdi. Beləliklə, günahlarınızın silinməsi üçün tövbə edib Allaha tərəf dönün».

*HƏVARİLƏRİN İŞLƏRİ 3:1–26*



## Peterlə Yəhyanın həbsi

Peterin vəzindən və şikəstin şəfa almasından sonra beş min nəfərə yaxın adam İsa Məsihə iman etdi. Lakin Peterin sözləri kahinlərdə və rəislərdə qəzəb doğurdu, onlar Peteri və Yəhyanı həbs etməyi əmr etdilər. Ertəsi gün rəislər, ağsaqqallar və başçı kahinlər Yerusəlimdə toplaşdılar. Onlar həvariləri Ali Şuranın qarşısına gətirib şikəstin şəfası barəsində soruşdular: «Siz bunu hansı qüdrətlə, kimin adı ilə edirsiniz?» O zaman Peter Müqəddəs Ruhla dolub dedi: «Ey xalqın rəhbərləri və ağsaqqalları! Əgər bu gün biz bir xəstəyə etdiyimiz yaxşılığa və onun necə sağalmasına görə sorğu-suala çəkiliriksə, hamınız, bütün İsrail xalqı bilsin ki, bu adam sizin çarmıxa çəkdiyiniz, lakin Allahın ölülər arasından diriltdiyi Nazaretli İsa Məsihin adı ilə qarşınızda sağlam durub. Bilin ki, "bənnaların rədd etdiyi daş" guşədaşı olan İsadır. İsadan başqa heç kimdə xilas yoxdur, çünki səma altında başqa bir ad yoxdur ki, onun vasitəsilə xilas olaq».

Peter və Yəhyanın cəsarətini görəndə, onların savadsız, sadə insanlar olduğunu biləndə vəzlərinə qulaq asan rəis və ağsaqqallar təəccüb edirdilər. Amma onların İsa ilə birgə olduqlarını dərhal xatırladılar. Yanlarında şəfa almış adamı görüb heç nə deyə bilmədilər. Başçı kahinlər və ağsaqqallar onlara bayıra çıxmağı əmr edəndən sonra aralarında müzakirəyə başlayıb bir-birinə dedilər: «Bu adamlara nə edək? Bütün Yerusəlim əhalisinə aydın olub ki, bu adamların əli ilə əhəmiyyətli bir əlamət göstərilib və biz bunu dana bilmərik. Gəlin bu xəbərin xalq arasında daha çox yayılmasının qarşısını almaq üçün onlara hədə-qorxu gələk ki, bundan sonra bu Adı çəkib heç kimə heç nə deməsinlər».

Başçı kahinlər həvariləri çağırıb əmr verdilər ki, İsanın adını bəyan etmək və bu adla təlim öyrətmək qadağandır. Lakin Peterlə Yəhya cavab verib dedilər: «Özünüz qərar verin, Allaha deyil, sizə qulaq asmaq nə qədər doğrudur? Axı eşidib-gördüklərimizi



deməyə bilmərik». Ali Şuraya toplaşanlar onlara cəza vermək üçün imkan tapa bilmədiklərinə görə onları hədələyib sonra azadlığa buraxdılar, çünki xalqdan qorxurdular. Xalq isə baş verən hadisəyə görə Allahı izzətləndirirdi.

*HƏVARİLƏRİN İŞLƏRİ 4:1–21*



## İlk şəhid Stefanın ölümü

Həvarilərin təklifi ilə imanlılar cəmiyyəti yeddi nəfəri seçdi. Onlar yoxsullara və ehtiyac içində olanlara xüsusi qayğı göstərməli idilər. Onlardan biri Müqəddəs Ruhla, iman və qüdrətlə dolu Stefan idi. O, xalq arasında böyük möcüzələr və əlamətlər edirdi. Məsihə iman edənlərin əleyhdarları Stefana nifrət edib onunla mübahisə edirdilər. Lakin onlar Stefanın hikmətinə qarşı dura bilmirdilər, çünki Müqəddəs Ruhun Özü ona nə danışmağı öyrədirdi. Onda bu adamlar bəzilərini gizlicə öyrətdilər ki, Stefanı Allaha və Musaya küfr etməkdə ittiham etsinlər.

Xalqı Stefana qarşı qaldırıb onu tutdular və Ali Şuranın qarşısına gətirdilər. İttihamçılar Stefana qarşı yalan şahidlik edirdilər. Ali Şurada oturanların hamısı Stefana baxanda onun üzünün mələyin üzünə bənzədiyini gördü.

Baş kahin Stefandan soruşdu: «Bunlar doğrudurmu?» Stefan cavabında Müqəddəs Yazıların sözləri ilə danışmağa başladı. Oraya toplananlar Stefanın ifşaedici nitqini eşidərək acıqlarından dişlərini qıcıdırdılar.

Müqəddəs Ruhla dolan Stefan isə gözlərini göyə dikib Allahın ehtişamını və Allahın sağ tərəfində dayanan İsanı gördü. O dedi: «Baxın, mən göylərin yarıldığını və Bəşər Oğlunun Allahın sağ tərəfində dayandığını görürəm». Bunu eşitdikdə hamı qəzəblə çığırıb Stefanın sözlərini eşitməmək üçün qulaqlarını tıxadı və Stefanın üstünə hücum çəkdi. İttihamçılar onu şəhərdən kənara çıxarıb daşqalaq etdilər. Stefan isə dua edirdi: «Ya Rəbb İsa, ruhumu qəbul et!» Sonra diz çöküb ucadan nida etdi: «Ya Rəbb, bunu onlara günah sayma». Bunu deyəndən sonra o öldü.

*HƏVARİLƏRİN İŞLƏRİ 6:2–15; 7:1–60*





## Filip və Həbəşli vəzir

Stefanın əzablı ölümündən sonra Yerusəlimdəki imanlılar cəmiyyətinə qarşı təqiblər başladı. Cəmiyyətin üzvləri Yəhudeya və Samariyanın müxtəlif şəhərlərinə yayılıb Rəbbin Kəlamını bəyan etməyi davam edirdilər.

Bir gün Rəbbin mələyi Filip adlı yardımçıya dedi: «Dur, cənuba tərəf, Yerusəlimdən Qəzzəyə gedən səhra yoluna çıx». Filip də qalxıb getdi. Yolda bir Həbəşli ilə rastlaşdı. Bu, Həbəşlilərin mələkəsinin vəzirlərindən biri, onun xəzinəsini qoruyan idi. O, Yerusəlimə ibadət etmək üçün gəlmişdi və geri qayıdırdı.

Allahın Ruhu Filipə dedi: «Get, bu arabaya çat». Vəzir arabasında oturub Yeşaya peyğəmbərin kitabını oxuyurdu. Filip arabanın yanına gəldi və vəzirin Yeşaya peyğəmbərin kitabını oxuduğunu eşitdi. Ondan soruşdu: «Oxuduğunu başa düşürsənmi?» Vəzir ona cavab verdi: «Başa salan yoxdursa, bunu necə başa düşmək olar?» Sonra Filipdən arabaya minməsini xahiş etdi. Vəzir bu hissəni oxuyurdu: «Kəsilməyə aparılan qoyun kimi, qırxanların qabağında dilsiz quzu kimi ağzını açmadı. Alçaldığı zaman ədalətdən məhrum oldu. Onun nəslini kim təsvir edə bilər? Onun həyatı yer üzündən götürülür».

Vəzir Filipdən soruşdu: «Xahiş edirəm, deyin, burada peyğəmbər kimdən – özündən, yoxsa başqasından bəhs edir?» Filip də Müqəddəs Yazıların bu yerindən başlayıb İsa Məsih haqqında Müjdəni ona izah etdi.

Onlar yola davam edərkən gəlib su olan yerə çatdılar. Vəzir dedi: «Burada su var. Mənim vəftiz olmağıma nə isə mane olurmu?» Sonra arabanı saxlatdırdı. Filip vəzirlə birgə suya girdi. Filip onu vəftiz etdi. Sudan çıxanda Allahın Ruhu Filipi götürüb oradan uzaqlaşdırdı. Vəzir isə sevinə-sevinə yoluna davam etdi və Filipi daha görmədi.

*HƏVARİLƏRİN İŞLƏRİ 8:26–39*





## Məsihçilərin təqibçisi Şaul

Yerusəlimdəki imanlılar cəmiyyətini təqib edənlərdən biri gənc farisey Şaul idi. Şaul gözəl dini təhsil almışdı və Müqəddəs Yazıları yaxşı bilirdi. O, ata-baba ənənələrinə, Qanunun bütün qaydalarına ciddi əməl edirdi. Lakin həqiqəti bilmədən Şaul İsanın Məsih, yəni Xilaskar olduğuna inanmırdı və məsihçiləri dönük hesab edirdi. O, İsa Məsihin şagirdlərinin evinə soxularaq onları tutur, əl-qolunu bağlayıb zindana atırdı, əzablara və ölümə düçar edirdi.

Stefanı daş-qalaq edəndə Şaul qatillərin üst geyimlərini qoruyurdu və bununla bu edama öz münasibətini bildirirdi. Şaul qəddar deyildi, amma cəzanın ədalətli olduğuna əmin idi və bu üzdən çox israrlı idi.

Şaul təhlükəli küfrün daha da yayıldığından və onun mərkəzlərindən birinin Dəməşq şəhəri olduğundan xəbər tutdu. Şaul ora getməyi qərara aldı. O, Rəbbin şagirdlərinə nifrət hissi ilə alışıb-yanaraq baş kahinin yanına gəlib ondan Dəməşq sinaqoqlarına yazılan məktublar istədi ki, orada İsa Məsihin ardıcıllarını tutub qandallayaraq işgəncə vermək üçün Yerusəlimə gətirsin.

*HƏVARİLƏRİN İŞLƏRİ 7:58; 8:1, 3; 9:1–2*





## Rəbbin Şaula görünməsi

Şaul Dəməşqə yaxınlaşanda qəflətən göydən gələn bir işıq onun ətrafında parladı. O, yerə yıxıldı və bir səs eşitdi: «Şaul, Şaul, niyə Məni təqib edirsən?» Şaul Ona dedi: «Ey Ağam, Sən kimsən?» O cavab verdi: «Mən sənin təqib etdiyin İsayam. Qalx ayağa, şəhərə get və nə etmək lazımdırsa, sənə deyiləcək».

Şaulla birlikdə yola çıxan adamlar yerlərindəcə susub qalmışdılar. Səsi eşitsələr də, heç kimi görə bilmədilər. Şaul yerdən qalxdı. Göydən gələn işıq onu kor etmişdi. Şaul ilə yola çıxanlar onun əlindən tutub Dəməşqə apardılar.

Dəməşqdə İsanın şagirdlərindən Xananya adlı bir nəfər var idi. Rəbb görüntü vasitəsilə ona dedi: «Xananya! Qalx, “Düz” adlanan küçəyə get. Orada Yəhudanın evində adı Şaul olan Tarsuslu bir adamı soruş. Hal-hazırda orada dua edir. O, görüntüdə yanına Xananya adlı bir kişinin gəldiyini və gözlərinin açılması üçün onun üzərinə əllərini qoyduğunu görüb». Xananya cavab verdi: «Ya Rəbb, bu kişi barədə çoxlarından Yerusəlimdə Sənin şagirdlərinə nə qədər pislik etdiyini eşitmişəm. Burada Sənin adını çağıranların hər birinin əl-qolunu bağlamaq üçün başçı kahinlərdən səlahiyyət alıb». Amma Rəbb ona dedi: «Get! Başqa millətlərə, padşahlara və İsraillilərə Öz adımı bəyan etmək üçün Mən bu adamı seçmişəm. Mənim adım uğrunda çəkəcəyi əzabın nə qədər böyük olduğunu ona göstərəcəyəm». Bundan sonra Xananya gedib həmin evə girdi və əllərini Şaulun üstünə qoyub dedi: «Qardaşım Şaul, Rəbb, yəni bura gələrkən yolda sənə görünən İsa məni göndərdi ki, sənin gözlərin açılsın və Müqəddəs Ruhla dolasan». O andaca Şaulun gözlərindən sanki pulcuqlar düşdü və Şaul təkrar görməyə başladı. Həmin gün o, İsa Məsihin adı ilə vəftiz olundu, sonra sinaqoqlarda İsanın Allah Oğlu olduğunu vəz etməyə başladı.

*HƏVARİLƏRİN İŞLƏRİ 9:3–20*





## Şaul Dəməşqdən qaçır

Şaulun sözlərini eşidənlərin hamısı təəccüb edib deyirdi: «Yerusəlimdə İsanın adını çəkənləri təqib edən bu deyilmi? Buraya Məsih davamçılarının əl-qolunu bağlayıb başçı kahinlərin yanına aparmağa gəlməmişdimi?» Şaul isə imanda daha da qüvvətlənirdi. O, vəzlərində İsanın Məsih, yəni Xilaskar olduğunu sübut edib Dəməşqdə yaşayan Yəhudiləri çaş-baş salırdı.

Bir müddət keçəndən sonra Yəhudilər Şaulu öldürmək üçün sui-qəsd hazırladılar. Buna görə onlar şəhərin bütün darvazalarında əsgərlər qoydular ki, Şaul Dəməşqdən çıxmaq istəyəndə onu tutsunlar. Şaul bundan xəbər tutub şəhərdə qaldı. İsanın şagirdləri gecə onu böyük bir səbətin içinə qoyaraq şəhər divarından aşağı endirdilər.

Şaul Dəməşqi tərk edib Yerusəlimə gəldi. Orada o, İsanın şagirdlərinə qoşulmaq istədi, lakin onlar onun Məsihin həqiqi şagirdi olduğuna inanmayıb ondan qorxurdular. O vaxt Barnaba adlı bir məsihçi Şaul ilə birlikdə həvarilərin yanına gəldi və Şaulun yolda Rəbbi gördüyünü, Rəbbin ona nə söylədiyini danışdı. Barnaba həmçinin Şaulun Dəməşqdə İsa Məsihin adı ilə cəsarətlə danışdığından bəhs etdi. O zaman həvarilər və bütün imanlılar cəmiyyəti Şaulu qardaş kimi qəbul etdilər. Sonralar onu həvari Paul adlandırdılar. Onun həyatının məqsədi Məsihi başqa xalqlara bəyan etmək oldu.

Həvari Paul müxtəlif şəhərlərin imanlılar cəmiyyətlərinə bir çox məktub yazmışdı. Onların birində həvari Paul deyir: «Mənə fayda gətirən nə varsa, Məsih uğrunda ziyan saymışam. Bundan əlavə, Rəbbim Məsih İsanı tanımağın ali dəyərinin yanında hər şeyi ziyan hesab edirəm. Onun uğrunda var-yoxumu atıb tullantı sayıram ki, Məsihi qazanım və Onda hesab olunum. Belə ki, Qanunla gələn öz



salehliyimə deyil, Məsihə imandan yaranan, imanla Allahdan gələn salehliyə malik olum».

*HƏVARİLƏRİN İŞLƏRİ 9:21–28;*
*PAULUN FİLİPİLİLƏRƏ MƏKTUBU 3:7–9*



## Yafo şəhərində Tabitanın dirilməsi

Yafo Aralıq dənizinin sahilində yerləşən liman şəhəridir. Burada Tabita* adlı İsa Məsihin şagirdi var idi. Bu qadın həmişə xeyirxah işlər görür və yoxsullara kömək edirdi. Lakin bir gün o xəstələnib öldü. Onun meyitini yuyub otağa qoydular.

Bu vaxt həvari Peter Lod şəhərində idi. Lod Yafoya yaxın idi, ona görə də Peterin Lodda olduğunu eşidən İsanın şagirdləri iki nəfəri onun yanına göndərdilər və xahiş etdilər ki, Peter vaxt itirmədən yanlarına gəlsin.

Peter oraya çatanda, onu otağa gətirdilər. Bütün dul qadınlar ağlaya-ağlaya Peterə yaxınlaşıb Tabitanın tikdiyi köynəkləri, paltarları göstərirdilər. Peter isə onların hamısını bayıra çıxartdı, sonra diz çöküb dua etdi. Bundan sonra ölüyə tərəf dönüb dedi: «Tabita, qalx!» Qadın gözlərini açıb Peteri görən kimi qalxıb oturdu. Peter onun əlindən tutub qaldırdı, sonra şagirdlərlə dul qadınları çağırıb onu onların qarşısına çıxartdı.

Bu xəbər bütün Yafoya yayıldı və bir çoxları Rəbbə iman etdi. Peter isə xeyli gün Yafoda, Şimon adlı bir dabbağın evində qaldı.

*HƏVARİLƏRİN İŞLƏRİ 9:36–43*





## Yüzbaşı Korneli

İsa Məsihin və Onun həvarilərinin dövründə nəinki İsrail torpağı, həm də Aralıq dənizinin ətrafında olan bütün ölkələr Romanın hakimiyyəti altında idi. Romalıların bu ölkələrdə öz alayları var idi. Bir alay Qeysəriyyədə Aralıq dənizi limanında yerləşdirilmişdi. Alayın yüzbaşılarından biri Korneli idi. Həm özü, həm də bütün ailəsi mömin olub Allahdan qorxardı. Korneli çox xeyirxah işlər görürdü və daim Allaha dua edirdi. Bir gün görüntüdə onun yanına Allahın mələyi gəlib dedi: «Ey Korneli! Duaların və nəzir-niyazların xatirə təqdimi kimi Allahın hüzurunda qəbul olundu. İndi Yafoya adamlar göndər, Peter adlanan Şimonu çağırtdır. O, dabbağ Şimonun dəniz kənarındakı evində qonaqdır. Onun sənə deyəcəyi sözlərlə həm sən, həm də ailən xilas olacaq». Onunla danışan mələk gedəndən sonra Korneli xidmətçilərindən ikisini, mühafizəçilərindən isə bir mömin əsgəri çağırtdırdı. Onlara hər şeyi danışdı və sonra onları Qeysəriyyənin cənub hissəsində yerləşən Yafoya göndərdi.

Kornelinin göndərdiyi adamlar Yafoya gəlib orada Peteri tapdılar. Peter onları qəbul etdi və qonaq saxladı. Ertəsi gün Peter onlarla Qeysəriyyəyə getdi. Korneli öz qohumlarını və yaxın dostlarını bir yerə yığıb onları gözləyirdi. Peter sözə başlayıb dedi: «İndi bildim ki, həqiqətən, Allah tərəfkeşlik etmir. Milliyyətindən asılı olmayaraq Ondan qorxub əməlisaleh olan Ona məqbuldur. O, İsraillilərə Öz kəlamını göndərdi və hamının Sahibi olan İsa Məsih vasitəsilə barışdırma Müjdəsini yaydı. Yəhudilərin ölkəsində və Yerusəlimdə İsanın nələr etdiyinin şahidi olduq. Onu çarmıxa çəkib öldürdülər. Amma Allah Onu üçüncü gün diriltdi. İsa xalqa şəhadət etməklə “Allahın təyin etdiyi ölülərlə dirilərin Hakimi Budur” vəz etməyi bizə əmr verdi. Onun barəsində bütün peyğəmbərlər şəhadət edirlər ki, Ona iman edən hər kəsin günahı Onun adı ilə bağışlanır».



Peterin vəzindən sonra Korneli, onun bütün ailəsi və dostları Allahın Oğlu İsa Məsihə iman etdilər və vəftiz olundular.

*HƏVARİLƏRİN İŞLƏRİ 10*



## Mələk Peteri zindandan qurtarır

Bu vaxt padşah Hirod imanlılar cəmiyyətinin üzvlərini təqib etməyə başladı. Onun əmri ilə Yəhyanın qardaşı həvari Yaqub edam edildi. Bundan Yəhudilərin razı qaldığını görüb üstəlik Peteri də zindana atdırdı. Hirod Pasxa bayramından sonra Peteri edam etdirmək istəyirdi. Zindanda Peterin keşiyini on altı əsgər çəkirdi. İmanlılar cəmiyyəti isə bütün bu vaxt ərzində Allaha səylə dua edirdi.

Hirod Peteri xalqın qarşına çıxartmaq istəyirdi. O gecə Peter bir cüt zəncirlə bağlanmış halda yatırdı. Keşikçilər də qapı ağzında zindanı qoruyurdular. Qəflətən Rəbbin bir mələyi peyda oldu və bütün zindanı parlaq işıq bürüdü. Mələk Peterin böyründən itələyib onu oyatdı və dedi: «Tez ol, qalx». O andaca Peterin biləklərindəki zəncirlər düşdü. Mələk ona dedi: «Üst paltarını geyin, ardımca gəl». Peter onun ardınca düşərək bayıra çıxdı. Amma mələyin etdiyinin gerçək olduğunu başa düşmürdü. O, elə bilirdi ki, bir görüntü görür. İki qarovulçunun yanından keçərək şəhərə açılan dəmir darvazaya çatdılar. Darvaza öz-özünə açıldı. Onlar çıxıb bir küçəni keçdilər. Birdən mələk yox oldu.

O an özünə gələn Peter dedi: «İndi əminliklə başa düşdüm ki, Rəbb Öz mələyini göndərib məni Hirodun əlindən qurtardı».

Peter ətrafa boylanaraq Yəhyanın anası Məryəmin evinə tərəf getdi. Orada xeyli imanlı yığışıb dua edirdi. Peter onların yanına gəlib Rəbbin onu zindandan necə çıxartdığı barədə danışdı.

*HƏVARİLƏRİN İŞLƏRİ 12:1–17*





## Həvari Paulun ilk müjdəçilik səyahəti

Həvari Paul başqa xalqlara Müjdəni bəyan etmək çağırışına sadiq idi. O, məsihçilər üçün bu gün də əhəmiyyətli olan Rəbb İsa Məsihin bu əmrini səylə yerinə yetirirdi: «Gedin, bütün millətləri Mənim şagirdim edin; onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edin». Paul o vaxtın Roma imperiyasının şəhər və vilayətlərindən keçən üç uzunmüddətli müjdəçilik səyahətini Antakya şəhərindən başladı.

Birinci səyahətdə Paulla birlikdə Barnaba da getmişdi. Gəmi onları Antakyadan Kiprə gətirdi. Kiprdən onlar yenə də Kiçik Asiyaya döndülər. Sonra müjdəçilər gah piyada, gah da eşşəklərlə Qalatiya vilayətinə çatdılar və orada, Konya şəhərində Müjdəni bəyan etməyə başladılar. Çoxlu adam İsa Məsihə iman etdi. Konyadan onlar Listra şəhərinə getdilər. Listrada Paul vasitəsilə Rəbb bir çolaq kişiyə şəfa verdi. Camaat Paul və Barnabanın tanrı olduqlarını fikirləşdi. Amma həvarilər – Barnaba ilə Paul bunu eşidən kimi paltarlarını cırdılar və camaatın arasına girib haray çəkdilər: «Ay camaat, niyə belə edirsiniz? Biz də sizin kimi insanıq. Sizə Müjdə gətirmişik. Əl çəkin bu boş şeylərdən. Yeri, göyü, dənizi və bunların içindəki hər şeyi yaradan, Var Olan Allaha tərəf dönün. Sizə yaxşılıq edərək göydən yağışlar yağdırır, cür-bəcür məhsullar yetişdirən fəsillər bəxş edir, sizi yeməklə doydurur və ürəyinizə sevinc bəxş edir».

Həvarilər Listrada Müjdəni cəsarətlə bəyan edirdilər. Lakin oraya gəlmiş bir neçə yəhudi adamları qızışdırmaq məqsədilə dedi: «Onlar düz danışmırlar, hər şeyi yalan deyirlər». Paulu daşqalaq etdilər, amma Allah onu qorudu. Paul sağ qaldı və yoluna davam etdi. Paul Listradan Derbeyə gəldi. O, burada da Müjdəni bəyan etdi və çox adam Rəbbə tərəf döndü. Derbedən Paul və Barnaba Antakyaya qayıtdılar. Oraya çatıb imanlılar



cəmiyyətini topladılar, Allahın onların vasitəsilə Müjdəni yayıb başqa xalqlara iman qapısını açdığından bəhs etdilər.

*HƏVARİLƏRİN İŞLƏRİ 13; 14*



## Paulun ikinci müjdəçilik səyahəti

İkinci müjdəçilik səyahətində Paulu Sila adlı yəhudi məsihçisi müşayiət edirdi. Onlar Antakyadan Derbe və Listraya getdilər. Həmin Listra şəhərində Paulu bir neçə il öncə daşqalaq edib az qala öldürmüşdülər.

Onlar Egey dənizinin Asiya sahilində yerləşən Troas şəhərinə gəldilər. Gecə Paul bir görüntü gördü. Makedoniyalı bir nəfər onun qarşısında durub yalvarırdı: «Makedoniyaya gəl və bizə kömək et!» Troasda Paula qoşulan Luka yazır: «Paulun bu görüntüsündən sonra Makedoniyaya getmək üçün dərhal bir yol axtardıq, çünki Allahın bizi orada Müjdəni yaymağa çağırdığını bildik». Makedoniya Yunanıstanın şimal-şərqində yerləşən Roma vilayəti idi. Onlar gəmiyə minib Egey dənizi ilə Filipi şəhərinə gəldilər. Ehtimal ki, Avropada birinci məsihçi icması orada təşkil olunmuşdu. Filipidə Paul və Sila zindana atıldı, amma bu barədə növbəti hekayədə danışılacaq.

Paul Filipidən Salonikə gəldi. Salonik Egey dənizinin sahilində yerləşən böyük liman şəhəri idi. Burada çoxlu Yunanlar, həmçinin bir neçə yəhudi Məsihə iman etdi. Lakin Yəhudilərin arasında Paul və Silanın əleyhdarları da var idi. Onlar xalqı Paul və Silaya qarşı qaldırdılar. Onda Paul və Sila Derbeyə keçməyə məcbur oldular.

Derbedən Paul Yunanıstanın paytaxtı Afinaya gəldi. O dövrdə Yunanıstan Romanın hakimiyyəti altında idi; bu şəhərin adını dəyişdirib Axayya qoymuşdular. Afinada Paul Allahın Kəlamını filosoflar və sadə adamların önündə vəz etdi. Bu barədə biz gələcək hekayələrdə oxuyacağıq.

Bundan sonra Paul Afinadan çıxıb Korinfə getdi. Korinf Roma imperiyasının ən mühüm şəhərlərindən biri idi. Paul Korinfdə il yarım qaldı. Bu müddət ərzində burada böyük imanlılar cəmiyyəti yaranmışdı. Paul Korinfdən dənizlə Kiçik Asiyaya qayıdıb Efes adlanan böyük şəhərə gəldi. Sonra o, yoluna davam edib Yerusəlimdə oldu və Antakyaya qayıtdı.

Paulun ikinci müjdəçilik səyahəti də təxminən üç il davam etdi. Bu müddət ərzində Paul bir neçə min kilometr yol getmişdi.

*HƏVARİLƏRİN İŞLƏRİ 15:36 – 18:22*



## Paul və Sila zindanda

Bir gün həvari Paul və onun yol yoldaşı Sila Filipiyə gəldilər. Bu şəhər Romanın müstəmləkəsi idi. Orada onlar bir qulluqçunu İsa Məsihin adı ilə falçılıq ruhundan azad etdilər. Bu qız baxıcılıq edərək öz ağalarına böyük qazanc gətirirdi. Qazanc mənbəyinin kəsildiyini görən bu ağalar Paulla Silanı tutub şəhər meydanına – rəhbərlərin qarşısına gətirdilər və dedilər: «Bu adamlar Yəhudidirlər. Şəhərimizə qarışıqlıq salıblar. Biz Romalılara qəbulu və icrası qadağan olunan adətləri yayırlar». Bütün xalq da Paulla Silanın əleyhinə çıxdı. Hakimlərin əmri ilə onlara çox zərbə vurdular və sonra zindana atdılar. Zindanın keşikçisinə əmr etdilər ki, onları möhkəm nəzarət altında saxlasın. Bu əmri alan zindanın keşikçisi onları otağına aparıb ayaqlarını kündəyə saldı. Paulla Sila məyus olmadılar. Onlar gecəyarısına qədər dua edir və Allaha ilahilər oxuyurdular. Digər məhbuslar da onlara qulaq asırdılar.

Birdən elə güclü zəlzələ oldu ki, zindanın təməli belə, yerindən oynadı. Bir andaca bütün qapılar açıldı, hamının zəncirləri töküldü. Keşikçi oyanıb zindanın qapılarını açıq görəndə qılıncını çəkib canına qəsd etmək istədi. Elə bildi ki, məhbuslar qaçıblar. Amma Paul bərkdən qışqırıb dedi: «Canına qıyma, hamımız buradayıq!» Keşikçi titrəyə-titrəyə Paul və Silanın qarşısında yerə düşdü və soruşdu: «Ağalar, xilas olmaq üçün nə etməliyəm?» Onlar dedilər: «Rəbb İsaya iman et, sən də, ev əhlin də xilas olarsınız». Zindanın keşikçisi onları götürüb yaralarını yudu. Sonra həm özü, həm də onun ev əhli vəftiz olundu.

Səhər açılanda hakimlər yasavullar göndərib dedilər: «Bu adamları azad et». Amma Paul onlara dedi: «Roma vətəndaşı* ola-ola bizi məhkəməsiz hamının qarşısında döyüb zindana



atdılar. İndi bizi gizli-gizli qovmaq istəyirlərmi? Belə şey ola bilməz! Özləri gəlsin, bizi buradan çıxarsınlar!» Yasavullar bu sözləri hərbi rəislərə çatdırdılar. Onlar Paulla Silanın Roma vətəndaşı olduğunu eşidəndə qorxdular və gəlib onlardan üzr istədilər. Sonra onları bayıra çıxarıb xahiş etdilər ki, şəhərdən çıxıb getsinlər.

*HƏVARİLƏRİN İŞLƏRİ 16:16–39*



## Paul Afinada

Artıq qeyd etdiyimiz kimi, Paul ikinci müjdəçilik səyahəti zamanı Afinada da olmuşdu. Afina şəhəri o dövrdə dünya mədəniyyətinin mərkəzi və bir çox filosofun vətəni idi. Paul bütlərlə dolu şəhəri görəndə qəzəbləndi. Buna görə sinaqoqda Yəhudilərlə və başqa möminlərlə, hər gün şəhər meydanında rastlaşdığı insanlarla mübahisə edirdi. Epikürçü və Stoist* filosoflardan bəziləri onunla mübahisəyə girişdi. Kimisi deyir: «Bu boşboğaz nə demək istəyir?» Kimisi də deyir: «Deyəsən, bu, yad allahların təbliğatçısıdır», çünki Paul onlara İsa Məsihin dirilməsi ilə bağlı Müjdəni yayırdı.

Onlar Paulu götürüb Areopaq* məşvərətinə gətirdilər. Ondan soruşdular: «Sənin yaydığın bu yeni təlimin nə olduğunu bilmək olarmı? Qulağımız öyrəşmədiyi şeyləri bizə eşitdirirsən. İndi bunların mənasını bilmək istəyirik».

Paul Areopaqın qarşısına çıxıb belə söylədi: «Ey Afinalılar, sizin hər cəhətdən çox pərəstişkar olduğunuzu görürəm. Belə ki, mən ətrafda gəzəndə səcdəgahlarınıza diqqətlə nəzər salarkən bir qurbangaha da rast gəldim ki, onun üstündə “Naməlum Allaha məxsus” yazılmışdı. Tanımadan ibadət etdiyiniz bu Allahı sizə tanıtmaq istəyirəm. Dünyanı və onda mövcud olan hər şeyi yaradan, yerin-göyün Sahibi olan Allah əllə tikilən məbədlərdə yaşamaz. İnsan əli ilə edilən xidmətə Onun ehtiyacı yoxdur, çünki hər kəsə həyat, nəfəs və hər şeyi verən Odur. Allah bütün bəşəriyyətin millətlərini bir insandan yaratdı ki, bütün yer üzərində yaşasınlar. Yaşamaq üçün onlara zaman və məkan təyin etdi ki, Onu axtarsınlar, yəni kor əllərini sürtə-sürtə yol axtardığı kimi axtarıb Onu tapa bilsinlər. Əslində Allah heç birimizdən uzaq deyil. “Biz Onda yaşayırıq, hərəkət edirik, mövcuduq”. Bəzi şairlərinizin dediyi kimi: “Biz də Onun nəslindənik”. Demək, biz Allahın nəslindən olduğumuza görə belə düşünmək olmaz



ki, Allah insan bacarığı ilə yaranan qızıl, gümüş, yaxud daşdan düzəldilən bir şeyə bənzəyir. Allah cəhalət zamanlarında buna göz yumurdu, amma indi hər yerdə hamının tövbə etməsini insanlara əmr edir, çünki Allah Öz seçdiyi Şəxs vasitəsilə dünyanı ədalətlə mühakimə edəcəyi günü təyin edib. Onu ölülər arasından diriltməklə hamının qarşısında bunu təsdiq edib».

*HƏVARİLƏRİN İŞLƏRİ 17:16–31*



## Paulun üçüncü müjdəçilik səyahəti

Bir müddətdən sonra Paul üçüncü müjdəçilik səyahətini başladı. O, Antakyadan yenə də şimala yollandı; Frigiya vilayətindən keçib Egey dənizinin Asiya sahilindəki liman şəhəri Efesə gəldi. Efes iki yüz əlli min əhalisi olan şəhər idi. Bu şəhərdə Paul iki ilə yaxın çalışdı və Asiya* əyalətində yaşayan həm Yəhudi, həm də Yunanlar Rəbb İsa haqqında Müjdəni eşitdilər. Allah isə Paulun əlləri ilə çoxlu möcüzələr edirdi.

Lakin Artemida məbədinin* kiçilmiş surətlərini gümüşdən düzəldib suvenir kimi satan sənətkarlar Paula və imanlılar cəmiyyətlərinin başçılarına qarşı qiyam qaldırdılar, çünki Artemidaya səcdə edənlərin bir çoxu Var Olan Allaha tərəf dönmüşdü. Paul Efesi tərk etməyə məcbur oldu.

O, gəmi ilə Egey dənizini keçərək Makedoniyada və Yunanıstanda əvvəllər vəz etdiyi yerlərə, o cümlədən Filipi və Korinfə baş çəkdi. Sonra o, Asiyaya qayıtdı və ikinci dəfə Troasda vəz etdi. Troasdan Paul yoluna davam etdi və Assosa çatdı. Oradan o, gəmi ilə Mitilinidən, Samosdan, Trogillidən keçib Miletə gəldi. Miletdə Paul Efesdəki böyük imanlılar cəmiyyətinin başçılarını vidalaşmaq üçün dəvət etdi, çünki onları bir daha görməyəcəyini bilirdi. Paul Kos və Rodos adalarındakı limanlardan, Patara və Tir adlanan Kiçik Asiya limanlarından keçib Ptolemaisə gəldi. Paul Ptolemaisdən səyahətini Qeysəriyyədən Yerusəlimədək piyada davam etdirdi.

Yerusəlimdə Paul həbsə alındı. Paul öz üçüncü səyahətində üç ildən artıq – Miladdan sonra 54-cü ildən 57-ci ilədək olmuşdu.

Paulun müjdəçilik səyahətləri, sadəcə, səfər deyildi. İsa Məsihin Müjdəsini yayaraq o, çox iztirab çəkdi. Paul özü yazır: «Zəhmətim daha çox olub, həbsə düşməyim daha çoxdur, döyülməyimin sayı-hesabı yoxdur, dəfələrlə ölümlə üz-üzə gəlmişəm. Beş dəfə Yəhudilərdən otuz doqquz qırmanc yemişəm,



üç dəfə dəyənəklə döyülmüşəm, bir dəfə məni daşqalaq etdilər, üç dəfə gəmi qəzasına düşdüm və bir dəfə gecə-gündüz ucsuz-bucaqsız dənizdə qaldım. Tez-tez səyahətdə olduğum müddətdə çaylarda təhlükəyə, quldurlar arasında təhlükəyə, soydaşlarım arasında təhlükəyə, başqa millətlər arasında təhlükəyə, şəhərdə təhlükəyə, çöldə təhlükəyə, dənizdə təhlükəyə, saxta qardaşlar arasında təhlükəyə məruz qaldım...»

*HƏVARİLƏRİN İŞLƏRİ 18:23 – 21:34; PAULUN KORİNFLİLƏRƏ İKİNCİ MƏKTUBU 11:23–26*



## Cadugərlik günahı

Əhdi-Ətiqdə Allahın Öz xalqına cadugərliklə, falçılıqla, baxıcılıqla məşğul olmağı qəti qadağan etdiyini oxuyuruq: «Baxıcılıq etməyin və gələcəyi deməyin» *(Levililər 19:26)*. «Aranızda oğul və qızını oda qurban verən, falçı, gələcəyi deyən, baxıcı, cadugər, ovsunçu, cindarlara və ruh çağıranlara müraciət edən, yaxud ölüləri çağıran olmasın. Rəbb belə iş görənlərə nifrət edir. Elə bu iyrənc işlərə görə Allahınız Rəbb millətləri sizin qarşınızdan qovacaq» *(Qanunun Təkrarı 18:10–12)*. «Cindarlar, yaxud ruh çağıran kişilər və ya qadınlar öldürülməlidirlər, onlar daşqalaq olunmalıdır. Bunlar qanlarının tökülməyinə özləri baisdirlər» *(Levililər 20:27)*.

Paulun üçüncü müjdəçilik səyahəti zamanı Efes şəhərində belə bir hadisə baş vermişdi. Orada Paul vasitəsilə Allah möcüzələr yaradırdı. Belə ki, Paulun bədəninə toxunan dəsmallar və belinə bağladığı önlüklər belə, götürülüb xəstələrin üstünə qoyulanda insanların xəstəlikləri yox olur, şər ruhlar çıxırdı. Bəzi ətrafı gəzib-dolaşan Yəhudi cindarlar da şər ruhlara əsir olanlara Rəbb İsanın adını çəkərək deyirdilər: «Paulun vəz etdiyi İsanın adı ilə sizə əmr edirəm!» Məsələn, Yəhudilərdən Skeva adlı başçı kahinin yeddi oğlu bu işlə məşğul idi. Lakin bir dəfə şər ruh onlara cavab verdi: «İsanı tanıyıram, Paul haqqında da hər şeyi bilirəm. Bəs siz kimsiniz?» Daxilində şər ruh olan adam onların üstünə hücum çəkdi, hamısını təpiyinin altına salaraq məğlub etdi. Belə ki, onlar o evdən lüt-üryan və yaralı halda qaçdılar.

Bu xəbər Efesdə yaşayan bütün Yəhudilərə və Yunanlara çatdı. Hamısını bir vahimə bürüdü və Rəbb İsanın adının nüfuzu böyüdü. İman edənlərin çoxu gəlib öz əməllərini açıq etiraf edirdi. Cadugərliklə məşğul olan adamlar öz kitablarını yığıb hamının qarşısında yandırdılar. Bu kitabların



qiyməti hesablananda əlli min gümüş pula bərabər olduğu məlum oldu. Beləliklə, Rəbbin Kəlamı qüdrətlə böyüyüb təsirini artırırdı.

*HƏVARİLƏRİN İŞLƏRİ 19:11–20*



## Həvari Paul Efes cəmiyyətinin başçıları ilə vidalaşır

Efes cəmiyyətinin başçıları Paulun yanına Miletə vidalaşmaq üçün gələndə o, onlara dedi: «Asiya vilayətinə qədəm basdığım birinci gündən bəri sizinlə olduğum dövrdən bu vaxta qədər özümü necə apardığım sizə məlumdur. Yəhudilərin qəsd-qərəzi vasitəsilə sınaqlardan keçərkən Rəbbə tam itaətkarlıqla, göz yaşı içində qulluq edirdim. Xeyirli olan hər şeyi sizə bəyan edərək istər açıq, istərsə də evdən-evə gəzib-dolaşaraq təlim verməkdən çəkinmədim. Həm Yəhudiləri, həm də Yunanları tövbə edib Allaha tərəf dönməyə və Rəbbimiz İsaya iman gətirməyə çağırırdım.

İndi də Ruhun təkidi ilə Yerusəlimə gedirəm və orada başıma nə gələcəyini bilmirəm. Lakin Müqəddəs Ruh hər şəhərdə məni zəncirlər və əziyyətlər gözlədiyini xəbərdarlıq edirdi. Öz canıma heç əhəmiyyət vermirəm, onu qiymətləndirmirəm. Mənə kifayətdir ki, yolumu – Rəbb İsanın mənə tapşırdığı kimi Allahın lütfünü göstərən Müjdəni şəhadət etmə xidmətini başa çatdırım.

İndi aranızda dolaşıb Padşahlıq barədə vəz etdiyim sizlərdən heç biriniz mənim üzümü bir də görməyəcək. Ona görə bu gün bunu sizə bəyan etmək istəyirəm ki, mən təmizəm, heç kimin qanına bais olmamışam, çünki çəkinmədən Allahın bütün iradəsini sizə çatdırmışam. Həm özünüzə, həm də Müqəddəs Ruhun sizi üzərində nəzarətçilər təyin etdiyi bütün sürüyə diqqətlə baxın. Allahın Öz Oğlunun qanı bahasına əldə etdiyi bu cəmiyyətini bəsləyin. Mən gedəndən sonra sürüyə rəhm etməyən yırtıcı canavarların aranıza soxulacağını bilirəm. Aranızdan təhrif edilmiş sözlər deyən, şagirdləri özlərinin ardınca çəkmək istəyən adamlar çıxacaq. Buna görə oyaq olun. Üç il boyu fasiləsiz, gecə-gündüz göz yaşı tökərək hər birinizə necə nəsihət verdiyimi yada salın.



İndi isə mən sizi Allaha və Onun lütfü barədəki kəlamına əmanət edirəm. Bu kəlam sizi inkişaf etdirib təqdis olunmuş bütün insanlar arasında irsə qovuşdurmağa qadirdir. Mən heç kimin nə qızılına, nə gümüşünə, nə də pal-paltarına göz dikmişəm. Siz də bilirsiniz ki, bu əllər həm mənim, həm də mənimlə olanların ehtiyaclarını təmin edirdi. Gördüyüm hər işdə Rəbb İsanın "vermək almaqdan daha çox bəxtiyarlıq gətirər" sözünü yaddan çıxarmayıb belə əmək sərf edərək zəiflərə kömək etməyin vacibliyini də sizə göstərdim».

Paul bu sözləri söyləyəndən sonra diz çöküb onlarla birlikdə dua etdi. Sonra hamısı ağlayaraq Paulun boynuna sarıldı və onu öpdü. Onlar ən çox «mənim üzümü bir də görməyəcəksiniz» sözündən kövrəldilər. Sonra onu gəmiyə qədər yola saldılar. Paul Yerusəlimə gələndə Yəhudilər onu tutub həbs etdilər.

*HƏVARİLƏRİN İŞLƏRİ*
*20:17–38*



## Paul hökmdar Festin qarşısında

Paul Yerusəlimdə həbs olunandan sonra ertəsi gün Ali Şuranın qarşısında durdu. Məhkəmədə həvarinin söylədikləri sözlərdən sonra Yəhudilərin arasında çəkişmə qalxdı. Çəkişmə o qədər qızışdı ki, minbaşı onların Paulu parçalayacaqlarından qorxdu. O, aşağı enib Paulu onların arasından zorla çıxararaq qalaya aparmağı əsgərlərə əmr etdi.

O gecə Rəbb Paulun yanında dayanıb dedi: «Cəsarətli ol, Yerusəlimdə Mənim haqqımda etdiyin şəhadəti Romada da etməyin lazımdır». Səhər açılanda Paula sui-qəsd hazırlayan qırxa yaxın Yəhudi Paulu öldürməyincə yeyib-içməyəcəklərinə öz aralarında and içdilər. Paulun həyatını Ali Şurada xilas edən minbaşı bundan xəbər tutaraq onu iki yüz piyada, yetmiş atlı və iki yüz nizəçinin müşayiəti ilə Qeysəriyyəyə göndərdi. O dövrdə Qeysəriyyə Yəhudanın Roma hökmdarlarının iqamətgahı idi. Qeysəriyyədə Paul Roma hökmdarı Feliksin qarşısında sorğu-suala tutuldu. Feliks Paula qarşı ittihamları dinlədi, amma onda bir təqsir tapmadı. Buna baxmayaraq, o, Paulu iki il müddətinə həbs altında saxlamağı əmr etdi.

İki il keçəndən sonra Feliksin yerinə Porki Festi təyin etdilər. Feliks Yəhudilərin rəğbətini qazanmaq üçün Paulu həbsdə qoyub getdi. Porki Festin bu vəzifəyə təyin edilməsindən bir neçə gün keçmişdi. Padşah Aqrippa və onun bacısı Berniki Festi təbrik etmək üçün Qeysəriyyəyə gəldilər. Fest hər şeyi elə düzüb-qoşdu ki, onlar Paulun nitqini eşidə bilsinlər. Aqrippa ilə Berniki təntənəli surətdə gəlib minbaşılar və şəhərin nüfuzlu şəxsləri ilə birlikdə məhkəmə otağına daxil oldular. Festin əmrinə əsasən Paulu içəri gətirdilər.

Paul öz həyatından, Rəbbi necə qəbul etdiyindən danışdı, Məsih barədə şəhadət etdi. O deyirdi: «Bu günə qədər Allah mənim dayağımda durdu və bunun sayəsində burada durub



böyükdən kiçiyə qədər hamıya şəhadət edirəm. Mənim dediklərim peyğəmbərlərin və Musanın əvvəlcədən xəbər verdiyi hadisələrdən başqa bir şey deyil. Onlar bildirib ki, Məsih əzab çəkəcək və ölümdən dirilənlərin birincisi olacaq, həm Öz xalqına, həm də başqa millətlərə nur doğduğunu elan edəcək».

Paul bu cür danışanda Fest ucadan dedi: «Paul, dəlilik edirsən, çox oxumaqdan başın xarab olub».

Paul isə cavab verdi: «Hörmətli Fest, mən dəlilik etmirəm, həqiqəti və ağlabatan sözləri danışıram. Allahdan istəyirəm ki, təkcə sən yox, bu gün mənə qulaq asan hər bir adam bu zəncirlərdən başqa mənim kimi olsun!»

*HƏVARİLƏRİN İŞLƏRİ 23 – 26*



## Paul Romaya gedərkən

Həvari Paulu Var Olan Allah və Xilaskar İsa Məsih haqqında şəhadət etdiyinə görə zindana atmışdılar. Amma Paul mühakiməyə layiq heç bir iş görmədiyini bilərək, onu şəxsən qeysərin özünün dinləməsini tələb etdi. Paulun Roma vətəndaşı kimi bunu tələb etməyə ixtiyarı var idi. Buna görə Paulu və başqa məhbusları Romaya gedən gəmidə göndərdilər. Paulu Yuli adlı bir yüzbaşı mühafizə edirdi.

Dənizdə üzən zaman böyük fırtına başladı. Fırtınaya düşən gəmi küləyə müqavimət göstərə bilmirdi və dalğalarla ora-bura daşınırdı. Üçüncü gün adamlar gəmidən bütün yükü dənizə atdılar. Fırtına daha bir neçə gün davam etdiyinə görə gəmidəkilərin xilas olmağa ümidi qalmamışdı. Adamlar uzun müddət yemək yemirdi. Onda Paul hamıya bu sözləri dedi: «İndi sizə öyüd verərək deyirəm: ürəkli olun, çünki heç biriniz canını itirməyəcək, yalnız gəmi məhv olacaq, çünki mənsub olub ibadət etdiyim Allahın bir mələyi bu gecə yanıma gəlib dedi: “Qorxma, Paul, sənin qeysərin qarşısına çıxmağın lazımdır. Səninlə birgə gəmidə olanların hamısını da Allah sənə bağışladı”. Ay ağalar, buna görə ürəkli olun! Allaha inandığıma görə bilirəm ki, hər şey mənə deyilən kimi olacaq. Bizə bir adaya düşmək lazımdır».

On dördüncü gün gəmiçilər maili sahili olan körfəz gördülər və düşündülər ki, mümkün olsa, oraya yan alsınlar. Onlar lövbərləri və kiçik yelkəni qaldırdılar, amma gəmi qəflətən saya oturdu. Gəminin burnu quma batıb tərpənməz oldu. Arxa tərəfi isə dalğaların zərbəsindən sınmağa başladı. Yüzbaşı əmr etdi ki, əvvəlcə üzməyi bacaranlar dənizə tullanıb üzsünlər, sonra dalda qalanlar ya taxtalar, ya da gəminin başqa parçaları üzərində sahilə çıxsınlar. Beləliklə, iki yüz yetmiş nəfərin hamısı sağ-salamat quruya çıxdı. O adanın sakinləri onları mehribanlıqla qarşıladı və Rəbb orada həvari Paul vasitəsilə çoxlu möcüzələr



etdi. Üç aydan sonra onlar bir İsgəndəriyyə gəmisi ilə yollarına davam etdilər. Dənizə çıxanda adanın sakinləri çoxlarına xəstəliklərdən şəfa vermiş Paulun xatirinə onlara böyük hörmət edib lazım olan şeyləri gəmiyə yüklədilər.

Həvari Paul Rəbb üçün çalışmağa davam edirdi və çoxlu sınaqlara tab gətirirdi. O, həyatının hər addımının qüdrətli və sevən Allah tərəfindən yönəlməsinə əmin idi. O, Romalılara məktubda yazmışdı: «Bilirik ki, hər şey birlikdə Allahı sevənlərin, Onun məqsədinə görə çağırılanların xeyrinə işləyir».

*HƏVARİLƏRİN İŞLƏRİ 25:1–12; 27:14–44; 28:1–11; ROMALILARA MƏKTUB 8:28*



## Paul Romada

Müəllif Luka yazır:

«Biz Romaya gələndə yüzbaşı məhbusları hərbi rəisə verdi. Paula isə bir əsgərin nəzarəti altında tək yaşamasına izin verildi».

Üç gündən sonra Paul Yəhudilərin orada olan başçılarını toplantıya dəvət etdi. Onlar bir yerə yığılandan sonra Paul onlara belə dedi: «Soydaşlar, xalqımıza və ata-babalarımızın adət-ənənəsinə zidd heç nə etmədiyim halda Yerusəlimdə həbs edilib Romalılara təslim edildim. Onlar məni sorğu-suala çəkəndən sonra azad etmək istədilər, çünki ölüm cəzasına layiq bir təqsirim yox idi. Amma Yəhudilər buna qarşı çıxanda məcbur olub qeysərin məhkəməsinə müraciət etməyi tələb etdim, lakin öz millətimi heç nədə ittihamlandırmaq istəmirəm. Bu səbəbdən sizi buraya görüşüb söhbət etmək üçün çağırmışam. Axı mən İsrailin ümidi uğrunda belə zəncirlənmişəm». Onlar Paula dedilər: «Yəhudeyadan sənin barəndə nə məktub almışıq, nə də buraya gələn soydaşlardan kimsə sənin barəndə bizə xəbər gətirərək bir pis söz deyib. Biz sənin fikirlərini sənin özündən eşitmək istəyirik, çünki əvvəllər hər yerdə bu təriqətə qarşı çıxdığını bilirik». Bir gün təyin edib, həmin gün daha böyük kütlə ilə Paulun qaldığı yerə gəldilər. Paul səhərdən axşamacan Allahın Padşahlığından şəhadət edərək onlara açıqlama verdi; həm Musanın Qanunundan, həm də Peyğəmbərlərin yazdıqlarından onları İsaya inandırmağa çalışdı. Bəziləri onun sözlərinə inandı, bəziləri isə inanmadı.

Bir-birləri ilə razılığa gəlməyəndə Paulun bu son sözlərinə qulaq asıb ayrıldılar: «Müqəddəs Ruh Yeşaya peyğəmbərin vasitəsilə ata-babalarınıza bu gözəl sözü dedi: “Get bu xalqa bunu çatdır: ’eşitdikcə eşidəcəksiniz, amma anlamayacaqsınız, gördükcə görəcəksiniz, amma qanmayacaqsınız. Bu xalqın ürəyi kütləşdi, qulaqları ağır eşitdi, gözlərini yumdular ki, gözləri ilə görməsinlər, qulaqları ilə eşitməsinlər, ürəkləri ilə anlamasınlar və Mənə tərəf dönməsinlər ki, Mən onlara şəfa verim‘”. İndi bilin ki, Allahın verdiyi bu xilas başqa millətlərə göndərilib və onlar buna qulaq asacaq». Yəhudilər bunu eşidib bir-biriləri ilə münaqişə edərək getdilər.

Paul düz iki il kirayə tutduğu evdə qalıb yanına gələnlərin hamısını qəbul edirdi. Heç bir maneə olmadan tam cəsarətlə Allahın Padşahlığını vəz edir, Rəbb İsa Məsihlə bağlı həqiqətləri öyrədirdi.

Bununla Həvarilərin İşləri Kitabı bitir.

Yəqin ki, oxucuları Paulun sonrakı taleyi maraqlandırır. Müqəddəs Kitabda bu barədə heç nə yazılmayıb. Həvari Paulun imanlılar cəmiyyətlərinə və başqa-başqa adamlara yazdığı məktublardan, eləcə də, digər mənbələrdən nəticəyə gəlmək olar ki, Paul yuxarıda qeyd olunduğu iki ildən sonra azadlığa buraxıldı. Sonra o, İtaliyada, Yunanıstanda və Kiçik Asiyada çalışdı. Məlumata görə, Paul zülmkar Roma imperatoru Neronun dövründə qətlə yetirildi.



*HƏVARİLƏRİN İŞLƏRİ*
*28:16–31*

## Həvarilərin məktubları

Rəbb İsa Məsihin dirilməsindən dərhal sonra onun təlimi – Xoş Xəbər bütün Fələstində, Roma İmperiyasında, Yaxın Şərq ölkələrində, sonra isə bütün dünyada yayılmağa başladı. Həvarilər, yəni İsa Məsihin Şəxsən seçdiyi şagirdlər müxtəlif şəhər və ölkələrə gedib Allahın Kəlamını bəyan etdilər. Rəbb onların sözlərini möcüzələrlə təsdiq edirdi: onlar İsa Məsihin adı ilə dua edəndə xəstələr sağalırdı, şikəstlər şəfa alırdı, hətta ölülər dirilirdi. Bunları görənlər ürəklərinə Allahın Kəlamını qəbul edərək günahlı yolları tərk edirdilər. Məsihçilər təqib olunurdular, amma Allahın Oğlu İsa Məsihə iman təqib qorxusundan daha güclü idi.

Yeni məsihçiləri ruhən möhkəmlətmək üçün həvarilər imanlılar cəmiyyətlərinə məktublar yazırdılar. Məktubların bəziləri qısa, cəmi bir səhifəlik, digərləri isə, məsələn, Paulun Romalılara Məktubu olduqca uzundur. Yaqub, Peter, Yəhya və Yəhudanın məktubları bütün məsihçilərə ünvanlanıb, buna görə də ümumi adlanır. Paulun məktubları isə ayrı-ayrı şəxslərə və yaxud cəmiyyətlərə yazılmışdı.

Paulun bəzi məktubları həbsdə olan dövrdə yazılmışdı. Paul öz dostu Timoteyə yazmışdı: «Bu Müjdə naminə zəncirə vurulmuş bir cinayətkar kimi əzaba qatlaşıram. Amma Allahın Kəlamı zəncirlənməmişdir» *(2 Tim. 2:9)*.

Bütün məktublar Müqəddəs Ruhun rəhbərliyi ilə yazılmışdır. Buna görə də onlar Müqəddəs Kitabın digər hissələri ilə birgə insanlara ünvanlanan Allah Kəlamıdır. İlk imanlılar bunu bilirdilər. Onlar səylə bu məktubları köçürüb cəmiyyətlərdə və evlərdə oxuyub dostlarına göstərir və hədiyyə edirdilər. Bununla məsihçilər Allahın Kəlamının yayılmasına yardım edirdilər.





## Həvarilərin məktubları
### (davamı)

Məktubların məzmununu qısaldılmış şəkildə vermək çətindir. Hər bir məktubda böyük həqiqətlər var və Allah onları müəllifləri vasitəsi ilə açmağa çalışır. Həvarilərin məktublarında əsas mövzular bunlardır:

İman və əməllər. *(Yaqubun Məktubu)*

İztirablara səbirlə tab gətirməliyik. *(Peterin 1-ci Məktubu)*

Pozğunluq və dönüklük vaxtı paklığı və sədaqəti necə saxlamalı. *(Peterin 2-ci Məktubu)*

Sevinc və qələbə. *(Yəhyanın 1-ci Məktubu)*

Məhəbbət. *(Yəhyanın 2-ci Məktubu)*

Qonaqpərvərlik. *(Yəhyanın 3-cü Məktubu)*

İmana sadiq qalmaq və özünü düşkünlükdən qorumaq barədə. *(Yəhudanın Məktubu)*

İmanla bəraət qazanmaq barədə. *(Romalılara Məktub)*

Məsih Rəbdir. *(Korinflilərə 1-ci Məktub)*

Təsəlli və xidmət. *(Korinflilərə 2-ci Məktub)*

Xilas Qanuna riayət etməkdə deyil, yalnız Məsih vasitəsilədir. *(Qalatiyalılara Məktub)*

Məsihin Bədəni olan imanlılar cəmiyyəti. *(Efeslilərə Məktub)*

Məsihçilərin birliyi. *(Filipililərə Məktub)*

Məsihin izzəti və əzəməti. *(Kolosselilərə Məktub)*

Rəbb İsa Məsih yenə yer üzünə gələcək. *(Saloniklilərə 1-ci və 2-ci Məktub)*

Rəbbə xidmətdə sədaqət. *(Timoteyə 1-ci və 2-ci Məktub)*

Məsihin cəmiyyətinin rəhbərləri müqəddəs həyatda nümunə olmalıdır. *(Titə Məktub)*

Bir-birini bağışlamaq lazımdır. *(Filimona Məktub)*

Yeni İsrail olan imanlılar cəmiyyəti; Məsihin kamil qurbanı. *(İbranilərə Məktub)*



Məktublar Müqəddəs Kitabın mühüm hissələridir. Onların çoxunu anlamaq çətindir, buna görə də onları yavaş-yavaş və düşünərək oxumaq lazımdır.



## Yaqubun Məktubu

Yaqubun Məktubunda biz çoxlu öyüd-nəsihət tapırıq, məsələn, **dünyəvi sərvət haqqında**: «Günəş çıxır, bərk isti olur və otu qurudur. Otun çiçəyi tökülür və onun zahiri gözəlliyi itir. Varlı adam da beləcə, işləyə-işləyə solacaq»; **sınaq haqqında**: «Sınağa dözən adam nə bəxtiyardır! Sınaqdan keçəndən sonra Rəbbin Onu sevənlərə vəd etdiyi həyat tacını alacaq»; **qəzəb haqqında**: «Beləliklə, ey sevimli qardaşlarım, qoy hər bir adam eşitməkdə cəld, söz söyləməkdə təmkinli, qəzəblənməkdə də təmkinli olsun»; **Allahın əmrlərinə əməl etmək haqqında**: «Bu Kəlamın icraçısı olun, yalnız eşidənlər olub özünüzü aldatmayın»; **iman haqqında**: «İman da elədir, əgər yaxşı əməlləri yoxdursa, öz-özlüyündə ölüdür»; **dilin günahları haqqında**: «Dil bədənin kiçik üzvüdür, amma çox öyünür. Baxın, balaca bir qığılcım böyük meşəni yandırır! Dil də oddur. Dil bədən üzvlərimizin arasında haqsızlıq dünyasıdır. O, bütün bədənimizi ləkələyir və özü cəhənnəmdən odlandırıldığı kimi, həyatımızın gedişatını da odlandırır... Alqış və lənət eyni ağızdan çıxmamalıdır. Bir bulağın eyni gözündən şirin və acı su çıxarmı?»; **and içmək haqqında**: «Hər şeydən əvvəl, qardaşlarım, nə göyə, nə yerə, nə də başqa bir şeyə and için. Qoy sizdə «bəli»niz bəli, «xeyr»iniz xeyr olsun ki, mühakiməyə düşməyəsiniz»; **xəstələr haqqında**: «Aranızda xəstə olan varmı? Qoy imanlılar cəmiyyətinin ağsaqqallarını çağırtdırsın. Onlar da Rəbbin adına onu yağla məsh edərək dua etsinlər. İmanla edilən dua xəstəni sağaldacaq və Rəbb onu ayağa qaldıracaq. Əgər o adam günah edibsə, bağışlanacaq»; **tövbə və dua haqqında**: «Günahlarınızı bir-birinizə etiraf edin və bir-biriniz üçün dua edin ki, sağalasınız. Saleh adamın duası çox güclü və təsirlidir»; **azmışlara məhəbbət haqqında**: «Qardaşlarım, əgər aranızdan biri haqq yolundan



azar və kimsə onu doğru yola qaytararsa, qoy bilsin ki, günahkarı azdığı yolundan qaytaran onun canını ölümdən xilas edər və bir çox günahın üstünü örtər».

*YAQUBUN MƏKTUBU 1:11–12, 19–20, 22; 2:17, 26; 3:5, 11–12; 5:12, 14–16, 19–20*



## Həvari Peterin iki məktubu

İsa Məsihin on iki həvarisindən olan Peter Kiçik Asiyadakı imanlılar cəmiyyətlərinə iki məktub yazmışdı. Fərz olunur ki, Peterin Birinci Məktubu məsihçilərin qəddarcasına təqib olunması, onlara əzab verilməsi və öldürülməsi, imperator Neronun hakimiyyəti dövründə yazılıb. O, Roma imperiyasında məsihçiliyi məhv etmək istəyirdi. Həvari Peter Məsihdə bacı-qardaşlarını ruhlandırmaq istəyərkən yazır:

«Ata-babalarınızdan irs olaraq aldığınız puç həyat tərzindən qızıl, ya gümüş kimi fani şeylərlə deyil, qüsursuz və ləkəsiz quzuya bənzəyən Məsihin qiymətli qanı bahasına satın alınmısınız... Bütün bəşər ota bənzər, onun bütün gözəlliyi çöl çiçəyi kimidir. Ot quruyar, çiçək tökülər, amma Rəbbin Sözü əbədi qalar. Sizə vəz olunan Müjdə sözü budur.

Sevimlilər, sizə yalvarıram, cana qarşı mübarizə aparan cismani ehtiraslardan uzaqlaşın... İsa, bədəni çarmıxa çəkilərək bizim günahlarımızı Öz üzərinə götürdü ki, biz günaha münasibətdə ölüb salehlik üçün yaşayaq. Onun yaraları ilə siz şəfa tapdınız. Hamınız qoyun kimi yolunuzu azmışdınız, indi isə canınızın Çobanına və Nəzarətçisinə tərəf döndünüz.

Pisliyə pisliklə, söyüşə də söyüşlə cavab verməyin, əksinə, xeyir-dua verin, çünki bunun üçün çağırılmısınız ki, xeyir-duaları irs olaraq alasınız... Məsihi Rəbb kimi ürəyinizdə müqəddəs tutun.

Saleh olan Məsih saleh olmayanlar uğrunda, onların günahları üçün bir dəfə əzab çəkdi ki, sizi Allahın hüzuruna gətirsin... Məsihin adına görə təhqir olunsanız, siz nə bəxtiyarsınız! Allahın izzətli Ruhu üzərinizdə qalır... Heç biriniz qatil, oğru, ya başqa cür cinayətkar kimi, yaxud başqalarının işinə qarışan şəxs kimi əzab çəkməsin. Amma bir insan məsihçi kimi əzab çəkirsə, qoy bundan utanmasın, bu adı daşıyaraq Allahı izzətləndirsin».

Məlumatlara görə, Peter ölümə məhkum olunmuşdu. Həvarinin xahişi ilə onu başı aşağı halda çarmıxa çəkdilər, çünki o, özünü Rəbb İsa Məsih kimi çarmıxa çəkilməyə layiq bilmədi.

*PETERİN 1-ci MƏKTUBU 1:18–19, 24–25; 2:11–12, 24–25; 3:9, 15, 18; 4:14–16*



## Həvari Yəhyanın üç məktubu

Qədim şəhadətlərə və ilahiyyatçıların rəylərinə görə, bu üç məktubu həvari və müjdəçi Yəhya yazıb. Yəhyanın bəhs etdiyi Müjdədə də, onun üç məktubunda da əsas mövzu məhəbbətdir.

Yəhyanın Birinci Məktubu məhəbbət, Allahla həyat, sevinc, imanın zəfərli qüvvəti, həyatın mənası barədə danışır. Bu məktubdan bəzi nəsihətlər bunlardır: **nurda olmaq barədə**: «Allah nurda olduğu kimi biz də nurda gəziriksə, onda bir-birimizlə şərikliyimiz var və Onun Oğlu İsanın qanı bizi hər günahdan təmizləyir. Kim nurda olduğunu deyir, amma qardaşına nifrət edirsə, hələ də qaranlıqdadır»; **dünyaya münasibət haqqında**: «Dünyanı və dünyada olan şeyləri sevməyin. Kim dünyanı sevirsə, onda Atadan olan məhəbbət yoxdur, çünki dünyada olan hər şey – cismani ehtiraslar, acgözlük və dünya malına görə təkəbbür Atadan yox, dünyadan gəlir. Dünya və ondakı ehtiraslar keçib-gedir, amma Allahın iradəsinə əməl edən əbədi qalır»; **Məsihin əleyhdarı haqqında**: «Yalançı kimdir? İsanın Məsih olduğunu inkar edən şəxs! O, Atanı və Oğulu inkar edən Məsih əleyhdarıdır. Oğulu inkar edən hər kəs Ataya da malik deyil, lakin Oğulu iqrar edən kəs Ataya da malikdir»; **Xilaskar İsa haqqında**: «Siz bilirsiniz ki, Məsih günahları aradan qaldırmaq üçün zühur etdi. Onda günah yoxdur. Onda qalan hər kəs günahını davam etdirməz. Günahını davam etdirən hər kəs nə Onu görüb, nə də Onu tanıyır»; **məhəbbət haqqında**: «Allahın bizə olan məhəbbəti belə zahir oldu: Allah Öz vahid Oğlunu dünyaya göndərdi ki, biz Onun vasitəsilə yaşayaq. Biz Allahın bizə olan məhəbbətini anlayıb buna inandıq. Allah məhəbbətdir. Kim məhəbbətdə qalarsa, Allahda qalar, Allah da onda qalar. Biz sevirik, çünki öncə O, bizi sevdi»; **yalançı peyğəmbərlər haqqında**: «İsanın Məsih olduğuna inanan hər kəs Allahdan doğulub. Allahı sevən Ondan doğulanı da sevir. Allahın övladlarını sevdiyimizi bundan anlayırıq ki, Allahı sevib Onun əmrlərinə əməl edirik, çünki Allahın məhəbbəti Onun əmrlərinə riayət etməyimizi tələb edir. Onun əmrləri isə ağır deyil»; **əbədi həyat haqqında**: «Bunları sizə – Allahın Oğlunun adına iman edənlərə yazdım ki, əbədi həyata malik olduğunuzu biləsiniz».

*YƏHYANIN 1-ci MƏKTUBU 1:7; 2:9, 15–17, 22–23; 3:5–6; 4:2–3, 9, 16, 19; 5:1–3, 13*



## Yəhudanın Məktubu

Məlumata görə, bu məktubu İsa Məsihin qardaşı Yəhuda yazıb *(Matta 13:55)*.

Yəhuda məsihçilərə «əmanət edilən iman uğrunda mübarizə aparmağı» tövsiyə edir. Əhdi-Ətiqdən misallar gətirərək, Yəhuda imanlılara günahkarların işlərini yamsılamamağı məsləhət görür: «Bütün bunları bildiyiniz halda sizə xatırlatmaq istəyirəm ki, xalqı Misirdən xilas edən Rəbb sonra iman etməyənləri məhv etdi. Öz başçılıqlarını saxlamayan, məskunlaşdığı yerləri tərk edən mələkləri də böyük qiyamət günü üçün əbədi zəncirlərlə bağlayaraq zülmətdə saxlamışdı. Sodom, Homorra və ətrafdakı şəhərlər də özlərini buna bənzər tərzdə cinsi əxlaqsızlığa və qeyri-təbii münasibətlərə təslim etdilər; sonra bu şəhərlər əbədi odla yandırılma cəzasını çəkərək bir nümunə oldu. Eyni şəkildə aranıza girən bu röya görənlər də öz cismini murdar edir, ağalığı rədd edir, ehtişamlı varlıqlara şər atırlar. Bu adamlar başa düşmədikləri hər şeyə şər atırlar. Onlar dərrakəsiz heyvanlar kimi qeyri-iradi surətdə nə anlayırlarsa, bunlarla məhv olurlar».

Bu allahsız həyat tərzinə əks olaraq, müəllif imana uyğun yaşamağı nəsihət edir: «Siz isə, ey sevimlilər, Rəbbimiz İsa Məsihin həvarilərinin əvvəlcədən söylədikləri sözləri xatırlayın. Şübhə edən adamlara qarşı mərhəmətli olun; başqalarını oddan qaparaq xilas edin; digərlərinə isə mərhəmət edin. Amma qorxu içində cismin ləkələdiyi paltardan belə, çəkinin».

Məktub Allaha gözəl həmd sözləri ilə bitir: «Sizi büdrəməkdən qoruyub Öz izzətli hüzuruna böyük sevinclə nöqsansız çıxarmağa qadir olan Xilaskarımız, yeganə Allaha Rəbbimiz İsa Məsih vasitəsilə əzəldən bəri, indi və əbədi olaraq izzət, əzəmət, qüdrət və səlahiyyət olsun! Amin».





## Həvari Paulun məktubları

Əhdi-Cədidə həvari Paulun Roma, Korinf, Efes, Filipi, Kolosse, Salonik şəhərlərində və Qalatiya vilayətində yaşayan məsihçilərə 13 məktubu daxildir. Bu məktubların bəziləri Paulun tərəfdarları Timoteyə, Titə və Filimona ünvanlanmışdı. Ənənəyə görə, İbranilərə Məktubun da Paul tərəfindən yazıldığı zənn edilir.

Həvari Paulun məktubları Əhdi-Cədidin dörddə bir hissəsini təşkil edir. Həvarinin məktublarında olan bütün məzmunun zənginliyini bir neçə səhifədə vermək mümkün deyil. Bu kitabda biz həvari Paulun bir neçə məktubundan hissələr verəcəyik.

### MƏHƏBBƏT

Müqəddəs Kitab öyrədir: «Allah məhəbbətdir».

Korinflilərə Birinci Məktubda həvari Paul yazır:

«Əgər mən insan və mələk dilləri ilə danışıramsa, lakin məhəbbətim yoxdursa, cingildəyən mis və ya danqıldayan sincəm.

Əgər peyğəmbərlik ənamım varsa, bütün sirləri və hər cür biliyi dərk edirəmsə, dağları yerindən tərpədəcək dərəcədə tam imanım varsa, amma məhəbbətim yoxdursa, mən bir heçəm.

Əgər bütün var-dövlətimi paylayıb yoxsulları doyduraramsa və bədənimi oda təslim edərəmsə, lakin məhəbbətim yoxdursa, bunun mənə heç bir xeyri yoxdur...».

Məhəbbət İsa Məsihin təliminin əsasıdır. İsa deyib: «“Allahın Rəbbi bütün qəlbinlə, bütün varlığınla və bütün düşüncənlə sev”. Bu, böyük və əsas əmrdir. Buna bənzəyən ikincisi budur: “Qonşunu özün kimi sev”. Bütün Qanun və Peyğəmbərlərin sözləri bu iki əmrə əsaslanır» *(Matta 22:37–40).*



Allahın məhəbbəti haqqında İsanın sözləri budur: «Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun» *(Yəhya 3:16).*



## «Cismani təbiətin əməlləri və Müqəddəs Ruhun səmərəsi»

Rəbb İsa Öz şagirdlərinə dedi: «Meynə Mənəm, sizsə budaqlarsınız. Kim Məndə qalsa, Mən də onda qalsam, çoxlu bəhrə verər, çünki Mənsiz heç nə edə bilməzsiniz». Dağüstü vəzdə İsa belə bir misal gətirir: «Yalançı peyğəmbərlərdən özünüzü gözləyin! Onlar yanınıza quzu cildində gələrlər, amma daxilən yırtıcı qurddurlar. Onları bəhrələrindən tanıyacaqsınız. Qaratikandan üzüm, yaxud qanqaldan əncir yığılarmı? Beləcə, hər yaxşı ağac yaxşı bəhrə, pis ağac isə pis bəhrə verər».

Həvari Paul Qalatiyalılara cismani təbiətin əməlləri və Müqəddəs Ruhun səmərəsindən belə yazır: «Cismani təbiətin əməlləri isə bəllidir. Bunlar cinsi əxlaqsızlıq, murdarlıq, pozğunluq, bütpərəstlik, sehrbazlıq, düşmənçilik, münaqişə, qısqanclıq, hiddət, özünü göstərmə, nifaq, təfriqələr, paxıllıq, sərxoşluq, eyş-işrət və buna bənzər şeylərdir. Sizə əvvəllər xəbərdarlıq etdiyim kimi indi də xəbərdarlıq edirəm ki, bunları edənlər Allahın Padşahlığını irs almayacaqlar. Müqəddəs Ruhun səmərəsi isə budur: məhəbbət, sevinc, sülh, səbir, xeyirxahlıq, yaxşılıq, sədaqət, həlimlik, nəfsə hakim olmaq. Bu kimi şeylərə qarşı qanun yoxdur».

*YƏHYA 15:5–6; MATTA 7:15–17;*
*QALATİYALILARA MƏKTUB 5:19–23*





# Gənc Timotey

Paul öz ikinci müjdəçilik səyahətində Listra və Derbeyə çatanda Timotey adlı gənc məsihçiyə rast gəldi. Anası Evniki Məsihə iman edən Yəhudi, atası isə Yunan idi. Nənəsi Lois də məsihçi idi. Luka kimi, Timotey də Paulun daimi yol yoldaşı





oldu. O, həvari Paul ilə Makedoniyada, Yunanıstanda, Kiçik Asiyada və hətta Romada olmuşdu. Məlumata görə, Paulun Romada edam edilməsindən sonra Timotey Efesdə böyük imanlılar cəmiyyətinin başçısı oldu. O, Roma imperatorlarının birinin hakimiyyəti dövründə məsihçilərin təqibi zamanı öldürüldü.

Həvari Paul Timoteyə iki məktub yazmışdı. Bu məktublardan məşhur fikirlər bunlardır: **dua haqqında**: «Hər şeydən əvvəl xahiş edirəm: möminlik və ləyaqətlə sakit və rahat ömür sürməyimiz üçün bütün insanlar, o cümlədən, padşahlar və hakimiyyət sahibi olanların hamısı üçün yalvarış, dua, vəsatət və şükürlər edilsin, çünki bu, yaxşıdır və Xilaskarımız Allahı razı salır»; **yalançı təlimlər haqqında**: «Ruh aydın şəkildə deyir ki, gələcəkdə bəziləri imandan dönəcək, aldadıcı ruhlara və cinlərin təlimlərinə qulaq asacaqlar»; **pulpərəstlik haqqında**: «Hər cür pisliyin kökü pulpərəstlikdir. Kimlərsə bu həvəslə imandan azıb öz-özlərinə sanki bıçaq soxmuş kimi çox əzab verdilər. Sən isə, ey Allah adamı, bu şeylərdən qaç. Salehliyin, möminliyin, imanın, məhəbbətin, dözümün, həlimliyin ardınca get»; **iman uğrunda fədakarlıq haqqında**: «İman uğrunda yaxşı mübarizə apar. Əbədi həyatı bərk tut; bunun üçün çağırıldın və yaxşı əqidəni bir çox şahid qarşısında iqrar etdin»; **Allaha həqiqi xidmət haqqında**: «Mömin olmaq üçün özünü yetişdir. Amma sözdə, həyat tərzində, məhəbbətdə, imanda, paklıqda imanlılara nümunə ol. Müqəddəs Yazıları hamıya oxumaqla, nəsihət verməklə, təlim verməklə məşğul ol».

Paul Timoteyə İkinci Məktubu yazanda zindanda olduğu və edamını gözlədiyi zənn edilir: «Mən yaxşı mübarizə aparmışam; yolumu sona çatdırdım, imanı saxladım. İndi salehlik tacı mənim üçün hazır durur. Ədalətli Hakim olan Rəbb qiyamət günü onu mənə, yalnız mənə deyil, Onun zühuruna can atanların hamısına verəcək».

*TİMOTEYƏ 1-ci və 2-ci MƏKTUB*

## «Rəbb bir, iman bir, vəftiz bir...»
## Məktublardan ayələr

Hamı günah edib, Allahın izzətindən məhrum olublar *(Romalılara 3:23)*.

Günahın əvəzi ölümdür, Allahın ənamı isə Rəbbimiz Məsih İsada olan əbədi həyatdır *(Romalılara 6:23)*.

Bir Allah və Allahla insanlar arasında bir Vasitəçi vardır. O, İnsan olan Məsih İsadır *(Timoteyə 1-ci Məktub 2:5)*.

Məsih günahlarımız üçün öldü *(Korinflilərə 1-ci Məktub 15:3)*.

İsanın Rəbb olduğunu dilinlə iqrar edib Allahın Onu ölülər arasından diriltdiyinə ürəkdən inansan, xilas olacaqsan *(Romalılara 10:9)*.

Çarmıx barəsindəki kəlam məhv yolunda olanlar üçün ağılsızlıq, xilas yolunda olan bizlər üçünsə Allahın qüdrətidir *(Korinflilərə 1-ci Məktub 1:18)*.

Ayıq olun, imanda sabit durun, mərd və möhkəm olun *(Korinflilərə 1-ci Məktub 16:13)*.

Mən Müjdədən utanmıram, çünki o, iman edən hər kəsin xilası üçün Allahın qüdrətidir *(Romalılara 1:16)*.

Aldanmayın: Allaha istehza edilməz, çünki insan nəyi əkərsə, onu da biçəcək *(Qalatiyalılara 6:7)*.

Hər birimiz bu bədəndə olanda etdiyimiz əməllər pis də olsa, yaxşı da olsa, onların əvəzini almaq üçün Məsihin hökm kürsüsü önünə çıxmalıyıq *(Korinflilərə 2-ci Məktub 5:10)*.

Beləcə, hər birimiz özü üçün Allaha hesabat verəcək *(Romalılara 14:12)*.

Bu gün əgər Onun səsini eşitsəniz, qoy ürəkləriniz üsyan vaxtı olduğu kimi inadkar olmasın *(İbranilərə 3:15)*.

Rəbb bir, iman bir, vəftiz bir *(Efeslilərə 4:5)*.





## Həvari Yəhyanın Vəhyi

Bizim yaşadığımız torpaq əbədi mövcud olmayacaq. Müqəddəs Kitabın bir çox yerində son zamanlar haqqındakı peyğəmbərlikləri oxumaq olar. Müqəddəs Kitab həvari Yəhya tərəfindən yazılan Vəhy ilə tamamlanır.

Yəhya İsa Məsihin on iki həvarisindən biri idi. Məlumata görə, Yəhyadan başqa bütün həvarilər qətlə yetirildilər. Yəhya da Məsih uğrunda əziyyət çəkdi. O, Patmos adasına sürgün edildi. Orada Rəbb ona zühur edib dedi: «Gördüyünü bir kitaba yaz və bunu yeddi imanlılar cəmiyyətinə göndər... Birinci və Sonuncu Olan, Diri Olan Mənəm!» *(Vəhy 1:11, 17–18)*

Vəhy Kitabında son günlər haqqında peyğəmbərliklər rəmzlər vasitəsilə çatdırılır: yeddi cəmiyyətə məktub, yeddi möhür, dörd atlı, yeddi şeypur, Allahın hiddətinin yeddi nimçəsi, həyat kitabı, iblisin 666 rəqəmi, bədnam Babil, on buynuzlu və yeddi başlı vəhşi heyvan, Məsihin min illik padşahlığı, Yeni Yerusəlim, qiymətli daşlar, həyat ağacı...

Vəhy Kitabı anlaşılmaz sirlərlə doludur. Amma bir şey tam aydındır: Rəbb İsa Məsih yenidən yer üzünə gələcək və dünyanı məhkum edəcək. Onun ikinci gəlişini ilk məsihçilər gözləyirdi, biz də onu gözləyirik.

Vəhy Kitabına o dövrdə mövcud olan yeddi imanlılar cəmiyyətinə yazılmış məktublar daxildir. Fəqət bu məktublar həm bütün məsihçi cəmiyyətlərinə, həm də şəxsən hər birimizə aiddir.





## «Qapının önündə durub onu döyürəm»

Vəhy Kitabında həvari Yəhya İsa Məsihin sözlərini açıqlayır: «Sənin əməllərindən xəbərdaram. Sən nə soyuqsan, nə də isti. Kaş ki ya soyuq, ya da isti olaydın! İndi ki nə isti, nə də soyuq olub ılıqsan, səni ağzımdan qaytaracağam, çünki deyirsən: "Varlıyam, zəngin olmuşam və heç nəyə möhtac deyiləm". Amma zəlil, yazıq, yoxsul, kor və çılpaq olduğunu bilmirsən. Sənə məsləhət görürəm ki, zəngin olmaq üçün Məndən od içində xalis olan qızıl alasan, həmçinin geyinib çılpaqlığının ayıbını açmamaq üçün ağ paltar alasan, gözlərinə sürtüb görmək üçün də göz məlhəmi alasan. Mən kimi sevirəm, onu məzəmmət və tərbiyə edirəm. Buna görə də qeyrətə gəl və tövbə et.

Qapının önündə durub onu döyürəm; kim səsimi eşidib qapını açsa, onun yanına gələcəyəm və Mən onunla, o da Mənimlə birgə şam edəcəyik.

Qalib gələnə Mənimlə birgə Öz taxtımda oturmağa imkan verəcəyəm; Mən də eləcə qalib gəlib Atamla birgə Onun taxtında oturmuşam».

*VƏHY 3:14—22*





## «Yeni göy və yeni yer»

Vəhy Kitabının bir neçə son fəsli son məhkəmənin, yeni göy və yeni yerin rəmzi təsviridir.

«Böyük ağ taxt və onun üstündə Oturanı gördüm. Yer və göy Onun önündən qaçdı və onlara yer tapılmadı. Mən gördüm ki, böyükdən kiçiyə qədər ölülər taxtın önündə dayanıb. Kitablar açıldı və həyat kitabı olan başqa bir kitab da açıldı. Ölülər kitablarda yazılanlara əsasən öz əməllərinə görə mühakimə olundu. Dəniz öz içində olan ölüləri, ölüm və ölülər diyarı da öz qoynunda olan ölüləri təslim etdi. Hər biri öz əməlinə görə mühakimə olundu.

Mən yeni bir göy və yeni bir yer gördüm, çünki əvvəlki yerlə əvvəlki göy keçib getmişdi, dəniz də artıq yox idi. Mən müqəddəs şəhərin – yeni Yerusəlimin göydən, Allahın yanından endiyini gördüm. Şəhər öz bəyi üçün bəzədilmiş gəlin kimi hazırlanmışdı. Taxtdan uca bir səs eşitdim: „Budur, Allahın məskəni insanların arasındadır. Allah onlarla birgə məskən salacaq; onlar Onun xalqı olacaq, Allah Özü onların Allahı olaraq aralarında yaşayacaq. Allah onların bütün göz yaşlarını siləcək. Artıq ölüm olmayacaq. Yas, nalə və ağrı bir daha olmayacaq, çünki əvvəlki şeylər keçib getdi“».

Taxtda Oturan dedi: «Budur, Mən hər şeyi yenidən qururam». Yenə dedi: «Yaz, çünki bu sözlər etibarlı və həqiqidir». O, mənə dedi: «Tamam oldu! Alfa və Omeqa*, Başlanğıc və Axır Mənəm. Mən susayana həyat suyunun qaynağından müftə su verəcəyəm. Qalib gələn bunları irs alacaq; Mən ona Allah, o isə Mənə oğul olacaq. Qorxaqların, imansızların, iyrənclərin, qatillərin, əxlaqsızların, sehrbazların, bütpərəstlərin və bütün yalançıların aqibəti isə od və kükürdlə yanan göldə olacaq; bu, ikinci ölümdür».



Şəhərin işıqlanması üçün nə günəşə, nə də aya ehtiyacı var, çünki Allahın ehtişamı oranı işıqlandırır, Quzu da oranın çırağıdır. Oraya murdar olan heç bir şey, iyrənc iş görən və yalan danışan heç kim əsla girməyəcək, yalnız adları Quzunun həyat kitabına yazılanlar girəcək.

*VƏHY 20:11–13; 21:1–8, 23, 27*



## Müqəddəs Kitabın son səhifəsi

Müqəddəs Yazılar Allahın Oğlu İsa Məsihin ikinci gəlişi haqqında peyğəmbərliklə bitir. Müqəddəs Kitabın son səhifəsini oxuyaq:

«Mələk dedi: "Bu kitabın peyğəmbərlik sözlərini möhürləmə, çünki vaxt yaxındır. Haqsızlıq edən qoy daha da haqsızlıq etsin. Murdar olan daha da murdarlansın. Saleh olansa qoy daha da saleh işlər görsün. Müqəddəs olan daha da müqəddəs olsun».

İsa deyir: «Budur, tezliklə gəlirəm. Verəcəyim mükafat Məni mlədir və hər kəsə öz əməlinə görə əvəz verəcəyəm. Alfa və Omeqa, Birinci və Sonuncu, Başlanğıc və Axır Mənəm!»

Xalatlarını günahdan təmizləyənlər nə bəxtiyardır! Bununla da həyat ağacından yeməyə icazələri olacaq, darvazalardan keçib şəhərə girəcəklər. İt kimi murdarlar, sehrbazlar, əxlaqsızlar, qatillər, bütpərəstlər və yalanı sevib danışan hər kəssə kənarda qalacaq.

«Mən İsa Öz mələyimi göndərdim ki, cəmiyyətlərə aid olan bu şəhadəti sizə versin. Mən Davudun Kökü və Nəsli, parlaq Dan Ulduzuyam».

Ruh da, gəlin də deyir: «Gəl!» Qoy eşidən də desin: «Gəl!» Susayan qoy gəlsin, arzu edən həyat suyunu müftə götürsün.

Mən bu kitabın peyğəmbərlik sözlərini eşidən hər kəsə xəbərdarlıq edirəm: kim bunlara bir şey artırarsa, Allah da ona bu kitabda yazılan bəlaları artıracaq. Kim bu peyğəmbərlik kitabının sözlərindən bir şey götürərsə, Allah da bu kitabda yazılmış həyat ağacından və müqəddəs şəhərdən ona düşən payı götürəcək. Bunlara şəhadət edən deyir: «Bəli, tezliklə gəlirəm!» Amin.

Gəl, ya Rəbb İsa! Rəbb İsanın lütfü hamıya yar olsun! Amin!

*VƏHY 22:10–21*





# ƏLAVƏLƏR

# Lüğət

**Alfa və Omeqa** – yunan əlifbasında birinci və axırıncı hərflərin adı. Bəzən «Başlanğıc» və «Son» mənasında da işlənir.

**Ali Şura** – o dövrdə Ali Məhkəmə idi.

**Amin** – qədim yəhudi dilindən tərcümədə «həqiqətən, qoy belə olsun» deməkdir.

**Areopaq** – yəni, qədim Afinada ali məşvərət.

**Artemida** – qədim Yunanlarda Ay və məhsuldarlıq ilahəsi. Artemidanın pərəstişkarları Efesdəki məbəd ilə fəxr edirdilər.

**Asiya** – o dövrdə Roma imperatorluğunun bir əyaləti idi. İndiki Türkiyə ərazisində yerləşirdi. Mərkəzi Efes şəhəri idi.

**Baal** – «ağa», yaxud «ər» mənasında olub, Kənanlıların məhsuldarlıq, himayədarlıq və fırtına tanrısına verdikləri addır. Bu tanrının bütü də belə adlanırdı.

**Babil** – qədim Babilistan imperatorluğunun paytaxtı.

**Baş kahin** – Yəhudi ruhanilərinin rəhbəri.

**Bəşər Oğlu** – Əhdi-Ətiqdə Məsihə, yəni Xilaskara verilən adlardan biridir.

**Cin** – Şeytana xidmət edən, insanlara ziyan vuran natəmiz və şər ruh.

**Çarmıx** – Roma imperatorluğunda cinayətkarlara tətbiq olunan cəza və edam aləti. Ölümə məhkum olunan adamın əlləri və ayaqları çarmıxa mıxlanırdı və beləcə əzab çəkərək ölürdü.

**Dinar** – Roma gümüş pulu.

**Efod** – kahinlərin ibadət zamanı geyindikləri, kətandan olan bir üst geyimi.

**Epikürçü** – qədim yunan filosofu Epikürün ardıcılları. Onların fikrincə, həyatın mənası həzz və bəxtiyarlıq içində yaşamaqdan ibarətdir.

**Fariseylər** – dini qanunların zahiri tərəflərinə və mərasimlərə böyük əhəmiyyət verən dindarlar.
**İlahi** – «Allaha həmd mahnısı» deməkdir.
**İsrail** – İbrani dilində «Allahla güləşən».
**Hosanna** – İbrani dilində «xilas et». İsraildə adətən padşahları belə salamlayırdılar.
**Kahin** – Allahla insan arasında vasitəçi sayılırdı. Daha sonra Hüzur çadırında, məbəddə ibadət və qurban mərasimlərini icra edən, Levi qəbiləsindən, Harun nəslindən olan din xadimi.
**Keruv** – qanadlı fövqəltəbii varlıq, Allaha xidmət edən mələk, yaxud onların heykəli.
**Kündür** – Saqqız ağacının qabığından hazırlanan xoşiyli sarımtıl maddə.
**Levililər** – İsraillilərin on iki qəbiləsindən biri, Yaqubun oğlu Levinin nəsli. İbadət mərasimlərini aparan kahinlər bu qəbilədən idilər.
**Manna** – Misirdən çıxmış Israilliləri yedirmək üçün qırx il ərzində Allahın göydən yağdırdığı yemək.
**Massa** – İbrani dilində «sınamaq».
**Meriva** – İbrani dilində «münaqişə».
**Mirra** – Ərəbistanda və Efiopiyada bitən mirra ağacından çıxan xoş ətirli qatran. Ətir və dərman kimi istifadə olunur.
**Musa** – İbrani dilində «çıxaran». Sonralar Musa öz xalqını Misirdən və köləlikdən çıxartdı.
**Musanın Qanunu** – Allahın Musa peyğəmbərə verdiyi ruhani, əxlaq və davranış qanunları məcəlləsi. Tövrat adı ilə də tanınır.
**Məbəd** – İsraillilərin ibadət ayinlərinin və mərasimlərinin icra olunduğu müqəddəs bina. Məbəddə Allah insanlarla ünsiyyətdə idi.



**Məsh etmək** – başına zeytun yağı tökmə mərasimi.
**Məsih** – məsh edilmiş şəxs, Yəhudilərin zühur edəcəyinə inandıqları Xilaskar. Əhdi-Cədiddə insanları günahlarından xilas edən İsanın Məsih olduğu bildirilir.
**Məsihçi** – İsa Məsihə iman edərək Onun ardınca gedənlər.
**Məzmur** – ruhani məzmunlu nəğmə.
**Müjdə** – Xoş Xəbər.
**Müqəddəs Ruh** – Allahın Ruhu, Allahın Üç Simasından Biri. Onun vəzifəsi Allahı insanlara zahir etmək, imanlıların qəlbində yaşamaq və onları müqəddəsliyə çatdırmaqdır.
**Müqəddəs Yazılar** – Tövrat, Zəbur və Peyğəmbərlərin Yazılarından ibarət olan Əhdi-Ətiq. Sonradan bunlara Əhdi-Cədid də əlavə olundu.
**Qeysər** – Roma imperatoru.
**Qurban** – Allaha təqdim olunan bəxşiş.
**Qurbangah** – ibadət zamanı üstündə qurban və təqdimlərin verildiyi tikili.
**Roma vətəndaşı** – Roma imperatorluğunun hüquqi vətəndaşlığını almış şəxs. Əvvəllər yalnız Roma şəhəri sakinlərinə, sonralar isə Roma imperatorluğunun hüdudlarında yaşayan bəzi adamlara da verilirdi. Roma vətəndaşlığı almış şəxslər bir sıra imtiyazlara, o cümlədən, toxunulmazlıq hüququna malik olurdular.
**Səcdəgah** – İsraillilərin yüksəkliklərdə qurduqları ibadət yerləri. Bəzən bu yerlərdə bütpərəstlik ayinləri də icra edilirdi.
**Stoist** – miladdan əvvəl IV–III əsrlərdə yaşamış Yunan filosofu Kitionlu Zenonun təsis etdiyi fəlsəfi məktəbin ardıcılları. İfrat emosiyalardan uzaq olaraq təbiətlə həmahəng yaşamağı təbliğ edirdilər.
**Sünnət** – Allahın İsrail xalqı ilə bağladığı əhdin rəmzi. Yəhudilərdə sünnət əcdadları İbrahimdən qalma bir adətdir.

**Şənbə günü** – Allah tərəfindən təsis olunmuş istirahət və ibadət günü. Musanın Qanununa görə, həmin gün hər cür iş, o cümlədən, məişət və sənət işləri ilə məşğul olmaq qadağan idi.

**Tabita** – «ceyran» deməkdir.

**Talant** – təqribən 30 kiloqram gümüşə bərabər ən böyük pul vahidi.

**Təqdis** – Allaha həsr etmək.

**Vergiyığanlar** – Roma hökmranlığı zamanı işğalçılar üçün vergi yığmaq işinə Yəhudilər arasından razılıq verən adamlar. Yəhudilər bu adamları xain və fırıldaqçı adlandıraraq onlara nifrət edirdilər.

**Vəftiz** – yunan dilində «suya batırılma» mənasında olub, günahdan tövbəni və ruhani dirçəlişi göstərən suya salınma, yaxud su səpilmə mərasimidir.

**Vəhy** – Allahın peyğəmbərlərə göndərdiyi xəbər. Bəzən söz, bəzən də görüntü şəklində Allah Öz iradəsini seçdiyi adamlara bildirir.

**Yeni Əhd** – İsa Məsihin insanların günahının bağışlanması üçün tökülmüş qanı vasitəsilə Allahın insanlarla bağladığı əhd. Bu əhdə görə İsa Məsihin qurbanına iman gətirən hər kəs xilas olur.

**Yəhudeya** – Roma işğalından sonra Yəhuda padşahlığı ərazisində yaradılmış əyalət.



Horace Knowles © The British & Foreign Bible Society 1954,1967,1972



Horace Knowles © The British & Foreign Bible Society 1954,1967,1972




Horace Knowles © The British & Foreign Bible Society 1954,1967,1972




Horace Knowles © The British & Foreign Bible Society 1954, 1967, 1972



İsa Məsihin
dövründə
Roma imperiyası
BRITANIYA
ALMANIYA
QALLIYA
ALANLAR
Xəzər dənizi
DAKIYA
Qara dəniz
ARMENIYA
İTALIYA
İSPANIYA
FRAKIYA
MAKEDONIYA
Bizans
QALATIYA
Roma
ASIYA
YUNANISTAN
Tarsus
Antakya
Efes
Korinf
Afina
KIPR
Aralıq dənizi
Dəməşq
Sur
SISILIYA
Karfagen
YƏHUDEYA
MAVRITANIYA
KRIT
Yerusəlim
Kirena
İsgəndəriyyə
AFRIKA
MISIR
Nil çayı
Qırmızı dəniz
Roma imperiyasının sərhədi
0 200 400 800
km
© UBS,1994




© UBS, 1994







© UBS, 1994





Müqəddəs Torpağın şəkilləri altındakı imzalar
YERUSƏLİM. ZEYTUN DAĞINDAN GÖRÜNÜŞÜ (şərqdən)
Süleymanın məbədi olan yer. Hal-hazırda burada Ömər məscididir.



YERUSƏLİM VƏ ZEYTUN DAĞI
*İsa Yerusəlimə yaxınlaşanda ona baxıb şəhər üçün ağladı.*
(Luka 19:41)



SİNA DAĞI
*Rəbb Sina dağı üzərinə, dağın başına endi və Musanı dağın başına çağırdı. Musa oraya qalxdı.* (Çıxış 19:20)



DUZ DƏNİZİ
*Bu son beş padşah indi Duz dənizi adlanan Siddim vadisində öz qoşunlarını birləşdirdi.* (Yaradılış 14:3)



TAVOR DAĞI
*Sən şimalı, cənubu yaratmısan, Tavor və Xermon adına mədh oxuyur.*
(Zəbur 89:12)



*BET-LEXEM*
*Ey Yəhuda torpağındakı Bet-Lexem, sən Yəhuda hökmdarları arasında ən kiçik deyilsən, çünki xalqım İsrailə çoban olan Hökmdar səndən çıxacaq.*
(Matta 2:6)



NAZARET
*Elizavetin hamiləliyinin altıncı ayında mələk Cəbrayıl Allah tərəfindən Qalileyadakı Nazaret adlanan şəhərə, Davudun nəslindən olan Yusif adlı bir kişiyə nişanlanan bakirə qızın yanına göndərildi. Həmin qızın adı Məryəm idi.* (Luka 1:26-27)



İORDAN
*O vaxt İsa Yəhya tərəfindən vəftiz olmaq üçün Qalileyadan İordan çayına, Yəhyanın yanına gəldi.* (Matta 3:13)



KEFERNAHUM

*Nazaretdən çıxıb Zevulun və Naftali bölgəsində, Qalileya gölü kənarında yerləşən Kefernahumda məskən saldı.* (Matta 4:13)



YƏHUDEYADAN SAMARİYAYA YOL

*İsa bundan xəbər tutan kimi Yəhudeyanı tərk edib Qalileyaya qayıtdı. Onun yolu Samariyadan keçirdi.* (Yəhya 4:3-4)



QALİLEYANIN QANA KƏNDİ

*Bunun üçüncü günü Qalileyanın Qana kəndində toy oldu. İsanın anası orada idi.* (Yəhya 2:1)



GİNESAR GÖLÜ (QALİLEYA GÖLÜ)

*Bir gün İsa Ginesar gölünün sahilində dayanmışdı. İzdiham İsanı dövrəyə almışdı və Allahın kəlamına qulaq asırdı.* (Luka 5:1)



BET-ANYA

*Pasxadan altı gün əvvəl İsa Bet-Anyaya gəldi. İsanın ölülər arasından diriltdiyi Lazar da orada idi.* (Yəhya 12:1)



ROMA KOLİZEYİ

MƏSİHÇİLƏRİN ƏKSƏRİYYƏTİNİN ƏZABLI ÖLÜMÜ QƏBUL ETDİKLƏRİ YER

*Taxtları və onların üzərində oturanları da gördüm. Onlara hökm etmək ixtiyarı verildi. İsa barədə şəhadət və Allahın kəlamı uğrunda boynu vurulmuş canları da gördüm. Vəhşi heyvana və onun surətinə səcdə etməyib alınlarına və əllərinə damğanı qəbul etməmişdilər. Onlar dirilib Məsihlə birgə min il padşahlıq etdi.* (Vəhy 20:4)